AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ ELMLƏR AKADEMİYASI
A.BAKIXANOV adına TARİX İNSTİTUTU

UMUDLU VİDADİ UMUD OĞLU

# Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828)

BAKI-2004

**<u>MÜNDƏRİCAT</u>**

**Giriş**

**I Fəsil.** 1801-1806-cı illərdə Azərbaycan xalqının rus işğalçılarına qarşı mübarizəsi.
§ 1. Azərbaycan işğal ərəfəsində
§ 2. İşğalın başlanması və gedişində xalqın müstəmləkəçilərə qarşı mübarizəsi
§ 3. Kürəkçay müqavilələri. İşğalın əsas mərhələsinin başa çatdırılması

**II Fəsil.** 1806-1813-cü illərdə xalqın müstəmləkəçilik əleyhinə mübarizəsi. Gülüstan müqaviləsi.

**III Fəsil.** İki Rus-İran müharibəsi arasındakı dövrdə xalqın müstəmləkəçilik əleyhinə mübarizəsi.
§ 1. Xalq hərəkatının amansızcasına boğulması. Xalıq üsul idarəsinin lüğvi
§ 2. İnzibati amirlik, iqtisadi zülm və mənəvi terror. Azərbaycan yeni üsyanlar ərəfəsində

**IV Fəsil.** 1826-1828-ci illərdə Azərbaycan xalqının müstəmləkəçilik əleyhinə mübarizəsi.
§ 1. 1826-cı il üsyanları
§ 2. Yenidən işğal və onun nəticələri
§ 3. Naxçıvan və İrəvan xanlıqlarının işğalı. Azərbaycanın parçalanmasının başa çatması

Nəticə
Mənbələr və ədəbiyyat siyahısı

# GİRİŞ

Dünyada işğalı, müstəmləkəçiliyi təqdir edən, bu sistemdə yaşamağı könüllü qəbul edən xalq çətin ki, tapılsın. Əks təqdirdə bu həmin xalqın öz-özünü inkar etməsi olardı. Böyük Yaradan insanı azad yaratmış və təcəvüzkarlarla savaşmağı əmr etmişdir.

Məlum olduğu kimi 90-cı illərin əvvəlində keçmiş SSRİ dağılmış, digər 14 respublika kimi Azərbaycan da suveren dövlətə çevrilmişdir. Beləliklə 190 ildən artıq davam edən müstəmləkə sisteminə son qoyulmuş, XIX yüzilliyin əvvəllərində itirilən müstəqillik yenidən bərpa edilmişdir. Parlamentimizin 1991-ci ilin oktyabrında qəbul etdiyi müstəqillik aktında da bu fakt, yəni, Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğal olunması faktı bir daha təsbit edilmişdir. Milli dövlətçiliyimiz üçün əlamətdar olan bu aktın qəbulundan sonra Şimali Azərbaycan çar Rusiyası tərəfindən işğal olunması və müstəmləkəçilik əleyhinə mübarizə tarixinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb etmişdir.

Problemin həlli əvvəllər də zəruri olmuşdur. Lakin heç kəsə sirr deyil ki, həmin dövrdə problemin tam öyrənilməsi, tədqiqi qeyri-mümkün idi. Əgər bu 1917-ci ilin oktyabrına kimi mövcud hakimiyyətə qarşı çıxmaq idisə, Sovet hakimiyyəti dövründə də heç nə dəyişməmiş, problem təhrif olunmuş şəkildə işıqlandırılmışdır. Düzdür, həm rus həm də Azərbaycan tarixşunaslığında işğaldan və xalqın mübarizəsindən bəhs edən əsərlər var. Lakin bu əsərlər yalnız konkret bir hadisəni yaxud, dar bir çərçivəni əhatə edir.

Azərbaycanın Rusiya tərəfindən işğalı gah Azərbaycanın Rusiya ilə qovuşması – «könüllü birləşmə», gah «Azərbəycanın Rusiyanın tərkibinə daxil olması», ən yaxşı halda isə «Azərbaycanın Rusiyaya birləşdirilməsi» yönümündən tədqiq edilmişdir. Bu zaman işğalı və xalqın mübarizəsini əks etdirən bütün faktlar demək olar ki, gizlədilmiş, yaxud həmin faktlar tədqiqat əsərlərinə daxil edilmədən onlara Rusiya dövlətinin mənafeyi baxımından şərhlər verilmişdir. Nəticədə Şimali Azərbaycanın Rusiya tərəfindən işğal olunması və xalqımızın müstəmləkəçilik əleyhinə apardığı mübarizə tarixşünaslığımızda özünün həqiqi, obyektiv qiymətini tapmamış və tariximizin qaranlıq səhifələrindən birinə çevrilmişdir.

Əksər tarixçilər işğal ərəfəsində Azərbaycanda Rusiyaya qarşı təşəkkül tapan meyldən bəhs etmiş, bununla da işğal faktını danaraq xalqın apardığı mübarizəni də inkar etmişlər. Əslində isə din və şəriət hökmlərinin güclü olduğu həmin dövrdə Azərbaycanda belə meyl mövcud olmamış və ola da bilməzdi. Xalqın müsəlman olmayan işğalçılara meyl etməsinə və onun himayəsini könüllü qəbul etməsini iddia etmək çox gülüncdür. Burada başqa bir söz də tapmaq mümkün deyil. Digər tərəfdən tədqiqat işində istifadə olunan materiallar işğalın ən zorakı üsullarla həyata keçirildiyini, xalqın apardığı mübarizənin amansızcasına boğulduğunu bir daha təsdiq edir.

Problemin indiyə kimi hərtərəfli araşdırılmaması və bəzən belə problemin mövcud olmamasının təlqin edilməsi onun tədqiqini, geniş oxucu kütləsinə çatdırılmasını təxirə salınmaz bir vəzifə kimi qarşıya qoymuşdur. Ən əsası xalqımız üçün təhqir sayılan «Rusiyaya meyl», «könüllü birləşmə», «Azərbaycanın Rusiya tərkibində daha yaxşı inkişaf etməsi » kimi uydurma konsepsiyaların puçluğunu geniş oxucu kütləsinə çatdırmaq və Azərbaycan tarixində obyektivliyi bərpa etməkdir.

Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və xalqın mübarizəsi tarixi hərtərəfli tədqiq edilmədiyindən lazımınca işlənməmiş və problem tamamilə təhrif edilmişdir. Bu isə başqa mahiyyət kəsb etmişdir. Obyektivlik naminə qeyd edək ki, həm rus, həm də azərbaycan tarixşünaslığında işğalın müəyyən məqamları, xalqın mübarizəsi barədə bəzi faktları obyektivcəsinə təhlil edilmiş və lazımi qiymətini almışdır. Yalnız konkret bir hadisəni, yaxud müəyyən bir ərazini əhatə edən həmin əsərlər ümumi ruhuna baxmayaraq lazımınca qiymətləqdirilməlidir. Onlardan ardıcıllıqla bəhs ediləcəkdir.

Azərbaycanın çar Rusiyası tərəfindən zəbt olunmasından bəhs edən əsərlər işğaldan az sonra çap olunmağa başladı. Əvvəlcə onu qeyd edək ki, Rusiyada yeni işğal olunmuş ərazilərlə, o cümlədən Azərbaycanla tanışlıq məqsədilə xeyli əsər nəşr olundu. Bu əsərlər əsasən işğal ərəfəsindəki vəziyyəti və işğalın ilk illərini əks etdirir. Artıq 1805-ci ildə Qafqazı, o cümlədən Azərbaycan təsvir edən kitab Sankt-Peterburqda çapdan çıxdı.[1]

S.B.Bronevskinin, O.Evetskinin, İ.N.Berezinin, A.Qakstqauzenin, P.Q.Butkovun əsərləri də o dövrkü Azərbaycanın sosial-iqtisadi və siyasi həyatından bəhs edir.[2]

İşğal prosesinin gedişi rus hərb tarixçiləri, eyni zamanda həmin hadisələrin bilavasitə iştirakçıları, müasirləri olan P.Zubovun, N.F.Dubrovinin, V.A.Pottonun və başqa müəlliflərin əsərlərində öz əksini tapmışdır.[3] Bu əsərlərdə əsasən rus qoşunlarının zəfər yürüşləri tərənnüm edilmiş, ona qarşı mübarizə – vətənpərvərlik isə xainlik, satqınlıq kimi qələmə verilmişdir. Həmin tarixçilər Rusiyanın Azərbaycan torpaqlarını tutmasını yerli xalq üçün müstəsna əhəmiyyətli bir iş kimi qiymətləndirmişlər. Tarixilik baxımından və tarixi faktların bol olmasına görə bu əsərlər bizim üçün çox qiymətlidir. Heç də təsadüfi deyil ki, arxiv sənədləri və başqa dəyərli faktlarla zəngin olan Dubrovin və Pottonun əsərlərindən bütün tədqiqat işində istifadə olunmuşdur.

Məlumdur ki, Rusiyanın Cənubi Qafqazda apardığı müstəmləkəçilik siyasətinin ən uzun dövrü öz amansızlığı ilə fərqlənən knyaz Yermolovun adı ilə bağlıdır. Bununla əlaqədar Yermolovun şəxsiyyəti haqqında yazan tarixçilər də istər-istəməz onun işğalçılıq fəaliyyətinə də geniş yer vermişlər. M.Poqodinin nəşr etdirdiyi əsərdə keçmiş baş komandanın Qafqazdakı on iki illik fəaliyyəti yalnız dəlillər əsasında işıqlandırılıb. Aleksandr Yermolov isə öz əsərini Yermolovun İran səfərinə həsr edib.[4]

N.Dubrovin və V.Potto ilə yanaşı işğalın son dövrü, keçən yüzilliyin tarixçilərindən olan M.Şerbatovun tədqiqatlarında xüsusi yer tutur.[5] Knyaz Şerbatovun 1890-1891-ci illərdə çap etdirdiyi iki cildlik əsəri baş komandan Paskeviçin Azərbaycanda apardığı müharibələrə həsr olunub. Knyaz Paskeviçin gündəliyi əsasında tərtib edilən bu əsərdə Yermolov və Mədətovun yaramaz fəaliyyəti

---

[1] Opisanie Kavkaza, SPb, 1805.

[2] Bronevskiy S.B. Noveyşie qeoqrafiçeskie i istoriçeskie izvestiə o Kavkaze, II cild, Moska, 1823; Eveükiy O. Statistiçeskoe opisanie Zakavkazskoqo kraə, SPb., 1834; Berezin İ.N. Puteşestvie po Daqestanu i Zakavkazğö, Kazan, 1850; Qakstqauzen A. Zakavkazskiy kray, SPb., 1857; Butkov P.Q. Materialı dlə novoy istorii Kavkaza s 1722 po 1833 qodı, III hissə, SPb., 1869.

[3] Zubov P. Podviqi russkix voinov v stranax Kavkazskix s. 1800 po 1834, SPb., 1835; Dubrovin N.F. Zakavkazğe ot 1803 do 1806 qq., SPb., 1866; Yenə onun. İstoriə voynı i vladıçestva russkix na Kavkaze, IV cilddə, SPb., 1871-1888; Potto V.A. Kavkazskaə voyna v otdelğnıx oçerkax, gpizodax, leqendax i bioqrafiəx, III cilddə, SPB., 1886; Yenə onun. Pervıe dobrovolğüı Karabaqa v gpoxu vodvoreniə russkoqo vladıçestva, Tiflis, 1902№ «Utverjdenie russkoqo vladıçestva na Kavkaze», IV cilddə, Tiflis, 1901.

[4] Poqodin M. Aleksey Petroviç Ermolov, Moskva, 1864; Ermolov A.. A.P.Ermolov v Persii, SPb., 1909.

[5] Knəzğ Herbatov. Qeneral-Felğdmarşal knəzğ Paskeviç, II-III cild, SPb., 1890-1891.

kəskin tənqid olunur. Tədqiqatçı Sergey Qlinkanın əsas məqsədi yeni işğal edilmiş ərazilərə ermənilərin köçürülməsini qeydə almaq olmuşdur. Əsərdə bu faktla bağlı xeyli rəqəm sadalanır.[6]

İrəvan xanlığının işğalından sonra təşkil edilən müvəqqəti idarədə işləyən tədqiqatçı İ.Şopen xeyli material əldə edərək həmin xanlığın işğaldan əvvəlki və sonrakı vəziyyətinə dair geniş statistik əsər nəşr etdirmişdir.[7] İşğalın son dövrü və Paskeviçin fəaliyyəti ilə bağlı digər bir tədqiqat əsəri erməni tarixçisi tərəfindən qələmə alınıb.[8] S.Qlinka və İ.Şopenin əsərlərində olduğu kimi bu əsərdə də rus işğalı ermənilərin mənafeyi baxımından işıqlandırılıb. Əsər rus işğalı dövründə ermənilərin fəaliyyəti ilə bağlı geniş məlumat verir.

V.İvanenko, S.Esadze və başqa müəlliflər öz əsərlərində hərbi-siyasi məsələlərlə yanaşı sosial-iqtisadi vəziyyətə xeyli yer vermiş, Rusiyanın Azərbaycanda keçirdiyi inzibati-amirlik siyasətini ön plana çəkmişlər.[9] Dərbənd şəhərinin tarixindən yazan E.Kozubski yuxarıda sadalanan məsələlərlə yanaşı şəhərdə baş verən həyəcanlar, çıxışlar barədə gərəkli məlumat verir. Bu əsərdə Şeyxəli xanın fəaliyyəti də öz əksini tapıb.[10] Tarixçi A.P.Gizetti 1901-ci ildə Tiflisdə nəşr etdirdiyi kitabında rusların 1801-1855-ci illərdə Qafqazda apardığı müharibələr nəticəsində məruz qaldıqları itkilərin demək olar ki, tam siyahısını dərc etmişdir. Tərtib olunmuş cədvəllərdən göründüyü kimi Rusiya Azərbaycanın işğal olunması gedişində minlərcə əsgər, zabit itirmişdir.[11]

XIX yüzilliyin dövrü mətbuatında da göstərilən problemlə bağlı xeyli maraqlı materiallar dərc olunmuşdur.[12] Onların arasında Tiflisdə buraxılan «Qafqaz» qəzeti üstünlük təşkil edir. Təəssüf ki, onların bəzilərindən istifadə etmək mümkün olmayıb.

Problemlə bağlı keçən yüzilliyin Azərbaycan tarixşünaslığının da müstəsna yeri vardır. Ən əvvəl Abasqulu Ağa Bakıxanovun «Gülüstani-İrəm» əsərini göstərmək olar.[13] Həmin dövrdə baş verən hadisələrin bilavasitə iştirakçısı olan A.Bakıxanov öz əsərində işğala qarşı mübarizənin daha şiddətli keçdiyi Quba xanlığına, o cümlədən, Şeyxəli xanın fəaliyyətinə geniş yer vermişdir. Ümumiyyətlə, «Gülüstani-İrəm» əsəri XIX əsrin əvvəlində Azərbaycanın siyasi həyatını izləməyə imkan verir.

İşğaldan əvvəlki və sonrakı Qarabağ xanlığının tarixinə həsr edilmiş əsərlərin demək olar hamısında İbrahim xanın daxili və xarici siyasəti əsas yer tutur. Lakin İbrahim xanın həyat və fəaliyyətindən bəhs edən XIX əsr salnaməçiləri bir çox məsələlərdə, o cümlədən rus işğalı və xanın ruslar tərəfindən qətlə yetirilməsi ilə bağlı məsələlərdə susmuşlar. Bu tarixi səlnamələr üçün əsas mənfi cəhət də onların Rusiyanın mənafeyi baxımından yazılmasıdır. Qarabağ səlnamələrindən Qarabağ xanlığı ilə yanaşı digər xanlıqlarda da baş verən hadisələr təsvir olunur. Bütün bu əsərlər iki kitab halında Bakıda nəşr edilmişdir.[14]

---

[6] Qlinka S. Opisanie pereselenıə armən Adderbidjanskix v predelı Rossii, Moskva, 1831.

[7] Şopen İ. İstoriçeskiy pamətnik sostoənıə Arnmənskoy oblasti v gpoxu prisoedinenıə k Rossiyskoy imperii. SPb., 1852.

[8] Alaverdənü M.Ə. Qraf İvan Fedoroviç Paskeviç-Grivanskiy i eqo deətelğnostğ na Kavkaze v oçerkax arnmənskoqo istorika, SPb., 1912.

[9] İvanenko V. Qrajdanskoe upravlenie Zakavkazğem – «Utverjdenie russkoqo vladıçestva na Kavkaze», Tiflis, 1901; Gsadze S. İstoriçeskaə zapiska ob upravlenii Kavkazom, Tiflis, 1907; Gsadze B.S.Letopisğ Qruzii, Tiflis, 1913.

[10] Kozubskiy E.İ. istorıə qoroda Derbenta. Temir-xan Şura, 1906.

[11] Qizetti A.P. Sbornik svedeniy o poterəx Kavkazskiy voysk vo vremə voyn (1801-1855), Tiflis, 1901.

[12] «Kavkaz», «Kavkazskiy kalendarğ», «Russkaə starina», «Kavkazskiy sbornik» və s.

[13] Bakixanov A.A. «Qölistan-İram», Baku, 1926.

[14] Mirzə Adıgözəl Bəy. «Qarabağnamə»% Mirzə Camal Cavanşir. Qarabaği. «Qarabağ tarixi»;Əhməd bəy Cavanşir. «Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair» – Qarabağnamələr, I kitab, Bakı, 1989; Mirzə Yusif Qarabaği. «Tarixi-Safi»; Mir-Mehdi Xəzani. «Kitabi-tarixi – Qarabağ»; Rzaqulu Bəy Mirzə Camal oğlu. «Pənah xan və

İki samballı əsər Şəki xanlığının tarixinə həsr olunub.[15] Şəki xanlarının daxili və xarici siyasətindən bəhs edən hər iki əsərdə rus işğalı ilə bağlı bəzi məsələlərə toxunulmuşdur. Onu da qeyd edək ki, 1829-cu ildə ana dilimizdə yazılan «Şəki xanlarının müxtəsər tarixi» adlı əsərin müəllifi Kərim Ağa Fateh Şəki xanlarının nəslindəndir. Həmin əsər 1858-ci ildə Sankt-Peterburqda, 1926-cı ildə isə Bakıda səhvən Əbdüllətif Əfəndinin adı altında nəşr edilmişdir. Yalnız Salman Mümtazın əməyi sayəsində həmin əsər 1958-ci ildə Bakıda əsl müəllifin adı ilə buraxılmışdır.

Sovet hakimiyyətinin ilk on illiklərində çap olunan əsərlərdə Azərbaycanın işğalı ilə bağlı hadisələrə müəyyən obyektiv münasibət göstərilmişdir. M.Pokrovskinin, H.Əlqədarinin, H.Minasazovun, İ.Petruşevskinin əsərlərində hətta çarizmin işğalçı siyasəti tənqid olunmuş, xalqımızın apardığı azadlıq mübarizəsinə müəyyən yer verilmişdir.[16] Bu sahədə İlya Petruşevskinin əməyi xüsusi qeyd olunmalıdır. Car-Balakən camaatlıqları haqqında geniş statistik əsərin müəllifi olan Petruşevski car-balakənlilərin rus müstəmləkəçilərinə qarşı apardığı azadlıq mübarizəsini ətraflı təsvir etmiş və bu mübarizəyə öz rəğbətini bildirmişdir. Eyni sözləri Rəşid Bəy İsmayılovun 1923-cü ildə Bakıda nəşr etdirdiyi «Azərbaycan tarixi» və Cahangir Zeynaloğlunun 1924-cü ildə Ankarada çap etdirdiyi «Müxtəsər Azərbaycan tarixi» kitabları haqqında da demək olar. Lakin onu da qeyd edək ki, Rəşid Bəyin adı çəkilən kitabı uzun zaman arxiv divarları arasında gizli saxlanmışdır. Hər iki kitabın yenidən Bakıda nəşr edilməsi təqdirəlayiqdir.[17]

20-ci illərdə çap olunan V.Sısoyevin, Ə.Qubaydulinin, V.Ryuminin tarixi oçerklərində də işğal dövründə Azərbaycanın siyasi və sosial-iqtisadi vəziyyəti ilə bağlı materiallar öz əksini tapmışdır.[18]

Sonrakı illərdə çap olunan bir çox əsərlərdə Rusiyanın Cənubi Qafqazda, o cümlədən Azərbaycanda apardığı siyasət əsasən beynəlxalq kontekstdən işıqlandırılmağa başlandı. Arxiv materialları ilə çox zəngin olan S.K.Buşuyevin, H.M.İbrahimbəylinin, N.A.İqamberdıyevin, A.F.Fadeyevin, D.Q.Qulianın və başqa müəlliflərin əsərləri bu baxımdan çox önəmlidir.[19] H.Abdullayevin və A.Milmanın əsərləri Azərbaycanın işğaldan əvəlki və sonrakı idarəçilik sistemindən bəhs edir.[20]

50-60-cı illərdə və hətta 80-ci illərdə Azərbaycanın Rusiyaya birləşdirilməsinin müsbət nəticələrindən bəhs edən bir sıra əsərlər Azərbaycan tarixşünaslığını «zənginləşdirmişdir». Bu əsərlər

---

İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri»; Həsən İxfa Əlizadə. «Şuşa şəhərinin tarixi»; Həsənəli Qaradaği. «Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları» – Qarabağnamələr, II kitab, Bakı, 1991.

[15] Kərim Ağa Fateh. Şəki xanlarının müxtəsər tarixi; Hacı Seyid Əbdül Həmid. Şəki xanları və onların nəsilləri – Şəki xanlığının tarixindən, Bakı, 1958.

[16] Pokrovskiy M.N. Diplomatiə i voynı üarskoy Rossii v XIX stoletii, Moskva, 1924; Alkadari Q. Asari-Daqestan, Maxaçkala, 1929; Minasazov Q. Sto let odnoy revolöüii, Baku, 1930; Petruşevskiy İ.P. Djaro-Belokanskie volğnıe obhestva v pervoy treti XIX stoletiə, Tiflis, 1934; Kolonialğnaə politika Rossiyskoqo üarizma v Azerbaydjane v 20-60-x qq., XIX v., M-L., 1936.

[17] Rəşib Bəy İsmayılov. Azərbaycan tarixi, Bakı, 1993; Cahangir Zeynaloğlu. Müxtəsər Azərbaycan tarixi, Bakı, 1992.

[18] Sısoev V. Kratkiy oçerk istorii Azerbaydjane (severnıy), Baku, 1925; Qubaydulin A. Feodalğnıe klassı i krestğənstvo v Azerbaydjane v XIX v., Bakı, 1028; Römin V.A. Kratkie istoriçeskiy i gtnoqrafiçeskiy oçerki Azerbaydjana – Azerbaydjanovedenie, Baku, 1924.

[19] Buşuev S.K. İz istorii vneşne politiçeskix otnoşeniy v period prisoedineniə Kavkaza k Rossii, Moskva, 1955; İoanisən A.R. Prisoedinenie Zakavkazğə k Rossii i mejdunarodnıe otnoşeniə v naçale XIX stoletiə, Erevan, 1958; Fadeev A.F. Rossiə i Kavkaz pervoy treti XIX v., Samarkand, 1961; Erevan, 1967; İbraqimbeyli Q.M. Rossiə i Azerbaydjan pervoy treti XIX veka, Moskva, 1969; Qulia D.Q. K istorii vostoçnoqo voprosa, Suxumi, 1978.

[20] Abdullayev Q. Azerbaydjan v XVIII v. i vzaimootnoşeniə eqo s Rossiey, Baku, 1955; Milğman A.Ş. Politiçeskiy stroy Azerbaydjana v XIX-naçale XX v., Baku, 1966.

haqqında çox danışmağa ehtiyac yoxdur. Çünki həmin əsərlərin adı onun məzmununu və əldə olunmuş nəticəni açıqlamaqdadır.[21]

Müxtəlif xanlıqların Rusiyaya birləşdirilməsindən, şəhərlərin və vilayətlərin tarixindən yazan bir çox tədqiqatçılar bu və ya digər dərəcədə araşdırılan problemlə bağlı məsələlərə toxunmuş, xeyli faktik materialdan istifadə etmişlər.[22] Lakin göstərilən əsərlərin tam əksəriyyətində işğal ərəfəsində Rusiyaya qarşı meyldən bəhs edilmiş, ümumilikdə işğal təqdir olunmuşdur.

Nəhayət 80-ci illərdə Azərbaycan tarixşünaslığında işğalın törətdiyi acı nəticələrdən bəhs edən əsərlər çap olunmağa başladı. 1982-ci ildə nəşr edilmiş «Şəki» tarixi oçerkində müəllif M.İsmayılov xanlıqların siyasi hüquqsuzluğundan bəhs edir, işğalın acı nəticələrini rus məmurlarının dilindən təsvir edir.[23] Tədqiqatçı M.Gülmalıyev öz əsərində işğalın iqtisadi sahəyə vurduğu ağır zərbədən, H.Sadığov isə işğaldan sonra yaranın ağır beynəlxalq vəziyyətdən söhbət açır.[24]

80-ci illərin axırı – 90-cı illərin əvvəllərində işıq üzü görmüş digər qisim kitab və məqalələrdə çar Rusiyasının həyata keçirdiyi amansız işğalçılıq siyasəti ifşa olunaraq kəskin tənqid olunmuş, onların bu işdə fəal yardımçıları olan erməni siyasətçilərinin fəaliyyəti geniş şərh edilmişdir.[25]

İran tarixçisi Nasir Nəcminin «Abbas Mirzə» əsəri tədqiq olunan dövrdə İran tərəfinin mövqeyini öyrənməkdə, hadisələrin əsas iştirakçılarından biri olan Abbas Mirzənin bizim üçün qaranlıq olan fəaliyyətini izləməkdə mühüm mənbədir. Əsərdə çar Rusiyasının Şərqdə apardığı işğalçı siyasəti kəskin tənqid olunur. Kitabı farscadan tərcümə edən professor Nazim Axundov çapa hazırlamışdır.[26] Qeyd edək ki, o, «Qarabağnamələr» kitablarının da əsas tərtibçilərindəndir.

1992-1995-ci illərdə çap olunmuş «Azərbaycan tarixi» kitablarında Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalına, komendant üsul-idarəsinə və xalqın müstəmləkə zülmünə qarşı mübarizəsinə xeyli yer verilmişdir.[27] Həmin kitablarda işğaldan bəhs edən görkəmli alimimiz M.İsmayılovun gəldiyi qənaətə görə, «Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı ən mürtəce hadisə olmuşdur».[28]

Problemin tədqiqində əsas mənbə Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları hesab olunur. Burada minlərlə sənəd, fərman, göstəriş, raport, məktub və s. toplanmışdır. Yalnız burada toplanan

---

[21] Mehdiyev Q. Azərbaycanın Rusiya ilə birləşməsi və bunun tarixi əhəmiyyəti, Bakı, 1952; Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri, Bakı, 1956; Velikaə drujba Azerbaydjanskoqo i russkoqo narodov, Baku, 1964; Babaev A. Vıbor puti, Baku, 1984; Yenə onun. Rusiyaya qovuşmaq ərəfəsində, Bakı, 1988.

[22] Aleskerov Ö. K istorii Zakatalğskoqo okruqa pervoy polovinı XIX veka i vosstanie 1893 q., Avtoreferat… kandidatskoy dissertaüii, Baku, 1950; Mamedov F.N. Qorod Qəndja v XIX veke, Avtoreferat… kandidatskoy dissertaüii, Baku, 1978; Baqirova M.M. İstoriə Şekinskoqo xanstva i prisoedinenie eqo k Rossii, Avtoreferat… kandidatskoy dissertaüii, Baku, 1980; İskenderova M.S. Bakinskoe xanstvo i eqo prisoedinenie k Rossii, Avtoreferat… kandidatskoy dissertaüii, Baku, 1983; Gfendiev M.M. Prisoedinenie Azerbaydjana k Rossii (1801-1828 qq.), Tarix İnstitutunun Elmi Arxivi (TİEA), inv. №2154; Mamedov N.R. İstoriə qoroda Kubı v XIX naçale XX veke, Avtoreferat… kandidatskoy dissertaüii, Baku, 1985;Aliev M.M. Naxçivanskoe xanstvo i eqo prisoedinenie k Rossii, Avtoreferat… kandidatskoy dissertaüii, Baku, 1986; İsmailova Q.N. İstoriə qoroda Şuşi v XIX naçale XX veka, Avtoreferat… kandidatskoy dissertaüii, Baku, 1987; Mustafayev Dj.M. Severnıe xanstva Azerbaydjana i Rossiə (koneü XVIII-naçalo XIX v.), Baku, 1989.

[23] İsmayılov M. Şəki (tarixi oçerk), Bakı, 1982.

[24] Gülmalıyev M. XVIII əsrin son rübü – XIX əsrin birinci yarısında Azərbaycan kəndinin sosial-iqtisadi strukturu, Bakı, 1989; Sadıqov H. Rusiya – Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi (1787-1829), Bakı, 1991.

[25] Nəcəfov T. Azərbaycanın Rusiyaya birləşdirilməsi gedişində xanlıqların təğvi məsələsinə dair. Tarix, ictimaiyyət, coğrafiya tədrisi, Bakı, 1989, №6; İsayev Ə. Gəncə və gəncəlilər, Bakı, 1991; Verdieva X.Ö. Naselenie severnoqo Azerbaydjana v pervoy polovine XIX v. Avtoreferat… kandidatskoy dissertaüii, Baku, 1992; Əsədov F.; Kərimov S. Çarizmi Azərbaycana gətirənlər, Bakı, 1993.

[26] Nasir Nəcmi. Abbas Mirzə (XIX əsr Rusiya-İran-Azərbaycan münasibətləri), Bakı, 1993.

[27] İsmayılov M. Azərbaycan tarixi, Bakı, 1992; Azərbaycan tarixi, I cild, Bakı, 1995, s.568-580.

[28] İsmayılov M. Azərbaycan tarixi, s.215.

sənədlər mövzu haqda ətraflı təsəvvür verir. Tədqiqat işində Aktların I-VII cildlərindən istifadə olunmuşdur.[29]

Tədqiq edilən problemə dair, xüsusilə işğalın son dövrünə aid Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivində də xeyli maerial saxlanır. Bunlar əsasən 47, 73, 75, 130 saylı və başqa fondlardır.[30] Həmin fondların tərtib olunduğu çoxsaylı cədvəllərdə işğalın son dövründə rusların əlindən baş götürüb qaçan, həbs, sürgün və edam edilən Quba, Şəki, Şirvan və Bakı xanlıqları sakinlərinin siyahısı, həmçinin onların müsadirə olunmuş əmlakı haqda qiymətli məlumatlar vardır.[31] Lakin həmin materialların bəziləri tədqiq etdiyimiz dövrdən kənara çıxdığı üçün onların hamısından istifadə olunmamışdır.

Arxiv sənədləri arasında Quba xanlığına aid materiallar daha çoxdur. 75 saylı fond əsasən bu xanlığı əhatə edir.

Problemin tədqiqi ilə əlaqədar arxiv materiallarından, xüsusilə o dövrdə tərtib olunmuş sənədlərin əslindən istifadə olunması işimizə xeyli zənginlik gətirir.

Mövzu üçün digər əsaslı mənbə işğaldan az sonra nəşr edilən xanlıqlar haqqındakı ətraflı xülasələrdir. Burada demək olar ki, bütün xanlıqların coğrafi, iqtisadi və siyasi vəziyyəti tam əks olunmuşdur. Yalnız arxiv materiallarından tərtib edilən kitablar da mənbə baxımından çox qiymətlidir. Yerevanda nəşr edilən iki cildlik kitab əsasən İrəvan xanlığına aid sənədlərdən tərtib edilib.[32] Dağıstan və Çeçenistanın tarixinə həsr olunmuş digər belə kitablarda isə Dərbənd və Quba xanlıqlarına aid də sənədlər toplanıb.[33] Çox təəssüf ki, Azərbaycanın digər xanlıqlarına aid Moskva, Sankt-Peterburq, Tbilisi və başqa şəhərlərin arxivlərində saxlanan sənədlər indiyə kimi nəşr edilməyib.

Arxiv materialları əsasən tərtib edilmiş digər iki kitab 1992-1993-cü illərdə Ankarada nəşr edilmişdir.[34] «Osmanlı dövləti ilə Azərbaycan türk xanlıqları arasındakı münasibətlərə dair arxiv bilgiləri» adlı iki cildlik bu kitabdan göründüyü kimi Türkiyə arxivlərində də Azərbaycan xanlıqları ilə bağlı sənədlər var. Tədqiqat işində Şəki və İrəvan xanlıqlarına aid sənədlərdən istifadə olunmuşdur.

Hərbi ensiklopediya, hərbi toplu və Rusiyanın tam qanunlar külliyatında dərc olunan materiallar da mənbə xarakterlidir. Hərbi əməliyyatların gedişi ilə bağlı həmin materiallardan istifadə olunması ayrı-ayrı məsələlərə dəqiqlik gətirir.[35]

Mövzuya aid digər əsaslı mənbə bilavasitə hadisə iştirakçılarının tarixi əsərləri, qeydləri, xatirələri, gündəlikləri və sairədir. Bu baxımdan Sisyanovun silahdaşı, İrəvan yürüşünün iştirakçısı zabit Tuçkovun qeydləri, 1816-1827-ci illərdə baş komandan olmuş knyaz Yermolovun öz qeydləri, habelə onu İran səfərində müşaiyət edən müşavir A.Sokolovun bu missiya barədə yazısı, müxtəlif

---

[29] Aktı sobrannıe Kavkazskoy Arxeoqrafiçeskoy Komissiey, I-VII cildlər, A.P.Berjenin redaktəsi ilə, Tiflis, 1867-1878.
[30] Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivi (Azərb.MDTA) – Fondlar 47, 73, 75, 130, 202, 288.
[31] Azərb. MDTA, f.75, siy.I, sax.vah.II, vər.1-2 arx.; f.47, siy.I, sax.vah.3 var, vər.3, 19-180; f.130, siy.I, sax.vah.9, vər.16-18 arx.
[32] Prisoedinenie vostoçnoy Armenii k Rossii (sb. dok.), Erevan, 1972.
[33] Materialı po istorii Daqestana i Çeçni, III cild, I hissə (1801-1839), Maxaçkala, 1940; Russko-Daqestanskie otnoşeniə v XVIII-naçale XIX v., Moskva, 1988.
[34] Başbakanlık Osmanlı Arşivi (BOA) – «Osmanlı devleti ilə Azerbaycan türk hanlıkları arasındakı münasibətlərə dair arşiv belgeleri», II cilddə, Ankara, 1992-1993.
[35] Voennaə gnüiklopediə, XI-XIV cildlər, Peterburq, 1913-1914; Voennıy sbornik, XX, LIV-LVI, LXVI cildlər, SPb., 1861-1869.

sənədlər əsasında tərtib edilən A.P.Yermolov kitabı, həmçinin knyaz Paskeviçin gündəliyi əsasında tərtib edilən knyaz Şerbatovun yuxarıda adı çəkilən kitabları və başqaları mövzu ilə sıx bağlıdır.[36]

Keçən əsrin Azərbaycan tarixi-salnaməçilərinin əsərləri də ilk qaynaqlardan hesab olunmalıdır. Həmin dövrdə baş verən hadisələrin ən yaxın izləyicilərindən biri olan Abasqulu Ağa Bakıxanov bir çox tədbirlərdə məsul şəxs kimi iştirak etmişdir. Eləcə də «Qarabağnamə»nin müəllifi Mirzə Adıgözəl Bəy və «Qarabağ tarixi»nin müəllifi Mirzə Camal Cavanşir rus işğalının şahidi və bilavasitə iştirakçısı olduqlarından bu müəlliflərin əsərlərindən ilk mənbə kimi istifadə etmək olar.[37] O, da qeyd olunmalıdır ki, adı çəkilən bu əsərlər yazılarkən nə Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları, nə də Dubrovin və Pottonun əsərləri mövcud deyildi. Kərim Ağa Fatehin «Şəki xanlarının müxtəsər tarixi» əsəri yazıldığı tarix baxımından bu əsərlərin hamısını qabaqlayır. Əsər Şəki xanlığının tarixindən bəhs edən mühüm mənbədir.[38]

Problemin daha dolğun araşdırılmasında elmi əhəmiyyəti olan mənbələrin başlıca məzmunu kitabın bütün fəsillərində öz əksini tapmışdır.

Təqdim olunan işin elmi əhəmiyyəti tədqiqat obyektindən asılıdır. Tədqiq olunan mövzu isə qarşıya aşağıdakı əsas vəzifələri qoyur:

– İşğal ərəfəsində Şimali Azərbaycanın siyasi, iqtisadi vəziyyətini səciyyələndirmək;

– Rusiyanın işğalçılıq niyyətini və işğal ərəfəsində Rusiyaya heç bir meylin olmadığını açıb göstərmək;

– İşğalın gedişi və ona qarşı xalqın müqavimətini təsvir etmək;

– Müstəmləkəçiliyə qarşı baş verən çıxış və üsyanlardan ardıcıllıqla bəhs etmək;

– Şimali Azərbaycanın işğalına səbəb olan bütün amilləri göstərmək;

– Müstəmləkəçilik əleyhinə mübarizənin təşkili, xalqın birliyini, habelə üsyanların məğlub olma səbəblərini təhlil etmək;

Tədqiqat işinin elmi yeniliyi başlıca olaraq problemin qoyuluşu ilə bağlıdır. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğal olunması gedişində müstəmləkəçilik əleyhinə mübarizə vətən tarixşünaslığımızda ilk hərtərəfli tədqiqat işidir. İlk dəfə olaraq problemlə bağlı çoxlu sənəd elmi dövriyyəyə daxil edilib. Əsas diqqət Rusiyanın işğalçılıq məqsədlərinə, onun, amansız məmurlarının başçılıq etdiyi qoşun hissələri tərəfindən realaşmasına və xalqın milli-azadlıq mübarizəsinə yönəldilib.

Tədqiqatımızın əhəmiyyəti bundan ibarətdir ki, buradakı materiallardan və hasil edilmiş nəticələrdən yeni tədqiqat işlərində, Ali məktəblərdə mühazirə kurslarının hazırlanmasında, habelə, Azərbaycan tarixi yazılarkən istifadə oluna bilər. Xalqımızın mübarizə tarixindən bəhs edən bu iş həmçinin müəllim, tələbə, ümumiyyətlə, geniş oxucu kütləsi üçün maraqlı ola bilər.

Kitab giriş, dörd fəsil, nəticə, mənbə və ədəbiyyat siyahısından ibarətdir.

---

[36] Zapiski Serqeə Alekseeviça Tuçkova (1766-1808), SPb., 1908; Zapiski Alekseə Petroviça Ermolova, II hissə (1816-1827); Dnevnıe zapiski o puteşestvii Rossiysko-İmperatorskoqo posolğstva v Persii v 1816 i 1817 qodax, Moskva, 1910; Poqodin M. Göstr. əsəri; Knəzğ Herbatov, Göst. əsəri.
[37] Bakixanov A. Gbst. əsəri; Mirzə Adıgözəl Bəy. Göst. əsəri; Mirzə Camal Cavanşir Göst. əsəri.
[38] Kərim Ağa Fateh. Göst. əsəri.

# I FƏSİL. 1801-1806-CI İLLƏRDƏ AZƏRBAYCAN XALQININ RUS İŞĞALÇILARINA QARŞI MÜBARİZƏSİ.

## § 1. Azərbaycan işğal ərəfəsində.

XIX əsrin başlanğıcında Azərbaycan natural təsərrüfatın və feodal pərakəndəliyinin hökm sürdüyü çoxlu xanlıqlardan, sultanlıqlardan və azad icmalardan ibarət aqrar bir ölkə idi. Ağa Məhəmməd şahın və qraf Zubovun dağıdıcı yürüşləri, ardı-arası kəsilməyən ara müharibələri, vahid siyasi və iqtisadi mərkəzin olmaması ölkəni taqətdən salmış və ümumi inkişafı xeyli ləngitmişdi.

Şəkili Hacı Çələbinin, qubalı Fətəli xanın və qarabağlı İbrahim xanın ölkəni birləşdirmək cəhdləri müəyyən uğur qazansa da mümkün olmamış və bu parçalanma ölkənin siyasi və iqtisadi inkişafına xeyli mane olmuşdur. Nəticədə hərbi cəhətdən zəifləmiş və kiçik feodal dövlətlərə bölünmüş Azərbaycanın güclü qonşuları tərəfindən zəbt olunmasına real zəmin yaranmışdı. Öz mənayefini əsas tutan xanlar nəinki bir dövlət halında birləşmək istəmir, əksinə bir kənd üstündə belə qanlı müharibələr edirdilər. İran şahından asılı olduqları vaxt bu birləşmənin «dadını» görən xanlar heç kimdən asılı olmağı istəməyib müstəqilliyi daha üstün tuturdular.

Rus işğalı ərəfəsində Azərbaycan Quba, Qarabağ, Gəncə, Şəki, Şirvan, Bakı, Dərbənd, Talış, İrəvan, Naxçıvan, Maku, Xoy, Ərdəbil, Qaradağ, Marağa, Urmiyə, Soucbulaq xanlıqları, Qazax, Şəmşəddil, Borçalı, İlisu, Şoragil, Pəmbək sultanları və Car-Balakən azad icmaları mövcud idi.[39]

İnzibati cəhətdən mahallarla bölünən hər bir xanlıq müəyyən əraziyə malik kiçik feodal dövləti xarakteri daşıyırdı. Belə ki, hər xanlığın mərkəzi dövlət aparatı, idarəetmə sistemi və qoşunları mövcud idi. Xanlıqların başında «Hakimiyyətə irsən gələn xanlar – dövlət başçıları»[40] dururdu. Onlar həmçinin ordunun baş komandanı idilər.[41] Xanlıqların bütün mərkəzləri o cümlədən: Şamaxı, Quba, Gəncə, Bakı, Naxçıvan, Nuxa eyni zamanda əsas ticarət mərkəzləri idilər.[42] Hər xanlıqda özünün ölçü vahidi, pul sistemi həyata keçirilirdi. Naxçıvan, Gəncə, Şuşa, Şamaxı, Bakı, Dərbənd[43] və İrəvanda[44] zərbxanalar fəaliyyət göstərirdi.

Mahallar naiblər, yaxud mahalbəyləri tərəfindən, mahallara daxil olan kəndlər isə yüzbaşılar, yaxud kətxudalar tərəfindən idarə olunurdu. İrəvan və Naxçıvan xanlıqlarında mahal hakimləri mirbölük adlanırdı.

Xanlıqların hərbi qüvvələri nökərlərdən, çaparlardan və maaflardan təşkil olunmuş xan qoşunlarından, bəy dəstələrindən, kənd könüllülərindən və muzdlulardan ibarət idi.[45]

Xanlıqların ayrı-ayrılıqda təsnifatına köçməzdən əvvəl bəzi mübahisəli məsələləri araşdırmaq yerinə düşər.

---

[39] Burada yalnız Şimali Azərbaycandan bəhs ediləcəkdir.
[40] Bakixanov A. Qölistani-İram, Baku, 1991, s.151.
[41] Abdullaev N. İz istorii Severo-Vostoçnoqo Azerbaydjana v 60-80 qq. XVIII veka, Baku, 1958, s.28.
[42] Əliyev F. XVIII əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərləri, Bakı, 1960, s.85.
[43] Azərbaycan tarixi, I cild. Bakı, 1958, s.393.
[44] Şopen İ. İstolriçeskiy pamətnik sostoənie Armənskoy oblasti v gpoxi eə prisoedineniə k Rossiyskoy imperii, SPb., 1852, s.887-888.
[45] Milğman A. Politiçeskiy stroy Azerbaydjana v XIX-naçale XX v., Baku, 1966, s.45.

Bir çox müəlliflər Şimali Azərbaycan xanlıqlarından danışarkən İrəvan xanlığından yan keçirlər. Amma əslində Türkmənçay müqaviləsinə kimi Azərbaycanın tərkib hissəsi olmuş bu xanlıq eləcə də öyrənilməlidir. Eyni zamanda İrəvan xanlığına daxil olan Şoragil və Pəmbək sultanlıqları. Bu sultanlıqların İrəvan xanlığına məxsus olması Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarında (QAKA) və başqa müəlliflərin əsərlərində də təsdiq edilmişdir.[46] Məlumdur ki, yuxarıda adı çəkilən müqavilədən sonra İrəvan xanlığı əsasında Erməni vilayəti təşkil edildi.

Ta qədimdən Azərbaycan torpaqları olmuş Qazax–Borçalı sultanlığı ilə Nadir şah tərəfindən gürcü çarının idarəçiliyinə verilmişdi.[47] Əlbəttə dövlət daxilində bu cür ərazi dəyişikliyinin Nadir şah üçün heç bir fərqi yox idi. Amma bu hərəkət Azərbaycanı böyük bir ərazidən məhrum etdi.

Həmişə Gncəyə məxsus olmuş Şəmşəddil sultanlığı isə gürcü çarı II İrakli tərəfindən zəbt olunmuşdu.[48] Həmin ərazinin geri qaytarıldığını qeyd edən A.Bakıxanov «Gülüstani-İrəm» əsərində yazır: «Fətəli xan II İraklini Şəmkir çayı sahilinə görüşə dəvət edir və bu görüşün nəticəsi olaraq Gürcüstana keçmiş Şəmşəddil mahalı Gəncəyə qaytarılır».[49] Lakin görünür həmin görüşdən az sonra Fətəli xanın vəfat etməsi İraklini öz fikrindən daşındırır. Bununla belə Gəncə xanı Şəmşəddili öz ərazisi hesab edirdi.

1796-cı ildə Xəzərin qərb sahillərinin rus qoşunları tərəfindən işğalından sonra Quba xanlığı iki yerə (Quba ilə Dərbənd xanlıqlarına) parçalandı.[50] II Yekaterinanın ölümü ilə əlaqədar rus qarnizonu 1797-ci ilin mayında Dərbəndi tərk etdikdə Şeyxəli xan yenidən xanlığı birləşdirdi.[51] 1800-cü ildə Dərbənddə Şeyxəli xana qarşı üsyan qalxdı. Qonşu hakimlərin köməyilə hücum edən Şeyxəli xan məğlub edilərək geri oturduldu. Həsən xan yenidən hakimiyyəti ələ keçirdi[52] və o, Rusiya tərəfindən tanındı.[53]

İşğal ərəfəsində Quba və Qarabağ xanlıqları nisbətən iri və güclü xanlıqlar hesab olunurdu. Belə ki, 80-ci illərin axırlarında Fətəli xan Azərbaycanın şimali-şərq hissəsini Quba xanlığı ətrafında birləşdirmişdi. Lakin 1789-cu ildə onun ölümündən sonra bu dövlət parçalansa da Quba xanlığı az da olsa öz hərbi və siyasi qüdrətini saxlayırdı. Qarabağ xanlığı ərazisinin böyüklüyünə, həm hərbi qüdrətinə və eləcə də özünü «hülakü xanın nəslindən hesab edən»[54] İbrahim xanın fəal daxili və xarici siyasətinə görə başqa xanlıqları onunla hesablaşmağa məcbur edirdi. Səlnaməçi Mirzə Camalın yazdığına görə «Bütün Azərbaycandan İbrahim xana peşkəşlər göndərilirdi».[55]

Quba xanlığı. Baş Qafqaz sıra dağlarının ətəklərində yerləşən Quba xanlığı şimalda Samur çayı, cənubda Bakı və Şirvan xanlıqları, qərbdə Şəki xanlığı, şərqdə isə Xəzər dənizi ilə əhatə olunurdu. Ərazisi 10.500 kvadrat verst idi.[56] Bir şəhəri və 245 kəndi[57] birləşdirən Quba xanlığı 8 mahaldan:

---

[46] . QAKA, I cild , Tiflis, 1866, sənəd 34; Voennıy sbornik, LVI cild,№7, SPB., 1867, s.154; Butkov P.Q. Materialı dlə novoy istorii Kafkaza s 1722-1803 qod, II hissə, SPB., 1869, s.448.
[47] Opisanie Kavkaza, SPb., 1805, s.39-40.
[48] Butkov P.Q. Göstər. əsəri, s.448.
[49] Bakıxanov A. Göst. əsəri, s.168-169.
[50] Bronevskiy S. Noveyşiə qeoqrafiçeskaə i istoriçeskaə izvestiə o Kavkaze, II hissə. Moskva, 1823, s.380.
[51] Kozubskiy E.İ. istoriə qoroda Derbenta, Temir-Xan Şura, 1906, s.120.
[52] Leviatov V.N. Oçerki iz istorii Azerbaydjana v XVIII veke, baku, 1948, s.196.
[53] Polnoe sobranie zakonov Rossiyskoy İmperii (PSZ), SPb., 1830, s.761.
[54] Petruşevskiy İ.P. Azerbaydjan vo vtoroy polovine XVIII v. – Azərb. EA Tarix İnstitutunun Elmi Arxivi, (TİEA) inv.747, s.2.
[55] Mirzə Camal Cavanşir «Qarabağ tarixi», Qarabağnamələr, I kitab, 1989, s.145.
[56] Obozrenie Rossiyskix vladeniy za Kavkazam, I hissə, SPb., 1836, s.21.

Quba, Rustov, Buduq, Xınalıq, Şabran, Barmaq, Müskür və Saadandan ibarət idi.[58] Əhalisi 76.878 nəfər idi.[59] Demək olar ki, bütün yaşlı kişilər silahlanmışdılar.[60] Müharibə təqdirində xan 10 min silahlı adam toplaya bilərdi.[61]

Quba xanlığı öz xalçaları ilə məşhur idi. Xanlığı Fətəli xanın oğlu Şeyxəli xan (1791-1810) idarə edirdi.

Qarabağ xanlığı. Kür və Araz çayları arasında yerləşən Qarabağ xanlığı qərbdə Naxçıvan xanlığından şərqdə Şirvan xanlığına qədər uzanan böyük ərazini əhatə edirdi. Ərazisi təqribən 15925 kv. verstə çatırdı.[62] Şuşa şəhərini və 741 kəndi[63] birləşdirən Qarabağ xanlığı 22 mahala bölünürdü[64] (Çalbayır, Kəbirli, Cavanşir, Zəngəzur, Mehri, Bərgüşad, Qapan, Qaracorlu, Otuziki, Dəmirçi Həsənli, Hacı Samlı, Kolanı, Dizaq, Vərəndə, Çiləbörd, Talış, Xaçın, Çaundur, Sisiyan, Tatöv, İyirmidörd, Minbaşlar). İşğal ərəfəsində xanlığın əhalisinin sayının tarixçilər V.Ryumin 50 min, H.Abdullayev isə 84 min nəfər olduğunu göstərirlər.[65] Qarabağın bütün elləri dəftər və siyahıda yazılmış atlı qoyşundan ibarət idi. Zərurət zamanında onlar qoşun sıralarında hazır olurdular.[66]

Qarabağda II atçılıq zavodu var idi. İldə 600 puda qədər bal istehsal olunurdu.[67] Xalığın pul vahidi olan gümüş pənahabadlar və mis yarımşahılar demək olar ki, bütün Azərbaycanda işlənirdi. Xanlığı Cavanşirlər tayfasının nümayəndəsi İbrahim xan (1760-1806) idarə edirdi.

Şəki xanlığı. Salavat dağından Kür çayına qədər uzanan ərazidə yerləşən Şəki xanlığı şərqdə Quba və Şirvan, qərbdə isə gəncə və Qarabağ xanlıqları ilə həmsərhəd idi. Ərazisi 9000 kvadrat verst idi.[68] Xanlıq 8 mahala: Şəki, Xaçmaz, Qutqaşen, Ərəş, Padar, Ağdaş, Alpout və Köynük mahallarına bölünürdü. Nuxa şəhərini və 270 kəndi[69] birləşdirən xanlıqda 98.500 nəfər əhali yaşayırdı.[70] Müharibə zamanı 10-12 min silahlı adam toplamaq mümkün idi.[71] Ərazisi məhsuldar və əhalisi sıx olan, ipəkçiliyin geniş inkişaf etdiyi Şəki xanlığının illik gəliri 80 min rubla (gümüş pulla) çatırdı.[72] Xanlığı Hacı Çələbi xanın nəticəsi, Ağa Məhəmməd şah tərəfindən kor edilmiş Məhəmməd Həsən xan idarə edirdi. Lakin onun taxtı möhkəm deyildi, çünki qardaşı Səlim xanla hakimiyyət uğrunda mübarizə səngimirdi.

Şirvan xanlığı. Xanlıq şimalda Samur çayından cənubda Kür çayına qədər uzanan geniş ərazini əhatə edirdi. Şərqdə Xəzər dənizi və Bakı xanlığı, qərbdə Şəki və Qarabağ xanlığı, cənubda isə Talış xanlığı ilə həmsərhəd idi. Salyan yarımadası və Muğan düzünün bir hissəsi daxil olmaqla xanlığın

---

[57] Yenə orada, s.112.
[58] Abdullaev Q. Azerbaydjan v XVIII v. i vzaimootnoşeniə s Rossiey, Baku, 1965, s.110-111.
[59] Yenə orada, s.239.
[60] Yenə orada, s.108.
[61] Mustafaev Dj. Sevrnıe xanstva Azerbaydjana i Rossiə, Baku, 1989, s.25.
[62] Obozrenie…, I hissə, s.20.
[63] Yenə orada, s.267.
[64] Qakstqauzen A. Zakavkazskiy kray. II hissə, SPb., 1857, s.152.
[65] Römin V.A. Kratkie istoriçeskiy i etnoqrafiçeskiy oçerki Azerbaydjana, Baku, 1924, s.281; Abdullaev Q. Göst. əsəri, s.239.
[66] Mirzə Camal Cavanşir. Göst. əsəri, s.144.
[67] Obozrenie…, I hissə, s.296-297.
[68] Obozrenie…, I hissə, s.21.
[69] Yenə orada, III hissə, s.359.
[70] Römin B.A. Göst. əsər., s.381
[71] Bronevskiy S. Göst. əsəri, s.441.
[72] Yenə orada, s.41.

ərazisi 14500 kv. verstə çatırdı.[73] On yeddi mahaldan (Səlyan, Qouz, Sədəri, Xançoban, Lat, Qoşun, Qarasubasar, Kasan, Əkərət, Qəbristan, Lahıc, Rudbar, Muğan, Navahı, Qarabağlar, Bölkön, Xəzəyurd) ibarət idi.[74] Köhnə Şamaxı, Salyan, 329 kəndi və 44 köçəri-elatı[75] birləşdirən xanlığın ərazisində 235 min nəfər əhali yaşayırdı.[76] Şirvan xanlığı rus işğalı ərəfəsində əhalisinin sayına görə birinci yeri tuturdu. Lahıcda silah zavodu fəaliyyət göstərirdi. Onun məhsulları digər Azərbaycan vilayətlərinə, həmçinin Dağıstana və İrana göndərilirdi.[77]

Şamaxı xanının yalnız Salyanda əldə etdiyi illik gəlir (balıq vətəkələri də daxil olmaqla) 60 min rubla çatırdı.[78] Xanlığın pul vahidi olan gümüş abazalardan qonşu xanlıqlarda da istifadə olunurdu.[79] Xanlığı köçəri xan çobanı tayfasının nümayəndəsi orta yaşlı xalq tərəfindən sevilən Mustafa xan (1792-1820) idarə edirdi.

Gəncə xanlığı. Qazax sultanlığından başlayaraq Kür çayı boyunca cənuba doğru uzanan Gəncə xanlığı İrəvan və Qarabağ xanlıqları əhatəsində yerləşirdi. Samux, Kürəkbasan, Gəncə, Şamxor və Ayrım mahallarından ibarət idi. Ərazisi 5000 kv. verst idi.[80] Gəncə şəhərini, 78 kəndi və köçəri elatı[81] birləşdirən xanlığın ərazisində 18500 nəfər əhali yaşayırdı.[82] Xanlığın şimali-qərbində yerləşən və əsasən Gürcüstanla həmsərhəd olan Şəmşəddil sultanlığının ərazisi 4200 kv. verst idi.[83] Rus işğalı ərəfəsində sultanlığın əhalisinin sayı barədə məlumatımız yoxdur. 1831-ci il siyahıya alınmasına görə 50 kəndi birləşdirən sultanlıqda 20 minə yaxın əhali yaşayırdı ki, onların 3/4 hissəsi azərbaycanlı idi.[84] Gəncə xanlığının 12-13 minə yaxın qoşunu var idi.[85] Qoşunların sayının əhaliyə nisbətdə çox olması yəqin ki, onların əsasən muzdlulardan təşkil olunmasını göstərir. Xanlığın gəliri ildə 50 min rubla[86] çatırdı ki, onun da əsas hissəsi şəhər sənətkarlarından və ticarətdən əldə edilirdi.[87] Pul vahidi kimi əsasən «Cavadxan manatlarından» istifadə olunurdu.[88] Xanlığı ciddi, tədbirli, həmçinin öz sözünün ağası olan, Qacarlar tayfasının 50 yaşlı nümayəndəsi Cavad xan (1785-1804) idarə edirdi.

İrəvan xanlığı. Araz çayından şimalda yerləşən İrəvan xanlığı İran, Türkiyə, Gürcüstan həmçinin Gəncə, Qarabağ və Naxçıvan xanlıqları ilə həmsərhəd idi. Bir şəhəri və 521 kəndi birləşdirən xanlıq Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkən-Parçenis, Saatlı, Talin, Seyidli-Axsaxlı, Sərdarabad, Karpibasar, Abaran, Dərəçiçək, Göyçə mahallarına bölünürdü.[89] Xanlığın şimalında yerləşən Şoragil sultanlığının və Pömbək əyalətinin də həmçinin İrəvan xanlığına mənsub olmasını artıq yuxarıda qeyd etmişdik. Xanlığın ümumi ərazisi 21.554 kv. verst idi.[90] Əhalisi (Pəmbək-

---

[73] Obozrenie…, III hissə, s.62.
[74] Opisanie Şirvanskoy provinüii, sostavlennoe v 1820 qodu. Tiflis, 1867, s.2-280.
[75] Yenə orada.
[76] Römin V.A. Göst. əsəri, s.381.
[77] Obozrenie…, III hissə, s.124.
[78] Bronevskiy S. Göst. əsəri, s.424.
[79] Obozrenie…, III hissə, s.134-135.
[80] Yenə orada, I hissə, s.322.
[81] Yenə orada, s.367.
[82] Römin V.A. Göst. əsəri, s.381.
[83] Obozrenie…, I hissə, s.256.
[84] Obozrenie…, I hissə, s.256-257.
[85] Yenə orada, s.353.
[86] Yenə orada.
[87] Altğman M.M. «Qandja s 1606 po 1804 q.» – TİEA inv. 1691, s.62.
[88] Obozrenie…, I hissə, s.401.
[89] Şopen İ. Göst. əsəri, s.482-488
[90] Obozrenie…, I hissə, s.22; 303.

Şoragil istisna olmaqla) 17 min ailə[91] təxminən 90.000 (bəzi mənbələrdə isə 115 min)[92] nəfər idi. Bu əhalinin təxminən 16 min nəfəri müsəlman kürdlər (2924 ailə), 20.073 nəfəri ermənilər, 324 nəfər yezidi kürdlər, qalanları, yəni 59%-i azərbaycanlılar idi.[93]

Pəmbək-Şoragil sultanlığının əhalisi 1829-cu il siyahıya alınmasına görə təqribən 32 min nəfər idi ki, onun da 20 mini yeni gələnlər (ermənilər) təşkil edirdi.[94] Rus işğalı ilə əlaqədar köçən müsəlmanları nəzərə alsaq işğal ərəfəsində sultanlıqda təqribən 15-17 min nəfər əhali yaşadığı aydın olar.

Xanlığın qoşunları atlılardan təşkil olunmuş iki sərbaz batalyonunda və bir neçə altıfuntluq səhra toplarından ibarət idi. Bununla yanaşı qalaların xüsusi artelliriyası mövcud idi.[95] Xanlığın mərkəzi «İrəvan» qalası həm təbii, həm də sənət baxımından məşhur idi.[96] İşğal ərəfəsində İrəvanda ticarət çiçəklənmə dövrü keçirirdi.[97] İldə 60.000 puda yaxın pambıq-parça istehsal olunurdu.[98] İllik gəlir 338 min rubla çatırdı.[99] Xanlığın başında sərdar titulu daşıyan orta yaşlı, ədalətli və öz rəiyyəti tərəfindən sevilən Məhəmməd xan Qacar dururdu.

Bakı xanlığı. Əsasən Abşeron yarımadasında yerləşən Bakı xanlığı şimalda Quba xanlığı cənub-qərbdə isə Şirvan xanlığı ilə əhatə olunurdu. Bakı şəhərini və 40 kəndi birləşdirən xanlığın ərazisi 2800 kv. verst,[100] əhalisi isə 7600 nəfər[101] (bəzi mənbələrdə isə 9144 nəfər)[102] idi. Hərbi-siyasi cəhətdən zəif olan xanlığın 2000 qoşunu var idi.[103] Neft, duz və zəfəran əsas əmtəə malları idi.[104] Xanlığın mərkəzi Bakı Xəzər dənizində əsas liman şəhəri idi və gömrük xidmətindən xeyli gəlir əldə edilirdi. S.Bronevskinin verdiyi məlumata görə 1807-ci ildə neft satışından və gömrük xidmətindən əldə edilən gəlir 116 min rubla çatmışdı.[105] Xanlığı Hüseyn Qulu xan (1792-1806) idarə edirdi.

Talış xanlığı. Xəzər dənizi və Talış dağları arasında yerləşən xanlıq şimalda Muğan düzünün bir hissəsi cənubda İran vilayətləri ilə həmsərhəd idi. Ərazisi təxminən 8000 kv. verst idi.[106] Talış xanlığı 6 mahala bölünürdü (Ərkivan, Dərin, Alar, Məringül, Züvənd və Sepidac) Lənkəran şəhərini və 235 kəndi birləşdirən xanlıqda[107] 40 minə yaxın əhali yaşayırdı.[108] Xanlığı Rusiya tərəfdarı Mir Mustafa xan (1791-1814) idarə edirdi. 1799-cu ildə yeni İran şahı Fətəli şahi Mir Mustafa xanı Rusiyaya olan meylindən döndərmək üçün ona Ərdəbili güzəştə getməyi vəd etmişdi.[109]

---

[91] Şopen İ. Göst. əsəri, s.1215-1216.
[92] Römin V.A. Göst. əsəri, s.381.
[93] Şopen İ. Göst. əsəri, s.529-530; 539-540; 635-638.
[94] Obozrenie…, I hissə, s.303.
[95] Şopen İ. Göst. əsəri, s.451-452.
[96] QAKA, 1 cild, sənəd 34.
[97] Şopen İ. Göst. əsəri, s.873-874.
[98] Obozrenie…, I hissə, s.51.
[99] Şopen İ. Göst. əsəri, s.873-874.
[100] Obozrenie…, IV hissə, s.5, 40.
[101] Römin V. Göstr əsəri, s.381.
[102] Abdullaev Q. Azebaydjan v XVIII v., s.239.
[103] Obozrenie…, IV hissə, s.65.
[104] Obozrenie…, IV hissə, s.65.
[105] Bronevskiy S. Göst. əsəri, s.404.
[106] Obozrenie…, IV hissə, s.175.
[107] Yenə orada, s.363.
[108] Römin V.A. Göstr. əsəri, s.381.
[109] Butkov P.Q. Göst. əsəri, s.434.

Naxçıvan xanlığı. Sənədlərdə əsasən «ölkə» və yaxud «tuman» adlandırılan[110] Naxçıvan Araz çayı ilə Zəngəzur yaylası arasındakı ərazidə yerləşirdi. 1790-cı ilə qədər müstəqil olan Naxçıvan xanlığı Naxçıvan, Ordubad, Mehri və Qapan vilayətlərindən ibarət idi. Xanlıq yarım köçəri Kəngərli tayfasının nümayəndəsi ağıllı, igid Kəlbəli xan tərəfindən idarə olunurdu. Kəlbəli xan II İrakli ilə dostluq etdiyi üçün Tiflisdən qayıdan Ağa Məhəmməd şah onu öz düşərgəsinə dəvət etmiş, gözlərini çıxararaq Tehrana göndərmişdi. Nəticədə Naxçıvan xanlığı öz müstəqilliyi ilə yanaşı 2 vilayətini (Mehri, Qapan) də itirmişdi. Xanlığın idarəçiliyi Kəlbəli xanın əmisi oğlu Abasqulu xana tapşırılmışdı.[111] Bundan sonra Naxçıvan gah Təbrizdən, gah da İrəvandan idarə olunurdu.[112]

İşğal ərəfəsində Naxçıvan Əlincəçay, Naxçıvan, Məvəzixatun, Xoy, Dərəlgöz mahallarından və Ordubad vilayətlərindən ibarət idi.

Ərazisi 4500 kv. verst idi.[113] Naxçıvan, Ordubad şəhərlərini və 231 kəndi birləşdirən xanlıqda 30 min nəfərdən çox əhali yaşayırdı.[114] Xanlığın qoşunları 800 piyadadan və 200 atlıdan ibarət idi. Atlılar ancaq Kəngərli tayfasından seçilirdi.[115] XIX əsrin əvəllərində Kəlbəli xan azad edildi və İrəvanda yaşamağa icazə aldı. O, İrəvanda da xanlığın idarəçiliyini həyata keçirən əsas sima idi.[116]

Dərbənd xanlığı. Xəzər dənizi sahilində yerləşən Dərbənd xanlığı şimalda Darbax, cənubda Samur çayları ilə qərbdə isə Tabasaran vilayəti ilə əhatə olunmuşdu. Ərazisi 680 kv. verst idi.[117] Xanlıq Dərbənd şəhərindən və 9 kəndi birləşdirən Ulus mahalından ibarət idi.[118] XIX əsrin əvvəlində Dərbəndin əhalisi 10 min nəfər idi.[119] Xanlığın əhalisi yalnız Dərbənd şəhərinin əhalisindən ibarət idi. Belə ki, 1800-ci ildə Şeyxəli xan, kiçik qardaşı Dərbənddə xan elan edildikdən sonra oraya hücum edərək Ulus mahalının əhalisini Qubaya köçürmüşdü. Həsən xanın tabeliyində yalnız Dərbənd şəhəri qalırdı.[120] Bu dövrdə Dərbənddə 2189 qədər ev, 15 məscid, 450 dükan və karvansaray, 30 ipək fabriki, 113 sex var idi.[121] Onu da qeyd etmək lazımdır ki, Quba xanlığının parçalanmasında Şeyxəli xanın da müəyyən «rolu» olmuşdur. O, ikrah doğuran hərəkətlərilə əhalinin əksər hissəsini özünə qarşı qaldırmışdı.

Car-Balakən camaatlıqları. Azərbaycanın şimal-qərbində Alazan çayının sol sahilində yerləşən Car-Balakən camaatlıqları Car, Balakən, Katex, Tal, Muxax və Cinix icmalarından ibarət idi. 61 kəndi birləşdirən 6 icmada 40 minə qədər əhali yaşayırdı.[122] İcmalar əsasən yaxınları birləşdirən toxumlara bölünürdü. Hər icmanın idarəsi xalq və ya toxumlar tərəfindən seçilən kevxalara, başçılara, qazilərə və yaxud da baş ruhani şəxslərə həvalə edilirdi.[123]

---

[110] Perednəə Aziə v dokumentax. Naxçıvanskie rukopisnıe dokumentı XVII-XX v., I kitab, Tibilisi, 1936, s.9.
[111] Statistiçeskoe opisanie Naxçıvanskoy provinüii, Spb., 1833, s.49.
[112] Perednəə Aziə v dokumentax, s.9
[113] Obozrenie…, IV hissə, s.300.
[114] Şopen İ. Göst. əsəri, s.509-510; 539-540.
[115] Obozrenie…, IV hissə, s.325.
[116] Statistiçeskoe opisanie Naxçıvanskoy provinüii, s.50.
[117] Obozrenie…, IV hissə, s.151.
[118] Alkadari Q. Asari Daqestan. Maxaç-Kala, 1929, s.111.
[119] Materialı po istorii Daqestana i Çeçeni, III cild, I hissə, Maxaçkala, 1940, s.32.
[120] Bakıxanov A. Göst. əsəri, s.183.
[121] Materialı po istorii Daqestana i Çeçeni, s.32.
[122] Petruşevskiy İ.P. Djar-Balokanskie volğnıe obhestva v pervoy treti XIX stoletiə. Tiflis, 1034, s.21.
[123] Sbornik qazetı Kavkaz. Tiflis, 1847, s.378.

Borçalı sultanlığı. Gürcüstan və İrəvan xanlığı arasındakı ərazidə yerləşən Borçalı sultanlığı qərbdə Türkiyə ilə həmsərhəd idi. Ərazisi 8000 kv. verstə yaxındır.[124] 1832-ci il siyahıyalınmasına görə sultanlıqda 145 kənd var idi.[125]

Qazax sultanlığı. Gəncə xanlığının qərbində yerləşən Qazax sultanlığı şimalda Gürcüstanla həmsərhəd idi. 69 kəndi birləşdirən sultanlığın ərazisi 3200 kv. verst idi.[126] Rus işğalı ərəfəsində Borçalı və Qazaxda 20 min nəfər əhali yaşayırdı.[127]

İlisu sultanlığı. Şəki xanlığının qərbində yerləşən İlisu sultanlığı şimalda Kür xanlığı ilə həmsərhəd idi. Ərazisi 2100 kv. verst idi.[128] İşğal ərəfəsində sultanlıqda 12000 nəfər əhali yaşayırdı.[129] Hakimiyyət irsi xarakter daşıyırdı və sultan tərəfindən idarə olunurdu.

### § 2. İşğalın başlanması və gedişində xalqın müstəmləkəçilərə qarşı mübarizəsi.

XIX əsrin əvvəllərində Rusiyanın xarici siyasətində cənubi Qafqaz mühüm yer tuturdu. İşğalçılıq siyasəti yürüdərək imperiyanın ərazisini genişləndirən və xalqları əsarət altına alan çar Rusiyası Cənubi Qafqazda da öz planlarını həyata keçirmək üçün geniş hazırlıq işləri görürdü. Və bu hazırlıq Gürcüstanın Rusiyanın himayəsinə qəbul olunduğunu elan edən 1800-ci il 18 dekabr manifesti ilə başa çatdı. Bununla da Cənubi Qafqazda fəal hərbi müdaxilənin əsası qoyuldu və Şərqi Gürcüstan cənubda yeni torpaqlar ələ keçirməyə çalışan çar Rusiyasının hərbi istinadgahına çevrildi. Elə «Qafqazın və Zaqafqaziyanın qəti işğalı Gürcüstanın birləşdirilməsindən sonra başlandı».[130]

Rus qoşunlarının ilk dəstəsi general-mayor Lazarevin başçılıq etdiyi 17 yeger alayı hələ manifest elan edilməzdən qabaq, 1799-cu il noyabrın 27-də Tiflisə daxil olmuşdu. Bu vaxt artıq mülki müşavir Kovalenski də Gürcüstanda idi.[131] 1800-ci ilin iyulunda isə I Pavel Gürcüstandakı qoşunların gücləndirilməsi haqqında fərman verdi. Başqa bir fərmanla isə mülki işlər Knorringə, hərbi işlər isə Lazarevə həvalə edildi.[132]

Çarizm «strateji və iqtisadi mövqeyinə görə Azərbaycana böyük əhəmiyyət verirdi».[133] Müxtəlif xanlıqlardan, sultanlıqlardan və azad icmalardan ibarət olan Azərbaycan Gürcüstanın Rusiyaya birləşdirilməsilə nəhəng imperiyanın güclü və təcrübəli ordusu ilə üz-üzə dayanmış oldu. Hökm sürən feodal pərakəndəliyi, güclü dövlətin yoxluğu Azərbaycanın hərbi qüdrətini xeyli sarsıtmışdı. Xanlar arasında birliyin olmaması, müxtəlif meyllilik siyasi vəziyyəti daha da ağırlaşdırmışdı. Bütün bunlar Şimali Azərbaycanı işğal etməyə hazırlaşın çar Rusiyasının xeyrinə idi.

Çar manifesti 1801 – ci il fevralın 16 – da Tiflisdə xalqa oxundu və əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Pəmbək, Qazax, Borçalı və Şəmşəddil sultanlıqlarının Gürcüstanın

---

[124] Obozrenie…, II hissə, s.267.
[125] Obozrenie…, s.275.
[126] Yenə orada, s.213, 223.
[127] Römin V.A. Göst. əsəri, s.381.
[128] Obozrenie…, I hissə, s.24.
[129] Römin V.A. Göstr. əsəri, s.381.
[130] «Russkaə starina», 1880 (may), s.3.
[131] Yenə orada, s.5-6.
[132] Butkov P.Q. Göst. əsəri, s.455.
[133] Azərbaycan tarixi, II cild, Bakı, 1961, s.1.

tərkibində Rusiyaya birləşdirildiyi bəyan edildi.[134] Bununla da Azərbaycanın çar Rusiyası tərəfindən işğalının əsası qoyuldu. Bu yerli əhalinin, eləcə də İrəvan və Gəncə xanlarının kəskin narazılığına səbəb oldu. Borçalı və Qazaxda həyacanlar başlandı. Lazarev qazaxlılara məktub yazaraq onlardan gürcü qoşunla gəlib Davidə itaət göstərməyi tələb etdi, əks təqdirdə güclü qoşunla gəlib cəzalandıracağını bildirdi.[135]

İrəvan xanının müraciəti ilə 6000 pəmbəkli öz kəndlərini tərk edərək İrəvana pənah gətirdi.[136] Eyni zamanda İrəvan xanı öz nümayəndəsini Lazarevin yanına göndərərək Pəmbək vilayətinin ona məxsus olduğunu və bu haqda şahın fərmanı olduğunu bildirdi. Həmçinin İrəvan xanı Naxçıvan xanı ilə birlikdə qoşun toplayaraq rusları Pəmbəkə buraxmamaq qərarına gəldilər.[137] Pəmbəkdə həyacanları yatırmaq üçün gen. – m. Lazarevin başçılıq etdiyi qoşun hissələri 30 iyunda Pəmbəkə gəldi.[138] Eyni zamanda o İrəvan xanına məktub yazaraq pəmbəklilərin geri qaytarılmasını tələb etdi, əks təqdirdə rus imperatorunun qəzəbinə gələcəyini bildirdi.[139] Gürcü şahzadəsi David Pəmbəki xana güzəştə getdiyini bildirdi və İrəvan xanına ruslara tabe olmamağı tövsiyə etdi. Bunu o Gurcustanın işğaldan sonrakı ağır vəziyyəti ilə əsaslandırdı. Həmçinin gürcü şahzadələri David, Vaxtanq, Yulon və Aleksandr Gürcüstanı ruslardan təmizləmək üçün İrəvan xanından kömək istədilər.[140] Lakin bunları qulaq ardına vuran ruslar demək olar ki, bütün 14 kəndin əhalisini geri qaytardılar.[141] Bu ərazilərdə həmişəlik möhkəmlənmək və əhalini itaətdə saxlamaq üçün Pəmbəkdə 3 rota yerləşdirildi.

Gürcüstanla birlikdə Şəmşəddil sultanlığının da Rusiyaya qatıldığını eşidən yerli əhali oranı tərk edərək Gəncə xanlığına pənah gətirdi. Şəmşəddildə olan 2300 ailədən təxminən 1900-ü oranı öz ağaları idə birlikdə tərk etdi.[142] Bunun qarşısını almaq və «sakitliyi» bərpa etmək üçün 1801-ci ilin iyununda Lazarev Şəmşəddilə Solomon Avaldov başda olmaqla qoşun göndərdi.[143] Gəncə xanı Cavad xan öz nümayəndəsini Lazarevin yanına göndərərək ondan rus qoşunlarının Şəmşəddildən getməsini tələb etdi. Eyni zamanda o, Knorringə məktubla bildirdi ki, Şəmşəddil ta qədimdən Gəncəyə məxsus olmuşdur: «Şəmşəddili heç kim bizə verməyib və ona görə də onu bizdən almağa vəya başqasına verməyə heç kimin haqqı yoxdur. 700 ildir ki, şəmşəddil torpağı mənim nəslimə mənsub olmuş və bizə qulluq etmişdir».[144]

Qafqazdakı çar generalları ətraf əraziləri ələ keçirmək üçün müxtəlif vasitələrdən – şirnikdirmək, aldatmaq, qorxutmaq və bilavasitə silah tətbiq etməkdən çəkirmirdilər. Belə ki, Knorrink Cavad xana məktəbunda bildirir ki, padşahım mənə tapşırmışdır ki, ətraf ərazilərin hökmdarları və xalqları ilə mehriban qonşuluq münasibətlərində olum. Əslində isə o Lazarevə göstəriş verərək Şəmşəddildəki

---

134 Dubrovin N. İstoriə voynı i vladıçestva russkix na Kavkaze, III cild, SPb., 1886, s.372.
135 QAKA, I cild, sənəd 782.
136 Dubrovin N. Göst. əsəri, s. 402
137 Yenə onun, göst. əsəri, s. 403
138 QAKA, I cild , sənəd 799.
139Yenə orada, sənəd 800.
140 Dubrovin N. Göst. əsəri, s. 404.
141 QAKA, I cild, sənəd, 804.
142 Yenə orada, sənəd 786.
143 Yenə orada, I cild, sənəd 789.
144 QAKA, sənəd.819.

qoşunların sayının artırmağı tələb edirdi: «Silahımızın gücü ilə şəmşəddili Gəncə xanının qəsdindən qorumalıyıq».[145]

İyulun 22-də Lazarev Qazax və Borçalı camaatını itaətə gətirmək üçün yola düşdü.[146] Əksər ağaların müqavimətinə baxmayaraq onlar əhali ilə birlikdə rus imperatorunun sadiq tələbələri olacaqları haqda and qəbul etdirildi. Ağalardan beşi bu mərasimə gəlməməyi üstün tutdular.[147]

Çar I Aleksandr Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqındakı manifesti 1801-ci il 12 sentyabr fərmanı ilə təsdiq etdi. Baş komandan Knorringə göndərilən həmin fərmanda deyilirdi: «...Ətrafların hakimləri və xalqları ilə münasibətləri saxlamaqla yanaşı, Rusiyanın himayəsində olmaq istəyənlərin sayını artırmaq lazımdır. Xüsusilə İrəvan, Gəncə, Şəki, Şirvan, Bakı və başqa xanlıqları cəlb etmək lazımdır, çünki onların üzərində hələ Baba xanın (Fətəli xanın – V.U.) hakimiyyəti möhkəmlənməmişdir, buna görə də hazırkı vəziyyətdə onlar öz təhlükəsizlikləri üçün, əlbəttə, Rusiyaya meylli olacaqlar».[148]

1802-ci il mayın 24-də Lazarev 2 batalyon qoşunla Şəmşəddili «qorumaq üçün Tiflisdən yürüşə çıxdı. Heç bir xəbərdarlıq edilmədən rus qoşunları tərəfindən Şəmşəddilin tutulmasından təəcüblənən Cavab xan onlardan gəlmələrinin səbəbini izah etməyi tələb etdi: «Bir yerə yiyələnməkiki yolla olur, ya qanunla, ya da zorla. Əgər siz qanuna əsaslanırsınızsa, bu ədalətsizlikdir, yox əgər zorla edirsinizsə, elan edin – niyə?.. Hamıya məlumdur ki, nə qədər ki, mən sağam Şəmşəddili əldən verməröm».[149]

Başqa bir dəstə Şoragilə soxuldu. Bundan qəzəblənən Naxçıvan xanı Kəlbəli xan polkovnik Karyaginə məktubunda yazırdı: «Sizin kiçik dəstə ilə Şoragilə gəlməyinizi eşidib bilmək istəyirik, hansı məqsədlə bu hərəkət edilmişdir... Əgər gəlişiniz dostcasınadırsa bizə bildirin... Əgər başqa məqsədiniz varsa... cavab verin ölçü götürək».[150] Növbəti məktubunda (26/V-1802) Kəlbəli xan yazırdı: «Bildirirsiniz ki, mən Pəmbək xalqına hədə göndərmişəm... Bilməlisiniz ki, biz Pəmbək xalqından razıyıq və əgər razıyıqsa neyçün hədə-qorxu gəlməliyik. ...Sizin qoşunla gəlib bizim torpaqda dayanmağınız yaxşı deyil. Xahiş edirəm geriyə öz torpağınıza gedin. Əgər getməsəniz, deməli bizimlə düşmən olmaq istəyirsiniz və biz sabah gələrik...».[151]

Bütün cəza tədbirlərinə baxmayaraq əhali yeni vəziyyətlə barışmağa çətinlik çəkir, qaçmağı, özü də ellikcə öz ata-baba yurdlarını tərk etməyi üstün tuturdular. Belə ki, 1802-ci ilin yayında yalnız Qazax sultanlığından 3 ağa 31 ailə ilə birlikdə İrəvan xanının yanına qaçmışdı.[152]

Sultanlıqların əraziləri rus qoşunları tərəfindən tutulduqdan sonra, Manifestə əlavə olaraq qəbul edilmiş Gürcüstanın daxili idarəçiliyi haqda qərara görə Qazax, Borçalı və Pəmbəyə gürcü knyazlarından pristav təyin edildi və ona rus məmurlarından bir köməkçi ayrıldı.[153] Bu hal da azərbaycanlı əhaliyə olan münasibəti tam aydınlığı ilə büruzə verir. Bundan əlavə, Qazax, Borçalı və

---

[145] Yenə orada, sənəd 791.
[146] Yenə orada, sənəd 800.
[147] Yenə orada, sənəd 781.
[148] QAKA, I cild, sənəd, 548.
[149] Yenə orada, sənəd 821.
[150] Yenə orada, sənəd 625.
[151] Yenə orada, I cild, sənəd 626.
[152] QAKA, sənəd 781.
[153] PSZ, s.785.

Pəmbək sakinləri ildə 35.000 rubl vergi ödədikləri halda Tiflis əhalisi ildə cəmi 4.000 rubl vergi ödəməli idi.[154]

1802-ci ildə imperator tərəfindən 1794-cü il Polşa üsyanının amansızcasına yatırılmasının fəal iştirakçısı və 1796-97-ci illərdə Bakı qalasının komendantı olmuş, keçmiş gürcü knyazları nəslindən olan P.D.Sisyanovun Qafqazdakı qoşunların baş komandanı təyin edilməsi çarizmin işğalçılıq planlarını daha da reallaşdırdı. Müstəmləkə siyasətinin fəal tərəfdarı olan bu knyaz, özünün əsas vəzifəsini Rusiyanın Cənubi Qafqazda əldə etdiyi strateji əməliyyat meydanını genişləndirərək, sərhədləri Kür və Araz çaylarına çatdırmaqda və bu vilayəti Türkiyə və İrandan olan xristianlarla məskunlaşdırmaqda görürdü.[155] Ümumiyyətlə, qafqazlılara ikinci növ adamlar kimi baxan və onları nifrətlə «kafir xalq», «kafir asiyalı», «kafir yaramazlar» adlandıran bu knyaz bütün yerli hökmdarlarla öz əlaltısı kimi davranmağı üstün tuturdu. I Aleksandr Sisyanova tam fəaliyyət azadlığı vermiş və bunun səmərəsini artırmaq naminə Xəzər donanmasının ixtiyarını da ona tapşırmışdı.[156]

İşğal ərəfəsində Rusiyanın Cənubi Qafqazda siyasi rəqibləri çox zəif idilər və işğala mane olmaq gücündə deyildilər. Gürcüstanın Rusiyaya birləşdirilməsi və İranın buna syrçi qalması artıq İranın siyasi nüfuz dairəsinin xeyli zəif olduğunu göstərirdi. İranın daxili vəziyyətini də bura əlavə etsək, aydın olar ki, XIX əsrin əvvəllərində İran Cənubi Qafqazda Rusiyaya mane ola biləcək siyasi və hərbi qüvvəyə malik deyildi. Nəticədə İranın bütün cəhdləri Rusiya tərəfindən zərərsizləşdirilirdi. Petruşevskinin dediyi kimi, «yeni İran şahı Zaqafqaziyada fəallıq göstərmirdi».[157]

Bu dövrdə Rusiya Türkiyəni Cənubi Qafqazda nəinki ciddi rəqib hesab etmir, əksinə «Rusiyanın Türkiyəyə münasibəti işğalçılıq xarakteri daşıyırdı və o, Osmanlı imperiyasının zəifliyindən istifadə edib, ərazilərini öz əlinə keçirməyə çalışırdı».[158]

İngiltərə və Fransanın bölgədəki siyasi və diplomatik fəaliyyəti Rusiya üçün keçilməz sədd deyildi. Həmin ölkələrin İran və Türkiyə ilə yaxınlaşmaları və ya hər hansı siyasi uğurları və diplomatik gedişləri işğalın qarşısını ala biləcək gücə malik deyildi. Eyni zamanda bu dördlük arasında tez-tez baş verən ciddi ixtilaf və qarşıdurmalar da vəziyyətə mənfi təsir göstərirdi.

Bunlara baxmayaraq həmin dövlətlər xüsusilə İran və Türkiyə bütün vasitələrlə işğalın qarşısını almağa çalışır və bunun üçün mübarizə aparan bütün yerli əhalini hər vəchlə dəstəkləyirdi.

Gürcüstanı özünə birləşdirən Rusiya bu hadisəni «xalqın tələbi», «xristianların müdafiəsi», «sərhədlərin müsəlmanlardan qorunması» adı altında aparsa da, artıq Gürcüstandakı vəziyyət bunun ancaq işğal olduğunu və yalnız Rusiyanın öz siyasi maraq dairəsindən irəli gəldiyini göstərir və «Gürcüstanı xilas edən Rusiyanın» yeni ərazilər işğal etməsi üçün cənuba doğru irəliləməsi artıq heç kəsdə şübhə doğurmurdu. «...Öz təbii sərhədlərindən çıxan böyük Rusiya dövləti artıq öz işğalçılıq hərəkətlərində dayana bilməzdi və addım-addım Asiyanın içərilərinə girməyə məcbur idi».[159]

---

[154] Opisanie Kavkaza, s.57,65.
[155] Spiski naselennıx mest Rossiyskoy imperii po Kavkazskomu kraö, cild XV, Tiflis, 1870, s.82.
[156] Kavkazskiy kalendarğ na 1848 qod, Tiflis, 1847, s.141.
[157] Bax: TİEA, inv. 747, s.20.
[158] Kinəpina N. Vneşnəə politika Rossii, I cild, Moskva, 1960, s.7.
[159] Serqey Meç. Kavkaz, 1905, s.112.

Gürcüstanın Rusiyaya birləşdirilməsilə bu vilayətin Bakı və Xəzər dənizi ilə əlaqəsini təmin etmək zərurəti meydana çıxdı.[160] Ümumiyyətlə, bu dövrdə çarizmin Qafqazdakı siyasəti əsasən hərbi-strateji xarakter daşıyırdı və Xəzər və Qara dənizin «rus gölünə» çevrilməsinə istiqamətlənmişdi.[161] 1802-ci ilin dekabrında I Aleksandrın Sisyanova verdiyi göstərişdə deyilirdi: «Xəzər dənizində yalnız Rusiyanın bayrağı dalğalanmalıdır».[162]

Xəzərsahili vilayətlərin tutulmasına birinci dərəcəli əhəmiyyət verən çar hökuməti Dərbənd, Quba, Bakı və Talış xanlarını öz tərəfinə çəkmək üçün bütün vasitələrdən istifadə edirdi. Məsələn, Talış hakimi Mir Mustafa xana Baba xandan (Fətəli xan) müdafiə olunmaq üçün kömək etmək vəd edilir,[163] Dərbəndli Həsən xana müxtəlif hədiyyələr göndərilir,[164] Bakı hakimi Hüseynqulu xana «düşmənlərdən» qorunmaq üçün Bakı mahalına daxil olan bütün kənd və yerlərlə birlikdə Rusiyanın himayəsinə keçmək tövsiyə edilirdi.[165]

Eyni zamanda Knorrinq Bakıda olan Rusiyanın İrandakı səfiri Skibnevskidən imperator fərmanına uyğun olaraq Xəzər sahili vilayətlərin Rusiya tərəfinə cəlb edilməsini tələb edirdi. Skibnevski isə cavabında yazırdı: «...Qubalılar və dərbəndlilər ara müharibələrindən xeyli zərər çəkdiklərindən və xeyirxah başçıları olmadığından Gürcüstanın bəxtinə həsəd aparırlar; bunun əksinə olaran bakılılar və şirvanlılar ticarət və əkindən kifayət qədər gəlir götürürlər, öz və qonşu xanlarının ittifaqı nəticəsində ağılla idarə olunduqlarından... eyni zamanda ruhanilərdən öyrənirlər ki, xristianlardan himayə axtarmaq günahdır... himayə arzu etmirlər... Şəki və Gəncə xalqı da demək olar ki, bu fikirdədir».[166]

1802-ci ildə Həsənəli xan öldü və Şeyxəli xan Dərbənddə hakimiyyəti ələ keçirdi.[167] Dərbənd və Quba xanlığını birləşdirən Şeyxəli xan Bakıya da öz iddiasını bildirdi.[168] 1803-cü ilin yanvarında Sisyanov qraf Vorontsova təqdimatında yazırdı: «Belə hesab edirəm ki, ilk əlverişli vaxtda Dərbənd tutulmalıdır, belə ki, bu mənə göndərilmiş göstərişin ümumi planına daxildir...».[169] Lakin bütün dağlı hakimlərin rus hökumətinə olan inamını itirməkdən qorxan çar hökuməti hələlik Sisyanovun Dərbəndi tutmaq təklifinə razılıq vermədi. Çarın reskriptində deyilirdi: «...Bakı, Salyan və b. Xəzərsahili yerlərə ekspedisiya hələ tezdir».[170] Beləliklə, Sisyanovun Car-Balakən hücumu qərarlaşdırıldı.

Ruslar Azərbaycanan şimal-qərb bölgəsində mövcud olan azad icmaları məhv etməyi qarşıya məqsəd qoymuşdular. Hərbi-strateji baxımdan çox əlverişli mövqedə yerləşən Can-Balakən Gürcüstan və Dağıstanda Rusiyanın siyasətinə müəyyən təsir göstərirdi. Görkəmli tarixçi İ.P.Petruşevskinin dediyi kimi «Rus hökuməti Car keçidlərini tutmadan Dağıstanın işğalına başlaya bilməzdi»[171] və onun Cənubi Qafqazda möhkəmlənməsi qeyri-mümkün idi. Ona görə də çarizm özünün təcavüz planını həyata keçirmək üçün məhz buradan başlamağı nəzərdə tutmuşdu.

---

[160] Baku i eqo okrestnosti. Tiflis, 1891, s.16.
[161] İqamberdıev M.A. Göst. əsəri, s.54
[162] QAKA, II cild, sənəd 1622.
[163] Yenə orada, III cild, sənəd 641.
[164] Russko-Daqenstanskie otnoşeniə v XVIII-naç. XIX v., Moskva, 1988, s.251.
[165] Baku i eqo okrestnosti, Tiflis, 1891, s.764.
[166] QAKA, I cild, sənəd 640.
[167] Alkadari Q. Göst. əsəri, s.112.
[168] Dubrovin N. Zakavkazğe ot 1803-1806 qoda, SPb., 1866, s.77.
[169] QAKA, I cild, sənəd 757.
[170] Yenə orada, sənəd 782.
[171] Petruşevskiy İ.P. Göst. əsəri, s.3.

Artıq 1801-ci ildə bu siyasəti həyata keçirməyə hazırlaşan çar Rusiyası tərəfindən «Azalan çayı sahillərini öyrənmək və orada istehkam qurmaq üçün Car sərhəddinə kazak dəstələri göndərilir».[172] Eyni zamanda ruslar car-balakənlilərin Gürcüstana hücum edəcəyi barədə şaiyələr yayaraq, əhalidə onlara qarşı qəzəbi artırır, Car-Balakəni tutmaq üçün zəmin hazırlayırdılar. Artıq yerli gürcü əhalisi də bu yürüşdə iştirak etməyə hazır idi. «Car-balakənlilərin kəndləri tamamilə dağıdılmayınca onlar sakit oturmayacaqlar. Payızda mən Kizikdə (Şərqi Gürcüstanda – V.U.) olarkən bütün əhali bunu qətiyyətlə tələb edir və arzulayırdı...».[173]

Hadisələrin gedişi göstərirdi ki, rus qoşunlarının Car-Balakən yürüşü qarşısıalınmazdır. Artıq Car sərhəddində xeyli qoşun toplaşmışdı. Sisyanovun bu hücuma başçılıq edəcək gen.-m. Qulyakova göstərişində deyilirdi: «...Siqnaxa yola düşün... orada yerləşən rotalara yürüşə hazırlaşmaq üçün əmr verin».[174]

1803-cü il martın 2-də Qulyakov başda olmaqla 3 batalyon piyada, 8 top, 200 kazak və 4000 gürcü piyadası, 500 gürcü atlısından ibarət dəstə Cara tərəf hərəkətə başladı.[175]

Şəki xanının, gürcü şahzadələri Aleksandr və Teymurazın, eləcə də Dağıstanın bəzi feodal hakimlərinin köməyinə bel bağlayan car-balakənlilər rus qoşunları ilə vuruşmaq qərarına gəldilər. Müdafiəyə hazırlaşan yerli əhali səngərlər qazır, meşələrdə keçilməz sədlər düzəldirdi. «Lakin onlar bilmədilər ki, od yağdıran ildırıma kol-kos mane ola bilməz və göydən enən bəlanı tədbir qalxanı dəf edə bilməz».[176] Müttəfiqlərindən lazımi kömək almayan car-balakənlilər rus qoşunlarının hücumunun qarşısını al bilmədilər və güclü top atəşlərindən sonra geri çəkilməyə məcbur oldular. «Rusiya qoşunları ova həris şahintək Qanıq (Alazan) çayını keçdilər».[177]

Davam gətirməyən carlılar Balakənə çəkilməli oldular. Balakənə qədər bütün kəndlər boşaldıldı. Rus qoşunları kiçik döyüşdən sonra Balakəni alaraq yerlə-yeksan etdilər. Gürcülər bütün ətraf kəndləri və Balakəni yandırdılar.[178]

Tezliklə qalan bütün ərazilərin tutulacağını başa düşən Şəki xanı Məhəmməd Həsən xan rus qoşunlarının hücumunun qarşısını almaq üçün Sisyanova məktub yazaraq, tərəfləri barışdırmaqda vasitəçilik etməyə hazır olduğunu bildirdi. Sisyanov Şəki xanına məktubunda yazırdı: «...Car-Balakən ya susdurulmalı, ya da yer üzündən silinməlidir... Mən Sizin vasitəçiliyinizlə aşağıdakı şərtlərlə Cara və Balakənə sülh və əmin-amanlıq verməyə hazıram. Amma bu şərtlər sözsüz yerinə yetirilməlidir». Məktuba əlavə edilən həmin şərtlərə əsasən rus qarnizonu həmişəlik Car-Balakəndə yerləşdirilməli, əhali ipəklə xərac ödəməli və girov verməli idi.[179]

Lakin carlılar bu şərtləri yerinə yetirməkdən imtina etdilər.

Sisyanov münasib vaxtdan və əhalisinin özünü itirməsindən istifadə edərək Carı tutmağı Qulyakova tapşırdı. Güclü müqavimətə rast gəlməyən rus qoşunları Carı tutdular. Tamamilə məhv

---

[172] QAKA, I cild, sənəd 435.
[173] Yenə orada, sənəd 592.
[174] QAKA, II cild, sənəd 1382.
[175] Dubrovin N. Zakavkazğe…, s.93.
[176] Mirzə Adıgözəl Bəy. «Qarabağnamə» – Qarabağnamələr, s.65.
[177] Yenə orada.
[178] Dubrovin N. Zakavkazğe…, s.95.
[179] QAKA, II cild, sənəd 1383.

olmaqdan yaxa qurtarmaq və düşmən qoşunlarının vəhşiliyinə son qoymaq üçün bütün icmalar öz nümayəndələrini Qulyakovun yanına, o isə nümayəndələri Tiflisə Sisyanovun yanına göndərdi.

1803-cü il aprelin 12-də Sisyanov bu nümayəndələrə elan etdiyi şərtlərə görə Car-Balakən camaatları Rusiyanın himayəsini qəbul etməli, ildə 220 pud ipək verməli və sadiq qalmalarına zəmanət üçün bütün icmalar girov verməli idi. Ruslara istədikləri kəndlərdə qoşun yerləşdirmək hüququ verilirdi və s.[180]

Bu yerlərdə həmişəlik möhkəmlənmək üçün Sisyanovun əmrinə əsasən Alazan çayının sol sahilində Aleksandr adlandırılan istehkam tikildi. Qulyakovun burada tikdirdiyi daha iki istehkamla rus əhalili məntəqələrin əsası qoyuldu.[181] İlisu sultanlığı da Car-Balakənlə birlikdə Rusiyanın himayəsinə alındı.[182]

Şəmşəddilin tutulması anından Cavad xan artıq özünü müharibə vəziyyətində hiss edir, imkanı daxilində və bacardığı qədər döyüşə hazırlaşırdı. Onun tələblərinə baxmayaraq, rus qoşunları nəinki Şəmşəddili tərk edir, hətta tezliklə bütün Gəncəyə sahib durmağa can atırdılar. Cavad xanla da öz əlaltısı kimi davranmaq istəyən Sisyanov Tiflisə gələn kimi xana məktub yazaraq bildirirdi: «Öz işləriniz haqda qısa izahat göndərin... Sadiq qalmağınız və dostluğumuz üçün sizdən xahiş edirəm girov olaraq böyük oğlunuz Uğurlu ağanı Tiflisə göndərəsiniz».[183] Əlbəttə, belə kobud sürətdə başqa dövlətin işlərinə qarışmaq, onun xanını təhqir etmək, təkcə rus ordusunun bu generalının şəxsi tərbiyəvi keyfiyyətlərini büruzə vermirdi. Bu təhqiramiz hədələr öz hərbi üstünlüyünü duyaraq, Gəncə kimi mühüm məntəqəni necə olursa-olsun tutmaq və ad-san qazanmaq məqsədi güdən hiyləgər bir sərkərdənin Cavad xanı təhqirlərə dözməyərək ehtiyatsız hərəkətlərə sövq etdirmək niyyətindən doğurdu.

Sisyanov 1803-cü ilin aprelində çar I Aleksandra göndərdiyi raportunda bildirir ki, «Samux bəylərini itaətə gətirdikdən sonra Kür çayını keçmək üçün keçid düzəldəcək və Şəmşəddildən özüm ən əvvəl Gəncəni fəth etmək üçün gedəcəyəm, oradan İrəvan və Bakını tutmaq üçün yürüşə çıxacağam».[184]

Gəncəni işğal etmək üçün böyük hazırlıq işləri görən Sisyanov yürüşə çıxmaq üçün Gürcüstana göndərilmiş iki yeni alayın gəlməsini gözləyirdi.[185] Ümumiyyətlə, bu vaxtlar Rusiyadan gələn alayların ardı-arası kəsilmirdi.[186] Həmçinin Sisyanov Qazax və Dəmirçisal mouravlarından yürüşdə iştirak etmək üçün hazırlıqlı və sursatlı döyüşçülər göndərilməsini tələb edirdi.[187] Belə ki, artıq Gürcüstanın birləşdirilməsindən sonra yerli azərbaycanlılardan ibarət süvari dəstələri təşkil edilmiş və bunun təxmini ştatı hərbi kollegiyanın məruzəsinə əsasən çar tərəfindən təsdiq edilmişdi.[188]

---

[180] Sbornik qazetı «Kavkaz» na 1846 qod, Tiflis, 1847, s.400.
[181] Potto V. Utverjdenie russkoqo vladıçestva na Kavkaze, Tiflis, 1901, s.77.
[182] QAKA, II cild, sənəd 1387.
[183] QAKA, II cild, sənəd 1171.
[184] Yenə orada, sənəd 1216.
[185] Yenə orada, sənəd 1171.
[186] Gsadze B.S. Letopisğ Qruzii. Tiflis, 1913, s.213.
[187] QAKA, II cild, sənəd 1171.
[188] PSZ, 43 cild, s.490.

Gəncə yürüşündə iştirak edəcək 6 batalyon və 12 topdan ibarət qoşun noyabrın 20-də Tiflisin Soğanlıq kəndinə toplaşdı. A.Bakıxanovun yazdığına görə Şəmşəddil sultanlı Nəsib bəy də baş komandanla birləşərək ona sədaqət göstərirdi.[189]

Noyabrın 29-da qoşunlarla Şamxora gələn Sisyanov hədə-qorxu dolu məktubu ilə Cavad xandan qalanı təslim etməyi tələb etdi: «Gəncə ərazisinə daxil olaraq Sizə gəlişimin səbəbini elan edirəm: 1) Gəncə, ətrafı ilə birlikdə Gürcüstana məxsus olmuş və gürcü çarlarının zəifliyi ucbatından ondan qoparılmışdır. Gürcüstanı öz himayəsinə qəbul edən Ümumrusiya imperiyası... Gəncənin yad əllərdə qalmasına laqeyd qala bilməz...; 2) ...mən qoşunla şəhəri almağa gəlmişəm... sizə şəhəri təslim etməyi təklif edirəm, əgər sabah günorta cavab almasam müharibə başlayacaq. Gəncə ətrafına od və qılınc gətirəcəyəm».[190]

Cavad xan isə Gəncənin Gürcüstana məxsus olmasını nəinki inkar edir, hətta bildirir ki, Gürcüstanın özü belə vaxtilə Gəncə bəyləri tərəfindən idarə olunmuşdur: «...Bu nağıla heç kim inanmaz (Gəncənin Gürcüstandan asılı olmasına – V.U). Amma əcdadlarımız Abasqulu xan və başqaları Gürcüstanı idarə etmişlər... Gürcüstanda onun məscid və dükanları qalır, bir çox gürcüdə əmrləri mühafizə edilir. İraklinin və atamızın dövründə Gəncə və Gürcüstan sərhədləri dəqiqləşdirilib... Padşahın fərmanı indi də əlimdədir. Bax gör, orada mən necə adlanıram: Gəncə bəylərbəyi, yaxud Gürcüstan vassalı? Buradan aydın olur ki, sözlərin tam yalandır».[191] Təslim olmağı ağlına belə gətirməyən Cavad xan müharibəyə hazır olduğunu bildirir: «Əgər sən mənimlə müharibə etmək istəyirsənsə, mən hazır, müvəffəqiyyət Allahın əlindədir».[192]

Tarixçi Mirzə Adıgözəl Bəy yazır ki, «rus orduları Gəncə torpağına girib ətrafı tutdu. Cavad xan öz adamlarını və qoşununu götürüb onların qabağına gəldi. Gəncənin iki verstliyində Qulu qobu adlı yerdə iki ordu üz-üzə gəldi və hərbi atəşi alovlandı... qoşunlar şəhərə girib içəri qalandı (ərki) dörd bir tərəfdən sıx surətdə mühasirəyə aldılar. Bir ay orada qaldılar».[193]

Həmin döyüşdə gəncəlilər 250 adam itirdilər, 200 şəmşəddilli və 300 erməni ruslara təslim oldu.[194]

Qeyd edək ki, yerli erməni əhalisi rus qoşunlarının xanlığı tutması üçün əllərindən gələn xidmətləri əsirgəməyiblər. Hələ 1803-cü ilin yanvarında Lazarevin Sisyanova raportunda göstərilirdi ki, «kazaklar tərəfindən tutulmuş iki erməni sorğu zamanı bildirmişlər ki, bütün Gəncə erməniləri rus qoşunlarının Gəncəyə gəlməsini səbrsizliklə gözləyirlər».[195] Buna cavab olaraq Sisyanov noyabrın 30-da Gəncə ermənilərinə müraciətində bildirirdi ki, «sizlərdən kim güclü rus dövlətinin himayəsinə sığınarsa, şəxsiyyəti və əmlakı bütün təhlükələrdən qorunacaqdır»[196]

Bir ay mühasirə müddətində Sisyanov beş dəfə hədələyici məktubla Cavad xandan qalanı təslim etməyi tələb etdi. Dekabrın 29-da o axırıncı məktubunda qalanın təslim olması haqqında şərtləri də göndərdi. Bu şərtlərə görə Cavad xan, bütün əhali ilə Rusiya himayəçiliyinə keçməli, qalanı təslim

---

[189] Bakixanova A. Göst. əsəri, s.153.
[190] QAKA, II cild, sənəd 1172.
[191] QAKA, II cild, sənəd 1173.
[192] Yenə orada.
[193] Mirzə Adıgözəl Bəy. Göst. əsəri, s.65.
[194] Dubrovin N. Zakavkazğe…, s.229.
[195] QAKA, II cild, sənəd 1168.
[196] Yenə orada, sənəd 1174.

etməli, ildə 20 min rubl bac verməli, Gürcüstandakı rus qoşunlarını ərzaqla təhciz etməli, nəhayət oğlu Hüseynqulu ağanı girov verməli idi.[197]

Bu dövr haqqında yazan müəlliflərin hamısı Cavad xanın qəhrəmanlıqla müdafiə olunduğunu bildirir. Sisyanovun qalanı təslim etmək haqda tələbinə Cavad xan belə cavab verirdi: «O ki qaldı şəhərin təhvil verilməsinə, xam xəyaldan əl çək, Gəncəyə yalnız meyidimin üstündən keçə bilərsən... özgə cür yox».[198]

Cavad xan bütün tələbləri rədd edib son döyüşə, ölüm-dirim müharibəsinə hazırlaşırdı. Burada başqa çıxış yolu tapmaq da mümkün deyildi, bəlkə də heç yox idi. Dediyi kimi o yalnız Allahın mərhəmətinə bel bağlayır və axıdılacaq qanlar üçün bütün günahların Sisyanovun boynuna düşməsini nəzərə alıb təskinlik tapırdı. Çünki o buraya gəlməsəydi və işğalçılıq iddiasına düşməsəydi bu qanlar axıdılmazdı.

Sisyanovun işlətdiyi hiylələr, gəldiyi hədə-qorxular Gəncəni döyüşsüz ələ keçirmək üçün bir nəticə vermir. Mühasirəni davam etdirmək isə getdikcə çətinləşirdi. Dekabrın 29-da hərbi şura ya geri çəkilməyi, ya da hücum etməyi qərarlaşdırmalıydı. Rus qoşunları üçün rüsvayçılıq olan birinci yol işğalçılıq planlarının puç olmasına gətirib çıxara bilərdi. Buna görə hərbi şura yanvarın 3-da hücum etməyi qərara aldı.

Sisyanov qoşunları iki cəbhəyə bölərək onları general-mayor Portnyaginə və polkovnik Karyaginə tapşırır. Birinci cərgə əvvəlcə gəncəlilərin cəbhəsini yarıb keçmək istəyir, amma bu mümkün olmur, sonra nərdivanlarla qala divarlarına hücuma keçirlər. Müqavimət o qədər güclü olar ki, rus qoşunları hər iki hücumda böyük itki verərək geri oturdulur. Lakin bu vaxt ikinci cərgə hücuma qoşularaq əsas qüllələri tutur.[199]

Mirzə Adıgözəl Bəy Cavad xanın son döyüşünü belə təsvir edir: «Orucluq bayramı gecəsi nərdivanla bir neçə tərəfdən barıya çıxmağa başladılar. Cavad xan barıya çıxanları igidlik və qoçaqlıqla dəf edirdi. Axırda mayor Lisaneviçin bir gülləsilə, həyat barısından yıxılıb, ölüm diyarına düşdü. Soldatlar dərhal dörd tərəfdən hücum edib şəhərə daxil oldular».[200] Qanlı döyüşlərdən sonra qala rus qoşunları tərəfindən tutuldu. Cavad xandan nümunə götürən qalanın müdafiəçiləri də qeyri-bərabər döyüşdə axıra qədər vuruşmuş, döyüş meydanından qaçmamışdılar. Müasirlərin dediyinə görə şəhərin içi meyidlərlə örtülübmüş. Ölülərin sayı 1500, əsirlərin sayı isə 17224 nəfər imiş.[201] Rəqəmlərdən göründüyü kimi bütün şəhər igidliklə müdafiə olunurmuş.

Ermənilər son döyüşdə də satqınlıqdan əl çəkmirlər. XIX əsrin rus hərb tarixçisi N.Dubrovin qeyd edir ki, «500-ə qədər tatar (azərbaycanlı – V.U) məscidə dolmuşdu, bir erməni bizim əsgərlərə dedi ki, onların arasında bir neçə Dağıstan ləzgisi var. Ləzgi adının çəkilməsi bütün məsciddəkilərin məhvinə işarə oldu».[202]

---

[197] QAKA, II cild, sənəd 1179.
[198] Yenə orada, sənəd 1178.
[199] Potto V. Göst. əsəri, s.91.
[200] Mirzə Adıgözəl Bəy. Göst. əsəri, s.66.
[201] QAKA, II cild, sənəd 1182.
[202] Dubrovin N. Zakavkağe..., s.284.

Gəncənin məğlubiyyətindən sonra, onan asılı olan Samux hakimi Şirin bəy Rusiya tabeçiliyinə köçməyə məcbur oldu.[203]

Gəncənin alınması Rusiyada böyük sevincə səbəb oldu. Sisyanova və təşəkkürünü bildirən Aleksandr, Gəncənin rus adı ilə adlandırılmasına icazə verdiyini bildirdi. Beləliklə, Gəncə I Aleksandrın arvadının şərəfinə Yelizavetpol adlandırıldı.[204]

Gəncə kimi xanlığın silah gücünə talan edilməsi və əhalinin kütləvi surətdə qırılması digər Azərbaycan xanlıqlarını da dəhşətə gətirdi. Bu Cənuba Qafqazda yeni müstəbid kimi peyda olan Sisyanovun şəxsində özünü daha qabarıq şəkildə büruzə verirdi, çünki o, başqa xanlıqları da bu vəziyyətə salacağı ilə qorxutmaqla onları çıxılmaz vəziyyətdə qoyurdu.

Hələ Gəncənin işğalından əvvəl öz vəziyyətləri ilə barışmaq istəməyən car-balakənlilər Sisyanovun şərtlərini yerinə yetirməkdən imtina etdi. Eyni zamanda onlar imkan düşdükcə rus qoşunlarına qəfləti zərbələr eqdirirdilər. Belə hücumların birində 1803-cü il iyulun 13-də Kareli kəndi yaxınlığında 3 rus zabiti və 36 əsgəri öldürüldü.[205] Ümumiyyətlə adi tüfəng və xəncərlə silahlanan car-balakənlilər artileriya və nizami orduya malik olan ruslarla açıq döyüşə girməkdən çəkinərək gözlənilməz hücumlara daha çox üstünlük verirdilər. Rus qoşunları, xüsusilə də gürclər yerli əhalini kütləvi surətdə qırmaqla məşğul olurdular. Təkcə Car-Balakənin tutulması vaxtı yerli əhalidən 500 nəfər öldürülmüş, 136 nəfər əsir götürülmüşdü.[206]

Sisyanov Car əyalətinin başçılarına və bütün xalqına müraciətində yazırdı: «Kafir xalq, utanmaz adamlar... Siz öz yartıcılarınızı geri almalısızın... Əgər bir aydan sonra almasanız görərsiniz mən yırtıcılarınıza və sizi neyləyəcəm... Kimin gücü var o, zəiflərlə sövdələşmir, ancaq onlara əmr edir».[207] Burada söhbət əsir düşmüş car-balakənlilərdən gedir. Şərtə görə car-balakənlilər öz qohum və yaxınlarını pul verib geri almalı idilər. Sisyanov eyni zamanda bildirirdi ki, əgər onlar əsirləri almasalar başqalarına satacaqdır.[208]

Bütün məğlubiyyətlərinə və mərhumiyyətlərinə baxmayaraq yerli əhali ruslara heç bir vəchlə boyun əymək istəmir, bütün danışıqları və şərtləri müvəqqəti hesab edirli. Buna görə də car-balakənlilər vergi verməkdən, girovları göndərməkdən və başqa tələbləri yerinə yetirməkdən müxtəlif vasitələrlə yayınır, qonşuları ilə ittifaqa girərək tez-tez rus qoşunlarına qarşı çıxış edirdilər.

Car-balakənliləri cəzalandırmaq məqsədilə hərəkətə başlayan Qulyakov (16 rota piyada, 5 top və kazak komandası)[209] 1803-cü il dekabrın 31-də Alazan çayı sahilində güclü atəşlə qarşılandı. Lakin top atəşindən sonra pərən-pərən düşən car-balakənlilər çoxlu itki verərək geri qaçmağa başladılar. Çoxu tələsik Alazan çayını keçərkən suda boğuldu.[210] 1804-cü il yanvarın 10-da rus qoşunları Carı tutaraq yandırdılar.[211] Yerli əhali Carı və bütün ətraf kəndləri tərk edərək dağlara və meşələrin dərinliklərinə çəkilmişdi. Müvəffəqiyyətdən ruhlanan Qulyakov əhalini təqib etməyə başladı. Lakin Zaqatala dərəsindəki döyüş onların xeyrinə olmadı, çünki burada toplardan istifadə etmək mümkün deyildi. Rus

---

[203] Azərbaycan tarixi, II cild, s.5.
[204] QAKA, II cild, sənəd 1186.
[205] Qizeti A.P. Sbornik svedeniy o poterəx Kavkazskiy voysk vo vremə voyn (1801-1855), Tiflis, 1901, s.5.
[206] Petruşevskiy İ.P. Göst. əsəri, s.85.
[207] QAKA, II cild, sənəd1392.
[208] Yenə orada, sənəd 1391.
[209] Sbornik qazetı «Kavkaz» na 1847 q., s.139.
[210] Dubrovin N. Zakavkağe..., s.377.
[211] Potto V. Göst. əsəri, s.96.

qoşunları dərəyə yetişən kimi onalara hər tərəfdən atəş açıldı. İlk zərbədən qoşunların komandanı Qulyakov öldürüldü. İrəlidə gedən kazaklar və gürcülər intizamsız halda geri qaçmağa başladılar. 8 saat davam edən döyüşdə ruslardan 4 zabit və 114 əsgər öldürülmüş, 17 zabit və 117 əsgər yaralanmışdı.[212] Potto isə bu döyüşün ruslara 20 zabit və 526 əsgər hesabına başa gəldiyini bildirir.[213] Rus qoşunlarının itkilər verərək geri çəkilməsinə baxmayaraq, cəzasız qalmayacaqlarını anlayan carlılar nümayəndələrini xəracın bir hissəsi ilə baş komandanın yanına göndərdilər.[214]

Bununla belə rusların Car-Balakəndə möhkəmlənməsi hələlik mümkün deyildi. Bunu rus komandanlığı özü yaxşı başa düşürdü və carlı elçilərin onların bütün tələblərinin yerinə yetiriləcəyi haqda vədlərinə inanmırdı. Lakin lüzumsuz itkilərin qarşısını almaq və işğalın istiqamətini başqa səmtlərə yönəltmək üçün car-balakənlilərlə razılığa gəlinməli və müvəqqəti olaraq bu ərazilərə nəzarəti zəiflətmək lazım idi. İkinci tərəfdən car-balakənlilərə də müvəqqəti sakitlik gərək idi. Çünki Car-Balakən demək olar ki, tamam dağıdılmış və yandırılmış, xeyli əhali məhv edilmiş, öz yaşayış yerlərini tərk etmişdi.

Gəncə və Car-Balakənin işğalından sonra növbə İrəvan xanlığına yetişdi. Gürcüstanın tutulması dövründən İrəvanın işğalına da geniş hazırlıq işləri görülürdü. Xanlığın bir parçası olan Pəmbək vilayətindəki rus qoşunlarının İrəvana soxulması üçün Rus hərb tarixçisi V.Pottonun dediyi kimi, artıq bəhanə də hazır idi: «Bizim İrəvan işlərinə qarışmağımıza bəhanə isə Eçmiadzin taxtı üstündə David və Danilin mübarizəsi oldu».[215] Məlumdur ki, xan bu mübarizədə Davidin, ruslar isə Danilin erməni patriarxı olmasına çalışırdılar.

Rusiyanın xarici siyasəti idarələrində İran, Türkiyə və Gürcüstanla həmsərhəd olan İrəvan xanlığının işğalının, xüsusilə Tiflis-Təbriz tranzit yolunun üstündə yerləşən İrəvan qalasının alınmasının vacibliyini qeyd edirdilər. Böyük bir ərazi əldə etməklə yanaşı onlar, bununla Gürcüstanda sakitliyin bərpa olunmasına, Cənubi Qafqazda İran və Türkiyənin siyasi təsir dairəsinin zəiflədilməsinə nail olmaq istəyirdilər. Bunun nəticəsidir ki, çar I Aleksandrın verdiyi fərmanda Rusiyaya tabe ediləcək ərazilər arasında İrəvan xanlığının adı birinci çəkilirdi.

Hələ yenicə baş komandan təyin olunarkən İrəvan xanını silahla hələdəyən Sisyanov[216] 1803-cü ilin martında çara göndərdiyi raportunda yazırdı: «...Məhəmməd xan, əlahəzrət imperatorun Danilin erməni patriarxı kimi tanınması haqda yüksək göstərişini yerinə yetirməkdən imtina edir. Onun cəzasız qalması silahla ələ keçirdiyimiz ərazilərdə əlahəzrətin nüfuzunu zəiflədir. Ona görə mən Məhəmməd xanı cəzalandırmaq və Danili erməni partiarxı etmək üçün İrəvana getməli və orada qarnizon yerləşdirməliyəm. Yerli erməni tacirləri onları ərzaqla təmin etməyi vəd edirlər...».[217]

Gürcüstanın tutulmasından sonra, artıq yerli erməni əhalisi arasında rusların tərəfdarları getdikcə çoxalır və onlar rusqoşunlarının İrəvana gəlməsini səbirsizliklə gözləyirdilər. İki il əvvəl Gürcüstana gələn mülki müşavir Kovalenskinin çara göndərdiyi arayışda deyilirdi: «Xanın (Məhəmməd xan – V.U.) yanındakı erməni məmurlarından biri, İrəvan ermənilərinin başçısı Məlik Avram xanın və xalqın

---

[212] Qizetti A.P. Göst. əsəri, s.7.
[213] Potto V. Göst. əsəri, s.99.
[214] Sbornik qazetı «Kavkaz» na 1847 q., s.140.
[215] Potto V. Göst. əsəri, s.128.
[216] QAKA, II cild, sənəd 1207.
[217] Yenə orada, sənəd 1216.

dərin hörmətini qazanmışdır. Mənim onunla yazışmamdan sonra məlum oldu ki, nəinki o, həmçinin bütün ermənilər şübhə yox ki, Rusiyaya meyllidirlər».[218] Çarın 12 sentyabr fərmanında ermənilər haqqında ayrıca bənddə deyilirdi: «...Hər cür nəvazişlə erməni millətini özünüzə cəlb etməyi sizin xüsusi nəzarətinizə buraxıram».[219] Görünür bu fərmanın hazırlanmasında Kovalenskinin arayışının xüsusi rolu olmuşdur.

Hərbiçilər tərəfindən hər cür dəstək alan ermənilər artıq Rusiya tərəfdarı olduqlarını gizlətmir və bir çox ərazilərdən, o cümlədən də İrəvan xanlığından Rusiyanın işğalı altında olan torpaqlara köçürdülər. Belə ki, yuxarıda adı çəkilən Məlik Avram və yüzbaşı Qavril, Sisyanova məktubunda 200 ailə ilə birlikdə İrəvandan Rusiyanın nəzarətində olan Qarakilsəyə keçdiklərini bildirir və yalvarırdılar ki, «İrəvan qalasında qalan 500 ailəni də xilas etsinlər».[220]

Sisyanov İrəvan yürüşünü uğurla başa çatdırmaq üçün daha 4 alay və 100.000 rubl gümüş pul lazım olduğunu bildirirdi. Bu qüvvələrlə o nəinki İrəvanı, həmçinin Naxçıvan və Şuşanı almağı və Kür-Araz boyu həyata keçiriləcək işğal planının bir hissəsini bu kampaniyada başa çatdırmağı vəd edirdi.[221] İrəvan yürüşünü tezliklə başa çatdırmaqda Sisyanovun əsas məqsədi bu vilayəti Rusiyanınkı etməklə yanaşı İranla qaçılmaz olan müharibənin meydanını gürcü sərhədlərindən uzaqlaşdırmaq idi.[222] Yürüşə çıxmağa hazırlaşan Sisyanov bu dəfə də öz əməlinə sadiq qalaraq rəqibinə müxtəlif mövzulu məktublarla (şirnikləndirici, hədə-qorxu dolu, mülayim və s.) müraciət etməyə başladı. O, Car-Balakən və Gəncədəki hadisələrdən sonra İrəvan xanının ona güzəştə gedəcəyinə əmin idi.

Xana göndərilən məktubunda Sisyanov danışıqlara başlamaq üçün Danilin patriarx elan edilməsi və Davidin Tiflisə göndərilməsini tələb edirdi. Bunun yerinə yetiriləcəyi təqdirdə Məhəmməd xan qalada Rusiya qoşunlarının yerləşdirilməsinə razılıq verməli, xərac ödəməli və sadiq qalması üçün and içməli idi.[223]

Hərbi hissələri döyüşə hazır vəziyyətə gətirən Sisyanov bütün arzu edənləri də yürüşə dəvət edərək döyüşdə fərqlənənlərin mükafatlandırılacağını bildirdi.[224]

Artıq İranın tezliklə müharibəyə qoşulacağı aydın idi. Çünki getdikcə cənuba doğru irəliləyən rus qoşunlarının qarşısını öz sərhədlərindən nisbətən uzaqlarda alınması daha münasib idi və hələ ki, işğal olunmayan ərazilərin hakimlərinin köməyinə ümid bəsləmək olardı. Fətəli şah gürcü çarı Solomona,[225] Şəmşəddil sultanı Nəsib bəyə göndərdiyi fərmanlarda onları kafirlərini məhv etməyə çağırırdı.[226] Həmçinin şahın birinci vəziri Mirzə Şəfi öz nümayəndəsini Sisyanovun yanına göndərərək ondan Rusiya qoşunları ilə birlikdə Gürcüstanı tərk etməsini tələb edirdi.[227]

Şah qoşunlarının viranedici hücumlarından sonra İranın Cənubi Qafqazdakı mövqeyi xeyli sarsılmışdı. Rusiyaya qarşı mübarizədə bir çox xanlar artıq İran qoşunlarının köməyini arzu etmir, bəziləri hətta Rusiya vasitəsilə İran təsirini heçə endirməyə çalışırdılar. Bütün bunlar da işğal yoluna

---

[218] QAKA, II cild, sənəd 34.
[219] Yenə orada, I cild, sənəd 548.
[220] Yenə orada, II cild, sənəd 604.
[221] Yenə orada, sənəd 1216.
[222] Kavkazskiy kalendarğ, Tiflis, 1847, s.159.
[223] QAKA, II cild, sənəd 1224.
[224] Yenə orada, sənəd 1225.
[225] Yenə orada, sənəd 727.
[226] Yenə orada, sənəd 1653.
[227] Yenə orada, sənəd 1667.

qədəm qoyan Rusiyanın xeyrinə idi. İrandan asılılığı formal xarakter daşıyan İrəvan xanının isə Fətəli şahla münasibətləri artıq korlanmışdı. Ona görə də Fətəli şah xanlığı müstəqil idarə edən Məhəmməd xanı oradan uzaqlaşdırmağa çalışırdı.[228] Rusiya və İran təhlükəsi ilə yanaşı, Gəncənin aqibəti onu son dərəcə ehtiyatlı olmağa, eyni zamanda tərəfləri narazı salmamaq üçün siyasi manevrlər etməyə məcbur edirdi.

General-mayor Tuçkov öz xatirələrində yazır: «Dəstəni qəbul edən günü mənə hücum etməyi əmr etdilər. Məndən 3 gün sonra isə Sisyanov öz korpusu – I draqun alayı, 8 piyada batalyonu, iki kazak alayı və 300 gürcü atlısı (cəmi 4370 nəfər)[229] ilə yürüşə çıxdı».[230] İyunun əvvəlində Tuçkovun komandalıq etdiyi dəstə (1 alay, 2 batalyon və 8 top) İrəvan xanlığına məxsus olan Şoragil vilayətini tutdu.[231] Burada iki arxiyepiskopla yüz erməni atlısı ona qoşuldu və bildirdilər ki, İrəvandan qaçan daha 2 min ailə yoldadır.[232] İrəvan xanlığının qoşunları başqa xanlıqlara nisbətən yaxşı silahlanmış və İrəvan qalasının müdafiəsi lazımi qaydada təşkil edilmişdi.

1804-cü ilin iyununda İran Rusiyaya müharibə elan etdi. Gümrü və Eçmiadzini tutan rus qoşunları iyulun 2-də İrəvan qalasını mühasirəyə aldı. «Qızılbaşlar da onları araya aldılar. Qazılbaşlar gediş-gəliş yollarını elə kəsmişdilər ki, Rusiya qoşununun çarəsi hər tərəfdən kəsilmişdi».[233] Qaladakılar mühasirədə olmalarına baxmayaraq bir neçə istiqamətdən rus qoşunları üzərinə uğurlu həmlələr edirdilər. Bu zərbələr nəticəsində rusların 13 zabiti və 150 əsgəri sıradan çıxarıldı.[234]

Sisyanovla Məhəmməd xan arasında altı ay davam edən yazışma nəticəsiz qaldı. Qala qarnizonuna tam arxayın olan və getdikcə havaların soyumasını nəzərə alan Məhəmməd xan rusların ərzaq və sursatlarının tükənəcəyinə, Tiflisdən ərzaq və sursat gətirincəyə qədər yolların keçilməz olacağına əmin idi. Deməli zaman rusların məğlubiyyətini yaxınlaşdırırdı və Məhəmməd xanın xeyrinə idi. Ərzağın tükənməməsi üçün rusların gördüyü bütün tədbirlər artıq tükənmişdi. Gözlənilən ərzaq isə gəlib çıxmırdı. Ona görə Sisyanov mayor Montrezoru 350 nəfər və 3 topla Tiflisdən gələcək ərzağı qəbul etmək üçün Qarakilsəyə yolladı.[235] Bələdçiliyi Məlik Abovun oğlu Rostom bəy boynuna götürdü. Bu onun üçüncü gedişi idi.[236] Ümumiyyətlə yerli erməni əhalisi rus qoşunlarına bələdçiliyi öz üzərlərinə götürmüşdülər. Ermənilər həmçinin rus qoşunlarına böyük maddi yardım göstərirdilər.[237]

İranın müharibəyə girməsilə xalqın işğalçılara qarşı mübarizəsi genişləndi. «Əvvəlcə Qazax və Borçalı elatı Rusiya dövlətindən üz çevirdi və o dövlətin itaətindən baş qaçırdılar. Tiflis şəhəri və Nəsib bəydən başqa bütün elat, kəndlər, hətta Başıaçığa qaçan vəlizadələr də gəlib valiyə (Aleksandr Mirzəyə – V.U.) qoşuldular və üsyan etdilər».[238] Həmçinin car-balakənlilərin üsyanları, qarabağlıların

---

[228] Statistiçeskoe opisanie Naxiçevanskoy provinüii, s.50. Prisoedinenie vostoçnoy Armenii k Rossii (sbornik dokumentov), I cild, Erevan, 1972, s.260.
[229] MDHTA, HTA, 1804 il, s.4258, III hissə, v-232 surəti, – Bax: Prisoedinenie vostoçnoy Armenii k Rossii (sbornik dokumentov), I cild, Erevan, 1972, s.260.
[230] Zapiski Serqeə Alekseeviça Tuçkova, SPb., 1908, s.225.
[231] Potto V. Göst. əsəri, s.138.
[232] Yenə orada.
[233] Mirzə Adıgözəl Bəy. Göst. əsəri, s..69.
[234] Potto V. Kavkazskaə voyna v otdelğnıx oçerkax, gpizodax, leqendax i bioqrafiəx, I cild, SPb., 1887, s.368-370.
[235] Dubrovin N. Göst. əsəri, s.339.
[236] Potto V. Utverjdenie..., s.150.
[237] Qriqorən Z. Prisoedinenie vostoçnoy Armenii k Rossii v naçale XIX veka, Moskva, 1959, s.95-96.
[238] Mirzə Adıgözəl Bəy. Göst. əsəri, s.69.

işğal altındakı Yelizavetpol vilayətinə hücumu[239] üsyana kütləvilik xarakteri verdi və Cənubi Qafqazda rusların mövqeyini xeyli sarsıtdı. Həyati mənafe daşıyan bu üsyanlar yerli əhalinin bütün təbəqələrini əhatə edirdi. Aleksandr Mirzənin başçılıq etdiyi qoşunlarla üsyan etmiş yerli əhalinin Tiflis-İrəvan yolunu bağlaması bu diyardakı rus qoşunlarının vəziyyətini daha da ağırlaşdırdı.

Qarakilsədə mühsirəyə alınan Montrezor demək olar ki, bütün dəstə ilə məhv edildi. Yalnız bir neə gürcü qaçaraq canını qurtardı, 2 yaralı zabit (biri kn. Orbeliani) və 10 əsgər əsir götürüldü.[240] Ərzaq çatışmaması üzündən Sisyanov tərəfindən Gürcüstana qaytarılan 300 gürcü tavadı da mühasirəyə alındı. Onlardan 10 nəfəri öldürüldü və 190 nəfəri əsir alınaraq Tehrana göndərildi.[241] Bu xəbərləri gizli saxlayan Sisyanov 20 nəfər İrəvan ermənisini əsirlikdən azad edərək qalaya göndərdi və axırıncı dəfə Məhəmməd xandan qalanı təslim etməyi xahiş etdi.[242] Əvvəlki hədə-qorxuları mülayim müraciətlərlə əvəz edən və xana müxtəlif güzəştlər vəd edən Sisyanov axırıncı ana qədər xanın qalanı təslim edəcəyinə inanırdı. Əslində bu siyasi aldanışlar baş komandanı məğlubiyyətlə aparırdı. Bütün bunlar Məhəmməd xan Qacarın kn. Sisyanovdan həm hərbi, həm də diplomatik sahdə üstünlüyünü sübut edirdi. Sisyanovun geridə qalmış bir xalqın nümayəndəsi kimi baxdığı bir adam onu çıxılmaz vəziyyətdə qoymuşdu. Mühasirənin lüzumsuz olduğunu artıq hər iki tərəf anlayırdı və nəticəsiz qalacağı bəlli idi. Məhəmməd xanın yaxşı hərbi hazırlığı və özünü doğrultmuş uğurlu siyasi manevrləri, onun görkəmli siyasi və hərbi xadim olduğunu təsdiq etdi.

1804-cü il avqustun axırında çağırılan hərbi şura sentyabrın 2-də mühasirənin götürülməsini və qoşunların geri çəkilməsini qərara aldı.

### § 3. Kürəkçay müqavilələri. İşğalın əsas mərhələsinin başa çatdırılması

Uğursuz İrəvan yürüşündən Tiflisə qayıdan baş komandan İmeretiya və Minqreliyada Rusiya əleyhinə qalxan üsyanları boğmaqla məşğul oldu. Gürcüstanda daxili vəziyyəti silah gücünə sakitləşdirən Sisyanov yenidən istilaçılıq fəaliyyətini davam etdirməyə başladı. Növbədə isə çarizmin işğal planına daxil olan Qarabağ, Şəki və Şirvan xanlıqları idi.

Hələ Gəncənin işğalından az sonra Sisyanov Qarabağ, Şəki və Şirvan xanlıqlardan Rusiya himayəsinə keçməyi tələb etmişdi.[243] Öz işğalçılıq hərəkətlərinə diplomatik don geyindirməyi belə lazım bilməyən Sisyanov həmin məktublarda öz fəaliyyətini silah gücünə davam etdirəcəyini açıq şəkildə bəyan edirdi. Ümumiyyətlə, bu fikirlər demək olar ki, Rusiyanın Qafqazdakı siyasətinin məzmununu açıqlamaqda idi.

XIX yüzilliyin əvvəllərində Qarabağ xanlığının daxili vəziyyəti yaxşı deyildi. Çoxlu dağıntılara səbəb olmuş Ağa Məhəmməd şahın hücumlarından sonra, əhali var-yoxdan çıxmış, məhsul qıtlığı yaranmışdı. Xanlığın müdafiə qüdrəti isə xeyli zəifləmişdi. Bəzi başqa səbəblər və yerli ermənilərin bir hissəsinin Rusiyaya meylli olmalıra da çar hökumətini zəif düşmüş Qarabağı tezliklə ələ keçirməyə şirnikləndirirdi.

---

[239] Potto V. Kavkazskaə voyna..., s.372.
[240] Zapisi S.A. Tuçkova, s.241.
[241] QAKA, II cild, sənəd 1689.
[242] Bax: Prisoedinenie vostoçnoy Armenii k Rossii, s.275.
[243] QAKA, II cild, sənəd 1416; 1341.

Rusiya və İran üçün Qarabağın strateji mövqeyinin böyük əhəmiyyəti var idi. O zamankı İran sərkərdələrinin, o cümlədən şahın özünün rəyinə görə alınmaz qala olan Şuşa şəhəri iranlılar üçün Cənubi Qafqazın açarı, ruslar üçün isə İranın qapısı hesab olunurdu.[244] Ona görə də hər iki dövlətin bu ərazini zəbt etmək üçün bütün hərbi, siyasi və diplomatik vasitələrdən istifadə edəcəkləri şübhəsiz idi. Burada Qarabağ xanlığının rəyi demək olar ki, hesaba alınmırdı və ona bu işdə yalnız yardımçı qüvvə kimi baxılırdı. Xanlığın öz müstəqilliyini qorumaq üçün isə qüvvələrinin kifayət edib-etməyəcəyi qeyri-müəyyən idi.

Beləliklə, əgər İran Qarabağda öz mövqeyini möhkəmləndirərdisə bütün Cənubi Qafqazı öz təsiri dairəsində saxlamaq imkanı əldə edəcək və rusları buradan qovub çıxarmaq üçün real şans yaranacaqdı. Bunun üçün isə İran qoşunları xeyli hazırlıq işləri görürdü. Yox, əgər Rusiya bu əraziyə sahib olardısa nəinki Arazın şimalındakı xanlıqlar, hətta İranın özü üçün də təhlükə yaranacaqdı. Əlbəttə xeyli ərazilər əldə edərək cənuba doğru sürətlə irəliləyən, güclü orduya malik Rusiya imperiyasının bu «qələbəyə» ümidi daha çox idi.

Qarabağ xanlığının Rusiya himayəsinə keçməsini tələb edən məktublarına lazımi cavab almayan Sisyanov bu xanlığı iqtisadi cəhətdən cəzalandırmaq üçün mayor Lisaneviçi ora göndərir. Lakin qarabağlıların mal-qara və at ilxılarını apara bilməyən Lisaneviç 250 erməni ailəsini Gəncəyə köçürür.[245] Buna cavab olaraq qarabağlılar da Gəncədən at ilxılarını aparmağa başlayır və buna mane olmaq üçün göndərilən dəstədən 23 kazak və 2 erməni öldürürlər.[246] Qarabağ tarixindən yazan Mir Mehdi Xəzani bu hadisədən İbrahim xanın xəbəri olmadığını, bunun bir para quldurların işi olduğunu qeyd edir.[247]

İbrahim xanın getdikcə Rusiya sərdarı ilə yaxınlaşdığını və onun yanına elçilər göndərdiyini eşidən Fətəli şah bu işlərə mane olmaq üçün Əbülfət xanı (İbrahim xanın oğlu – V.U.) 1805-ci ilin yanvarında 5 min nəfərlik qoşunla Qarabağa göndərdi. Şahın bu hərəkətindən inciyən İbrahim xan həmin qoşunları məğlub edərək Arazın o tayına keçirməyə müvəffəq oldu.[248]

Abbas Mirzənin başçılığı ilə şah qoşunlarının Qarabağa gözlənilən hücumu da İbrahim xanı narahat etməyə başlamışdı. Öz siyasətini əsasən İran qoşunlarının yaxına buraxılmaması üzərində quran Qarabağ xanı yaxınlaşan Rusiya təhlükəsi qarşısında da İranın köməyindən istifadə etməyi lazım bilməyib sərdar Sisyanova müraciət etməyi qərara aldı. Həmin müraciət Sisyanovun Çartorıyskiyə məktubunda belə açıqlanır: «İran qoşunlarının hərəkətindən qorxan İbrahim xan öz nümayəndəsini yanımıza göndərərək bizə itaət edəcəyini bildirir. Mənə elə gəlir ki, onu qorxu buna vadar etmişdir».[249] Öz keçmiş «günahlarına» görə bağışlanacağına əmin olmayan İbrahim xan şahzadənin Qarabağa daxil olmasını öz hakimiyyətinin sonu hesab edirdi.

---

[244] Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair, Qarabağnamələr, I kitab, Bakı, 1989, s.182.
[245] QAKA, II cild, sənəd 1418.
[246] Potto V. Utverjdenie..., s.131-132.
[247] Mir Mehdi Xəzani. Kitabi-tarixi-Qarabağ, – Qarabağnamələr, II kitab, Bakı, 1991, s.161.
[248] Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri, Qarabağnamələr, II kitab, Bakı, 1991, s.231-232.
[249] QAKA, II cild, sənəd 1421.

İran tarixçisi Nasir Nəcmi Ağa Məhəmməd şahın ölümündən sonra İbrahim xanın müstəqil siyasət yürütdüyünü və İranla hesablaşmaq istəmədiyini xüsusi vurğulayır.[250] Ümumiyyətlə bu dövrdə Azərbaycan xanlarının yeritdiyi siyasət barədə görkəmli tarizçimiz Mahmud İsmayılovun fikirləri reallığı olduqca dəqiq əks etdirir. O yazır: «Beynəlxalq şəraitin gərginləşdiyi bir şəraitdə qonşu xanlıqların ərazisini tutmaqla ölkəni həmin xanlıq ətrafında birləşdirmək cəhdlərinin baş tutmadığını görən xanlar, öz hakimiyyətlərini saxlamaq naminə xarici dövlətlərin nümayəndəsinə meyl göstərir, hərbi-siyasi vəziyyət və qüvvələr nisbəti dəyişdikcə bu meyl də dəyişir».[251]

Şah qoşunlarını məğlub edən İbrahim xanın hərəkətləri rus sərdarını razı salırdı. O, Qarabağ xanlığının Rusiya himayəsinə qəbul olunması haqqında müqavilənin şərtləri ilə İbrahim xanı tanış etmək və həmin müqavilənin imzalanması üçün xanın Gəncəyə gəlişini təşkil etmək məqsədilə Lisaneviçi xüsusi təlimatla Şuşaya göndərir.[252]

Vəziyyətin getdikcə gərginləşdiyini dərk edən Fətəli şah Kərim xanı və Abdulla xanı İbrahim xanın yanına göndərib yazmışdı: «Allah rizasına namusi-islamı mənzur edib, hər nə təvəqqeyi var məndən etsin, yerinə yetirim. Urus padşahına itaət etməsin. Şuşa qalası ki, toxunulmazdır və qəleyi-Xudafərin İranın giriş qapısıdır, Urus dövlətinə verib Rusiya qoşunlarını daxili şəhər qalası etməsin».[253] Lakin İbrahim xandan qaneedici cavab almayan şah Rəhim xan da daxil olmaqla həmin nümayəndələrini yenidən aşağıdakı təkliflərlə İbrahim xanın yanına göndərir: Rusiya qoşununun qarşısını almaq üçün Əsgəran qalaları möhkəmləndirilməli, Şuşanın üç verstiliyində səngərlər qurulmalı, Şahbulaqda 2-9 min atlı dayanmalı idi. Bu məntəqələr qızılbaş qoşununun ixtiyarına verilməli, hamı İbrahim xanın əmrinə tabe olmalı idi. Bütün xərclərin şahın xəzinəsindən ödənilməsinə təminat verilirdi.[254]

Lakin İbrahim xan Sisyanovun arzusuna uyğun olaraq bu nümayəndələri dustaq etdi və sərdara öz sədaqətini nümayiş etdirdi.[255]

Şəki xanlığındakı hadisələr də Rusiyanın xeyrinə cərəyan edirdi. Siyasi hakimiyyətə can atan və buna Rusiya tərəfindən şirnikləndirilən Səlim xan qardaşı Məhəmməd Həsən xanı devirmək üçün knyaz Sisyanova və Şirvan xanı Mustafa xana müraciət etdi.[256] Rus qoşunları bu hadisəyə qarışmağa macal tapmamış Şirvan qoşunları 1804-cü ilin fevralında Şəki xanlığına daxil oldular. Məhəmməd Həsən xan tutulub Şamaxıya göndərildi və Mustafa xan öz naibini Şəkiyə hakim təyin etdi. Aldadıldığını görən Səlim xan Şirvan qoşunlarından qaçaraq Nuxaya gəldi və Şəki xanı elan edildi.[257] Öz hakimiyyətini möhkəmləndirmək və Mustafa xandan qorunmaq üçün Səlim xan Sisyanova kömək üçün müraciət etdi.[258]

Bununla o həmçinin qardaşı Məhəmməd Həsən xanın hakimiyyətə qayıdışına sipər çəkmək istəyirdi. Heç kəslə məsləhətləşmədən atılan bu addım xalqın iradəsi əleyhinə idi və yalnız öz siyasi hakimiyyətini qorumaq məqsədi daşıyırdı. Sisyanov isə belə daxili çəkişmələrdən və xanlıqlararası

[250] Nasir nəcmi. Abbas Mirzə (XIX əsr Rusiya-İran-Azərbaycan münasibətləri), Bakı, 1993.
[251] İsmayılov M. Şəki, Bakı, 1982, s.39.
[252] QAKA, II cild, sənəd 1425.
[253] Mir Mehdi Xəzani. Göst. əsəri, s.167.
[254] Rzaqulu bəy Camal oğlu. Göst. əsəri, s.232.
[255] Mir Mehdi Xəzani. Göst. əsəri., s.168.
[256] Dubrovin N. Zakavkazğe..., s.407.
[257] Yenə orada, s.408-409.
[258] QAKA, III cild, sənəd 1291.

müharibələrdən məharətlə istifadə edirdi. O, 1805-ci il fevralında Rusiya himayəsinə qəbul olunmaq üçün şərtləri Səlim xana göndərdi. Səlim xan isə şərtlərdən yalnız təminatı ödəyə bilməyəcəyini bildirdi.[259]

Tezliklə Mustafa xanın qoşunları Şəki sərhədlərinə yaxınlaşdı. Bu hadisədən bütün şərtləri Səlim xana qəbul etdirməküçün bir vasitə kimi istifadə etməyə çalışan Sisyanov 2 topla 300 nəfərlik dəstəni Səlim xanın köməyinə göndərdi.[260] Baş komandanın nümayəndəsi geri çəkilən Mustafa xana bildirdi ki, Səlim xan Rusiyanın təəbəsidir və ona qarşı törədilən hər hansı düşmənçiliyə Rusiya cavab verəcəkdir. Həmçinin nümayəndəyə Mustafa xanın da Rusiya himayəsinə sövq edilməsi haqda göstəriş verilmişdi.[261]

Qonşu xanlıqlara nisbətən daxili vəziyyətin daha sabit olduğu Şirvan xanlığının hərbi cəhətdən güclü olması bu xanlıqda ara müharibələrinin təsirini heçə endirirdi. Xanlığın başlıca problemi əsas gəlir mənbəyi olan Salyan mahalının tez-tez əldən çıxması idi. Nə siyasi, nə də iqtisadi cəhətdən qonşu dövlətlərin köməyinə ehtiyacı olmayan Şirvan xanlığının hər hansı dövlətin himayəsinə girməsi və ya belə bir tələbin yerinə yetirilməsi bütün xalqın alçaldılması, xanlığın qəsdən ağır vəziyyətə düçar edilməsi demək olardı. Mustafa xan Sisyanova yazdığı məktubunda Qarabağ və Şəki xanlarının Rusiyadan himayə axtarmasını, İranın və onun (Mustafa xanın) qorxusunun nəticəsi hesab etdiyini bildirirdi.[262]

Lisaneviçin Qarabağa gəlişi ilə əlaqədar İbrahim xan bütün bəylərin iştirakı ilə şura çağırır. Altı gün davam edən məsləhətləşmədən sonra bütün bəylər Rusiyanın himayəsinə keçmək haqda təklifi rədd edirlər. Lakin İbrahim xan müqavilənin layihəsindəki bütün bəndlərlə razılaşdığını Lisaneviçə bildirir.[263]

İran sərdarı Pirqulu xan İbrahim xana məktubunda yazırdı: «...belə bir hərəkətdən bütün nəsilləriniz xəcalət çəkəcək, bütün əraziniz tar-mar ediləcək... nə qədər ki, belə bir şey baş verməyib öz işinizi görün, sonra gecə olar».[264]

1805-ci il mayın 14-də Gəncə yaxınlığındakı Kürəkçayda Sisyanovla İbrahim xan arasında bağlanan müqaviləyə görə Qarabağ xanı yalnız Rusiyanın hakimiyyətini tanıyır və qonşu hökumətlərlə müstəqil əlaqə saxlamaqda məhrum olunurdu. Həmçinin xan Şuşada 500 nəfərlik rus qarnizonunu yerləşdirməli, ildə 8000 rubl bac ödəməli və nəvəsini həmişəlik Tiflisdə qalmaq şərtilə girov verməli idi. Əvəzində xanın və bütün xələflərinin ədəbi hakimiyyətinə, ərazisinin bütöv saxlanılmasına zəmanət verilirdi.[265]

Məsələnin belə asan həll olacağını gözləməyən Sisyanov I Aleksandra göndərdiyi raportunda yazırdı: «Sizi Rusiya imperiyasının yenidən genişlənməsi münasibətilə təbrik edirəm. Rusiyanın bir əyalətinə çevrilən bu ərazi nə qılınc, nə də hərbi yolla ələ keçirilmişdir».[266]

---

[259] QAKA, sənədlər 1289; 1290.
[260] Yenə orada, sənəd 1292.
[261] Yenə orada, II cild, sənəd 1342.
[262] Yenə olrada, sənəd 1343.
[263] Dubrovin N. Göst. əsəri, s.406.
[264] QAKA, II cild, sənəd 1427.
[265] Yenə orada, sənəd.1436.
[266] Yenə orada.

Qarabağ xanlığının aqibəti bütün ölkə üçün mənəvi zərbə oldu. Bu hadisə başqa xanların da təslimçiliyi üçün bir növ «yol» açdı və qalan ərazilərin işğalını sürətləndirdi.

İbrahim xanla müqavilənin imzalandığı Səlim xana bildirən Sisyanov tezliklə onun da Kürəkçaya gəlməsini tələb etdi.[267] Müqavilənin şərtləri ilə tanış olan Səlim xan buna çoxdan hazır idi və o, Rusiya himayəsini qəbul etdiyini artıq bir neçə dəfə bəyan etmişdi. 1805-ci il mayın 21-də Kürəkçayda Şəki xanı ilə bağlanan müqavilə isə Qarabağ xanlığı ilə bağlanan müqavilənin eyni olub, yeganə fərqi illik xəracın miqdarında idi. Şəki xanı ildə 7000 rubl xərac ödəməli idi.[268]

Qarabağ və Şəki xanlıqlarının tutulması və rus qoşunlarının Araz çayına yaxınlaşması İranda siyasi vəziyyəti yenidən gərginləşdirdi. İngiltərə və Fransa nümayəndəlikləri ilə aparılan danışıqlardan real bir nəticə əldə etməyən şah rusların Qarabağda möhkəmlənməsinə imkan verməmək üçün baş komandan Abbas Mirzəyə Qarabağa hərəkət etməyi əmr etdi. O, eyni zamanda yerli xalqın köməyinə böyük ümid bəsləyirdi.

İyunun ortalarında Xudafərin körpüsü yanında ruslarla ilk döyüş baş verdi. Məlumdur ki, hələ may ayında Kürəkçay müqaviləsinə əsasən mayor Lisaneviçin başçılıq etdiyi 6 rotadan ibarət rus qarnizonu Şuşanın mərkəzində yerləşdirilmişdi.[269] Ona görə də Araz çayı üzərində İranla sərhəddə rus və Qarabağ qoşunları birgə keşik çəkirdilər. Lakin həmin döyüşdə məğlub olaraq geri çəkilən «ruslar heç bir yerdə dayana bilməyib mütəfərriq surətdə qalarlar... sübh açılanda İran qoşununun ləşgərgahı Panahabada müqabil durar».[270]

Bu vaxt artıq Şuşada iranlıların yaxınlaşması ilə əlaqədar itaətsizlik başlamışdı.[271] Xalq dini cəhətdən ona yad olan işğalçılardan azad olmaq üçün Abbas Mirzənin hücumuna böyük ümid bəsləyir və hər vəchlə ona kömək etməyə hazır idi. Lakin rus qoşunlarının şəhərə qayıtması vəziyyəti çətinləşirdi. Elə qalanın iranlılara təslim ediləcəyini yəqin edən Lisaneviçin də şəhərə qayıtmasından əsasməqsədi bu işə mane olmaq idi.

Əhalinin əksəriyyətinin iranlıları səbirsizliklə gözlədiyindən xəbərdar olan Sisyanov İbrahim xana məktubunda heç bir əsas olmadan onun da sadiqliyinə inanmadığını bildirir və onu hər iki tərəfə yarımaqda günahlandırırdı.[272] İbrahim xanın bütün hərəkətləri ruslar tərəfindən addımba-addım izlənilir və bu haqdakı məlumatlar Lisaneviç tərəfindən qərəzli şəkildə baş komandana çatdırılırdı. Kürəkçay müqaviləsinə əsasən xanlığın ərazisində hamı, o cümlədən rus qoşunları xana tabe olmalı və xanın məlumatı əsas göstürlməli idi. Lakin yerli camaata, o cümlədən xana inanmayan Sisyanovun buna əməl edəcəyinə inanmaq sadəlövhlük olardı. Əslində isə xanlığın demək olar ki, bütün işləri Lisaneviçə həvalə edilmişdi.

Əsgəran qalasını tutaraq Şuşanı mühasirədə saxlayan İran qoşunları Lisaneviçin köməyinə göndərilən Karayaginin dəstəsinin qarşısını kəsərək ona ağır zərbə endirdilər. Lakin yerli erməni Məlik Vanyanın bələdçiliyi ilə ruslar İran qoşunlarının arxasına keçərək Şahbulağı tutdular. Eyni zamanda

[267] Yenə orada, II cild, sənəd 1300.
[268] QAKA, II cild, sənəd 1301.
[269] Potto V. Utverjdenie..., s.197.
[270] Mirzə İbrahim Fəna. Tarixi-Cədidi-Qarabağ, – Qarabağnamələr, II kitab, s.268.
[271] Potto V. Utverjdenie..., s.199.
[272] QAKA, II cild, sənəd 1447.

yeni qüvvə alan Sisyanov Abbas Mirzəni Qarabağdan uzaqlaşdıraraq Şuşaya hərəkət etdi.[273] Abbas Mirzə isə gözlənilmədən Yelizavetpol vilayətinə daxil olaraq Yelizavetpol qalasını mühasirəyə aldı.

1805-ci ilin martında general-mayor Nesvetayev tərəfindən itaətə gətirilən[274] şəmşəddillilər əvvəlcədən öz girovlarını qaçıraraq iranlılara qoşuldular.[275] «Yelizavetpol tatarları nəinki özlərini müdafiə etmədilər, əksinə çoxları Abbas Mirzənin düşərgəsinə getdilər və iyulun 17-də İran qoşunları ilə birləşib qalanı atəşə tutdular. Bunu eşidən Kaliskəndin ermənilərdən ibarət əhalisi qalaya qaçdı. O biri gün tatarlar və iranlılar qayala gələn suyu kəsərək atəşi davam etdirdilər...».[276] Lakin Pottonun təbirincə desək keçən il üsyan edərək Tiflisi lərzəyə salan qazaxlılar bu dəfə Abbas Mirzəyə kömək etmədilər.[277]

1805-ci ilin iyulunda narazılıq dalğası demək olar bütün Azərbaycanı bürüdü. Bir çox xan və sultanların ruslara qarşı birləşməsi faktı Sisyanovun aşağıdakı məlumatından aydın görünür: «...Şeyxəli xan, Tarkovlu Şamxal, Avar xanı və atası, Canqutay sultanı, Şirvan xanı Mustafa xanla birləşərək öz nümayəndələrini Baba xanın (Fətəli şahın – B.U.) yanına göndərmiş və Rusiyaya qarşı onunla əlbir olacaqlarını söyləmişlər».[278] İran qoşunu tərkibində Rusiyaya qarşı vuruşan gürcü şahzadəsi Aleksandr da yerli əhalinin Rusiya əleyhinə mübarizəyə qaldırılmasında böyük rol oynayırdı.

Şəmşəddillilərin üsyanı daha ciddi xarakter almışdı. Abbas Mirzənin məğlub olaraq İrəvana çəkilməsinə baxmayaraq onlar mübarizəni davam etdirirdilər. Knyaz Sisyanov isə şəmşəddillilərə hədə-qorxu gələrək yazırdı: «...kim rusları istəmirsə Arazın o tərəfinə, iranlıların yanına köçsün, Arazın bu üzündə onlara yer yoxdur və mən onları burda yaşamağa qoymayacağam».[279] Əlbəttə həmin dövrdə 543.00 nəfərlik qoşuna[280] malik bir ölkə üçün bu üsyanı yatırmaq mümkün olardı, ancaq bütün əhalini əvvəlki yerinə qaytarıb onları Rusiya üçün işlətmək çox çətin məsələ idi.

Abbas Mirzənin məğlubiyyəti və çıxışların yatırılmasından sonra işğal olunmuş ərazilərdən əhalinin cənuba doğru kəskin axını baş verdi. Bu hal Gəncə vilayətində özünü daha qabarıq büruzə verirdi. Əhali öz evini, əkin sahəsini ataraq qaçırdı. Əvəzində isə bura müxtəlif yerlərdən ermənilər köçürülürdü. Bu haqda Sisyanovun erməni arxiyepiskopu Yohana məktubunda deyilirdi: «Çoxlu boş evlər var... Sizdən xahiş edirəm İrəvan ermənilərini təcili buraya köçürəsiniz. Mən əmr edəcəyəm hər ailəyə hazır ev, bağ və tarla verilsin... Üç il onlardan töyücü güzəştlə alınacaq və heç bir mükəlləfiyyət daşımayacaqlar».[281] Başqa sənədlərdə isə Avlabar və Borçalı distansiyasından ermənilərin buraya köçürülməsindən bəhs edilir.[282] Şah qoşunlarını işğal olunmuş ərazilərdən çıxarıb, narazılıqları müxtəlif vasitələrlə boğan baş komandan Şirvan xanı ilə danışıqları davam etdirməyi qərara aldı. Bunun üçün vasitəçinin köməyindən istifadə etməyi lazım bilən Sisyanov Liçaneviçə göstəriş verdi ki,

---

[273] Potto V. Utverjdenie..., s.201-217.
[274] Kavkazskiy kalendarğ na 1848 qod, s.14.
[275] Dubrovin N. Zakavkazğe..., s.433.
[276] QAKA, II cild, sənəd 1136.
[277] Potto V. Göst. əsəri, s.217.
[278] Kozubskiy E.İ. Göst. əsəri, s.129.
[279] QAKA, II cild, sənəd 1136.
[280] Bax: İqamberdıev M.A. Göst. əsəri, s.56.
[281] QAKA, II cild, sənəd 1255.
[282] Gürc. MDTA, f.2, 1805 il, sənəd 89, vər.170. Əsli; sənəd 94, v.287. Surati; f.16, 1806 il, sənəd 320, v.2. Əsli. –Bax: Prisoedinenie vostoçnoy Armenii k Rossii, s.321; 337; 338; 387.

Mustafa xanı Rusiya təəbəliyinə sövq etdirmək üçün İbrahim xanı dilə tutsun.[283] Eyni zamanda özü, Ərəş qalasını nəzərdən keçirmək bəhanəsilə bir neçə batalyonla Şirvan xanlığına yaxınlaşdı.[284] Artıq Sisyanov qəti əmin idi ki, rus qoşunları ilə üzü-üzə qalmış Şirvan xanı İbrahim xanın müraciətini həvəslə qəbul edəcəkdir. Lakin, «O, (Mustafa xan – V.U.) bu böyük dövlətin itaətini qəbul etməkdən boyun qaçırdı. Sərdar onu cəzalandırmaq üçün Şirvana tərəf irəlilədi. Mustafa xan öz elatı və təəbələrini yığıb möhkəm olan Fit dağına çəkildi».[285] Heç bir şeyə nail olmayan Sisyanov noyabrın 9-da Qarabağ xanına müraciət etdi: «...Ona (Mustafa xana – V.U.) Rusiyanın gücünü göstərmək lazımdır. Xahiş edirəm 1000 atlı hazırlayıb bizim dəstəyə qoşasınız».[286] Noyabrın axırında baş komandan bütün dəstəsilə Mingəçevirə yollandı və yeni Şamaxının (indiki Ağsı) beş verstliyindəki Burumarxda qərar tutdu.[287] Müharibəyə girməzdən qabaq Sisyanov 48 saat müddətində cavab verməyi Mustafa xandan tələb etdi.[288] Həmçinin xanın qardaşı Həşim bəylə danışıqlara girən Sisyanov xanlığı ona vəd edərək qardaşının tutulmasında onlara yardımçı olmasını xahiş etdi.[289]

Şirvan xanlığının vəziyyəti olduqca ağır idi. Mustafa xanın müxtəlif bəhanələrlə danışıqları uzadıb vaxt qazanmasına baxmayaraq vəziyyət getdikcə çətinləşirdi. Heç bir dövlətdən asılı olmaq istəməyən xan, rus qoşunları ilə döyüşə girməyi də arzulamırdı. Nəhayət 1805-ci il dekabrın 27-də Mustafa xan Rusiya himayəsini qəbul etmək haqqında müqaviləni imzaladı. Bu Qarabağ xanlığı ilə bağlanan müqavilənin eyni idi. Həmçinin ruslara Kür çayı sahilindəki Cavad adlı yerdə qala tikmək imkanı verilirdi.[290]

Şirvan xanlığının ələ keçirilməsi nəticəsində ruslar Bakı və Talış xanlığını işğal etmək üçün quru yolu əldə etdilər. Cavaddan isə quru və su yolu ilə müxtəlif istiqamətlərdə hərəkət etmək mümkün idi. Həmçinin buradakı bolluq rus qoşunlarındakı ərzaq çatışmamazlığını aradan qaldırmağa imkan verəcəkdi.

Burada Azərbaycan xanlıqları ilə aparılan müharibələrlə bağlı bir məqamı da qeyd etmək lazımdır. Yeni ərazilər tutan Sisyanov xarici işlər naziri Çartorıyskiyə yazırdı: «Ali manifest, göstəriş olmadan 3 ildir burada gizli müharibə aparıram və başa düşmürəm ki, yeni ərazilər əldə edəndə səbəblərini necə elan edim»...[291]

Şirvan xanlığını tutan Sisyanov vaxt itirmədən Bakıya yola düşəcəyini I Aleksandra bildirdi.[292]

Xəzər sahili vilayətlərin, o cümlədən liman şəhəri olan Bakının tutulması hələ I Pyotorun dövründən Rusiyanın hərbi planına daxil idi və ilk əlverişli məqam bu planın həyata keçirilməsi üçün başlanğıc ola bilərdi. Bu məqam isə artıq yetişməkdə idi. Şəhərin Rusiya üçün əhəmiyyətini isə 1803-cü ilin yanvarında Sisyanovun Bakıda olan Rusiyanın İrandakı səfiri Skibnevskiyə yazdığı məktubundan yalnız bir parça kifayət qədər açıqlayır: «... Bilirsinizmi, Bakı limanı Rusiya üçün nə

---

[283] QAKA, II cild, sənəd 1146.
[284] Yenə orada, sənəd.1352.
[285] Mirzə Adıgözəl Bəy. Göst. əsəri, s.72.
[286] QAKA, II cild, sənəd 1356.
[287] Potto V. Utverjdenie..., s.221.
[288] QAKA, II cild, sənəd 1363.
[289] Yenə orada, sənəd.1363.
[290] QAKA, II cild, sənəd 1366.
[291] QAKA, II cild, sənəd 1367.
[292] Yenə orada, sənəd.1365.

qədər vacibdir. Öz təbii mövqeyinə görə şəhər öz limanı ilə birlikdə ilk əlverişli məqamda qoşunlarımız tərəfindən tutulmalıdır, tez və ya gec bu həyata keçməlidir».[293]

Bir çox qalaların, o cümlədən Bakı qalasının tutulması haqqında Sisyanov tərəfindən hazırlanmış plan[294] imperator I Aleksandr tərəfindən bəyənildi.[295] 1803-cü ilin payızında bu planı həyata keçirməyi nəzərdə tutan Sisyanov Xəzərdəki hərbi donanmanın onun ixtiyarına verilməsini çardan xahiş etdi və eyni zamanda bildirdi ki, 3 hərbi gəmi hazırlanması haqqında göstəriş vermişdir.[296] Onun istəyinə əməl edən I Aleksandır daha 2 alay və hərbi xərclər üçün 100.000 rublu Sisyanovun sərəncamına göndərdi.[297] Lakin qalanı təslim etmək üçün Hüseynqulu xanla danışıqların baş tutmaması və bəzi başqa səbəblərdən I803-cü ilin payızında Bakının işğalı baş tutmadı. Bununla yanaşı Hüseyinqulu xanı Rusiya təəbəliyinə sövq etmək tapşırığı alan səfir Skibnevski də yaramaz fəaliyyətinə görə 1804-cü ilin əvvəlində Bakıdan qovuldu və bu işdə onun 7 əsgəri öldürdü.[298]

1805-ci ilin yayında Gilan vilayətinə göndərilən ekspedisiyaya əmr olunmuşdu ki, geri qayıdanda Bakını tutsun.[299] İran sahillərində bir şeyə nail olmayan həmin ekspedisiya (gen. May. Zavalişinin başçılıq etdiyi 1345 nəfərlik desant dəstəsi) avqustun ortalarında Bakıya yaxınlaşaraq şəhəri mühasirəyə aldı.[300] Lakin Şeyxəli xandan kömək gözləyən Bakı sakinləri mərdliklə döyüşərək şəhəri müdafiə etdilər.[301] Sara adasına geri çəkilən Zavalişinin hərəkətindən narazı qalan baş komandan yenidən həmin dəstənin Bakıya hərəkət etməsini əmr etdi və Bakı xanını təslim şərtləri ilə tanış etmək üçün II bəndlik qərar layihəsini ona göndərdi.[302]

Şirvan xanlığı istila olunduqdan sonra Bakı xanlığı Xəzərdə hərbi donanmaya malik Rusiyanın (Xəzərdə yalnız Rusiyanın hərb gəmilərinin üzməsinə icazə verilirdi)[303] iki tərəfli zərbəsi altına düşdü. Nəinki xanlığın ərazisini, hətta şəhəri qorumaq delə çətinləşdi.

1806-cı il yanvarın axırında öz qoşunu ilə Bakı ətrafına gələn baş komandan Hüseyinqulu xandan qeyd-şərtsiz təslim olmağı tələb etdi.[304] Sisyanovla birləşərək yeni kömək alan Zavalişin şəhərə təzyiqi gücləndirdi və şəhər yenidən rus qoşunları tərəfindən mühasirəyə alındı. Ümumiyyətlə bu yürüşdə Sisyanovun sərəncamında 1050 nəfər piyada, 332 kazak, yerli suvarilər, 10 səhra topu, həmçinin Zavalişinin başçılıq etdiyi 4 topu olan 1115 nəfərlik desant dəstəsi var idi.[305] Bu qüvvələrlə Sisyanov şəhəri «külə» döndərməyi nəzərdə tuturdu.[306]

Lakin bu işə başlamazdan qabaq o, Hüseyinqulu xandan Bakının açarlarını tələb etdi. Sayı təxminən şəhər əhalisi qədəri olan qoşunların qarşısını almaq, həmçinin atəş altında olan şəhərin müdafiəsini təşkil etmək çətin olduğundan Hüseyinqulu xan da danışıqlara getməyi üstün tutdu və hər

---

293 QAKA, II cild, sənəd 1496.
294 Butkov II.q. Göst. əsəri, II hissə, s. 367.
295 QAKA, II cild, sənəd 1502.
296 QAKA, II cild, sənəd 1501.
297 Yenə orada, sənəd 1502.
298 Butkov II.q. Göst. əsəri, II hissə, s. 371.
299 QAKA, II cild, sənəd 1720.
300 Bakixanov A. Göst. əsəri, s. 153.
301 Kavkazskiy kalendarı na 1848 qod, s. 166.
302 QAKA, II cild, sənəd 1511.
303 PSZ, 27 cild, s.107.
304 Dubrovin N. Zakavkazğe…, s.475.
305 Voennaə enüiklopediə, XI cild, Peterburq, 1913, s.224.
306 DTHA, F.HTA, sənəd 4262, ver. 3 arx.– Bax: İbraqimbeyli X.M. Rossiya i Azerbaydjan v pervoy treti XIX veka Moskva, 1969, s.64

iki tərəfin razılığı ilə görüş təyin edildi. İrəvan yürüşünün iştirakçısı, Sisyanovun silahdaşı olan, eləcə də Bakının alınması üçün baş komandana məsləhətlər verən gen.-m. Tuçkov öz gündəliyində bu görüşün təyin edilməsini belə qələmə alır: «Yaxınlaşmaqda olan müvəffəqiyyətdən başı gicəllənən Sisyanov təkəbbürlə soruşdu: «Sənsənmi Bakı xanı»? – «Yox, mən onun elçisiyəm» deyə məmur cavab verdi: – «Açarlarını götür get qalaya xana de ki, özü açarları mənə versin və hərəkətlərinə görə diz çöküb üzr istəsin». Açarları götürüb gedən məmur bir neçə saatdan sonra geri qayıdaraq belə cavab verdi: «Xanım böyük Aleksandrın qoşunu ilə vuruşmaq niyyətində idi... amma indi o, bunu luzumsuz bilib knyaza açarları təqdim etməyə razıdır»[307]

1806-cı il fevralın 8-də səhər şəhər darvazası yaxınlığında Sisyanovla (onu podpolkovnik kn. Eristov və bir kazak müşayiət edirdi) Hüseynqulu xanın (onu dayısı oğlu İbrahim bəy, Qasım bəy, Ağakərim bəy, Seyid bəy və Əmir Həmzə müşayiət edirdi) görüşündə Sisyanov İbrahim bəy, Elizbar Eristov isə Seyid bəy və Əmir Həmzə tərəfindən öldürüldü.[308] Rus qoşunları gəmilərə doluşaraq Sara adasına qaçmağa məcbur oldular.[309] Bu hadisə haqqında çox yazıldığından və müxtəlif versiyalar mövcud olduğundan yalnız faktı söyləməklə kifayətlənir, üzərində dayanmağı lazım bilmirik.

Rus hakim dairələrinin etiraf etdiyi kimi Sisyanovun öldürülməsi və Zavalişinin geri çəkilməsi Rusiyanın Cənub Qafqazdakı nüfuzuna mənfi təsir göstərdi. Bütün xanlıqlarda həyəcanlar başladı.[310] A.Bakıxanov bu vaxt Şamxaldan başqa bütün xanların üsyan etdiyini bildirir.[311]

Şirvan, Şəki və Qarabağ xanları bu vəziyyətdən istifadə edərək Rusiyadan aralanmağı və öz müstəqilliklərini bərpa etməyi qərarlaşdırdılar.[312] Uğurlu ağa Gəncədə öz müstəqilliyini elan etdi.[313] Özünü Rusiyanın vassalı hesab edən və 1801-ci ildən general-leytenant rütbəsi daşıyan Talış xanı Mir Mustafa xan iranlıların tərəfinə keçərək ruslarla düşmənçilik etməyə başladı.[314] İrəvan xanı isə zəbt olunmuş Şoragil vilayətini geri qaytarmağa hazırlıq görürdü.[315] Rusiyanın Qafqazda ən qatı əleyhdarları hesab olunan car-balakənlilər, Borçalı və pəmbəklilərin,[316] elə də şəmşəddillilərin üsyanları demək olar ara vermir, müxtəlif formalarda davam etdirilirdi. İmeretiya valisi Rusiyanın düşməninə çevrildi.[317] Dağıstan hakimləri də üsyançılara kömək edirdilər.[318] Ümumiyyətlə, rus hərb tarixçisi Pottonun etiraf etdiyi kimi, «hamı bir nəfər kimi ayağa qalxmışdı».[319]

Bütün bunlar əhalinin istilaçılara qarşı münasibətini aydın şəkildə təcəssüm etdirir. Bu faktlar XIX əsrin əvvəllərində baş verən hadisənin «könüllü birləşmə» və yaxud «birləşdirmə» deyil məhz işğal olduğunu bir daha sübut edir. Üsyan zamanı Rusiyanın Tarkovlu şamxaldan başqa tərəfdar tapa bilməməsi də bu ölkəyə qarşı hər hansı meylin olmadığını göstərir. Ona görə də burada heç bir nüfuz

---

[307] Zapiski A.S. Tuçkova, s.257.
[308] Dubrovin N. Zakavkazğe…, s.477.
[309] Bakixanov A. Göst. əsəri, s.154.
[310] Voennaə gnüiklopediə, XI cild, s.224.
[311] Bakixanov A. Göst. əsəri, s.154.
[312] Potto V. Utverjdenie..., s.235.
[313] Sısoev V.M. Baku prejde i teperğ, Baku, 1928, s.42
[314] Bakixanov A. Göst. əsəri, s.154.
[315] Potto V. Utverjdenie..., s.235.
[316] Dubrovin N. İstoriə voynı i vladıçestva russkix na Kaavkaze, V cild, SPb., 1887, s.17.
[317] Bakixanov A. Göst. əsəri, s.154.
[318] Potto V. Utverjdenie..., s.235.
[319] Yenə orada .

qazana bilməyən Rusiya ya işğalçılıq planından əl çəkməli, ya da öz siyasətini davam etdirmək üçün yenə də silahı ön plana çəkməli idi.

Rusiya dövlətinin qayda-qanunlarına yaxından bələd olmayan və onların müvəqqəti hesab edən Azərbaycan xanları elə hesab edirdilər ki, Qafqaz canişini-rus qoşunlarının başçısının ölməsilə bağlanan müqavilələr öz qüvvəsini itirəcək və bununla əməl etməyi heç kim onlardan tələb etməyəcək, yaxud da tələb etməyə imkanı olmayacaqdır. Onlar əmin idilər ki, baş vermiş üsyanlar nəticəsində işğal olunmuş ərazilərdəki bütün rus qarnizonları geri çağırılacaq və bununla da rus hökmranlığına son qoyulacaqdır. Lakin min kilometrlə yol qat edərək yeni ərazilər istila edən çar Rusiyası belə asanlıqla öz işğalçılıq planından əl çəkməyə yox, tezliklə sərhədləri Kür və Araz çayı sahillərinə çatdırmaqla işğalı başa çatdırmağa tələsirdi. O ki, qaldı Sisyanovun sağlığında belə müqavilənin şərtlərinə tam əməl olunmamasına, bu həm yerli xanların zor gücünə tabe etdirilməsi, həm də rus qoşunlarının işğalçılıq yürüşlərinin hələ də davam etməsi ilə izah olunmalıdır.

Tiflisə yeni qoşunların gəlməsilə Azərbaycanda da rus qoşunlarının sayı artırıldı. Vəziyyətə nəzarət etmək üçün tezliklə 2 batalyon Kürəkçay sahilində dayanan Karyaginin ixtiyarına, 2 rota isə Şəmşəddil distansiyasına göndərildi.[320] Qafqazdakı rus qoşunlarının komandanı vəzifəsini icra edən Nesvetayev Sara adasındakı rus qoşunlarının Həştərxana çağıraraq yeni hücuma hazırlaşmaq üçün göstərişi verdi. Mayın əvvəlində isə gen. –m. Qlazenap hökmdarın göstərişi ilə 3000 nəfərlik dəstə və 10 topla Hüseynqulu xanı cəzalandırmaq üçün Georgiyevskidən Bakıya hərəkətə başladı. Bu hissəyə 5 general, 82 zabit və 26 kazak başçısının daxil edilməsi[321] rusların yeni hücuma necə əhəmiyyət verməlrini bir daha sübut edir. Həmin ordu hissəsi yol üstü Dərbənd xanlığını da itaətə gətirməli idi.[322] Eyni zamanda 200 gəmidən ibarət Xəzər donanmasına Həştərxandan mühasirə artilleriyasını götürmək tapşırılmışdı.[323]

1806-cı ilin yazında Qafqazdakı qarşılıqdan istifadə edən İran qoşunları rusları Azərbaycandan çıxarmaq üçün iki istiqamətdə hücuma başladılar. Birinci dəstə Şuşa yaxınlığında düşərgə saldı, ikinci dəstə isə Axsuya gəldi. İran qoşunlarından bir hissəsini yanına dəvət edən Şeyxəli xan Hüseynqulu xanla birlikdə Abbas Mirzənin yanına getdi.[324] Bəzi müəlliflər (Sısoev, Potto) hətta İbrahim xanın da iranlıların dəvət etmələri barədə yazırlar. Amma mənbələrlə tanış olduqdan sonra belə qənaətə gəlmək olar ki, bu fikir həqiqətə uyğun deyil. Başqa yol tapa bilməyərək müvəqqəti olaraq Rusiya himayəsinə sığınan İbrahim xanın heç vaxt İran meylli olmadığını qeyd etmişik. Bunu aşağıdıkı sənəd də təsdiqləyir. Şuşa ağsaqqallarının və sakinlərinin rus hökumətinə müraciətində yazılır: «...hamıya bəllidir ki, İbrahim xan hələ babası və atasının vaxtından İran hakimləri ilə ədavətdə olmuş və həmişə onlara qarşı çıxmışlar».[325]

İyunun 2-də general qraf Qudoviç Qafqazdakı qoşunların baş komandanın təyin edilir. İyunun 3-də Qlazenapın dəstəsi Dağıstana daxil olur və burada Tarkovlu Mehdi Şamxal öz milisini ona

---

320 Potto V. Utverjdenie…,s.239.
321 Dubrovin N. İstoriə voynı i vladıçestva russkix na Kavkaze, VI cild,SPb., 1888, s.61-62.
322 Butkov Göst. əsəri, III hissə, s.384.
323 Kozubskiy E.İ. Göst. əsəri, s.131
324 Bakixanov A. Göst. əsəri. s. 156.
325 QAKA, II cild, sənəd 624.

birləşdirir.[326] Qatı Rusiya tərəfdarı və rusların xidmətində olan, 1800-ci ildən general-leytenant rütbəsi daşıyan Tarkovlu Mehdi Şamxal Fətəli xanın qızı, Şeyxəli xanın bacısı Pəricahan xanımıda evləndiyindən Dərbənd xanlığına iddia edir və bu işdə rusların köməyinə bel bağlayırdı.

Rus qoşunlarının Dərbənd daxil olmasından qabaq Şamxalın agentləri və bu xanlığa gələrək Şeyxəli xana qarşı fəaliyyət göstərirdilər.[327] Onlar camaata Şeyxəli xandan üz döndərməyi, Rusiya himayəsinə girməyi təlqin edirdilər. Şamxal bu işdə öz istəyinə nail oldu. Bunun başlıca səbəbi Şeyxəli xanın əhalini incitməsi idi. Əsas hiddət doğuranı isə o idi ki, xan «xoşuna gələn qızları qaçırır, qadınları ərlərindən alır sonra isə onları yenidən öz evlərinə qaytarırdı».[328] Nəhayət Şeyxəli xanın davranışına dözməyən dərbəndlilər onu şəhərdən qovdular.[329] Şəhərdə hakim seçilən Əlipənah bəy Boyat rus qoşunlarını qalaya dəvət etdi.[330]

1806-cı il iyunun 21-də Dərbənd rus qoşunları tərəfindən tutuldu. Xanlığın yeganə mahalı olan Ulus Dərbənd xanı titulu ilə ruslara xidmətlər göstərmiş Mehdi Şamxala, şəhərin idarəsi isə mayor rütbəsinə keçirilmiş Əlipənah bəyə tapşırıldı.[331] Qlazenap Narın-qalada (xan sarıyında) yerləşdi.[332] Çarın 1806-cı il 23 avqust tarixli fərmanı ilə Fətəli xanla qan qohumluğu olmayan Mehdi Şamxalın Dərbənd xanı təsdiq olunması[333] rus hökumətinin Azərbaycanda necə özbaşınalıqlar edəcəyindən xəbər verirdi. Həmin fərmana əsasən Dərbənd şəhərinin gəliri çar xəzinəsinə daxil olmalı idi.[334]

Dərbənd hadisələrinin cərəyan etdiyi bir vaxtda ruslar Azərbaycanı təlatümə gətirəcək yeni bir qanlı faciə törətdilər. İyunun 14-də gecə mayor Lisaneviç mayor Corayev və 200 nəfər əsgərlə birlikdə xanın düşərgəsinə gələrək Rusiya qarşısında heç bir günahı olmayan İbrahim xanı, arvadı Tuba xanımı, qızı Səltənət bəyimi, 12 yaşlı oğlu Abasqulu ağanı, ümumiyyətlə isə xanla olan 17 nəfəri qətlə yetirdi.[335] Qarabağda törədilən bu faciə rus çariziminin vəhşi simasını göstərir.

Bu məsələnin mahiyyətini açmağa çalışaq. Məlumdur ki, o vaxt Qarabağa hücum edən İran qoşunları Ağoğlanda qərar tutmuşdular. Onların yaxınlaşmasından narahat olan İbrahim xan tez-tez Lisaneviçlə məsləhətləşir, Nesvetayevdən yeni qoşun hissələri göndərilməsini tələb edirdi. Şuşada olan qarnizonla İran qoşunlarının qarşısını ala bilməyəcəyini görən İbrahim xanın iranlılarla xoşluqla rəftar edir və apardığı danışıqlar barədə Lisaneviçə məlumat verirdi. İbrahim xanın iranlılara satılması və yaxud onlarla birləşmək istəməsi haqqında yayılan söz-söhbətlər xanı istəməyənlərin şaiyələri idi və bunu təsdiq edən heç bir tutarlı əsas yoxdur. O ki, qaldı xanın Xan bağından Qaraqaya adlanan yerə keçməsinə onu Şuşa ağaları belə izah edirlər: «...mayor Lisaneviç və mayor Corayev camaatla pis rəftar edir, onları incidir, müqavilənin şərtlərini pozaraq bizim xəbərimiz olmadan onlara aid olmayan işlərə qarşırdılar. Onların bə hərəkətindən hərslənən mərhum xan qalanın kənarında çadır qurmağı əmr

---

[326] Kozubskiy E.İ. Göst. əsəri, s.131.
[327] Yenə orada
[328] Dubrovin N. İstoriə voynı …, VI cild,s.63
[329] Bronevskiy S. Göst. əsəri, s.335
[330] Alkadari Q. Göst. əsəri, s.121.
[331] Bakixanov A. Göst. əsəri. s156.
[332] Kozubskiy E.İ. Göst. əsəri, s.133.
[333] MHTA, HTA,№ 6164, v.121-22; Bax: Materialı po istorii Daqestana i Çeçeni, III cild, I hissə (1801-39), Maxaçkala, 1940,s.91.
[334] Yenə orada.
[335] Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri, – Qarabağnamələr, II kitab,s.236; Həsən İxfa Əlizadə. Şuşa şəhərinin tarixi, s.337; QAKA, II cild, sənəd 605.

edir».[336] Əgər xan satqınlıq etsəydi və yaxud iranlılarla birləşmək istəsəydi[337] bütün ailə üzvlərini özü ilə götürərdi. Halbuki onların çoxu qalada idi. İkincisi də xanın belə bir fikri olsa idi yəqin ki, hərbi hazırlıq görərdi. Nesvetayev özü etiraf edir ki, xanın yanına heç bir döyüşçü olmamış və xan özü heç bir atəş açmadan rus qoşunlarnın qarşısına çıxmışdır. Əsgərlər isə heç nəyə baxmadan xanı və çadırını gülləyə tutmuşdular.[338] Nesvetayev həmçinin qeyd edir ki, hücüm edənlər xanın bütün əmlakını qənimət kimi əla keçirmişdilər. Əsası isə xanın heç bir səbəb olmadan öldürülməsi həmin sənəddə təsdiq olunurdu.[339]

Nesvetayevin raportuna əsasən yuxarda deyilən fikirləri hərbi nazirə çatdıran qraf Qudoviç yazırdı: «...İbrahim xanın qohumlarına, eləcə də itaətmizdə onların hamısına imperatorun ədalətli və qanunpərəst olduğunu göstərmək üçün podpolkovnik Lisaneviç (artıq onun rütbəsi artırılmışdı – V.U.) və mayor Corayev üzərində formal olaraq təhqiqat aparmalıyıq».[340] Cəzasız qalan Lisaneviç və Corayev əhalinin sakitləşməsi üçün bir müddətdən sonra başqa xanlığın ərazisinə keçirildilər. Göründüyü kimi Lisaneviç rütbəsi artırıldı, «xalqın narazılığı və çoxlu şikayəti isə nəticəsiz qaldı. İbrahim xan çarizmin qəddar müstəmləkəçiliyinin qurbanı oldu».[341] Xanlığın idarəçiliyi atasının ölümünə biganə qalan və xalqı sakitləşdirən general-mayor Mehdiqulu xana tapşırıldı.

O ki, qaldı bu qətlin törədilməsində hər hansı bir göstərişin olmasına bu haqda dəqiq məlumatımız yoxdur. Bununla yanaşı bir neçə məqamı qeyd etməyi lazım bilirik. Tarixçi P.Butkov bir əlyazmada «İbrahim xanın ölümü Şuşa ruslar tərəfindən tutulan kimi baş verir», digərində isə «Peterburqda bu haqda artıq 1805-ci ilin aprelində bilirdilər» fikirlərinə rast gəldiyini bildirir.[342] Görünür Butkov üçün də xanın ölümü qaranlıq qalıb. İkincisi isə İbrahim xanın imperatorunun qəzəbinə gəlməsini 1806-cı ilin yanvarında xana bildirən keçmiş baş komandan Mehdiqulu xanı ona kömək etmək üçün təcili Şuşaya qaytaracağını bildirirdi.[343] Məlumdur ki, Mehdiqulu xan Qarabağ atlıları ilə Şirvan və Bakı yürüşündə Sisyanova kömək edirdi.

Bu hadisə ölkədəki narazılığı son həddə çatdırdı. Hər yerdə itaətsizlik geniş miqyas aldı. Kütləsi çıxışların və «satqınlığın» qarşısını almağa çalışan çar Rusiyası Tiflisdən Gəncəyədək bütün ərazi boyu keşikçi dəstələri yerləşdirdi.[344] Təbii ki, ən qaynar nöqtə Qarabağ xanlığı idi.

Mehdiqulu xanın cəhdlərinə baxmayaraq burada əhali sakitləşmək bilmirdi. «Xanın öldürülməsi üsyan üçün Qarabağ bəylərinə bir işarə oldu».[345] Onlar öz elatı ilə birlikdə Əbülfət xana qoşulurdular. Əsasən xanlığın Rusiya tərəfindən tutulmasından sonra başlanan və artıq qarşısıalınmaz olan bu proses Qarabağın əsasən sayılan Feyzi bəy və Mirzə Əli bəyin (onlar həmdə İbrahim xanın qohumları idilər) Əbülfət xana qoşulması ilə kütləvi xarakter almışdı. Nəticədə qüvvələr nisbəti Zəngəzurda qərar tutan Əbülfət xanın xeyrinə getdikcə deyişirdi. Abbas Mirzənin başçılıq etdiyi qoşunların Ağoğlanda

---

[336] QAKA, II cild, sənəd 624
[337] Bu fikri mayor Lisaneviç, Məlik Cümşüd, Məlik Şahnəzər, habelə tarixçilərdən Mirzə Yusif Keresov Qarabağlı, A.Bakixanov, V.Sısoev və b. iddia edirlər.
[338] QAKA, II cild, sənəd 605.
[339] QAKA, II cild, sənəd 605.
[340] Yenə orada
[341] Həsən İxfa Əlizadə. Göst. əsri, s.338.
[342] QAKA, II cild, sənəd 61491.
[343] Butkov II.Q. Göst. əsəri, III cild, s.382.
[344] Potto V. Utverjdenine…, s.244.
[345] Yenə onun . Pervıe dobrovolcüı Karabaxa v epoxu vodvorenıə russkoqo vladıçestva, Tiflis, 1902, s. 35.

möhkəmlənməsi isə Şuşadakı rus qarnizonunun tezliklə oranı tərk edəcəyinə tam yəqinlik yaradırdı. Əks təqdirdə qarnizon məhv ediləcəkdi. Bunu hələ İbrahim xan da yəqin etmişdi.

Lakin bu hadisədən çox keçməmiş general-mayor Nebolsinin başçılıq etdiyi qoşun Əscəran ətrafında göründü. Mehdiqulu xan Qarabağ atlıları ilə qaladan çıxıb rus qoşunları ilə birləşdi. İyulun ortalarında baş verən döyüşdə İran qoşunları məğlub olaraq Arazın o tərəfinə çəkildi. İranlıların bu məğlubiyyəti rusların əl-qolunu açdı. Əbülfət xan rusların yeni kömək alaraq qələbə çaldığını eşidərək Naxçıvana doğru geri çəkilməyə başladı. Onları təqib etmək isə İbrahim xanın nəvəsi Cəfərqulu ağanın atlıları və məlik Cümşüdün 200 erməni piyadası ilə birlikdə Lisaneviçin batalyonuna tapşırıldı.[346] Əbülfət xan da məğlub olaraq Qarabağı tərk etməyə məcbur oldu.

İşğalçıların Qarabağdan çıxarılması üçün edilən bu cəhdlər də müvəffəqiyyətsizliyə uğradı. Hər iki «təhlükəni» «özümünkülərin» köməyilə dəf etməyə nail olan ruslar iyulun axırlarında Qarabağda öz hakimiyyətlərini möhkəmləndirdilər.

Qarabağ üsyanını Şəki üsyanı əvəz etdi. İbrahim xanın «o vaqəsindən xəbərdar olan Səlim xan rus dövlətindən üz döndərdi».[347] (Məlumdur ki, İbrahim xanla öldürülən arvadı Səlim xanın bacısı idi). Silahlı şəkililər rus kazaklıları üzərinə atılaraq onların bir qismini öldürərək, qalanlarını tərkisilah etdilər.[348] (Gen. Rebinderin başçılıq etdiyi 2 bölükdən ibarət rus qarnizonu 1805-ci ilin mayında Şəkiyə göndərilmişdi.) Səlim xan Şəkidəki rus qoşunlarının başçısı mayor Parfyonovdan bu ərazidən çıxmasını tələb etdi və ertəsi gün rus qoşunları Şəki xanlığın tərk etdilər.

Rus qoşunlarının belə alçaqlıqlar edəcəyini gözləməyən Səlim xan Karyaginə yazırdı: «Sizə məlumdur ki, İbrahim xan və mən şərəfsizlik edərək öz dindaşımız olan hökmdardan üz çevirib Rusyanın himayəsinə girmişik. Bunu ona görə etmişik ki, lazım olanda bizə kömək edəsiniz, sakit yaşaya bilək. Əvvəla beldə köməklik olmadı, ikincisi İbrahim xana təşəkkür etmək əvəzinə, onu qətlə yetirdiniz, ...mənim bacımı öldürdünüz. Bundan sonra mən necə sizə inanım və qoşununuzu saxlayım. Bu hadisədən titrəyən camaatım rus qoşunlarını tamam qırmaq istəyirdi, amma mən buna razı olmadım... Xalq onlara (rus qoşunlarını – V.U.) qarşı usyan etdiyindən onlar burada qala bilməzlər».[349]

Rus qoşunlarının xanlığın ərazisindən çıxarılması böyük nailiyyət idi və müstəqilliyin bərpasında böyük addım idi. Səlim xanın belə cəsarətli hərəkəti rusların mövqeyini xeyli sarsıdaraq, onların bölgədəki nüfuzuna ciddi zərbə vurdu. Dubrovinin təbirincə desək mayor Parfyonovun bu «səhvinin düzəldilməsi çox baha başa gəldi»,[350] və Səlim xanın cəzalandırılması uzun müddətə təxirə salındı.[351] Gec-tez hücumun olacağını gözləyən Səlim xan isə «silah, pul tədarükü görür, dağlıq ərazidə sakin olan avar, car, ləzgilərdən əsgər toplayırdı».[352]

Bir məsələni də qeyd edək. İyulun 27-dən Georgiyevskə gələn yeni baş komandan qraf Qudoviç Qarabağ və Şəkidə baş verən hadisələrə obyektiv yanaşırdı.[353] Heç də təsadüfi deyil ki, onun bu

---

346 Potto V. Utverjdenie…, s.243.
347 Hacı Seyid Əbülhəmid. Şəki xanları və onların nəsilləri,. Şəki xanlığının tarixindən,. Bakı,. 1958, s.30.
348 Dubrovin N. F. İstoriə voynı…,V cild, s.57.
349 Dubrovin N. F. İstoriə voynı…,V cild, s 59.
350 Yenə orada, s.61.
351 Potto V. Utverjdenie…, s.245
352 Zeynaloğlu Cahangir. Müxtəsər Azərbaycan tarixi, Bakı, 1992,s.96-97.
353 QAKA III cild, Tiflis, 1869, sənədlər: 604;605;606.

hərəkəti Rusiyanın hərbi mənafeyini üstün tutan tarixçi Pottonun ciddi tənqidinə məruz qalır. O, Qudoviçi rus çarına xanlar barədə yaxşı rəy yaratmaqda günahlandırırdı.[354]

Şəkililərin qələbəsindən ruhlanan qonşu Car-Balakən camaatları «bir nəfər kimi üsyan etdilər»[355] və tabe olmaqdan boyun qaçırdılar. Burada fəaliyyət göstərən atlılardan ibarət iki hərbi dəstə isə Dağıstandakı rus qoşunlarına ciddi təhlükə törətməyə başladı.[356] Ümumiyyətlə rus işğalı başlayandan bəri çoxlu sayda itki verən, əraziləri viran edilən, yaşayış məskənləri yandırılan bu camaat hərbi əməliyyatları dayandırmır, imkan düşdükcə rus-gürcü hərbi birləşmələrinə güclü zərbələr endirirdilər.

Car-balakənlilər 1801-1806-cı illərdə rusların 15 zabitini və 250 əsgərini məhv etmiş, uyğun olaraq 27 və 340 nəfərini yaralamışdılar. 96 əsgər isə əsir götürülmüşdü.[357]

Bu müddətdə Dərbəndi geri qaytarmağa çalışan Şeyxəli xan isə Qubada ruslara qarşı hərbi qüvvə toplamaqla məşğul idi.[358]

Şəkililərin və car-balakənlilərin cəzalandırılmasını Bakı yürüşündən sonraya saxlayan qr. Qudoviç Dərbəndin təhlükəsizliyini təmin etmək və Dağıstan xalqlarından özünə tərəfdar toplamaq məqsədilə, qonşu Qaraqaytaq və Tabasaran vilayətlərinin hakimlərini, eləcə də Əlipənah bəyi mükafatlandırmağı qərara aldı.[359]

1806-cı ilin avqustunda Rusiyanın Türkiyə ilə münasibətləri daha da kəskinləşdi. I Aleksandr Türkiyə ilə sərhəddəki qoşunları müharibəyə hazır vəziyyətə gətirdi.[360] Həmçinin Fransa ilə məlum münasibətlər Rusiyanı cənubdakı fəal hərbi əməliyyatları nisbətən yumuşaltmağa məcbur etdi. Xarici işlər naziri Çartorıyskinin tərtib etdiyi plana əsasən rus qoşunları Bakı istisna olmaqla yeni ərazilərin işğal olunmasını əlverişli vaxtadək təxirə salıb hərbi əməliyyatları dayandırmalı idilər. Bakı xanlığı ləngimədən işğal edilməli, sonra isə Salyan və Cavad tutularaq burada istehkamlar qurulmalı və Kür çayı boyunca yeni sərhəd xətti qurulmalıydı.[361] Bununla da işğalın əsas hissəsi başa çatdırılmalı idi.

Bu plana uyğun hərəkət edən yeni baş komandan Bakı yürüşünə çıxmaq üçün Xəzər desant donanmasının Dərbəndə gəlməsini gözləyən Qlezenapı gözlənilmədən gen. Bulqakovla əvəz etdi. Sentyabrın 9-da qraf Qudoviç Bakı yürüşünə çıxmaq üçün Bulqakova göstəriş verdi. Bu yürüşdə Bakı xanlığı ilə yanaşı Quba da fəth edilməli idi.[362]

Yürüşə çoxlu sayda hərbi qüvvə və texnika cəlb edilmişdi. Dərbəndə əlavə olaraq yeni alaylar göndərilmişdi. Bulqakov Dərbənddə lazımi qoşun qoyub şimaldan Şamxalın dəstəsi ilə birgə Bakı üzərinə hücum etməli idi. Dərbənd xanlığının bir hissəsi vəd edilmiş və qiymətli əşyalarla mükafatlandırılmış Mehdi Şamxal həmçinin öz «sınanmış metodunu» işə salmalı, bakılıları və qubalıları silahsız təslim olmağa təhrik etməli idi. Qraf Qudoviç ona böyük ümid bəsləyirdi. Xəzər desant donanması rus qoşunları Bakıya çatmazdan əvvəl sahilə yaxınlaşmalı idi. Nesvetayev isə cənubdan – Cavad istiqamətindən Bakıya təzyiq göstərməli idi. O, həmçinin müxtəlif təxribatlar törədərək İran qoşunları tərəfindən ola biləcək hər hansı köməyə mane olmalı idi. Bütün bu qüvvələr

[354] Potto V. Utverjdenie…, s.255.
[355] Yenə onun. Kavkazkaə voyna…, IIcild, s.405.
[356] QAKA III cild, sənəd 581.
[357] Qizetti A.P. Göst.əsəri, s.6.
[358] Dubrovin N. F. İstoriə voynı…,Vcild, s.67.
[359] Bax: Russko-Daqestanskie otnoşeniə v XVIII-naç. XIX v. (sb.dok.). Moskva,1982, s.271.
[360] Sadıqov H. Rusiya-Türkiyə münasibətlərində Cənubi-Qafqaz problemi, Bakı,1991,s.62.
[361] Potto V. Utverjdenie…, s245.
[362] QAKA III cild, sənəd 166.

əlbir fəaliyyət göstərməli idilər. Qraf Qudoviçin qoşunların başçısı Bulqakova göstərişində deyilirdi: «Sizin qüvvənizi görən düşmən inanmıram tab gətirsin. Başqa sözlə artıq imperatorun göstərişi vardır: hansı yolla olursa olsun ora (Bakı – V.U.) alınmalıdır».[363]

Bakıya yaxınlaşan Bulqakov əhaliyə təslim təklifi ilə müraciət etdi və bildirdi ki, əks-təqdirdə şəhər yerlə yeksan ediləcəkdir. Buna cavab olaraq nüfuzlu Bakı bəylərindən olan Qasım bəy xanın bağışlanmasına təminat istədi və bildirdi ki, əks-təqdirdə xalq axırıncı dəqiqəyədək müdafiə olunacaq.[364] Həqiqətən də ruslar şəhərə girərkən 20 topun və başqa silahların qala divarından düzüldüyünün şahidi oldular.[365]

Lakin bağışlanacağına inanmayan və müqavimət göstərməyin lüzumsuz olduğunu görən Hüseynqulu xan öz yaxın adamları ilə Bakını tərk etdi. Bu vaxt əhali də şəhəri tərk etməyə başlayır.[366]

Bir çox müəlliflər rus qoşunlarının yaxınlaşması ilə əlaqədar Bakıda həyacanlar baş verdiyini bildirirlər. Bunun səbəbləri məlum deyil. Ehtimal ki, bu rus qoşunları ilə vuruşub-vuruşmamaq haqqında mübahisələrdən ibarət olmuşdur. Müqavimət göstərmək istəyənlər buna hamını cəlb edə bilmədiklərindən şəhəri tərk etməyə məcbur olmuş, yaxud da, müqaviməti mənasız hesab edənlər tərəfindən şəhərdən çıxarılmışlar.

Rusların intiqamından qorxan bəzi Bakı bəyləri və şəhərdə qalan əhali müqavimət göstərmədi və şəhər oktyabrın 3-də rus qoşunları tərəfindən tutuldu. Bakı xanlığı ləğv edilərək Rusiyanın bir əyalətinə çevrildi. Onun idarə olunması gen. –m. Quryevə tapşırıldı. Xanlıq ləğv edildiyindən vərəsəlik üzrə xan taxtına irəli sürüləcək hər hansı iddia öz əhəmiyyətini itirdi. Onu da qeyd edək ki, Hüseynqulu xanla ədavətdə olan keçmiş Bakı xanı II Mirzə Məhəmməd xan da rus qoşunları ilə birlikdə Bakıya gəlmişdi.[367]

Bakının ələ keçirilməsinin iqtisadi əhəmiyyətini qeyd edən qr. Qudoviç yazırdı: «Kiçik əraziyə malik bu xanlıq ildə 100.000 rubldan çox gəlir verir... Lakin şəhər əhali ilə sıx və Xəzərdə ən yaxşı liman olduğundan bu gəlir müqayisə olunmaz dərəcədə arta bilər».[368] Bakıda bir batalyon və limanda hərbi donanma qoyan Bulqakov noyabrın 11-də sərəncamında olan qoşunlarla Qubaya hərəkət etdi. Bundan xəbər tutan Quba əhalisi dağlara, meşələrə çəkildi. Onlara Şeyxəli xan başçılıq edirdi. Rus qoşunları baş şəhərə daxil oldular.[369] Bulqakov Şeyxəli xanın həmişəlik Quba xanlığından uzaqlaşdırıldığını və xanlığın Rusiyaya birləşdirildiyini elan etdi.[370]

Lakin bu xanlığın idarə olunmasının çətin olacağını və rus qoşunlarının hücumlara məruz qalacağını dərk edən Qudoviç xanlığın idarəçiliyini «qiyabi olaraq öz itaətini bildirən». Şeyxəli xana tapşırmağı qərara aldı.[371] Amma bu müvəqqəti idi, çünki Aleksandr onu öz vəzifəsini layiqincə yerinə yetirməyincə təsdiq etməyəcəyini bildirmişdi.[372]

---

[363] Yenə orada.
[364] Potto V. Utverjdenie…, s258.
[365] Yenə orada.
[366] Sısoev V.M. Göst. əsəri s.43
[367] Bakixanov A. Göst. əsəri.
[368] QAKA III cild, sənəd 642
[369] MHTA, HTA, № 6164, var. 140-144, – Bax: Materialı po istorii Daqestana i Çeçeni, IIIgild, Ihissə, s.93
[370] Potto V. Utverjdenie…, s 260
[371] Alkadari M.Q. Göst. əsəri, s.121.
[372] QAKA III cild, sənəd 743.

1806-cı ilin sentyabrın Abbas Mirzənin Ağsunu tərk edərik Kürə doğru çəkilməsindən istifadə edən Şirvan xanı Mustafa xan rus qoşunlarının köməyilə Salyanı yenidən özünə birləşdirdi.[373] Əlbəttə Salyan Mustafa xandan çox Rusiyaya lazım idi. Həmçinin Eçmiadzin rus qoşunları tərəfindən tutuldu.

Bu dövrdə beynəlxalq vəziyyət də Rusiyanın xeyrinə dəyişmişdi. Belə ki, sentyabr ayında Rusiyanın iştirakı ilə Fransiya qarşı İngiltərə, Rusiya və İsveçin də daxil olduğu dördüncü koalisiya yaranmış və həmin ayın 23-də Rusiya və Türkiyə arasında 9 illik ittifaq müqaviləsi imzalanmışdı. Bununla Türkiyə faktiki olaraq Gürcüstan, Minqreliya və İmeretiyanın Rusiyaya birləşməsini etiraf etmişdi.[374] Oktyabr ayında isə İran qoşunları yeni işğal olunmuş ərazilərin sərhədlərindən tamam uzaqlaşdırılmışdı.

Həmin dövrdə orduda da bəzi islahatlar keçirildi. Qafqaz regionunda rus qoşunları iki hissəyə bölünərək on doqquzuncu və iyirminci piyada diviziyaları təşkil edildi. Şimali Qafqazda yerləşən on doqquzuncu diviziyaya general-leytenant Baron Rozen başçı təyin edildi. Qoşunların sayının artması nəticəsində artıq Azərbaycanda da rus qoşunlarının fəaliyyət sahəsi konkretləşdi və onlar arasında əlaqə möhkəmləndi. Bu da Rusiyaya qarşı baş verə biləcək hər hansı bir iğtişaşın yatırılması və əhalinin itaətdə saxlanması işinə xidmət etməli idi.

Başlıca işğal mərhələsini başa çatdıran rus qoşunları əsas qüvvələrini üsyanların yatırılmasına yönəltdilər. Oktyabrın 22-də Nebolsin öz qoşunu ilə (800 nəfərlik Troitsk alayı, 100 kazak və 5 top)[375] Səlim xan üstünə göndərildi.[376] Ona isə 232 nəfərlə Mingəçevirdə dayanan mayor Tokarev kömək etməli idi.[377] Fəaliyyət dairəsi məhdudlaşan Şəki qoşunları yerli əhalinin köməyilə müdafiəyə hazırlaşırdı. Bu işdə onlara ləzgilər də kömək edirdilər.[378] Xanlığın sərhəddində rusları dayandırmağa çalışan şəkililər məğlub oldular. Şəhərin iki verstliyində qanlı döyüş baş verdi. Burada da rusların hücumuna dayandırmaq mümkün olmadı. On beş saatlıq döyüşdən sonra şəkililər qalaya çəkildilər.[379] Qalanın müdafiəçiləri şəhərin bir tərəfinə yandırıçı maddələr düzdülər. Rusların hücumu zamanı onlara od vuruldu. Lakin ruslar şəhərə soxula bildilər.[380] 500 nəfərə qədər itki verən şəkililər Səlim xan da olmaqla şəhəri tərk etdilər.[381] Şəki xanlığı yenidən işğal edildi. Xanlığın idarəçiliyi Səlim xanın qardaşı Fətəli xana tapşırıldı.[382]

Şəkililərdən sonra car-balakənlilərin cəzalandırılması üçün göstəriş verildi. Noyabrın 7-də knyaz Orbeliani 3 alayla (1600 nəfər) iki istiqamətdə bu vilayətə hücum etdi.[383] Ona bu yürüşdə knyaz Eristovun başçılıq etdiyi 2000 nəfər gürcü atlısı kömək etməli idi.[384] Əhməd xan öz döyüşçüləri ilə Carı tərk etdi. İkinci bir müttəfiqini itirən və rusların amansızlığından qorxan Car ağsaqqalları öz itaətlərini bildirdilər. Sonra isə rus qoşunu qadın və uşaqların toplaşdığı Zaqatalaya yaxınlaşdı. Podpolkovnik Eristov bir dəstə ilə Zaqatalaya gedən suyu kəsmək üçün göndərildi. Mayor Alekseyev

---

[373] Alkadari M.Q. Göst. əsəri, s.121
[374] Qulia D.Q. K istorii vostoçnoqo voprosa, Suxumi, 1978, s.25.
[375] Potto V. Utverjdenie…, s.262.
[376] Kərim xan Fateh. Şəkə xanlarının müxtəsər tarixi, – Şəki tarixindən, Bakı, 1958, s. 22
[377] Dubrovin N. F. İstoriə voynı…,Vcild, s.85.
[378] Yenə orada. s.86.
[379] Dubrovin N. F. İstoriə voynı…,Vcild, s.86
[380] Potto V. Utverjdenie…, s.263
[381] Dubrovin N. F. İstoriə voynı…,Vcild, s.86
[382] Hacı Seyid Əbdülhəmid . Göst. əsəri, s.30
[383] QAKA III cild, sənəd 588.
[384] Yenə orada. sənəd.683.

150 nəfər atıcı ilə qalanın solundakı, podpolk. Peçorski isə yenə o sayda dəstə ilə qalanın sağındakı yüksəkliklərdə dayandılar.[385] Ətraf aləmə bütün əlaqə kəsildi. Orbeliani qr. Qudoviçə raportunda yazırdı: «Əhali o dərəcədə qorxdu ki, ağsaqqallar göz yaşları ilə aman dilədilər».[386] Beləliklə dekabrın axrına yaxın Car-Balakən də yenidən işğal edildi. Lakin Rusiya bu əməliyyatlarda bir general daxil olmaqla 600 nəfər itgi vermişdi.[387]

Car-Balakənə hərbi ekspedisiya başa çatan kimi İlisu sultanı Əhməd xan Tiflisə gələrək öz itaətini bildirdi.[388]

Bununla da 1806-cı ilin hərbi kompaniyası, eləcə də işğalın əsas mərhələsi başa çatdırıldı. Rus qoşunları qısa müddət ərazində İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla Kür və Araz çaylarından şimaldakı bütün Azərbaycan ərazilərini zəbt etdilər. Xalqın müstəmləkəçilərə qarşı apardığı mübarizə işğalın qarşısını ala bilməsə də onu müəyyən müddətə ləngidə bildi.

Ruslar işğal etdikləri ərazilərdə xalqın xeyrinə heç bir dəyişiklik etmədilər və ya bu dəyişiklər mənəvi terror qarşısında nəzərə çarpmırdı. Həyata keçirilən hər hansı yenilik isə xalqın rifahı naminə deyil, öz mənafeləri üçün həyata keçirilirdi ki, bunsuz idarə etmək qeyri mümkün idi. Lakin Rusiya gördüyü bütün hərbi və siyasi tədbirlərə baxmayaraq yeni fəth olunmuş ərazilərdə müstəmləkəçilik ruhunu saxlamaqda aciz idi.

---

[385] Yenə orada. sənəd.683
[386] Yenə orada.
[387] QAKA III cild, sənəd 1710.
[388] Yenə orada. sənəd.534.

## II FƏSİL. 1806-1813-cü İLLƏRDƏ XALQIN MÜSTƏMLƏKƏÇİLİK ƏLEYHİNƏ MÜBARİZƏSİ. GÜLÜSTAN MÜQAVİLƏSİ

1806-cı ilin sonlarında ruslar özlərinə yaramayan bəzi xanları hakimiyyətdən kənarlaşdırdılar. Qudoviçin göstərişi ilə Fətəli xan Şəki xanlığından məhrum edildi. Yeni xan təyin edilən Xoylu Cəfərqulu xan Kürəkçayda bağlanan müqaviləni təsdiq etdi və car-balakənlilərə nəzarət işi də ona həvalə edildi. Bu vilayətdə baş verəcək üsyanları yeni Şəki xanı öz qüvvəsi ilə yatırmalı idi.[389] Qubada isə ruslara qulluq etmək istəməyən Şeyxəli xan hakimiyyətdən kənar elan edildi. Hələ də xanlıqda olan Bulqakov nüfuzlu bəylərin ailəsindən 10 nəfər girov götürərək şəhərin idarəsini başda rus zabiti olmaqla bəylər şurasına tapşırdı. Hacı bəy isə Qubanın naibi təyin edildi. Qudoviç Şeyxəli xanı Quba kəndlərinə buraxmamağı, imkan düşən kimi onu tutmağı tapşırdı və bu işi görənə 500 çervon mükafat təyin etdi.[390]

Xanların öz yerində saxlanması və ya yeniləri ilə əvəz olunması da hərbi tarixçi Pottonun tənqidinə səbəb olur. Onun fikrincə Qudoviç yeni işğal olunmuş ərazilərdə Gəncədə olduğu kimi rus hərbi-idarə üsulu yaratmalı idi.[391] Bu da yerli xalqı hakimiyyətdən kənar etməklə həmin əraziləri Rusiyanın adi bir vilayətinə çevirmək istəyindən irəli gəlirdi.

Gəncə və Bakı xanlıqlarında olduğu kimi Şəki və Qubada da irsən hakimiyyətə gəlmiş xanların kənar adamla əvəz olunması əhalidə çaşqınlıq doğururdu və onlar bu hərəkəti özbaşınalıq kimi qiymətləndirirdilər. Ona görə əhali yeni hakimlərə qulluq etmək istəmir, köhnə xanların yolunu gözləyirdilər. Geniş xalq kütlələri arasında dayağı olmayan yeni hakimlər isə öz mövqelərini qorumaq üçün işğalçılardan tamam asılı hala düşür, işğalçı hökumətin bütün göstərişlərini yerinə yetirməyə hazır olan bir əlaltıya çevrilirdilər. Qanuni xanları uzaqlaşdırıb yeni hakimlər seçməklə rus hökuməti xanlıqlardakı hakimiyyəti tamam zəiflədir və xalq arasında qarşıdurma törədirdi. Bununla da həmin xanlıqların asan idarə olunmasına nail olurdu.

Bütün hərəkətləri diqqətlə izlənən Şirvan və Qarabağ xanlarının fəaliyyəti (bu haqda yerlərdəki qoşun başçılarına gizli göstəriş verilmişdi)[392] isə getdikcə xanlığın daxili işlərinə daha çox müdaxilə edən (baxmayaraq ki, xanlığın daxili müstəqilliyini saxlamaq müqavilədə təsbit olunmuşdu) rus hərbi rəislərinin şikayət obyektinə çevrilirdi. Vəziyyət o dərəcəyə çatmışdı ki, Şirvandakı rus qoşunlarının başçısı mayor Tixonovski Qudoviçdən xahiş edirdi ki, general-mayor Mustafa xanın onun tapşırıqlarını danışıqsız yerinə yetirməsinə razılıq versin.[393] Qarabağdakı qoşunların başçısı Kotlyarevskinin çoxsaylı şikayət məktublarına hətta Qudoviç belə dözməyərək yazırdı: «Xahiş edirəm onun (Mehdiqulu xan – V.U.) vəzifəsinə hörmət edin və onunla necə bir Rusiyanın general-mayoru kimi davranın».[394] Həmişə İbrahim xana sədaqətlə qulluq etmiş Məlik Cümşüd də «bütün tatarları (azərbaycanlılar), eləcə də Mehdiqulu xanı yalançı adlandırır və ona etibar etməməyi» ruslara tövsiyə edirdi.[395] Bütün bunlardan əsas məqsəd Mustafa xanı və Mehdiqulu xanı ruslara əzmlə xidmət etməməkdə

[389] QAKA, sənəd 492.
[390] Yenə orada, III cild, sənəd 58.
[391] Potto V. Usverjdenie..., s.265.
[392] QAKA, III cild, sənəd, 544.
[393] Yenə orada, sənəd 579.
[394] Yenə orada, sənəd 632.
[395] Bax: Prisoedinenie vostoçnoy Armenii k Rossii, s.405

günahlandırmaq, baş komandan tərəfindən onların daha çox məzəmmət olunmasına nail olmaq və nəticədə həmin xanları bezikdirib qaçmaq və ya ruslara qarşı açıq çıxış etmək məcburiyyəti qarşısında qoymaq idi. Heç də təəccüblü deyil ki, Mehdiqulu xan hələ sağ ikən Kotlyarevskinin Qarabağda ruslara yeganə sədaqətli adam hesab etdiyi Cəfərqulu ağa (İbrahim xanın nəvəsi) Qudoviç tərəfindən xanlığa varis təyin edilmişdi.[396] Həmçinin Qudoviç Mehdiqulu xan öləcəyi təqdirdə Kotlyarevskini bu işə hazır olmağı tapşırmışdı.[397] Əslində isə xanlığa varis ya xanın özü tərəfindən təyin olunmalı, ya da müəyən olunmuş xətt üzrə getməliydi.

Bütün tədbirlərə baxmayaraq əhali yerli əlaltıların göstərişlərini yerinə yetirmir, etiraz əlaməti olaraq öz yurd-yuvalarını tərk edərək rusların əli çatmadığı ərazilərə köçməkdə davam edir, üsyanlar törədir, kütləvi itaətsizlik göstərirdi. Belə hallar demək olar ki, bütün işğal olunmuş ərazilərdə müşahidə olunurdu. 1806-1807-ci illərdə Rusiyaya qarşı çevrilən hərəkatda qubalılar və şəkililər xüsusilə fəal iştirak edirdilər.

Qubada Şeyxəli xanın hakimiyyətdən kənar elan edilməsi Rusiya üçün heç bir xeyir gətirmədi. Əksinə Şeyxəli xan əvvəlki kimi xanlığı idarə etməkdə davam edir, vergi yığır, hətta sikkəxana təşkil edirdi. Xalq arasında heç bir dayağı olmayan Hacı bəy onun qarşısını almaqda gücsüz idi.[398] Eyni zamanda Şeyxəli xan öz silahlı dəstələri ilə Surxay xanla birləşib rus qoşunlarına zərbə endirməkdə davam edirdi.[399] Bu vəziyyətdən istifadə edən Mustafa xan Şeyxəli xandan iqtiqam almaq üçün 1806-cı ilin axırlarında Şirvandakı rus qoşunlarının köməyilə Quba vilayətini işğal etməyə başladı. Şeyxəli xan Tabasarana yeznəsi Abdulla bəyin yanına çəkildi. Sonra Dargin vilayətindən 5 min köməkçi toplayıb, yenidən Quba qəzasını ələ keçirdi. Rusların əlində yalnız Quba şəhəri qaldı.[400] İrandan kömək gözləyən Şeyxəli xan şahın məmuru Mirzə Şəfiyə yazırdı: «Mən indiyə kimi ruslara müqavimət göstərməkdə davam edirəm. Məndən üz döndərən qubalılar üzr istəyərək yenidən sədaqətli olacaqlarını bildirirlər. Rusların döyüş ruhu getdikcə zəifləyir. Kür sahilindən Dağıstana qədər olan bütün əhali ruslardan o qədər cana doyub ki, sizin ordunuz Şamaxıya gələn kimi bütün yerlər ruslardan təmizlənəcək».[401]

1807-ci ilin yanvarında Quba xanlığına (eləcə də Dərbəndə) ümumi rəhbərliyi Bakı komendantı Quryevə tapşıran Qudoviç Şeyxəli xana hərtərəfli zərbə endirmək üçün plan hazırlayaraq bu işə yerli xanları cəlb etməyi qərara aldı. Bu hücumda rus qoşunları ilə yanaşı Tarkovlu Şamxal, Mustafa xan və Cəfərqulu xan iştirak etməli idilər.[402] Bu hərəkətlə Qudoviç həmçinin Şeyxəli xanla qonşu xanlıqların münasibətlərini birdəfəlik korlayıb, onlar arasındakı kin-küdurəti dərinləşdirmək və bununla da onların Rusiyaya qarşı birləşmək ehtimalını heçə endirmək istəyirdi. Lakin Bulqakovun qoşunlarla bu əraziləri tərk etməsindən sonra ruslara qarşı münasibətin kəskin dəyişməsi haqqında məlumat alan baş komandan bu yürüşü təxirə salır və yürüşdə iştirak edəcək Quryevə hazırkı vəziyyətdə bu planın həyata keçirilməsinin qeyri-mümkün olduğunu bildirir.[403] Görünür Qudoviç həm də Bakıda «şuluqluq» olacağından ehtiyat edirdi.

---

[396] QAKA, III cild, sənəd, 632.
[397] Yenə orada, sənəd 632.
[398] Yenə orada, sənəd 746.
[399] Dubrovin N. İstoriə voynı..., V cild, s.82.
[400] Alkadari Q. Göst. əsəri, s.121-122.
[401] QAKA, III cild, sənəd, 740.
[402] Yenə orada, sənəd 543.
[403] QAKA, III cild, sənəd, 656.

Həqiqətən də Bulqakov Dərbəndi tərk edən kimi nəinki ruslara, eləcə də dərbəndlilərə qarşı güclü təzyiqlər başlandı. Qonşu Tabasaran, Xambutay, Kusmi hakimləri, eləcə də Şamxalın ərazisindən Dərbənd əhalisinə hücumlar edilir, ruslara tabe olduqları üçün onları qarət edəcəklərini bildirirdilər.[404]

Səlim xanın hakimiyyətdən uzaqlaşdırılması ilə barışmaq istəməyən şəkililər üsyana hazır vəziyyətdə idilər. Cəfərqulu xanın Şəki xanı təyin edilməsi xalq arasında narazılığı daha da gücləndirdi. Əhalinin yeni xana müqavimət göstərəcəyindən, eləcə də ona qəsd ediləcəyindən qorxan Qudoviç Cəfərqulu xanın təhlükəsizliyini qorumaq üçün xeyli qüvvə ayırmış,[405] həmçinin Cəfərqulu xana inanmadığı adamları tərksilah etməyi və 500 nəfər etibarlı adamı silahlandırıb öz yanında saxlamağı tapşırmışdı.[406] Cəfərqulu xanın hakimiyyətini möhkəmlətmək və onun xalq arasında nüfuzunu qaldırmaq üçün Şəkidəki rus qoşunlarına yeni xana bütün lazımi köməkliklər göstərilməsi haqda göstəriş verildi.[407]

Beləliklə Şəkinin «külli-ixtiyarı» Rusiyanın sadiq «bəndəsi», Qudoviçin xanlar arasında ən etibarlı adam hesab etdiyi general-mayor Cəfərqulu xanın öhdəsinə buraxıldı.

1807-ci ilin yazında Şəkidə üsyan başladı. Üsyan Aşağı və Yuxarı Göynük kəndlərini, həmçinin ləzgi kəndi olan Burjini əhatə etdi. Yaxınlıqda kəndlərin əhalisi də üsyançılara qoşulmaq üçün onların ilk qələbəsini gözləyirdi. Üsyançılar öz kəndlərini ataraq Burji kəndi yaxınlığında qurduqları istehkamda möhkəmləndilər. Üsyana yüzbaşı Sultan Murad başçılıq edirdi.[408] Üsyanın tezliklə kütləvi hal alacağı Cəfərqulu xanı təşvişə saldı. Üsyançılar arasındakı birlikdən və onların mübarizə əzmindən qorxuya düşən Cəfərqulu xan üsyanı öz qüvvəsi ilə yatıra bilməyəcəyini dərk edib, rus qoşunlarını tələb etdi. Üsyanın başqa ərazilərə yayılmasının qarşısını almaq üçün alay komandiri Qrekov 100 əsgər və topla Cəfərqulu xanın qüvvəsi ilə birləşib üsyançıların möhkəmləndiyi istehkama yaxınlaşdı. Həmçinin İlisu sultanı 1000 nəfər döyüşçü ilə rus qoşunu ilə birləşdi.[409] Bu qədər qoşunla üsyan edən 3 kəndin əhalisi üzərinə yerimək həm hərəkatı beşikdə boğmaq, həm də başqalarına ibrət dərsi vermək niyyəti güdürdü. Üsyançılar tabe olmaq istəmirdilər. Lakin üsyanın qələbə çalması və bütün Şəki vilayətini əhatə etməsi üçün isə müqavimət göstərə biləcək lazımi qüvvə və silah lazım idi. Rus qoşunları ilə müqayisədə çox cılız görünən üsyançılar hücuma tab gətirməyib dağlara çəkilməyə məcbur oldular. Yalnız bir neçə gündən sonra birgə qoşunlar üsyanı yatıra bildilər və yüzbaşı Sultan Muradı ələ keçirdilər.[410] Üsyanın yatırılmasına baxmayaraq Şəkidə əhali tərəddüd etməkdə davam edir, nə isə olacağını gözləyirdi. Təsadüfi deyil ki, Qudoviç Cəfərqulu xandan Şəkini tərk etməməyi tələb edirdi.[411]

1807-ci ilin payızında Qudoviç Şəkidəki rus qoşunlarının başçısı Qrekova yazırdı: «Şəkililər Səlim xana məktub yazaraq onu 1000 nəfər iranlı ilə Şəkiyə dəvət ediblər. Şəkililər onlarla birləşib

---

[404] Yenə orada, sənəd 732.
[405] Yenə orada, sənəd 495.
[406] Yenə orada, sənəd 497.
[407] Yenə orada, sənəd 495.
[408] QAKA, III cild, sənəd, 501.
[409] Yenə orada.
[410] Yenə orada.
[411] Yenə orada, sənəd 502.

rusları məhv etmək və Səlim xanı taxta oturtmaq istəyirlər».[412] Nəticədə Şəkidəki rus qoşunlarının sayı artırılır və sərhəd rejimi ciddiləşdirilir.[413] Həmçinin Cəfərqulu xandan tələb edilir ki, özünü şübhəli aparan bəylərə qarşı diqqətli olsun, onlar tərəfindən bir hərəkət baş verdikdə tez tutub Tiflisə göndərsin.[414]

Əhalinin yeni üsyana hazırlaşması haqda məlumat alan Qudoviç onları üsyandan yayındırmaq üçün tədbirlər görür və azacıq da olsa buna cəhd edənlərə qarşı amansız olacağını, üsyanı isə silah gücü ilə boğacağını bildirirdi.[415] Eyni zamanda üsyan olacağı təqdirdə Cəfərqulu xanla Mustafa xan arasındakı ixtilafın Rusiyanın mənafeyinə zidd olacağından qorxan Qudoviç Tixonovski vasitəsilə həmin xanları barışdırmağa nail olur.[416] Mövcud vəziyyətdə Rusiya təəbəsində olan xanların qarşı-qarşıya dayanması məqbul sayılmadığından Tixonovskinin bu hərəkəti Rusiyada yüksək qiymətləndirilir.

Cəfərqulu xanı Rusiya himayəsindən çəkindirmək üçün göstərilən bütün cəhdlər boşa çıxırdı və o, bu haqda Qudoviçə məlumat verirdi. Xanın bu hərəkəti həm yerli, həm qonşu xalqların mənafeyinə zidd olduğundan hər iki tərəf üçün ağır nəticələrə səbəb olurdu. Surxay xan Qazıqumuqlu da bir neçə dəfə Cəfərqulu xana müraciət edərək ona ruslara qulluq etməkdən əl çəkməyi təklif etmişdi. Lakin rədd cavabı alan Surxay xan carlıların və dağıstanlıların köməyilə Şəki ərazisinə hücum etmiş, yalnız iki saatlıq döyüşdən sonra Şəki xanının qoşunları tərəfindən onlar geri oturdulmuşdu.[417] Çoxlu dağıntıya səbəb olan bu cür döyüşlər əhaliyə xeyli ziyan vurur və qonşu xalqlar arasında düşmənçilik toxumu səpirdi. Cəfərqulu xanın daha bir hərəkəti xalq arasında ikrah hissi doğurdu. O, ruslardan və xanın adamlarından gizlənmək üçün sığınacaq yerləri olan bir çox qülləni və məşhur «Gələsən-görəsən» qalasını dağıtmaq barədə göstəriş verdi. Bu tədbirləri bəyənən Qudovuç, tezliklə «şuluqluqların» da qarşısını alınacağına ümid bəsləyirdi.[418] Lakin bu dəfə də üsyanın qarşısını almaq mümkün olmadı.

1808-ci ilin yayında yenidən xanlığı üsyan dalğası bürüdü. Bu dəfə ağdaşlılar fəallıq göstərirdilər. Kür çayı sahilindəki bir çox kəndlərin də qoşulduğu bu üsyanın əsas təşkilatçıları Səlim xan tərəfindən Şəkiyə göndərilən qohumu Mahmud ağa və bir neçə bəy idi.[419] Üsyanın müvəffəqiyyət qazanacağı və bütün Şəki xanlığını əhatə edəcəyi təqdirdə Səlim xan da öz qoşunu ilə onlara köməyə gəlməli idi.[420] Lakin Səlim xanın məktubunu bütün Şəki bəylərinə çatdırmaq mümkün olmadığından (gələn adamların əksəriyyəti müxtəlif kəndlərdə ruslar və Cəfərqulu xanın adamları tərəfindən tutuldu) üsyan bütün xanlığı əhatə etmədi. Üsyançılara divan tutmuq üçün (onların sayı 500-600 nəfər idi) Cəfərqulu xan oğlunu 400 nəfər silahlı kazakla onların üzərinə göndərdi. Güclü atəş nəticəsində üsyançılar pərən-pərən düşdü və 40 nəfər ruslar tərəfindən əsir götürüldü.[421] Cəfərqulu xanın bu hərəkətindən çox məmnun qalan Qudoviç üsyançıları qorxutmaq və onlara ibrət dərsi vermək üçün tutulanlara qalada, camaatın gözü qabağında cəza verməyi əmr etdi. Əgər tutulanlar arasında bəy

---

[412] QAKA, III cild, sənəd, 504.
[413] Yenə orada.
[414] Yenə orada. sənəd.505.
[415] Yenə orada. sənəd.565.
[416] Yenə orada. sənəd.566.
[417] QAKA III cild, sənəd 509.
[418] Yenə orada. sənəd 511.
[419] Yenə orada. sənəd 514.
[420] Yenə orada. sənəd 512.
[421] Yenə orada. sənəd 513.

olardısa onlar Sibirə göndərilmək üçün Tiflisə yola salınmalı idi.[422] Həmçinin Səlim xanın qoşunlarla Kür çayına yaxınlaşdığını eşidən Qudoviç ona meyl edənlərin də tutulub Tiflisə göndərilməsini Cəfərqulu xana tapşırdı. Bu işdə ona Lisaneviç kömək etməli idi.[423]

Üsyanın dağıdılmasından sonra Ağdaş və Kür çayı sahilindəki bir çox kəndlərin əhalisi meşələrə çəkildi.[424] Bundan narahat olan ruslar tutulanların döyülməsini, əhalinin geri qayıtmasına və yaxud onların da tutulmasına qədər təxirə salmağa məcbur oldular. Çünki onlar meşələrə çəkilən əhalinin İranı köçməsindən və orada onlardan casus kimi istifadə olunmasından əndişələnirdilər.[425] Cəfərqulu xan əhalinin üsyana meylli olduğu Ağdaşda 4 qülləli qala tikməyi və orada 100 nəfər xoylu yerləşdirməyi qərara aldı.[426]

Rus süngüsü ilə qarşılaşacağını bilən silahsız əhali üsyan etməkdə davam edirdi. Lakin üsyanlar eyni vaxtda deyil, müxtəlif vaxtlarda və müxtəlif ərazilərdə baş verirdi.

Qarabağ xanlığında Əbülfət xanın təsiri çox güclü idi. Ona görə də Nebolsinə öz dəstəsini gücləndirmək və hücum edəcəyi təqdirdə Əbülfət xanı darmadağın etmək tapşırılmışdı.[427] Bütün görülən tədbirlərə baxmayaraq Əbülfət xanın yaxınlaşması haqqında hər xəbər əhali arasında çaxnaşmaya səbəb olurdu. Bərküşad, Mehri, Güney əhalisi ona tabe olmaqda davam edirdi.[428] Rus qoşunlarına dərin nifrət bəsləyən Qarabağ əhalisi onların qaladan çıxmasını tələb edirdi. Bundan narahat olan məlik Cümşüd Qudoviçə məktubunda yazırdı: «...buradakı tatarlar (azərbaycanlılar) həmişə deyirlər ki, rus qoşunları qaladan çıxmalıdır, bu erməniləri həyacanlandırır və narahat edir... Əgər belə şey olsa bütün erməniləri də yığıb Gürcüstana aparın».[429] Qarabağdakı qoşunların başçısı Kotlyarevski Qarabağı itaətdə saxlamaq üçün bütün Azərbaycan kəndlərinin hər birindən bir neçə nüfuzlu ailəni qalada girov saxlamağı tövsiyə edirdi.[430]

İrəvana və Naxçıvana yiyələnmək niyyətinə sülh yolu ilə nail ola bilməyən Rus hökuməti həmin əraziləri tutmaq və işğal kampaniyasını başa çatdırmaq üçün 1808-ci ilin əvvəllərində İrəvana yeni yürüşə hazırlığa başladı. Bunun üçün əvvəlcə yerlərdəki vəziyyəti öyrənmək, ruslar haqqında müsbət rəy doğurmaq və həmçinin İrəvan qalasının zəif yerini müəyyənləşdirmək üçün İrəvana, eləcə də Qarsa və Ərzruma yerli sakinlərdən kəşfiyyatçılar göndərildi.[431] Məlumdur ki, bu kəşfiyyatçıların içərisində Şəki xanının oğlu Kiçik bəy də var idi.[432]

1808-ci il sentyabrın 25-də hərəkətə başlayan baş komandan Qudoviçi bu yürüşdə 240 zabit və 7506 əsgər müşaiyət edirdi.[433] Naxçıvanı tutmaq əmri alan gen.-m. Nebolsin oktyabrın əvvəllərində 9

---

[422] QAKA III cild, sənəd 516.
[423] Yenə orada, sənəd 515.
[424] Yenə orada, sənəd 514.
[425] Yenə orada, sənəd 517.
[426] Yenə orada.
[427] Yenə orada. sənəd 633.
[428] QAKA III cild, sənəd 634.
[429] Bax: Prisoedinenie vostoçnoy Armenii k Rossii, s.405.
[430] QAKA, III cild, sənəd.629.
[431] Bax: Prisoedinenie vost. Armenii k Rossii, s.451.
[432] QAKA III cild, sənəd 519.
[433] Dubrovin N. İstoriə voynı..., V cild, s.209.

batalyon (78 zabit, 3062 əsgər) və 4 topla Qarabağdan hərəkətə başladı.[434] Öz arzusu ilə bu yürüşdə iştirak etmək istəyən Şəki xanı da dəstəsilə Naxçıvana yollandı.[435]

İrəvan fransız hərbi mühəndisi tərəfindən xeyli möhkəmləndirilmişdi. İrəvanlılar tərəfə keçən podpolkovnik Koçnev də rusların yürüşü ərəfəsində bu işə cəlb edilmişdi.[436] Qalın qala divarlarının çölündə xəndəklər qazılmış və ora toplar düzülmüşdü. Rusların yürüşündən xəbərdar olan İrəvan xanı Hüseynqulu xan qardaşı Həsən xanı 2 min nəfərlə qalada qoyub özü 4 min nəfər piyada ilə rusların qarşısına çıxdı. Lakin Aştarakda məğlub olan Hüseynqulu xan geri çəkildi. Sentyabrın 30-da Eçmiadzini tutan rus qoşunları erməni ruhaniləri tərəfindən sevinclə qarşılandı.[437] Oktyabrın 9-da ruslar İrəvan ətrafını tutaraq qalanı mühasirəyə aldılar və onu ətraf aləmdən təcrid etdilər. Qudoviç komendant Həsən xandan qalanı təslim etməyi tələb etdi.[438] Hüseynqulu xan isə qalanın mühasirəsini yarmağa çalışaraq düşmənə zərbələr endirdi. Qudoviç qalanın mühasirəsini müvəqqəti dayandırıb Hüseynqulu xanın üzərinə böyük bir dəstə göndərdi. Xan qüvvələri qorumaq naminə Arazın o tayına çəkildi. Qudoviçin təslim haqda müraciətlərinə cavab olaraq Həsən xan yazırdı: «Biz sizinlə nəinki qalanın içində (bu elə də çətin deyil) eləcə də açıq səhrada vuruşmağa hazırıq. Məlumunuz olsun ki, qalanın qarnizonu artıq öz qərarını verib».[439] Məktubu gətirən İrəvan elçisi bildirdi ki, qala qarnizonu tamamilə məhv oluncaya qədər silahı yerə qoymayacaq.[440]

Noyabrın 1-də Naxçıvan tutuldu. Naxçıvanın müdafiəsini təşkil etmək olmadı, çünki əhali arasında böyük nüfuza malik olan Kəlbəli xan 1808-ci ilin yazında xanlıqdan məhrum edilərək ailəsi ilə birlikdə İrana aparılmışdı. Oğlu Şıxəli bəy isə öz yaxın adamları ilə Qarabağa qaçaraq ruslara qoşulmuş və Naxçıvan yürüşündə onlara bələdçilik etmişdi.[441] Qudoviç bütün vilayətin əbədi olaraq Rusiya himayəsinə keçdiyini elan etdi və bütün naxçıvanlılara öz yerlərinə qayıtması üçün müraciət etdi.[442]

Lakin nə Naxçıvanın işğalı, nə də qalaya gedən suyun kəsilərək düzənliyə axıdılması irəvanlıların döyüş ruhunu qıra bilmədi. Müharibənin başlanmasından 40 günə yaxın keçməsinə baxmayaraq qala qarnizonu və şəhərlilər dəyanət göstərirdi. Qudrviçin qalanın təslim olunması haqqında tələblərinə isə artıq cavab verilmirdi. Soyuqların düşməsi və ərzaq çatışmamazlığı rus qoşunlarının vəziyyətini getdikcə ağırlaşdırırdı. Mühasirənin uzanması artıq Rusiyanın zərərinə idi. Nəhayət Qudoviç qalaya hücum etməyi qərara aldı. Hücüm noyabrın 17-də saat 5-ə təyin edildi. «Əcəl küləyi hədsiz-hesabsız insanların gözünə bu işıq dünyanı qaranlıq etdi».[443]

Rus qoşunları beş dəstəyə bölündü. Dörd dəstə müxtəlif istiqamətlərdən hücum etməli, beşinci dəstə isə ehtiyatda dayanmalı idi. Hücum başlanan kimi irəvanlılar top atəşləri ilə rusları böyük itki ilə geri atdılar. Rusların düzəltdiyi nərdivanlar qalaya daxil olmağa kifayət etmədi. Nəhayət 1000 nəfərə

---

[434] Dubrovin N. İstoriə voynı..., V cild, s.215.
[435] QAKA III cild, sənəd 520.
[436] Bax: Prisoedinenie vost. Armenii k Rossii, I cild, s.462.
[437] QAKA IIII cild, sənəd 453.
[438] Yenə orada. sənəd 447.
[439] Yenə orada. sənəd 460.
[440] Dubrovin N. İstoriə voynı..., V cild, s.222.
[441]QAKA III cild, sənəd 476
[442] Yenə orada. sənəd 474
[443] Mrizə Adıgözəl Bəy. Göst. əsəri, s.75

yaxın itki verən ruslar geri çəkilməyə və hücumu dayandırmağa məcbur oldular.[444] Qudoviçin çəra raportundan məlum olur ki, bu hücum zamanı 17 zabit və 269 əsgər ölmüş, 64 zabit və 829 əsgər yaralanmışdı.[445] Hərbi tarixçi Dubrovinin yazdığına görə alaylar elə vəziyyətə düşdü ki, təkrar hücum haqqında düşünməyə belə dəyməzdi.[446] Baş komandanın qalanı yenidən təslim etmək tələbinə cavab olaraq Həsən xan yazırdı: «...Tələb edirsiniz ki, İrəvan qalasını könüllü təslim edim, əvəzində isə İrəvan xanlığını mənə verəcəksiniz. Əgər bu cür əməl yaxşıdırsa onda siz İran hökmdarına qulluq edin, əvəzində İrəvan, Təbriz və başqa xanlıqları alarsınız».[447] Hər şeydən əli üzülən Qudoviç Nebolsinə rus qoşunları ilə getmək istəyən əhalini Qarabağa aparmağı tapşırdı.[448] Təqiblər və güclü qar yağması nəticəsində rus qoşunları daha 1000 nəfərə yaxın itki verərək geri qayıtdılar.[449] Bu yürüş ruslara çox baha başa gəldi və demək olar ki, əməliyyatda iştirak edənlərin yarısı sıradan çıxdı.

Nebolsin Naxçıvanı tərk edən kimi Abasqulu xan Naxçıvana daxil oldu. Rusların təqib olunmasında onun oğlu 3000 atlı ilə iştirak edirdi.[450]

Ruslara qarşı mübarizəsi getdikcə daha ciddi xarakter alanı Şeyxəli xan rus hökumətinə Quba və Dərbənd xanlıqlarında möhkəmlənməyə imkan vermirdi. Qonşu xanlıqları da mübarizəyə sövq edən bu xan yadellilərə qarşı qüvvələri birləşdirmək üçün müntəzəm olaraq İran və Türkiyə ilə əlaqə saxlayır, Dağıstan hakimlərinin, eləcə də ruslara qarşı barışmaz mövqe tutan əhalini hərbi yardımı ilə öz qüvvələrini möhkəmləndirirdi. Qudoviçin onu tutmaq və ya məhv etmək üçün hazırladığı bütün əməliyyatlar boşa çıxırdı. Şeyxəli xana qarşı mübarizə və Qudoviçin yardımçısı olan Mustafa xanın qoşunları tutarlı zərbələr nəticəsində geri oturdulur və təkbətək mübarizədə Mustafa xan məğlub olurdu. Məsələn, 1808-ci ilin oktyabrında Mustafa xanın qoyduğu piketə hücum edən Şeyxəli xan onu 2 verst qovaraq Qudyal qalasına çəkilməyə məcbur etmişdi. Şirvan qoşunlarının hücumu da qubalılar tərəfindən dəf olunurdu. Qubalıların qələbəsindən narahat olan Tixinovski 2 rota və bir topla, həmçinin Şirvan və Şəki atlıları ilə Şeyxəli xanın üzərində yeridi. Kiçik döyüşdən sonra qubalılar meşələrə çəkildilər. Quba viləyətinə daxil olan Tixinovski bəyləri və əhalini dilə tutaraq Şeyxəli xandan üz döndərməyə, öz evlərinə qayıtmağa və Rusiyanın himayəsini qəbul etməyə çağırdı. Amma əhali Rusiyanın heç bir himayəsini qəbul etməyəcəyini və lazım gəlsə müdafiə olunacağını bildirdi.[451] Əhalinin meşələrə çəkilməsindən istifadə edən müttəfiq qoşunlar noyabr ayında Quba xanlığını, o cümlədən Quba şəhərini yenidən işğal etdi. Ümumi rəhbərlik Bakı komendantına həvalə edilməklə mayor Ryabinin Qubanın komendantı oldu. İşğalçı qoşunlar Şeyxəli xanı təqib etməyə başladılar.[452]

Dağıstana çəkilən Şeyxəli xan Akuşada xeyli qüvvə toplayaraq 1809-cu il yanvarın əvvəllərində yenidən Quba xanlığına qayıtdı.[453] Bu vaxt Dərbənd yaxınlığında ləzgi dəstəsinin heç bir səbəb olmadan rus kazakları tərəfindən gülləyə tutularaq məhv edilməsi (əsas bəhanə onların özünü akuşalı adlandırması və Şeyxəli xanla yaxınlaşmaq istəməsi olmuşdu) xəbərini alan Şeyxəli xan rus qoşunları

---

[444] Butkov P.Q. Göst. əsəri, III hissə, s. 390.
[445] QAKA III cild, sənəd 467.
[446] Dubrovin N. İstoriə voynı..., V cild, s.224.
[447] Bax: Prisoedinenie vost. Armenii k Rossii, s.473.
[448] QAKA III cild, sənəd 462.
[449] Potto V. Utverjdenie…, s.305.
[450] Dubrovin N. İstoriə voynı..., V cild, s.226.
[451] QAKA III cild, sənəd 753.
[452] Yenə orada. sənəd 755.
[453] QAKA III cild, sənəd 758.

ilə uzun müddətli döyüşlərə girdi. Şeyxəli xanın zərbələrinə tab gətirməyən Ryabinin xahişinə cavab olaraq Bakıdan 2 rota göndərildi. İşğalçıların birləşməsinə yol verməmək üçün Şeyxəli xan 20 günlük döyüşlərə ara verib Şabran yaxınlığında mövqe tutdu. Qəfil zərbə nəticəsində 120 nəfər itirən ruslar mühasirədən çıxa bildilər. Lakin Şeyxəli xanın əks həmləsi nəticəsində rus qoşunları yenidən mühasirəyə alındı. Bunu eşidən Quryev 500 nəfərlik qoşunla Bakıdan Qubaya hərəkət etdi. Rusların hücumu haqda məlumat alan Şyexəli xan yenidən Tabasarana çəkildi. Qubaya soxulan rus qoşunları xanlığın idarəçiliyini Bakıvə Qubanın alınmasında xidmətlər göstərən bakılı II Mirzə Məhəmməd xana həvalə etdilər.[454] Ersi kəndində olan Şeyxəli xanı üçün tutmaq üçün Tarkov Şamxalını, Qaraqaytaq Usmisini və Dərbənd komendantını səfərbər edən yeni Bakı hakimi Repin bu iş üçün onlara çoxlu mükafat vəd etdi.[455] Lakin rusların planı haqqında qabaqcadan xəbərdar edilən Şeyxəli xan bu əməliyyatı da boşa çıxararaq, Surxay xanla Quba xanlığını geri qaytarmaq üçün hazırlığa başladı. Bütün qubalıların Şeyxəli xana sadiq olduğunu etiraf edən Repin Quba xanının yeni hücumunu dəf etmək üçün Qudoviçdən əlavə qoşunlar göndərilməsini xahiş etdi.[456] Ümumiyyətlə rusların bu dövrdə Qubadakı ağalığı formal xarakter daşıyırdı. Çünki nə əhali onlara qulluq edir, nə də vergi ödənilirdi.

İrəvan yürüşündə tam məğlubiyyətə uğrayan, Quba yürüşlərində heç bir nəticə əldə edə bilməyən Qudoviç 1809-cu ilin aprelində Tormosovla əvəz edildi. İxtiyarında 43534 nəfərlik qoşunu və 100 topu,[457] həmçinin yerli xanların atlı dəstələri olan yeni baş komandan Qafqaza gələn kimi əsas diqqətini Şeyxəli xanı zərərsizləşdirməyə yönəltdi. Çünki, bunsuz onun etiraf etdiyi kimi «Quba və Dərbənd xanlığında sakitlik mümkün deyildi».[458]

Əvvəlcə Şeyxəli xanın tutulması Qazıqumuqlu Aslan bəyə həvalə edildi. Bunun üçün Aslan bəyə və onun adamlarına xeyli hədiyyə, pul vəd edildi.[459] Repin həmçinin Şeyxəli xanı tutan adama 500 çervon mükafat təyin etdi.[460] Lakin bunlar bir nəticə vermədikdə Tormosov Şeyxəli xanın tutulmasına 1500, öldürülməsinə isə 700 çervon pul ayırdı. Üçüncü variant isə Şeyxəli xanı Rusiya himayəsinə qəbul etməklə Quba ərazisini ona vermək idi.[461] Baş komandan başqa çıxış yolu görmürdü. Şeyxəli xan işğal olunmuş ərazilərdə Rusiyaya qarşı ən güclü rəqib idi.

Mayın 17-də Dərbənd naibinin qardaşı Tahir bəylə qanlı döyüşə girən Şeyxəli xan Dərbənd «keşikçilərinə» güclü zərbə endirdi.[462] Artıq səbr kasası daşan Tormosov hansı yolla olursa-olsun Şeyxəli xanı tutmağı Repindən tələb etdi.[463] Onsuz da butun vasitələrdən istifadə edən Repin bu işi həyata keçirməkdə aciz idi. Əvəzində isə Repin xanı müvvəqqəti yaşadığı Marağa kəndinə divan tutdu[464]. Ruslar həmçinin Şeyxəli xana sığınacaq verərək onun tərəfinə keçən Starjal kəndini də

---

[454] Bakixanov A. Göst.əsəri, s.157.
[455] QAKA III cild, sənəd 760.
[456] Yenə orada. sənəd 758.
[457] Dubrovin N. İstoriə voynı..., V cild, s.279.
[458] QAKA III cild, sənəd 988.
[459] Bax: Russko-Daqestanskie otnoşenİə v XVIII-naç. XIX v., s. 287-88.
[460] QAKA III cild, sənəd 985.
[461] Yenə orada. sənəd 988.
[462] Yenə orada. sənəd 989.
[463] Yenə orada. sənəd 990.
[464] QAKA III cild, sənəd 993

təmamilə məhv edəcəkləri ilə hədələdilər.[465] Lakin hədə-qorxular Quba və Dərəbənd əhalisini rusların keşikçi məntəqələrinə hücumlardan çəkindirə bilmədi.[466]

1810-cu ilin yayında Quba xanlığında mübarizə yeni vüsət aldı. Bu Tabasaranda qoşun toplayan Şeyxəli xanın gözlənilən hücumu, həm də xanlığın yenidən Şeyxəli xana qaytarıması haqqında yayılan xəbərlə bağlı idi. Bu arada bir sıra nüfuzlu bəyin xanın tərəfinə keçməsi onun mövqeyini daha da möhkəmləndirdi və üsyan əhval-ruhiyyəsini gücləndirdi. Mustafa xanın nümayəndəsinin Qubada xanlığın danışıqlar nəticəsində yenidən Şeyxəli xana qaytarılmasını rəsmi elan etməsi[467] isə üsyanın başlaması üçün bir qığılcım oldu. Bu xəbərin eşidərək üsyan edən xalq Şeyxəli xanı Qubaya dəvət etdi.[468] Çox əlverişli məqamdan istifadə edən xan Quba şəhəri istisna olmaqla xanlığın bütün ərazisini geri qaytardı. Əhali xanın tərəfinə keçdi.[469] Quba şəhərində yerləşən 2 alaydan ibarət rus qoşunu üsyançılara qarşı çıxmağa cəsarət etmədi. Yalnız onlar şəhərdə qalan əhalini tərksilah edərək möhkəmləndilər. Krız kəndində yerləşən Şeyxəli xan burada yeni şəhər salmağa başladı.[470]

Şeyxəli xanı tutmağı, yaxud öldürməyi vəd edən Cahangir xanı Quba hakimi etməyə tələsən baş komandan Mustafa xanın nümayəndəsinin əksinə olaraq elan etdi ki, Şeyxəli xan heç vaxt xanlığa qaytarılmayacaq. Əvəzində Şeyxəli xan ruslardan qan tökülmədən Quba şəhərini tərk etməyi tələb etdi.[471] Tələbin yerinə yetirilmədiyini görən xan gündən-günə artan tərəfdarları ilə Qubanı mühasirəyə aldı. Bakıdan rusların köməyinə göndərilən dəstə Gilgil çayı sahilində üsyançılar tərəfindən mühasirəyə alındı. Üç tərəfdən mühasirədə qalan mayor Levitskinin dəstəsi (120 əsgər, 40 kazak, 74 Bakı atlısı və 1 top) irəli getməyin mümkün olmadığını görüb, geri çəkilməyə məcbur oldu.[472] Yürüşdə iştirak edən Bakı süvarilərindən 69 nəfəri öz bəyləri ilə birlikdə Şeyxəli xanın tərəfinə keçdi.[473] Üsyançıların əhval-ruhiyyəsini qaldıran bu qələbə onların sıralarını daha da möhkəmlətdi. Butkovun verdiyi məlumata görə bu hadisədən sonra Bakı və Dərbəndoə bütün əlaqələr kəsildi və rusların bu vilayətə yolu bağlandı.[474] Repin qubalıları susdurmaq üçün heç bir yolu olmadığını bildirdi və baş komandan Tormosovdan kömək dilədi.[475] Bunu da qeyd edək ki, əmr verilməsinə baxmayaraq Şəki və Şirvan atlıları bu yürüşdə iştirak etməmişdilər.

Üsyanın geniş miqyas aldığını görən Tormosov üsyançılara qarşı yeni plan tərtib etdi və onu həyata keçirmək üçün xeyli hərbi qüvvə və vəsait ayırdı. Bu işə ümumi rəhbərlik gen.–m. Repinə tapşırıldı.

Sentyabrın ortalarında 4 rota (2 topla), habelə Şəki və Şirvan atlıları iki istiqamətdə Qubaya hərəkət etdi. Şeyxəli xanı zərərsizləşdirmək yürüşün əsas məqsədi idi. Baş komandanın yürüş

---

[465] Yenə orada. sənəd 997.
[466] Yenə orada. sənəd 999.
[467] Yenə orada. sənəd 1010.
[468] Yenə orada. sənəd 1012.
[469] Dubrovin N. İstoriə voynı..., V cild, s.371.
[470] Bakixanov A. Göst. əsəri, s.158.
[471] Dubrovin N. İstoriə voynı..., V cild, s.372.
[472] Yenə orada. sənəd 374.
[473] QAKA III cild, sənəd 1013.
[474] Butkov P.Q. Göst. əsəri, III hissə, s.393.
[475] QAKA III cild, sənəd 1013.

iştirakçılarına göstərişində deyilirdi: «...əvvəlcə diqqətinizi Şeyxəli xana yönəldin, ya onu tutun, ya öldürün, ya da qovun».[476]

Rus qoşunlarının sayı qubalıları sarsıtmadı. Yürüş ərəfəsində bütün Quba bəyləri və əhali Şeyxəli xanın tərəfinə keçdi.[477] Beşbarmaq dağı yaxınlığında rus qoşunları üzərinə ciddi həmlələr edildi.[478] Ciddi müqavimətə rast gələn Tormosov ümumi komandanlığı yerli dili bilən və öz qəddarlığı ilə ad çıxaran Lisaneviçə həvalə etdi. Üsyançılar sayca çox olmalarına baxmayaraq silahlanma sarıdan rus əsgərlərindən xeyli geridə qalırdlar. Qubalılar, döyüşə 2 top yeridən Rusiya qoşunları ilə açıq sahədə üz-üzə gəlməkdən çəkinir, meşə və dağlarda döyüşməyə üstünlük verirdilər. Beləcə bir aya yaxın davam edən qanlı döyüşlərdən sonra Şeyxəli xan öz dəstəsi ilə Dağıstana çəkilməyə məcbur oldu. Xanı təqib etməyə başlayan Lisaneviç Tabasaran vilayətində bir neçə kəndi yandırıb, bir neçəsini də Rusiyaya sadiq bəylərin ixtiyarına verdi. Lakin Şeyxəli xanı əl keçirə bilməyən Lisaneviç Qubaya dönərək bir çox bəyləri ələ keçirib həbs etdirdi. Tormosov başqalarına dərs olsun deyə həbs olunan bəylər üzərində tezliklə hərbi məhkmə keçirib Sibirə göndərməyi, əmlaklarını isə Rusiyaya sədaqətli adamlara verməyi tapşırdı.[479] Cahangir xanı Quba xanı etməyə çalışan Tormosovu bu fikrindən daşındıran Lisaneviç Qubada Tixonovskinin rəhbərliyi ilə 3 bəydən ibarət divan təşkil etdi. Ciddi hərbi rejim qoyuldu və Rusiyaya qarşı hər hansı hərəkət mərkəzi meydanda qurulan dar ağacından asılmaqla nəticələnirdi.[480] Ruslar Qubada müvvəqqəti zahiri sakitlik yaratmağa müvəffəq oldular.

Bu hadisələrdən bir il keçməmiş İranın maddi yardımı və Akuşa qazısınınköməkliyi ilə 8000 nəfərə qədər qoşun toplayan Şeyxəli xan Qazıqumuqlu Nuh bəylə birlikdə Quba üzərinə hərəkət etdi.[481] Onları yolda məhv etməyə tələsən Quryev 1811-ci il noyabrın 6-da öz dəstəsilə (1348 əsgər, bir neçə kazak və yerli atlılar) Zeyxur kəndi yaxınlığında mühasirəyə düşdü. Altı saat davam edən döyüşdən sonra 350 nəfər itki verən (o cümlədən 50 nəfər əsir) rus qoşunları Zeyxur kəndinə çəkilməyə məcbur oldular.[482] Bu qələbədən ruhlanan Şeyxəli xan Quba xanlığını (Quba və Zeyxur istisna olmaqla) ələ keçirə bildə. Qubaya əlavə qoşun hissələri göndərən yeni baş komandan Pauluççi Xatunsevə yeni əməliyyat keçirilməsini əmr etdi.[483] 1811-ci il noyabrın 22-də qoşunların bir hissəsini Samur çayında qoyan Xatunsev, 2 batalyon, 1 kazak alayı və 2 topla Quba xanının yerləşdiyi Rustov kəndi üzərinə yeridi. Üç istiqamətdən qəfil hücum edən rus qoşunları 4 saat davam edən döyüşdən sonra qubalıları öz mövqelərindən çıxarmağa nail oldular. Şeyxəli xan Dağıstana çəkilməyə məcbur oldu. Onu təqib edən Xatunsevin dəstəsi yol üstü altı kəndi qarət edərək yandırdı. Məqsədinə nail olmayan işğalçı qoşunlar Qubaya qayıdaraq xalqa divan tutdu. Ələ keçən xan tərəfdarı (o cümlədən 166 əsir) hərbi məhkəmələrə verilmək üçün Bakıya göndərildi. Xanın tərəfini saxlayan kəndlərə isə təzminat qoyuldu.[484]

---

[476] QAKA III cild, sənəd 1017.
[477] Yenə orada. sənəd 1018.
[478] Dubrovin N. İstoriə voynı..., V cild, s.376.
[479] QAKA III cild, sənəd 1028.
[480] Bakixanov A. Göst.əsəri, s.158.
[481] Bakixanov A. Göst.əsəri, s.158.
[482] QAKA V cild, sənəd 237.
[483] Yenə orada. sənəd 230.
[484] Dubrovin N. İstoriə voynı..., V cild, s.426.

Bu «qələbə» Xatunsevə I dərəcəli müqəddəs Anna ordeni bəxş etdi. A.Bakıxanov bu hadisələrdə Şeyxəli xanın qəhrəmanlığını xüsusi qeyd edir.[485]

Digər yerlərdə işbalçılara qarşı müqavimət göstərə bilməyən əhali etiraz əlaməti olaraq itaət etmir, yaşayış yerlərini tərk edirdi. Bu hal İrəvan yürüşündən sonra daha da gücləndi. Naxçıvan yürüşündə Nebolsinə bələdçilik edən Şıxəli bəy öz adamları ilə Rusiyadan üz döndərərək qardaşı Nəzərəli xanın köməyilə İrana çəkildi.[486] İki Pəmbək ağaları öz rəiyyətləri ilə birlikdə Şıxəli bəyin hərəkətlərini təkrar etdi.[487] Vergilərdən və ictimai mükəlləfiyyətlərdən yaxa qurtarmağa çalışan ayrımlılar və Elizavetpol vilayətinin digər sakinləri öz yerlərini tərk edərək Qarabağ ərazisinə keçdilər.[488] Qoşun rəisi Axverdovun bildirdiyinə görə, fürsət düşən kimi Rusiyanın düşməninə qoşulan Şamxor əhalisini o, yalnız qoşunların hesabına itaətdə saxlayırdı.[489] Bu səciyyəvi hal idi.

Rusiya himayəsini qəbul edən Talış xanın hərəkətinə cavab olaraq qonşu hakimlər, eləcə də xanın qohumları Həşim və Əli xanın Lənkərana hücumu davam edirdi. Yerli əhali xanlığın ərazisini tərk etməkdə idi. 1809-cu ilin avqustunda eskadra ilə Lənkərana gələn kapitan Çeleyev şəhərin tamam boşaldığını və rastlaşdığı əhalinin günahkar çöhrəsinin şahidi olduğunu qeyd edirdi.[490]

Talış xanı Mir Mustafa xanın Rusiyanın himayəsinə keçməsindən təəcüblənən İrandakı ingilis nümayəndəsi yazırdı: «Rusiya sizin nəyinizə lazımdır? Siz ki, müsəlmansınız. Siz hələ Rusiyanı yaxşı tanımırsınız, onlarda belə qayda var: harda onların xeyri var öz himayəçiliyini təklif edirlər. Zaman bunu göstərər. Gürcüstandan nümunə götürün. Hər tərəf rusiyalı, paytaxtı isə rus qoşunlarının qərərgahı olub. Əgər onlar xristianlara xeyir gətirməyiblərsə, siz müsəlman kimi necə rahat ola bilərsiniz».[491]

1810-cu ilin yayında Mehdiqulu xanın qohumu Xankişi bəy ailəsi və kəndlilərlə birlikdə İrəvana, Sisyanlı Mumbat bəy isə 100 ailə ilə birlikdə Naxçıvana keçir.[492] Sərhədi qorumaq üçün rusların sərəncamına göndərilən 250 atlıdan 180 nəfəri qaçaraq bu işi yerinə yetirməkdən imtina edir.[493] Bütün bunlarda Qarabağ xanını günahkar hesab edən baş komandan onu başqası ilə dəyişdirmək həaqda məsələ qaldıracağını bildirirdi.[494] Halbuki baş komandanın buna ixtiyarı yox idi. Amma buna baxmayaraq vilayətdəki rus zabitləri belə xanın daxili işlərinə qarışır, onu əmrlərini yerinə yetirən alətə çevirmək istəyirdilər. Bu hal demək olar ki, bütün xanlara aid idi. Bunu M.İsmayılovun Şəki xanı haqqındakı sözləri də təsdiqləyir: «Xan xanlıqda olan çar qarnizonu rəisindən siyasi baxımdan tam asılı idi».[495] Bütün bunlar Kürəkçay müqaviləsinin şərtlərinə belə zidd idi. Ruslar artıq bütün Qarabağ əhalisini satqınlıqda ittiham edirdilər. Onların yeganə sədaqətli adam hesab etdikləri və həqiqətın də əvvəllər ruslara xidmət edən Cəfərqulu ağa 1811-ci ilin axırlarında iranlıları Qarabağa çağırmaqda ittiham edilərək həbs edildi. 181 nəfərin müşayiəti ilə Tiflisə göndərilən Cəfərqulu ağa Tərtər çayını

---

[485] Bakixanov A. Göst.əsəri, s.158-159.
[486] QAKA IV cild, sənəd 476.
[487] Bax: Prisoedinenie vost. Armenii k Rossii, s.524
[488] QAKA III cild, sənəd 639.
[489] Yenə orada.IV cild, sənəd. 701.
[490] Yenə orada. sənəd.875.
[491] QAKA III cild, sənəd 867.
[492] Yenə orada. sənəd.841;848.
[493] Yenə orada. sənəd.829.
[494] Yenə orada. sənəd.859.
[495] İsmayılov M.Göst. əsəri s.43

keçərkən qaçmağa müvəffəq oldu. Sonra o, Abbas Mirzənin başçılıq etdiyi qoşunların tərkibində Sultan-Bud məntəqəsində dayanan rus qoşunlarının mühasirəsidə iştirak etdi. Fevralın1-də baş verən döyüşdə mühasirəyə düşən rusların əksəriyyəti məhv edildi, qalanları isə əsir düşdü.[496]

Bu qələbə Qarabağda geniş əks-səda doğurdu. Lakin «Rus silahna inamı bərpa etmək üçün» Qarabağa göndərilən Kotlyarevski əhaliyə divan tutmağa başladı. İlk olaraq Cəfərqulu ağanın anası Xeyrənisəbəyim həbs edilərək Tiflisə göndərildi. Markiz Rauluççi azad olunması üçün ondan 150 min rubl tələb etdi, əks təqdirdə Rusiyaya göndərəcəyi ilə hədələdi. Lakin Xeyrənisə bəyimdən götürülən qiymətli daş-qaşların dəyəri isə 20 min rubl təşkil edirdi. Həmçinin Mehdiqulu xanın anası, qardaşı tutulur, görkəmli nəsillərin ailəsindən girovlar götürüldü.[497]

Bu tədbirlərlə üsyanın qarşısı alınsa da xanlığı tərk edən əhalinin qarşısını almaq mümkün olmur. 1812-ci ilin martında Tuğ kəndinin əhalisi başqa kəndlərin sakinləri ilə (200 ev) Arazı keçərək Cəfərqulu ağaya qoşuldu.[498] Kotlyarevski baş komandana raportunda yazırdı: «Tamam dağılmış Qarabağın düzəlməsinə ümid yoxdur, çünki əhali bizə inanmır, ilk hadisədən iranlılara qoşulurlar».[499] Başqa bir sənəddə isə deyilirdi ki, rus işğalı ərəfəsində xanlıqda 10.000 ailə var idisə, 1812-ci ilin axırlarında yaxın bu rəqəm 3080-ə enmişdir. Həmin 3080 ailədən 1000-i nəinki vergi ödəmək, hətta özünü dolandırmaq iqtidarında deyil.[500]

1810-cu ilin yayında üsyan edən ayrımlılar öz ağaları ilə Məşədi Hacını öldürərək İrəvana qaçdılar.[501] İrəvan yürüşündə iştirak etmək üçün iki dəfə Qazaxdan yola salınan atlı dəstələri bu yürüşdə iştirak etmək istəmədiklərindən yolda ikən qaçmışdılar.[502]

1812-ci ilin əvvəllərində çarlılar yenidən silahlarını işə saldılar. Onlara qarşı keçirilən cəza tədbiri bir nəticə vermədiyindən Pauluççi onları bağışlamağa məcbur oldu.[503] Üsyan etmiş kaxetiyalıların Borçalı əhalisini də üsyana qaldırmaq üçün göstərdikləri təşəbbüsün qarşısı alındı.[504] Kaxetiyalılarla həmrəy olan Gəncə əhalisini cazalandırmaq məqsədilə baş komandan Pauluççi hər kəndən bir nüfuzlu ailənin qalaya gətirilməsini əmr etdi.[505] Bununla yanaşı Gəncəyə gələn baş komandan «əlində silah vətən uğrunda həlak olan» Cavad xanın xatirəsini ehtiramla yad edərək xanın Qalada saxlanılan ailə üzvlərini azad etdi və öz arzuları ilə İrana yola saldı.

1810-cu ilin aprelində şahın təklifi ilə Əsgəranda Rusiya ilə İran arasında danışıqlar başlandı. Danışıqlarda ruslar Naxçıvan və İrəvanı, iranlılar isə Talışı tələb edirdilər. Razılığa gələ bilməyən tərəflər Əsgəranı tərk etdilər. Ona görə sonrakı hadisələrin məhz bu vilayətlərdə baş verəcəyi şübhəsiz idi.

İrəvan xanını öz himayəsinə girməyə məcbur etmək üçün Rusiya bir-birini ardınca İrəvana qarətçi və dağıdıcı ekspedisiyalar göndərməyə başladı. Bu yürüşlərdə bütün qəddar vasitələrdən istifadə olunurdu. Baş komandanın yürüşə hazırlaşan Lisaneviçə göstərişində deyilirdi: «Bu

---

[496] Bakixanov A. Göst.əsəri, s.160.
[497] Dubrovin N. İstoriə voynı..., V cild, s.451-52.
[498] QAKA V cild, sənəd 198.
[499] Yenə orada. sənəd 199.
[500] QAKA V cild, sənəd 696.
[501] QAKA IV cild, sənəd 695.
[502] Yenə orada. sənəd 151.
[503] Yenə orada. sənəd.191.
[504] Yenə orada. sənəd.97.
[505] Yenə orada. sənəd.168.

ekspedisiya ilə onlarda güclü dəhşət və dağıntılar törədin ki, yadlarından çıxmasın. Bacardıqca çoxlu ailə əsir götürün».[506] Belə bir göstəriş Corayevə də verilmişdi.[507]

4 batalyon və 200 atlı ilə qəfil hücum edən Lisaneviç 10 gün müddətində göstərişi «layiqincə» yerinə yetirdi. Çoxlu adam öldürüldü, kəndlər dağıdıldı. Rusların gəlməsini eşidən əhali öz ev-eşiklərini ataraq vahimə içərisində dağlara və Arazın o tayına qaçırdı.[508]

1813-cü ilin martında polk. Pestel İrəvan xanlığına yeni yürüşə başladı. Xeyli canlı qüvvə və 6 topla hücum edən ruslar xanlığa xeyli zərər vurdular. Baş komandan bu yürüşdəki «şücaətinə» görə Pesteli 2 dərəcəli Anna ordeninə təqdim etdi.[509]

Bu tədbirlərə baxmayaraq Rusiya İrəvan xanını özünə tabe edə bilmədi. Bu yürüşlərdən bir məqsəd də rus silahının gücünü iranlılara göstərmək, onları öz sərhədləri hayına qalmağa təhrik etmək idi. 1812-ci ilin oktyabrında Kotlyarevskinin Araz çaynını keçərək Aslanduz məntəqəsinə yürüş etməsi də bu məqsəddən irəli gəlirdi. Onu da qeyd edək ki, bu yürüşdən sonra Kotlyarevski 811 ailəni zorla işğal altındakı əraziyə köçürtdü.[510]

1810-cu ilin əvvəllərində Talış xanlığında güclü narazılıq başlandı. Xankişi bəy tərəfindən törədilən bu hərəkat demək olar ki, bütün əhalini əhatə etdi. Əhali xanın rəyini soruşmadan İranla danışıqlar apararaq bütün şərtləri qəbul etməyə hazır olduğunu bildirdi.[511] Onu da qeyd edək ki, xanlıqda Mir Mustafa xanın tərəfdarı çox cüzi idi. Hətta xanın qohumları belə ona qarşı çıxaraq xanlıqdan uzaqlaşırdılar. Hər dəfə Rusiyadan kömək tələb edən xan əks təqdirdə xanlığı artaraq Rusiyaya köçəcəyini bildirirdi.[512]

Xanlıqdan heç bir iqtisadi mənfəət əldə etməsə də strateji mövqeyinə görə onu güzəştə getmək istəməyən Rusiya buradakı qoşunlarının sayını artırmağı qərarlaşdırdı. 1810-cu ilin axırlarında Xəzər eskadrası,[513] 1812-ci ilin əvvəllərində isə daha 200 əsgər bu xanlığa göndərildi.[514] Artıq bu vaxt Lənkəranda 400 rus əsgəri və 1 top, Sara adasında 4 hərbi gəmi var idi.[515] Amma Lənkəran istisna olmaqla demək olar ki, bütün ərazi üsyançıların əlində idi. Avqustun 9-da «bütün əhali, həmçinin Mustafa xanın bir çox qohumu» İran qoşunlarının köməyilə Lənkarana hücum etdi. Ailəsini və mülkünü Sara adasına köçürən xan müqavimət göstərməyin mənasız olduğunu görüb ruslarla birlikdə Qamışevana çəkildi. Xanla qaçanların evlərini yandıran üsyançılar Qamışevanı mühasirəyə aldılar. 4 aydan da artıq davam edən bu vəziyyət rus qoşunlarının vəziyyətini xeyli ağırlaşdırdı. Ruslar yaxınlıqdakı kəndlərə qərətçi yürüşlər etməyə başladılar.[516] İran qoşunu xanlığı müdafiə etmək üçün Lənkaranı, Ərkivanı və Astaranı möhkəmləndirdi.[517] Baş komandanın göstərişi ilə Kotlyarevski 2000 nəfərlik qoşunla Lənkarana hərəkət etdi. Qamışevandakı rus qoşunları ilə birləşməyə nail olan Kotlyarevski dekabrın 26-da şəhəri mühasirəyə aldı. Qalanın komandantı Sadıq xan təslim

---

[506] QAKA IV cild, sənəd 170.
[507] Yenə orada. sənəd.66.
[508] Yenə orada. sənəd.V cild, sənəd 172.
[509] Bax: Prisoedinenie vostoçnoy Armenii k Rosii, s.616.
[510] QAKA V cild, sənəd 716.
[511] Yenə orada. sənəd. IV cild, sənəd 898.
[512] QAKA IV cild, sənəd 898.
[513] Yenə orada. sənəd. 910.
[514] Yenə orada. sənəd.V cild, sənəd 709.
[515] Voennaə enüiklopediə, XIV cild. Peterburq, 1914,s.578.
[516] Dubrovin N.F. İstoriə voynı…, VI cild, s. 89-90.
[517] Bakixanov A. Göst. əsəri, s. 161.

olmayacağını bildirdi. Şəhər 5 gün top atəşinə tutuldu. Yanvarın 1-də ruslar dörd istiqamətdə qalaya hücum etdilər. Güclü müqavimət göstərən 2500 nəfərlik qala qarnizonu axırıncı dəqiqəyə kimi vuruşaraq məhv oldu. Bir nəfər də əsir düşən olmadı. Ruslar bu döyüşdə 41 zabit və 909 əsgər itirdilər.[518]

Yerli əhaliyə kömək etmələrinə baxmayaraq, xalqın işğalçılara qarşı mübarizədə İran və Türkiyəyə bağladığı ümid özünü doğrultmadı və yaxud İran və Türkiyə Rusiyanın öhdəsindən gələ bilmdi. Bu ən əvvəl həmin ölkələr arasındakı ixtilaflardan, İranın daxilindəki qarmaqarışıqlıqdan irəli gəlirdi. Bir neçə dəfə Cənubi Qafqazda Rusiyaya qarşı birgə hərbi əməliyyatlar aparmaq üçün planlar hazırlanmasına baxmayaraq işğalçıların cilovlanması üçün İran və Türkiyənin birləşməsi mümkün olmadı. Buna var qüvvəsi ilə çalışan Rusiya onlar arasındakı daxili ixtilaflardan məharətlə istifadə edirdi. Baş komandan nazirliyə məktubunda yazırdı: «Mən lazım olan hər bir tədbiri görmüşəm ki, onları (İran və Türkiyəni – V.U.) birləşməyə qoymayım».[519]

1812-ci ilin mayında Buxarestdə Türkiyə ilə sülh bağlayan Rusiya əsas diqqəti cənub sərhədlərinə yönəldərək İrana ciddi zərbələr endirdi. Bu zərbələr, o cümlədən Lənkərandakı məğlubiyyət İranı sülh danışıqlarına sürüklədi və «İran dövləti ruslar tərəfindən tutulmuş torpaqların geri qaytarılmasına ümidini itirdi».[520]

1813-cü ilin yanvarın axırlarında şahın nümayəndəsi Mirzə Şəfi İranın sülh danışıqlarına hazır olduğunu bəyan etdi.[521] Sentyabrın 27-də Qarabağda – Zeyvə çayı sahilindəki Gülüstan kəndində İranla Rusiya arasında sülh danışıqları başlandı. Danışıqlarda İranı Mirzə Əbül Həsən xan Şirazlı (onu 354 nəfər müşayiət edirdi), Rusiyanı isə baş komandan I Nikolay Rtişşev təmsil edirdi. Danışıqlar oktyabrın 22-də II maddəlik müqavilə ilə tamamlandı. İkinci maddəyə görə «tərəflər hal-hazırda hakimiyyətləri altında olan ərazilərə yiyələndilər», yəni «Qarabağ, Gəncə, Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış xanlıqları» həmçinin, «bütün Dağıstan, Gürcüstan, Şoragil əyaləti ilə birlikdə İmeretiya, Quriya, Minqreliya və Abxaziya artıq Rusiyaya məxsusdur».[522]

## III FƏSİL. İKİ RUS-İRAN MÜHARİBƏSİ ARASINDAKI DÖVRDƏ XALQIN MÜSTƏMLƏKƏÇİLİK ƏLEYHİNƏ MÜBARİZƏSİ

### § 1. Xalq hərəkatının amansızcasına boğulması. Xanlıq üsul-idarəsinin ləğvi.

İran və Rusiya arasında Gulustanda bağlanmış müqavilə hər iki dövlət tərfindən təsdiq edilərək 1814-cü il sentyabrın 15-də Tiflisdə qarşılıqlı şəkildə mübadilə edildi. Buna baxmayaraq bəzi torpaqların geri qaytarılmasına ümidini itirməyən şah hökuməti görkəmli diplomat, əvvəllər İngiltərədə səfir olmuş Mirzə Əbdülhəsən xanı Peterburqa ezam etdi. İmperator I Aleksandr tərəfindən təntənəli

---

[518] Voennaə enüiklopediə, XIV cild, s. 578.
[519] Bax: Sadıqov H.Göst. əsəri, s.162
[520] Bakixanov A. Göst. əsəri, s.162.
[521] QAKA V cild, sənəd 861.
[522] Azərb. MDTA, fond 202, siyahı 1, var.25.

şəkildə qəbul edilən Mirzə Əbdülhəsən xan rus çarından Qarabağ və Talış xanlıqlarının İrana güzəşt edilməsini istədi. Çar sarayındakı ingilis elçisi də İran diplomatını müdafiə edərək İran və Rusiya arasındakı sərhədləri Terek çayı boyunca olması tezisini irəli sürdü. Lakin məqsədinə nail ola bilməyən Mirzə Əbdülhəsən xan Şoragili tələb etdi. Amma heç bir ərazini güzəştə getmək fikrində olmayan Rusiya bu missiyanı əliboş geri qaytardı. Beləliklə Gülüstan müqavilsi Şimali Azərbaycanı çar Rusiyasının tərkib hissəsinə çevirdi. Xalqın işğalçılara qarşı mübrizəsində iki dövlət arasındakı sərhədləri rəsmən tanıyan İranın rolu demək olar ki, təmamilə məhdudlaşdı. Türkiyənin isə Azərbaycanın şərqində aparılan əməliyyatlara müdaxilə etmək imkanı çox məhdud idi. Deməli nəhəng düşmənə qarşı mübarizəni Allahın mərhəmətinə bel bağlayan xalq özü aparmalı idi.

Gülüstan müqaviləsinin mürəkkəbi qurumamış Dərbənddə rus ağalığına qarşı çıxış başlandı. Din xadimlərinin rəhbərlik etdiyi bu çıxışa xeyli əhali cəlb olunmuşdu. Molla Zəkinin evində toplanan əhali şəhər komendantından və onun müavinlərindən imperatora şikayət göndərmək üçün məscidə yollandı. Zəkinin dostu Qızlar şəhərindən gəlmiş Hacı Saleh də çıxışda iştirak edirdi. Yolda xeyli əhali onlara qoşuldu. Molla Zəkinin oğlu isə şəhərin digər hissəsindən əhalini məscidə dəvət etdi. Beləliklə, məscidə böyük kütlə yığıldı. Əlbəttə bu bir gündə baş verməmişdi. Özbaşınalıqdan, mənəvi terrordan cana doyan xalq nəhayət bu qərara gəlmişdi. Əhalinin məsciddə toplanmasında təşkilatçıların məqsədyönlü təbliğatı böyük rol oynamışdı.

Bu hadisələri qeydə alan E.Kozubski «Dərbənd şəhərinin tarixi» əsərində yazır: «Qoşunla məscidə gələn komendant əhalidən dağılmağı tələb etdi. Baş verən savaşda Zəkinin oğlu, bir soldat və b. öldürüldü».[523] Əhalini zor gücünə dağıdaraq gunahsız adamların ölümünə bais olan rus qoşunları çoxlu adam həbs etdi. Üsyanın başçısı Molla Zəki əhalinin gözü qarşısında asılmağa məhkum edildi. Digər iştirakçılar təhkimli işlərə göndərildi və cismani cəza aldı. Hacı Saleh şəhərdən çıxarıldı. Onu da qeyd edək ki, dörd il əvvəl naiblikdən azad edilən mayor Əlipənah bəy şübhəli şəxs kimi tutularaq həmişəlik Rusiyaya göndərildi.[524] Xalqla kobud rəftar edən və bu çıxışı amansızcasına yatıran şəhər kamendantı kapitan Lulludaki nəinki cəzalandırıldı, əksinə hərbi-dairə rəisi Xatunsev tərəfindən mükafata təqdim edildi.[525]

Dərbənd hadisələrindən az sonra 1814-cü ildə Şəkidə üsyan başladı. Cəfərqulu xanın ölümündən sonra əhali ilə yerli hökumət arasındakı qarşıdurma daha ciddi xarakter almışdı. Belə ki, xanın böyük oğlu İran vətəndaşı olduğundan, onun kiçik oğlu İsmayıl paşa baş komandan tərfindən xan təyin edilmiş, bu da onu görməyə gözü olmayan yerli əhalinin kəskin etirazına səbəb olmuşdu. Özünün qəddarlığı ilə məşhur olan İsmayıl paşa yerli əhaliyə nifrətlə yanaşır, öz təəbələrinə amansız divan tuturdu.[526] Ağsaqqalların və camaatın getdikcə artan etiraz tədbirləri tədricən üsyan xarakteri aldı və bütün Şəki xanlığına yayılmağa başladı. Nuxada yığılan əhali xan divanının bağlandığını və xan hakimiyyətini tanımadıqlarını elan etdi.[527]

Bu addımın atılması üsyançıların böyük qələbəsi idi və bu onların öz qüvvələrinə inamından irəli gəlirdi. Həmçinin bu hadisə xan hakimiyyətinin Şəkidə heç bir nüfuzu olmadığını və xanın zor gücünə

---

[523] Kozubskiy E.İ. Göst. əsəri, . 155-56.
[524] Yenə orada.
[525] Yenə orada.
[526] İsmayıl M. Göst. əsəri, s. 51.
[527] QAKA V cild, sənəd 667.

idarə etdiyini nümayiş etdirdi. Üsyançıların bu addımı rusları vahiməyə saldı. Təcili olaraq qaladakı rotanı döyüş hazırladığı vəziyyətinə gətirən kapitan Denibeqov yerli əlaltılarının məsləhəti ilə üsyan başçılarından dörd nəfərini danışıqlara dəvət edərək həbs etdirdi. Əhalidən isə dağılmağı tələb etdi və bildirdi ki, əks-təqdirdə silahın gücünü onlara göstərəcəkdir. Aldandığını görən əhali qalada qoşunla üzbəüz dayanmağın lüzumsuz olduğunu görüb geri çəkilməyə və Şəki ətrafında möhkəmlənməyə başladı. Üsyançıların möhkəmlənməsini və üsyanın yayılmasının qarşısın almaq üçün rus qoşunları vaxt itirmədən topla əhali üzərinə yeridi, həmçinin Şirvandan gen.–m. Axverdov 50 nəfərlik dəstə ilə Şəkiyə hərəkət etdi.[528] Rus qoşunlarının hərəkəti üsyanın taleyni həll etdi. Silahlı müqavimətdən əl çəkən əhali başqa bir üsula əl atdı. Nüfuzlu bəylərdən, ağsaqqallardan və axundlardan təşkil olunmuş 250 nəfərlik dəstə baş komandana şikayət etmək üçün Tiflisə yola düşdü.[529] Lakin İsmayıl paşanı xan elan edən baş komanadana həmin şəxsdən şikayət etmək mənasız idi. Həm də şəkililər belə şikayətlərin nəticəsini artıq görmüşdülər. Belə ki, Şəki əhalisi Yermolova şikayət məktubunda yazırdı: «Səbr kasamız daşanda 5 etibarlı adamı Tormosovun (baş komandan) yanına göndərdik, o isə həmin adamları həbs edib Cəfərqulu xana verdi, xan isə öz növbəsində onların dişini çıxardaraq qarət etdi. Yenidən 1 nəfər göndərdik, onu da Cəfərqulu xana verdi».[530]

Şəkillərin yeni missiyası daha acınacaqlı oldu. Ruslar yoldaca onları tərkisilah etdilər. Daha nüfuzlu bir nümayəndəlik Rtişşevin yanına göndərildi. Həmin adamlar 20 gün təhqirlərə, zülmə məruz qaldı. Baş komandan isə onları xain və ictimai asayişi pozanlar kimi damğalayaraq hərbi məhkəməyə verdi. Məhkəmə 23 nəfəri Sibirə və başqa yerlərə sürgün etdi. Bütün bunların şahidi olan və xanın hakimiyyətini qəbul etməyə razı olan qalan nümayəndələr cismani cəza alaraq evlərinə qaytarıldı.[531]

Xanlıqda xeyli «təmizləmə» aparan Rtişşev xalq arasıda böyük nüfuzu olan Məhəmməd Həsən xanın Şəki üçün «təhlükəli» olmasını nəzərə alıb onu 10 yaşlı oğlu və 12 xidmətçisi ilə Xarkova göndərdi.[532] Bununla da Məhəmməd Həsən xanın tərəfdarlarının onun hakimiyyətini bərpa etmək məqsədilə apardığı mübarizə öz əhəmiyyətini itirdi. Nəticədə, öz siyasi rəqiblərini rus dəyənəyi ilə əzərək xanlıqda möhkəmlənən və dəyişilməzliyinə zəmanət alan İsmayıl xanın özbaşınalığı və qəddarlığı daha da gücləndi. Bütün bunları qulaqardına vuran car I Aleksandr baş komandanın məsləhəti ilə İsmayıl paşaya general-mayor rütbəsi verərək onu xan təsdiq etdi.[533] Axverdovun da üsyanı yatırmaqda göstərdiyi fəaliyyət əvəzsiz qalmadı. Qarabağ, Şəki və Şirvan xanlıqlarının dairə rəisliyi ona həvalə edildi.[534]

Lakin İsmayıl xanın təntənəsi çox çəkmədi. Rusiya üçün ideal kadr olan Cəfərqulu xanı əvəz edən İsmayıl xanın yaramaz işi, idarəetmənin dözülməzliyi hərbçilər tərəfindən də etiraf olundu. Şikayətlər günbəgün artır, özbaşınalıq, qarətçilik baş alıb gedirdi. Bu da son nəticədə Rusiya xəzinəsinə və rus hakimiyyətinə zərbə vururdu. İki il öncə xalqın şikayətini eşitmək istəməyən, ona qarşı cəza tədbiri həyata keçirən baş komandan indi İsmayıl xana məktubunda yazırdı: «60 min adama rəhbərlik etmək sizə yalnız atanızın Rusiyaya xidmətinə görə verilmişdir... qarətçilik, zorakılıq və

528 Yenə orada.
529 QAKA V cild, sənəd 667.
530 Yenə orada, VI cild, sənəd 1084.
531 Yenə orada, VI cild, sənəd 1084.
532 Yenə orada.
533 QAKA V cild, sənəd 668.
534 Yenə orada, sənəd 702.

dağıntı sizin başçılığınızla saatbasaat artaraq əndazədən çıxır».[535] Amma İsmayıl xanın bu cür idarəçiliyi Tiflisdəki rus məmurlarını, xüsusən, Rtişşevin köməkçilərini lazımınca qane edirdi. Yermolov öz «Qeydlərində» yazır: «İsmayıl xan ədalətsiz, qəddardır. Ondan olan şikayətləri Rtişşev qəbul etmirdi. Bundan istifadə edən Rtişşevin köməkçiləri xandan bahalı hədiyyələr və pul alırdılar...».[536] Ümumiyyətlə bu dövrdə rus məmurları, gürcü mouravları arasında vəzifədən sui-istifadə, rüşvət kütləvi hal almışdı. Rtişşev hətta Gürcüstandakı aərbaycanlılara rəhbərlik edən gürcü mouravların rüşvətxorluğunun qarşısını ala bilmədiyindən, onları yüksək maaş verməklə istefada olan rus hərbçiləri ilə əvəz etdi.[537]

Sisyanovdan sonra təyin olunan baş komandanların (Pauluççi, Tormosov, Rtişşev) fəaliyyətindən razı qalmayan və dəfələrlə Qafqazın Sisyanov kimi adamlara ehtiyacı olduğunu qeyd edən çar I Aleksandr 1816-cı ildə knyaz Yermolovu Qafqaza baş komandan təiyn etdi. Onun şəxsində ikinci Sisyanov qazanacağına ümid edən rus çarının əsas məqsədi üsyanlara birdəfəlik son qoymaq, yerli idarəçiliyi dağıtmaq və xalqı müstəmləkəçilik sisteminə, itaətkarlığa alışdırmaq idi. Sonralar öz amansızlığı ilə «Qafqazın Çingiz xanı», «Qafqazın konsulu» kimi ləqəblər qazanmış Yermolov bu işi çox qəddarcasına həyata keçirtdi.

Yermolovun Tiflisə gəlməsilə Qafqazda yeni siyasətin əsası qoyuldu. Bu siyasətin də əsas məğzi İranla başa çatan müharibəni yerli hakimlərə qarşı çevirmək idi. Bu haqda o belə yazırdı: «Mən müharibə haqda düşünməyi qadağan etmişlər, yalnız yerli möhtəkirlərlə müharibə etmək olar».[538] Azərbaycan xanlıqlarının tezliklə Rusiyanın ucqar bir vilayətinə çvriləcəyi onun sonrakı məktublarından aydın görünür: «İrandan qayıdıb nəsə edəcəyəm. Xanlıqda rus hakimiyyəti həyata keçiriləndə və xanlar məhv ediləndə hər şey öz yerini tapacaq». Bunun üçün çardan xeyir-dua almağa çalışan Yermolovun fikrincə 1805-ci il traktatları yalnız xanların xeyrinə idi və Rusiyaya sərf etmirdi. Çünki xanlıqlarda rus idarəçiliyi tətbiq etmək üçün ya xanların nəsli kəsilməli, ya da yeni qanunlar verilməli idi. Özündən əvvəlki sələflərini yumşaqlıqda məzəmmətləyən yeni baş komandan yazırdı: «Burada Sisyanov kimi knyaz lazım idi. Öləndən sonra qədrini bilirlər».[539] Beləliklə yeni baş komandanın İrandan qayıdandan sonra aparacağı «yenidənqurma» aydın seçilməkdə idi.

Şahın elçilərini əliboş qaytaran Peterburq sarayı münasibətlərdəki gərginliyi azaltmaq üçün 1816-cı ilin aprelində öz nümayəndə heyətini İrana göndərdi. 6 aya qədər davam edən bu missiya əslində münasibətlərə yumşaqlıq gətirmədi və hətta bir çox dövlət məmurları nümayəndə heyətinin başçısı Yermolovu mövcud vəziyyəti daha da gərginləşdirməkdə günahlandırdı. Buna səbəb isə onun özünün İranda çox kobud aparması olmuşdu. Belə ki, şahzadə ilə söhbətində Yermolov yarızarafat, yarıciddi özünün Çingiz xanın nəslindən olduğunu bəyan etmiş və İran taxt-tacına onun da iddiası ola biləcəyini bildirmişdi. Belə söhbətləri özü üçün təhqir sayan vəliəhd Abbas Mirzə həddən ziyadə qəzəblənmiş və

[535] Yenə orada, sənəd 672.
[536] Zapiski Alekseə Petroviça Ermolova, I hissə (1801-1812), s.10.
[537] QAKA V cild, sənəd 307.
[538] «Russkaə starina», 48 cild, 1885-ci il – Yermolovun Vorontsova məktubları, s.526.
[539] «Russkaə starina», 48 cild, s.528.

səfərin sonuna kimi onunla münasibətlərini nizamlaya bilməmişdi.[540] Bununla yanaşı, etiraf edildiyi kimi, şah elçiləri böyük hörmətlə qəbul etmiş və hətta Yermolova sifariş də vermişdi.[541]

Azərbaycanda ümumi narazılıq səngimək bilmirdi. İtaətsizlik bütün əraziləri əhatə etmişdi. Qadağanlara baxmayaraq carlılar məxvi olaraq iranlıları və gürcü knyazlarını qəbul edir, Rusiya düşmənlərinə sığınacaqlar verir, həmçinin öz nümayəndələrini İrana göndərirdilər.[542] Rus himayəsində olan Lənkəran xanına tabe olmaq istəməyən bəylər xanlığı parçalayaraq müstəqil hakimlərə çevrilirdilər. Əhali, hətta xanın yaxın qohumları belə qonşu vilayətlərə qaçırdı. Sənədlərin göstərdiyi kimi bu xanlığın əhalisi və ərazisi son illərdə üç dəfə azalmışdı.[543] Gah gürcü mouravları, gah da rus hərbçiləri tərəfindən idarə olunan Qazax, Şəmşəddil, Borçalı vəŞoragil getdikcə daha çox əhali yaşamayan bölgəyə çevrilirdi. Son 10 ildə yalnız Şoragili 826 ailə türk etmişdi.[544] Ümumiyyətlə bu sultanlıqlarda Yermolovun təbirincə desək «lazımi qayda-qanun» yox idi. Bunun da əsas səbəbini baş komandan «indiyə kimi tatar kəlməsi eşitməyən»lərin onlara pristav təyin edilməsində görürdü.[545] Həmin pristavların götürdüyü tərcüməçilərin çoxu ermənilər olurdu ki, onların da öz məqsədləri olurdu.[546]

1818-ci ilin aprelində «Ağalar haqqında yeni əsasnamə» xalqa bəyan edilərkən ilk həyəcanlar sultanlıqların ərazisində başlandı. Birbaşa rusların nəzarətinə keçəcəyini eşidən xeyli ailə sərhəddi keçərək Şəmşəddil sultanlığını tərk etdi. Bundan qorxuya düşən ruslar Şəmşəddilə yeni alay yeridərək sərhədi bağladılar.[547] Kütləvi narazılıq dalğası Qazax və Şəmşəddili bürüdü. Bu hərəkata Qazaxda Mustafa ağa, Şəmşəddildə Nəsib sultan başçılıq edirdi.

Sərhədləri möhkəmləndirən rus hökuməti başqa xanlıqlara keçməyi də qadağan etdi. Elan olundu ki, belə şəxslər cismani cəza alacaq, onlara sığınacaq verənlərin isə əmlakı müsadirə olunacaqdı.[548] Sərhədi keçənlərin və ya bu haqda sövdələşməyə girənlərin, silahlanmaq üçün vəsait yığanların əmlakının isə dərhal müsadirə olunacağı haqda çar fərmanı artıq mövcud idi.[549] Bütün bu tədbirlər müvəqqəti olaraq zahiri sakitliyə səbəb oldu.

Müvəqqəti sakitləşən həyəcanlar növbəti 1819-cu ilin yazında yeni vüsət aldı. Bəyanatların, hədə-qorxuların bir nəticə vermədiyini görən Yermolov hərəkatın mütəşəkkiliyini pozmaq və ona kortəbii xarakteri vermək üçün Mustafa ağanı və Nəsib sultanı həbs etməyi qərara aldı. Bu haqda gizli göstəriş alan knyaz Mədətov Nəsib sultanla Mustafa ağanı Gəncəyə danışıqlara dəvət edib həbs etdirdi və Tiflisə yola saldı.[550]

Pottonun yazdığına görə bu hadisə «tatar» (azərbaycanlı) diyarının üsyanına səbəb oldu».[551] Bütün işini buraxan əhali yalnız həmin şəxslərin azad olunmasını tələb edirdi. Bunsuz onlar heç bir iş görməyəcəklərini, pristav və mouravı öldürəcəklərini, götürülməsi mümkün olmayan hər şeyi məhv

---

[540] Dnevnıə zapiski o puteşestvii Rossiysko-İmperatorskoqo posolğstva v persii v 1816 i 1817 qodax, Moskva, 1910, s.45.
[541] Ermolov A. A.P.Ermolov v Persii, SPb., 1909, s.16.
[542] QAKA VI cild, sənəd 1172.
[543] Yenə orada, sənəd 728.
[544] Yenə orada, sənəd 1015.
[545] Yenə orada, sənəd 1019.
[546] Potto V. Kavkazskaə voyna..., II cild, s.658.
[547] Yenə orada, s.661.
[548] QAKA VI cild, sənəd 1042.
[549] Azərb. MDTA, fond 63, siyahı 1, sax.vah.14, vərəq.96.
[550] QAKA VI cild, sənəd 1032.
[551] Potto V. Kavkazskaə voyna..., II cild, s.662.

edib bu yerləri tərk edəcəklərini bildirirdilər.[552] Həmin vilayətlərdə olan pristavlar da bunu etiraf edirdilər. Şəmşəddil pristavı Vadarski raportunda yazırdı: «Nəsib bəyin həbsi bütün əhalidə təəssüf doğurub, bütün təsərrüfat işlərini buraxan xalq onun azad olunmasını tələb edir».[553] Qazax pristavı Lapinskinin də raportu təxminən həmin səpgidə idi. O, yazırdı: «Mustafa ağanın tutulmasına etiraz edən bütün ağalar və kətxudalar toplaşaraq onun azad olunmasını tələb etmişlər».[554] Əksinə ağaların həbsindən çox razı qalan baş komandan isə yerli xalqa qarşı daha ciddi tədbirlər görəcəyini çara belə bəyan edirdi: «Buradakı tatarların xain və satqınlığı ilə tanış olub sərhədi möhkəmləndirdim. Xalq arasında daha çox nüfuzu və tərəfdarı olan Nəsib bəyi və Mustafa ağanı Rusiya quberniyasına göndərdim... Mən ancaq bununla kifayətlənməyəcəm, çünki beləələri onlar arasında lap çoxdur. Onlara, həmçinin bu xalqa ciddi nəzarət edəcəm».[555]

Şəmşəddili bürüyən hərəkat oradakı rus hərbçilərini də vahiməyə salırdı. Üsyançılarla qarşılaşan alay komandiri polkovnik Ladinski Yermolova yazırdı: «Şəmşəddildə etirazlar ümumidir, əgər siz sultanı Rusiyaya göndərməyi təxirə salmasanız Şəmşəddilin itirilməsi labüddür. Bir adamdan ötrü belə qurban vermək olmaz... Əgər göndərməli olsanız Şəmşəddilə əlavə dəstə göndərin».[556] Şəmşəddildə xeyli qoşun hissələri olmasına baxmayaraq yeni hərbi dəstələr tələb olunması vəziyyətin ciddiliyindən xəbər verir. Köç edən başqa əhali kütləsi ilə qarşılaşan podpolkovnik Tixotski də həimn mənzərənin şahidi olur və vəziyyətin həddən artıq ağırlığını nəzərə alıb onlara kömək edəcəyini vəd edir. Onun baş komandana raportunda deyilirdi: «Ümumiyyətlə bu xalqın bir şüarı var – Ya Nəsib sultan ya ölüm... Əgər sözüm təsdiq edilməsə Gürcüstan 30.000 Şəmşəddillidən məhrum olacaq».[557]

Lakin btün Qazax və Şəmşəddil əhalisinin tələbinə, yerli hərbçilərin xahişlərinə və bütün işlərin dayanmasına baxmayaraq Yermolov öz fikrindən dönmədi və o, iyunun 12-də Nəsib sultanla Mustafa ağanı Rusiyaya göndərdi. Əhalidən isə dağılışmağı tələb etdi, əks təqdirdə onu süngü ilə dağıdacağını bildirdi. Şəmşəddildəki hərbi rəisə verilən əmrdə deyilirdi: «Əgər onlar (Şəmşəddillilər – V.U.) qaçsalar onlarla düşmən kimi davranın, bir neçə atəş hökumət üçün az qorxuludur, nəinki üsyançılara güzəşt etmək, bunun üçün Yermolov hər cür qurban verməyə hazırdır».[558] Üsyançılara heç bir güzəşt etmək fikri olmayan Yermolov xalqa müraciət edərək bildirdi ki, qaçanlar bir daha qayıtmayacaq və onların bol torpaqları və sürüləri Rusiyaya sədaqətli olan adamlara paylanacaq.[559] Həmçinin xalqa belə bir fikir təlqin edilirdi ki, guya Mustafa ağa və Nəsib sultan Rusiyaya müvəqqəti göndərilirlər. Əgər xalq özünü «pis aparsa» bir daha onların üzünü görməyəcək. Əslində isə Rusiyaya göndərilən həmin bəylərin haçansa geri qayıdacağını ağlına belə gətirməyən rusların bu hiyləsi Qazax və Şəmşəddil əhalisini itaətdə saxlamaq məqsədi güdürdü.

Xalqı lüzumsuz addımlardan çəkindərməkdə və yaşayış tərzinin öz məcarasına düşməsində xalq arasında hörməti olan yerli axundun böyük rolu oldu. Yermolovun müraciətini xalqa çatdıran axund onun bütün müddəalarını çox incəliklə izah etdi, həmçinin xalq arasında qayda-qanunu özü təşkil

---

[552] QAKA VI cild, sənəd 1041.
[553] Yenə orada, sənəd 1033.
[554] Yenə orada, sənəd 1034.
[555] QAKA VI cild, sənəd 1035.
[556] Yenə orada, sənəd 1043.
[557] Yenə orada, sənəd 1048.
[558] QAKA VI cild, sənəd 1049.
[559] Potto V. Kavkazskaə voyna..., II cild, s.666.

edəcəyinə səlahiyyət aldığını bildirdi.[560] Bütün bunlar öz başçılarının bir daha geri dönməyəcəyinə əmin olan əhalinin sakitləşməsinə və üsyanın getdikcə sönməsinə səbəb oldu.

Beləliklə Qazax və şəmşəddilliləri öz ata-baba yurdlarını tərk etməkdən çəkindirməkdə axundun fəaliyyəti danılmazdır və çox təqdirəlayiqdir. Zənnimizcə Nadir şahın həmin torpaqları Gürcüstana verməsi nə qədər mənfi qarşılanırsa, axundun bu hərəkəti bir o qədər müsbət qiymətləndirilməlidir. Belə bir addım işğalçı dövlət üçün sərfəli ola bilərdi, çünki o həmin ərazilərdə özünə sadiq olanları, habelə erməniləri, rus hərbçilərini və almanları yerləşdirə bilərdi.

Məlumdur ki, bu dövrdə Rusiyanın nəzarətində olan əraziyə köç edən ermənilərin yerbəyer edilməsi haqda çarın göstərişi var idi və ona görə ermənilər baş komandandan tez-tez torpaq tələb edirdilər. Hərbçilərdən ibarət yaşayış məskənləri salmaq Rusiyanın işğalçılıq siyasətinin tərkib hissəsi idi və yeri gəldikcə buna əməl olunurdu. O ki, qaldı almanları yerləşdirilməsinə, artıq 1818-ci ildən Gürcüstanda, eləcə də Şəmşəddildə, Borçalıda, Elizavetpolda əsasən yerli əhali hesabına Marienfeld, Yekaterinfeld, Annenfeld, Yelenendorf kimi alman koloniyaları salınmağa başlanmışdı. Görünür bu koloniyaların salınması da üsyanlara öz təsirini göstərmişdir.

Gələcək mübarizə tarixində böyük əhəmiyyəti olan 1818-1819-cu illər Qazax-Şəmşəddil hadisələri xalqın sıx birliyini nümayiş etdirdi. Bundan vahiməyə düşən ruslar həmin ərazilərdə qoşunların sayını təkrarən artırmağa və bəzi güzəştlər etməyə məcbur oldular. Üsyanın məğlub olmasına baxmayaraq yalnız çoxsaylı və nizami qoşun Rusiyanı Qazax və Şəmşəddildən qovulmaqdan xilas etdi. Bu isə yerli xalqın, ümumiyyətlə bütün Azəbaycanın problemi idi.

Bu ərəfədə Quba və Dərbənd xanlıqlarından məhrum edilərək Dağıstana çəkilən Şeyxəli xan həmişə olduğu kimi özünə çoxlu tərəfdarlar toplamışdı. Azərbaycanın şimal-şərqində olduğu kimi Dağıstanda böyük nüfuza malik olan Şeyxəli xanın dağlı xanların işğalçı Rusiyaya qarşı mübarizəyə qaldırmaqda və onların vahid cəbhəsini təşkil etməkdə əldə etdiyi nailiyyət şəksizdir. O daim bu xalqlara rəhbərlik edən Akuşa qazısı, Qazıqumuq və Avar xanları ilə əlbir fəaliyyət göstərirdi. Bunun sayəsində idi ki, rusların nə Quba və Dərbənddə möhkəmlənməsi, nə də Dağıstana doğru irəliləməsi baş tutumurdu. Hətta Yermolov özü 1819-cu ilin əvvəllərində yazdığı raportunda etiraf edirdi ki, Şeyxəli xanın fəaliyyəti nəticəsində Qafqaz xəttinin Dərbəndlə əlaqəsi üzülmüş və bu sahədəki ticarət karvanlarının hərəkəti dayanmışdır.[561]

1819-cu ilin yazında Şeyxəli xanın öz müttəfiqləri ilə birgə Quba əyalətinə hücum edəcəyi haqda xəbərlər yayılmağa başladı. Bu da yerli əhali arasında böyük canlanmaya səbəb oldu. Gözlənilən hücumun qarşısını almağa çalışan ruslar Tabasarana qoşun hissələri göndərdilər. Bununla yanaşı Yermolov Şeyxəli xanın qatı tərəfdarlarını tutdurub qalaya saldırdı, onunla əlaqə də olan bəyləri isə idarəçiliyindəki kəndlərdən məhrum etdi.[562] Məlumdur ki, Şeyxəli xanın Qubada çoxlu tərəfdarı var idi. Ümumiyyətlə Quba xanlığında ona qarşı açıq çıxış edəcək qüvə yox dərəcəsində idi. Bu tədbirin cəzasız qalmayacağını anlayan ruslar kütləvi hücumun qarşısını almaq üçün Qubaya bir ədəd artilleriya qurğusu göndərdilər. [563]

---

[560] Yenə orada, s.667.
[561] Kozubskiy E.İ. Göst. əsəri, s.156.
[562] QAKA VI cild, sənəd 241.
[563] Yenə orada.

Şeyxəli xanın tərəfdanlarına qarşı törədilən amansızlıq, Qubanın möhkəmləndirilməsi və Dağıstan sərhədlərində qoşunların cəmləşdirilməsi Rusiyanın başlayacağı güclü hücumlardan xəbər verirdi. Köhnə ssenari isə dəyişilməz qalırdı: Əvvəlcə «düşmən» tərəfin hücum edəcəyi haqda xəbərlər yayılır, əhalinin müəyyən bir qismində və əsgərlərdə onlara qarşı nifrət gücləndirilir, qoşunlar döyüş hazırlığı vəziyyətinə gətirilir, könüllülərdən ibarət xüsusi dəstələr yığılır və s. Bu yürüşdən əsas məqsəd Dağıstanı da fəth etmək və eyni zamanda Şeyxəli xanın yerli əhali ilə əlaqəsini tamam kəsmək idi.

Pestelin başçılıq etdiyi rus qoşunları 1819-cu ilin yayında yürüşə çıxdı. Çoxlu könüllülərin və rus kazaklarının daxil olduğu bu dəstə Şeyxəli xanın yaşadığı Akuşaya doğru hərəkət etdi. Başlı kəndinə soxularaq kənddəki bütün evləri (2001 ev) yandıran ruslar Şeyxəli xanın 20 minlik dəstəsi ilə qarşılaşdı. Dörd saat yarım davam edən döyüş müttəfiqlərin tam qələbəsi ilə başa çatdı. Rusiya bu döyüşdə 418 əsəgər və zabit itirdi.[564] Bu hadisələrdən bəhs edən E.Kozubski qeyd edir ki, avar xanın qardaşı Həsən xanın və Şeyxəli xanın başçılığı ilə qazanılan bu qələbə bütün Dağıstanda təntənə ilə ilə qarşılandı.[565] Ağır məğlubiyyətə uğrayan ruslar Drəbəndə çəkilməyə məcbur oldular. Onlar Başlıda götürdükləri 29 girovdan 17-ni Yermolovun göstərişi ilə burada asdılar.[566] Onu da deyək ki, bu yürüşdə Quba və Dərbənd xanlıqlarında yerləşən qoşunların yalnız bir hissəsi iştirak edirdi. Bu vaxt Qubada yerləşən və ilin əvvəlindən Dağıstan yürüşü üçün qoşun toplamaqla məşğul olan Mədətovun ixtiyarında 2 batalyon, 300 kazak, 6 top və 650 atlı milis[567] və Məlik Vanyanın başçılıq etdiyi erməni atlı dəstəsi var idi.[568] Növbəti yürüşü çox gözləmək lazım gəlmədi.

1819-cu ilin avqustunda yeni yürüş başlandı. Yürüşdə Mədətovla yanaşı Pestel də öz dəstəsi ilə iştirak edirdi. Dağıstanın çoxlu cəmiyyəti Akuşa qazısının başçılığı ilə yeni ittifaqda birləşdi. Bura avar xanı, Mextulı Həsən, Qaraqaytaq usmisi və çoxlu tərəfdarları ilə Şeyxəli xan daxil idi.[569] Müttəfiqlər Rusiyaya sadiq Tarkov şamxallığını tutaraq Quba vilayətinə hərəkət etməyi nəzərdə tutmuşdular. Onların bu məqsədindən xəbər tutan Yermolov qəti hərəkətlə Akuşaya soxuldu.[570] Bu da döyüşün taleyini həll etdi. Müxtəlif istiqamətlərdən hücum edən düşmənin müqavimətini qıra bilməyən müttəfiqlər məğlub olaraq dağlara çəkildilər. Başlı altındakı qələbə müttəfiqlərin, eləcə də, Şeyxəli xanın son qələbəsi oldu. 1819-20-ci illərdə ruslar Məxtulını, Tabasaranı, Qaraqaytaqı, Akuşanı, Qazıqumuqu işğal etdilər.[571] Onu da qeyd edək ki, Qazıqumuqun işğalında fərqlənən Bakixanov praporşik rütbəsi aldı.[572]

Xaricdən müdaxiləni dəf edən çar Rusiyası Dərbənddə yerli əhaliyə qarşı divan tutmağa başladı. Şeyxəli xanla əlaqə saxlamaqda təqsirləndirilən 8 bəy Həştərxana sürgün edildi.[573] Həştərxana

---

[564] Voennıə sbornik, 46 cild, SPb., 1869,s.20.
[565] Kozubskiy E.İ. Göst. əsəri, s.157.
[566] Voennıə sbornik, 46 cild, SPb., 1869,s.21.
[567] Voennıə enüiklopediə, XI cild, s.226
[568] Potto V. Pervıe dobrovalğüı Karabaqa v gpoxu vodvoreniə russkoqo vladıçestva, Tiflis, 1902,s.49.
[569] Voennaə gnüiklopediə, XI cild, s.226.
[570] Yenə orada.
[571]Kozubskiy E.İ. Göst. əsəri, s.157.
[572] Aqaən P.P. A.Bakixanov, Baku, 1948,s.46.
[573] QAKA VI cild, sənəd 242.

göndərilənlər arasında professor Mirzə Kazımbəyin atası Molla Hacı Kazımbəy də var idi.[574] Bu kimi tədbirlər, edamlar belə sonrakı illərdə də davam etdirilmişdir.

Məğlubiyyətdən sonra dağlara çəkilən Şeyxəli xan 1822-ci il mayın 25-də vəfat etdi.

1823-cü ilin əvvəllərində Dərbənd və onun ətrafı 6 rota və 3 topu birləşdirən Kür piyada alayının mənzil- qərargahına çevrildi. Bu da əsasən şəhərin «təhlükəsizliyini» təmin etməli idi. Öz rəqiblərini sıradan çıxaran Rusiya 1824-cü ilin yayında Dərbənd şəhərinin və əhalisinin siyahıya alınmasını keçirdi.[575]

Yuxarıda bəhs olunan kimi, Yermolovun Qafqaz siyasətinin əsasını Azərbaycan xanlıqlarının ləğvi və onların Rusiyanın bir əyalətinə çevrilməsi təşkil edirdi. Artıq başlıca diqqətin yönəldiyi Qarabağ, Şirvan və Şəki xanlığında bu prosesə hazırlıq gedirdi. Əlverişli məqam bunun reallaşması demək idi. Və bu məqamı Şəki xanlığında çox gözləmək lazım gəlmədi, məsələ asanlıqla həlledildi.

Artıq çoxdan idi ki, İsmayıl xanın tutduğu vəzifəyə layiq olmadığı bildirilir, fəaliyyət isə getdikcə məhdudlaşdırılırdı. 1818-ci ilin axırlarında Şəki xanlığına tam nəzarətə götürən hərbçilər İsmayıl xanın bütün hərəkətlərini izləmək və onu icazəsiz Şəkidən kənara buraxmamaq haqda göstəriş aldılar.[576] Əlbəttə bu xanı üsyançılarla və ya iranlılarla əlaqədə olmaqda təqsirləndirmək sadəlövlük olardı və rus komandanlığı da bunu çox yaxşı bilirdi. Təhqirlərə məruz qalan və artıq xan təsiri bağışlamayan İsmayıl xan yalnız bu vəzifədən nə vaxt azad olunacağını gözləyirdi.

1819- cu ilin yayında Mədətov İsmayıl xanı öz atlıları ilə birgə Dağıstan yürüşünə cəlb etdi. Amma çox keçməmiş o qəflətən «xəstələndi» və Nic kəndində öldü. Bu müəammalı ölüm müxtəlif söhbətlərə səbəb oldu. Əsas fikir bu idi ki, xan ruslar tərəfindən zəhərlənib. Ən əvvəl bunu Şirvan bəyləri təsdiq edirdilər.[577] İranlılar da «açıq bildirirdilər ki, o, (İsmayıl xan – V.U.) yanındakı rus məmuru tərəfindən zəhərlənib və bu haqda hətta rəsmi bəyanat da veriblər».[578] Sənədlərə əsaslanan bu fikri «XIX əsrdə Rusiya diplomatiyası və aprdığı müharibələr» adlı kitabında qeyd edən görkəmli tarixçi M. Pokrovski özü də tam yəqin edir ki, İsmayıl xan birbaşa knyaz Mədətovun göstərişi ilə zəhərlənib. Lakin bütün bunların fərqinə varmayan ruslar törəyə biləcək hər hansı həyəcanın qarşısını almaq üçün qoşunları Şəki xanlığına yeritdilər və xanlıq üsul- idarəsinin ləğv edildiyini bildirdilər. Beləliklə, yüz ilə yaxın mövcud olmuş Şəki xanlığına son qoyuldu. Şəhərə komendat təyin edirdi.

Xanın qohumları, yaxınları, xidmətçiləri Şəkidən çıxarıldı və əksəriyyəti Xoya göndərildi. Burada bir məqamı da qeyd etmək lazımdır. Ruslar xoyluları xanlıqdan qovarkən, xanın nökərləri olan xoylu ermənilərə toxunmadılar.[579] Köçürülən əhalinin (onlar minlərlə idi) əmlakı müsadirə edildi. Xanın ailəsi isə M.Pokrovskinin yazdığına görə rus məmurları tərəfindən «sadəcə olaraq qarət edildi».[580]

Baş komandanın, rus hərbi məmurlarının eləcə də yeni Şəki komendantının öz başınalığı ilə bağlı 1820-ci ilin avqustunda olmuş bir hadisəyə də toxunmaq yerinə düşər. Söhbət Surxay xan Qazıqumuqlunun qaçmasına kömək edərək ona sığınacaq verən Almalı kəndinə hücumdan gedir. Velyaminov Nuxa komendatına yazırdı: «Yermalov əmr etmişdir ki, Nüxa tatarlarını... ləzgi kəndi

[574] Kozubskiy E.İ. Göst. əsəri, s.159.
[575] QAKA VI cild, sənəd 253.
[576] Yenə orada, sənəd 1090.
[577] QAKA,VI cild, sənəd 1113.
[578] Pokrovskiy M. N. Diplomatiya i voynı üarskoy Rossii v XIX stoletii, Moskva, 1923, s. 186.
[579] «Qafqaz» qəzeti, 1898-ci il,№167,s. 2.
[580] Pokrovskiy M. N. Göst. əsəri. s. 186.

Almalının yandırılmasına və o kəndin məhv edilməsinə təşviq edəsiniz, qoy onlar kənddəki arvad və uşaqları öz xeyirlərinə satsınlar, həmçinin bütün qəniməti götürsünlər. Bu əməliyyatı bacardıqca gizli keçirin ki, Almalı sakinləri arvad və uşaqlarını gizlədə bilməsinlər».[581] Əməliyyatdan qabaq 2 erməni casusundan istifadə edildi.[582] Ümumiyyətlə bu yürüşdə çoxlu erməni könüllüsü iştirak edirdi.

Əməliyyat 1820-ci il avqustun 6-da səhərə 3 saat qalmış həyata keçirildi. 2000-dən artıq atlı və piyada 4 istiqamətdən kəndə soxularaq 200-dən artıq evi yandırdı. Kəndə soxulunların başı qarətə qarışdığından almalılar arvad və uşaqların gizlədə bildilər.[583] Onlara dəyən ziyanın dəyəri 300.000 rubıla (gümüş pulla ) ölçülürdü.[584]

Bu əməliyyatı keçirməkdə ruslar iki məqsəd güdürdü: Birincisi, Rusiyanın düşməninə kömək edənlərə ciddi ibrət dərsi vermək, ikincisi isə yerli millətlər arasında nifaq salmaq. Mülki əhaliyə qarşı törədilən bu vəhşilik Rusiyanın öz məqsədlərinə çatmaq üçün ən iyrənc metodlardan istifadə etməsinə bir daha əyani sübutdur.

Şəki ilə müqaisədə rusların Şirvanda işi elə də rəvan getmirdi. Xanlıqdakı rus hərbçilərinin fəaliyyət dairəsi məhdud idi və Mustafa xan vəziyyətə tam nəzarət edə bilirdi. Yermolov öz «Qeydlərində yazırdı:» Onun (Mustafa xanın – V. U.) yanında hökumətimizin təyin etdiyi piristav var idi. Amma xan onu elə təcrid etmişdi ki, o, xanın əlaqələri və davranışı haqda heç nə bilmirdi, yalnız bizə bağlı olan ermənilərdən bəzi məlumatları toplayırdı.[585]

Xanlıq haqda verilən məlumatları isə çox təzadlı idi. Məsələn xanlıqda olan rus hərbçiləri Mustafa xanın ciddi- cəhdlə ruslara qarşı hərbi əməliyyata hazırlaşdığını və hətta bunun üçün 300 ləzgi atlısı da gətirildiyini bildirirdilər.[586] Əksinə xanlığı nəzərdən keçirməyə gələn Mədətov bu məlumatların əsassız olduğunu və şaiyələrə əsaslandığını yəqin edir.[587]

Xanlığa yeridilmiş yeni qoşun hissələri Mədətovun məlumatından sonra əvvəlki mövqelərinə qaytarılır.

Belə müəmmalı vəziyyətdə iki fikir özünü qabarıq büruzə verir. Birinci rusların planından xəbərdar olan Mustafa xan hərbi hazırlıq görərək Fitdağa çəkilməkdə (gizli olaraq) görünür ya rusları qabaqlamaq və əlverişli məqamda onları xanlıqdan çıxarmaq, ya da gözlənilən hücumdan müdafiə olunmaq istəyirmiş. Bütün əhali tərəfindən müdafiə edilən Mustafa xanın daxildəki qoşunlarla bacaracağı şəksiz idi. İkinci fikir isə bu idi ki, bütün bu hadisələr rusların təxribatı idi və Mustafa xana təsdiq üçün nəzərdə tutulmuşdu. Bu hadisələrdən çox keçməmiş 1819-cu ilin yayında yenidən Mustafa xanın Fitdağı möhkəmləndirməsi haqda məlumatlar daxil olur.[588] Bir daha xanlığı nəzərdən keçirmək üçün Axverdov, Moqilyovski və Şərif bəydən ibarət nümayəndəlik Şirvana yola düşür. Bu dəfə də Şirvanda heç bir hərbi-hazırlıq olmadığı barədə fikir təsdiqlənir. Lakin belə qənətə gəlinir ki, Şirvan bəylri də rus hökumətinə qarşı pis münasibətdədirlər.[589] Bu nəticənin özü çox şeyi aydınlaşdırır. Şərif bəyi qəbul edən Mustafa xan əmin olduğunu bildirdi ki, ruslar onu məhv etmək istəyirlər və onun da

---

[581] QAKA, VI cild, sənəd 1138.
[582] Yenə orada, sənəd 1139.
[583] Yenə orada, sənəd 1140.
[584] Yenə orada, sənəd 1141.
[585] Zapiski Alekseə Petroviça Ermolova, II hissə (1816-1827), s. 9.
[586] Azərb. MDTA,130-cu fond, siy. Vah. 3, var. 1-4.
[587] QAKA, VI cild, sənəd 1202.
[588] Yenə orada, sənəd 1207.
[589] QAKA, VI cild, sənəd 1208

nəslinin aqibəti Cəfərqulu xanınkı kimi olacağına hazırlıq gedir. «Mənə yalnız bu qalır ki, gözləyim ruslar məni nə vaxt xain adlandıracaqlar».[590] Şəki hadisələrinə qədər tərəddüd edən, lakin bu hadisələrdən sonra adlandığını və xeyli vaxt itirdiyini anlayan xan müasirlərinin bildirdiyinə görə tez-tez bu sözləri təkrar edirmiş: «Mən çoxdan bilirdim ki, belə olacaq».[591]

Xalqı ruslarla qarşı müharibəyə sövq etmək artıq gec idi. Çünki Şəkiyə daxil olmuş çoxlu rus qoşunu (onlar Şirvan sərhəddində hücuma hazır vəziyyətdə idilər) buna imkan verməzdilər. Şirvandakı qoşunlara da tapşırıq verilmişdi. Ümumiyyətlə rus qoşunu artıq bütün lazımi tədbirləri görmüşdü. Bəzi müəlliflər bu vaxtlar Mustafa xanın xidmətçisinin ələ keçdiyini və xanın bütün sirlərini açdığını bildirirlər. Lakin bu məlumatın nə dərəcədə doğru olduğunu demək çətindir. Çünki xandan heç bir şey öyrənə bilməyən ruslar bu hadisəni təşkil edə də bilərdilər.

Hələ də heç nəyi dəqiq müəyyən edə bilməyən Yermolov qoşunlara Şirvana irəliləməyi əmr etdi. Bununla da o, könüllü qaçmaq istəməyən xanı zorla qaçırtmaq və birdəfəlik xanla işi bitirmək istəyirdi. Bəhanə isə aydın idi, ələ keçən xidmətçinin bütün sirləri açması. 4 batalyon, 1000 kazak, 6 top, və artilleriyadan ibarət qoşun Zərdab və Quba istiqamətindən xanlığa daxil olmalı idi.[592] Rusları narahat edən əsas məsələ xanın qaçmasını xalqa elan etmək və xanlıq üsul-idarəsinin ləğvi idi. Əgər xan qaçmasa da yəqin ki, ruslar onu həmin xidmətçinin məlumatlarına əsasən xain adlandıracaqdılar.

Vəziyyətin ağırlığını dərk edən Şirvan xanı 1820-ci il avqustun 19-da ailəsi və 200 atlı ilə Kürü keçməyə müvəffəq oldu. Ruslar buna bənd imiş kimi xanın həmişəlik xanlıqdan uzaqlaşdırıldığını və ərazinin Rusiya idarəçiliyinə qəbul olunduğunu bəyan etdilər. Xanın qalan qohumları da İrana göndərildi.[593] Bütün gədələrin əmlakı müsadirə olundu.[594] Yalnız ermənilər rusları «razılıq və gülərüzlə qarşıladılar».[595]

Şəki və Şirvan xanlıqlarının başına gətirilənlər Qarabağ üçün də nəzərdə tutulmuşdu. Yalnız onun həyata keçirilməsi üçün istifadə olunan üsul müxtəlif ola bilərdi. Bunun üçün Rusiya geniş imkanlara malik idi. Ağıllla edə bilmədiklərini güclə edirdi. Gücdən istifadə isə son vapriant idi. Bundan əvvəl şirnikləndirici vədlər, hədə-qorxular, iqtisadi cəzalar və s. gəlirdi. Artıq bu mexanizm Qarabağda xanlıq sisteminin ləğvi üçün işə salınmışdı.

Hələ 1817-ci ildən öz alayı ilə Qarabağa «təşrif» gətirən[596] və Çanaqçı ilə yanaşı Mehdiqulu xandan daha 8 kənd alan Mədətov demək olar ki, xanlığı idarə etməyə başladı. Rolu heçə endirilən Mehdiqulu xanın rəhbərliyi nominal xarakter daşıyırdı. Onu da qeyd edək ki, bu xan üzərinə düşən xəracı ödəmirdi və yaxud ödəyə bilmirdi. Sərhədlərin qorunması, digər yürüşlər üçün rusların tələbi ilə əsgər yığmaq isə ümumiyyətlə problem idi. Həmçinin «hərbi topluda» Şeyxəli xanın Başlıdakı qələbəsindən sonra Mehdiqulu xanın Abbas Mirzə ilə əlaqə saxladığı (məlumdur ki, xanın bacısı şahın arvadı idi və qardaşı Əbülfət xan isə İranda sayılan adamlardan biri idi) Şirvan xanını öz tərəfinə çəkmək üçün ona məktub yazdığı, habelə Dağıstan yürüşündən boyun qaçırdığı bildirilir.[597] Demək olar

[590] Yenə orada.
[591] Potto V. Kavkazskaə voyna…, II cild, s.681
[592] Zubov P. Podviqi russkix voinov v stranax kavkazskix s 1800-1823,II cild, III hissə,SPb., 1836,s.82
[593] Zapiski A.Ermolova, s.120.
[594] QAKA, VI cild, sənəd 1217.
[595] Yenə orada, sənəd 1212.
[596] Azərb. MDTA,130-cu fond, siy. № 1, sax.vah. 1, var. 1.
[597] Voennaə sbornik, 46 cild, s.27.

ki, bu xan da gec-tez hakimiyyətdən kənar ediləcəyini anlamışdı. Şəki və Şirvan hadisələrindən sonra bunu dərk etməmək sadəlöhvlük olardı.

Dağıstan yürüşünü qələbə ilə başa çatdıran, Şəki və Şirvan xanlıqlarında öz istəyinə nail olan Yermolov 1820-ci ilin oktyabrında Mehdiqulu xana məktubunda yazırdı: «Düşmənləriniz belə şaiyələr yayırlar ki, guya siz öz ərazinizi qoyub İrana keçmək istəyirsiniz».[598] Xanın fikrini öyrənməyə çalışan baş komandan bir növ də onun qaçmağına zəmin hazırlayırdı. Yeni bir hiylə işlədiləcəyi şübhəsiz idi.

M.Pokrovski qeyd edir ki, Mehdiqulu xanı zəhərləmək mümkün olmadığından onu xanlıqdan uzaqlaşdırmaq üçün provakasiya üsuluna əl atırlar.[599] Xanlığa varis Cəfərqulu ağa əmisinin (Mehdiqulu xanın) otağına girərək haray-həşir qoparır ki, xan onu öldürmək istəyir və atəş açaraq öz ayağını yaralayır. Tezliklə cinayət işi başlayır.[600] Məsələnin nə yerdə olduğunu anlayan Mehdiqulu xan hətta ailə üzvlərini götürmədən 1822-ci il noyabrın 22-də 15 nökəri ilə İrana qaçır. Xan olacağına tam əmin olan Cəfərqulu xanı bu hüquqdan məhrum etmək üçün heç bir əsaslı dəlil tapa bilməyən ruslar xanlıq sisteminin ləğv edildiyini, Qarabağın Rusiyanın əyalətinə çevrildiyini elan edirlər. Qarabağda sakitlik yaratmaq üçün Cəfərqulu xan oğlu Kərimlə birgə Simbriskə yola salınır.[601]

Xanın və bir çox bəylərin qaçmasından, qovulmasından və sürgün edilməsindən sonra Qarabağda da ruslar xeyli var-dövlət mənimsədilər. Onların bir çoxu hərraclarda satılaraq[602] Rusiyaya xidmət edənlərə, təqaüdlərin təyin edilməsinə, rütbələr verilməsinə və s. sərf olundu. Rusiyaya pis münasibət bəsləyənlər biletlə təmin edilərək İrana yola salındı və onlara geri qayıtmamaq tapşırıldı.[603]

Qarabağ xanlığının ləğvindən sonra əhalinin cənuba yeni kütləvi köçü başlandı. Təkcə 1823-cü ilin oktyabrında 539 ailə İrana köç etdi.[604] Həmin il Qarabağ əyalətini siyahıya almaq üçün komissiya təşkil edildi. Həmin komissiyaya 1819-cu ilin axırlarında Yermolov dəftərxanasında tərcüməçi sifətilə işə girən A.Bakıxanov da daxil edildi.

## § 2. İnzibati amirlik, iqtisadi zülm və mənəvi terror. Azərbaycan yeni üsyanlar ərəfəsində.

İşğal olunmuş Azərbaycan ərazilərində Rusiyanın həyata keçirdiyi daxili siyasətindən tarixşünaslığımızda xeyli bəhs olunduğundan və geniş işıqlandırıldığından onun üzərində çox dayanmağı lazım bilmir, yalnız ədəbiyyatda çox az rast gəlinən bəzi faktları araşdırmağı və xalqın bu sahələrdə istibdada qarşı müqavimətini göstərməyi məqsədəuyğun hesab edirik.

Azərbaycanın işğal olunmasından keçən müddət ərzində ruslar nə idarəetmədə, nə də iqtisadi sahədə xalqın mənafeyi baxımından heç bir müsbət yenilik etmədilər. Əksinə mövcud olan qaydalar, iqtisadi strukturlar dağıldı, ən yaxşı halda isə əvvəlki kimi saxlanıldı. Çarizmin əsas məqsədi öz hakimiyyətini möhkəmləndirmək, xalqı qorxu altında saxlamaqla onu mütiliyə alışdırmaq, var-yoxunu talamaq olmuşdur. Bu dövrlə məşğul olan əksər rus və başqa ölkə tarixçiləri Rusiyanın Qafqazda, o

[598] QAKA, VI cild, sənəd 1274.
[599] Pokrovskiy M.N. Göst. əsəri.s.186
[600] Yenə orada.
[601] QAKA, VI cild, sənəd 1302.
[602] Azərb. MDTA,130-cu fond, siy.1, sax.vah. 7, var. 10-11.
[603] QAKA, VI cild, sənəd 1319.
[604] Yenə orada. sənəd 1317.

cümlədən, Azərbaycanda həyata keçirdiyi siyasətinin hərbi feodal ekspansiyasından başqa bir şey olmadığını və bunun bütün sahələrə sirayət etdiyini bildirirlər. Bu fikirləri ümumiləşdirən tarixçi N.Smirnov yazır: «O (çarizm – V.U.) fəth olunmuş xalqlara heç bir yaxşılıq bəxş etmədi. Əksinə, itaətdə saxlama yeni, daha amansız forma aldı ki, bu da qafqazlılara əvvəlki yüzillikdən məlum idi».[605]

Əlbəttə işğalçı ölkədən hər hansı bir sahədə yerli xalqın xeyrinə bir şey gözləmək özü sadəlövhlükdür və heç bir məntiqə sığmır. Amma çox təəssüflər olsun ki, bu cür konsepsiyalar artıq Azərbaycan tarixində özünə yer etmiş, hətta işğala haqq qazandırmaq və ya onu ört-basdır etmək üçün müəyyən mərhələdə bu işə könüllü birləşmə prinsipindən yanaşılmışdır. Burada söhbət ayrı-ayrı müəlliflərin əsərlərindən deyil, ümumi Azərbaycan tarixində özünə yer etmiş mənfi meyllərdən gedir. Əsas məqsəd isə səhvlərin etiraf edilməsi və həqiqətin aşkarlanmasından ibarətdir.

Çar məmurlarının hərəkətləri heç bir qanunla tənzimlənmirdi və yerlərdə onlara heç bir nəzarət yox idi. Özbaşınalıq, qanunsuzluq baş alıb gedirdi. Bütün bu hallar elə rus hərbçiləri tərəfindən də etiraf olunurdu. Beləki, Qafqaza yeni baş komandan təyin olunan Markiz Pauluççi Dərbənd, Quba və Bakı əyalətlərində xalqın narazılığı ilə rastlaşaraq yazırdı: «Bu ərazilər Rusiyaya keçməmişdən qabaqkı xan hüquqlarında qalıb, qayda-qanun yaratmaq üçün heç bir əsaslı qərar olmayıb... Məncə Bakı, Quba və Dərbənd əyalətlərində o xalqın ruhuna və adətinə» uyğun idarə üsulu təşkil etməliyik... bununla göstərmək lazımdır ki, Rusiya hökuməti onların qayğısına qalır.[606] Şəxsən öz gəzintiləri nəticəsində vəziyyətin yerlərdə çox bərbad olduğunu müşahidə edən yeni baş komandan yerlərdəki çar üsul-idarəsini tənqid edərək onun yenisi ilə əvəz olunmasını qeyd edirdi. Əlbəttə onun bu fikirə gəlməsində xalqın narazılığından doğan əhval-ruhiyyə də böyük rol oynamışdır.

Öz hakimiyyətlərini möhkəmləndirmək naminə ruslar ən ikrah doğurucu üsullardan belə istifadə etməkdən çəkinmirdilər və bunların bəzilərindən artıq bəhs olunub. Onlardan biri də çar məmurlarının xanlıqlarda daha çox nüfuzu olanlara, xüsusilə də xana rəqib ola biləcək adamlara hədsiz nəvaziş göstərmələri, onları öz tərəflərinə çəkmələri üçün separat danışıqlara girmələri idi. Buna misal olaraq Şirvanda Qasım xana, Qarabağda Cəfərqulu ağaya, İrəvanda kürdlərin başçısı Mustafa ağaya, Cəfər bəyə, Şoragilli Budaq sultana və başqalarına olan münasibətləri göstərmək olar. «Parçala və hökm sür» siyasətinin tərkib hissəsi olan belə idarəçilik xanlıqlar sisteminin ləğvindən sonra da başqa formalarda davam etdirilirdi. Elə Şirvanlı Mustafa xanın qardaşı Qasım xanın, Mehdiqulu xanın qardaşı Məmməd Qasım ağanın, İbrahim xanın digər oğlu Şeyxəli bəyin və onlarca başqalarının rütbə və təqaüdlərlə mükafatlandırılması bu siyasətin davamı idi. Əksinə Rusiyaya əks mövqedə olanlar müxtəlif bəhanələrlə birdəfəlik bu ərazilərdən qovulurdular.

Çarizmin apardığı ardıcıl siyasət nəticəsində bir çox bəylər gəlirlərindən istifadə etdikləri kəndlərdən məhrum olaraq dövlət təqaüdləri hesabına yaşamağa məcbur olurdular. Nəticədə müxtəlif rütbə daşıyaraq təqaüd alan və heç bir vəzifə daşımayan həmin bəylər getdikcə daha çox rus hakim dairələrindən asılı vəziyyətə düşürdülər. Bu da öz növbəsində əhali arasında qarşıdurmaya gətirib çıxarırdı.

Həyata keçirilən inzibati amirlik sistemi iqtisadiyyata və nəticədə birbaşa xalqın iqtisadi mənayefinə ciddi zərbə vururdu. Əhalinin ruslara qulluq etmək istəməməsi, torpaqların əvvəlki

[605] Smirnov N.A. Politika Rossii na Kavkaze v XVI-XIX vekax, Moskva,1958, s.180.
[606] QAKA, VI cild, sənəd 33.

bəylərdən alınaraq Rusiyaya sədaqətli olan adamlara paylanması, kəndlilərin ellikə öz yurdlarını tərk etməsi, müharibələr, üsyanlar iqtisadiyyatı iflic vəziyyətinə salır və məhsuldarlığı xeyli aşağı salırdı. Yeni peyda olan vergilər, müxtəlif maneələr, məmurların özbaşınalığı vəziyyəti daha da ağırlaşdırırdı.

Bu baxımdan Gəncə xanlığının işğalından sonra erməni icmasının rus hökumətinə müraciəti bir sənəd kimi böyük əhəmiyyətə malikdir. Müraciətdə deyirlirdi: «Sizin bu diyarlara gəlməyiniz erməni millətinə çoxdan bəlli idi və biz müxtəlif məhrumiyyətlərə, çətinliklərə dözərək öz dindaşlarımızın himayəsi sayəsində vəziyyətimizin yaxşılaşacağına ümid bəsləyirdik. Əslində isə yeni maneələrlə üzləşdik. Məsələn: 1) Cavad xan dövründə olamayan gömrük vergisi təyin edilib; 2) Zərgərlərə haqq qoyulub ki, bu da xan dövründə yox idi; 3) Xan dövründə pulsuz istifadə olunan su kanalları icarəyə verilib; 4) gil qab ustalarına onu satmaq qadağan edilib və bu iş icarəyə verilib...».[607] Ümumiyyətlə 12 bənddən ibarət olan bu müraciətdə həmçinin kvas zavodlarının, quyuların, tərəzi çəkməyin və başqa sahələrin icarəyə verildiyi, bağçıya-bostançıya haqq qoyulduğu bildirilir.

Müxtəlif sahələrin inkişafına əngəllər törədən bu qadağanların hansı nəticələrə səbəb olduğunu təsəvvür etmək çətin deyil və bunu izah etməyə ehtiyac duyulmur. Öz vəziyyətlərinin ağırlığından şikayət edən gəncə ermənilərinə gəldikdə isə deməliyik ki, onlar yeni vergilərin, qadağanların ləğv olunmasına deyil, özlərinin bundan azad olunmasına çalışırdılar. Beləki, onlar öz vəziyyətlərinin Rusiya ermənilərininki ilə bərabərləşdirilməsinə nail olmaq istəyirdilər.[608]

Aşağı silkin mənafeyinə birbaşa zərbə vuran digər bir təlimat Quba komendantı Ponomaryov tərəfindən verildi. Yeni təlumata əsasən bəylər kəndlilər hesabına bir çox güzəştlər əldə etdilər. Həmin bəylər Ponomaryovun fikrincə «son nəfəsinədək Rusiyaya xidmət etməliydilər».[609] Əlbəttə kəndli və sənətkarların qayğısına qalmaq, hər hansı təzyiq olmadan onlarla hesablaşmaq heç kimin ağlına gəlmirdi. Bəylərə edilən bu güzəştlər isə onların Rusiyaya sədaqəti hesabına başa gəlirdi. Elə həmin Quba xanlığında ruslar 1810-1824-cü illərdə 1000-dən artıq rəncbəri bəylərə bağışlamışdılar ki, burada da əsas meyar bəylərin Rusiyaya sadiqliyi idi.[610]

Quba xanlığına aid digər sənədlərdən aydın olur ki, bəylərin mülkiyyət hüquqları ruslar tərəfindən yenidən təsdiq olunmalı idi.[611] Görünür belə sənəd təqdim edilmədikdə bəylər ixtiyarlarındakı kəndlərlə vidalaşmalı idilər. Həmişə irsi xarakter daşımış və toxunulmaz olan mülkiyyətin belə asanlıqla itirilməsinin hansı narazılıqlara gətirib çıxardığını təsəvvür etmək çətin deyil. Başqa bir tərəfdən Yermolov Quba xanlığında Rusiyaya sadiq olmayan bəyləri tam aşkarlamaq üçün onları təştif etmək qərarına gəlmişdi. Onun göstərişinə əsasən bəylərə torpaqların hansı xidmətlərə görə verildiyi araşdırılmalı idi. Bunun nəticəsində də Rusiyaya münasibətində tərəddüd göstərən bir çox bəylər itiyarlarındakı kəndlərdən məhrum edilirdi, eyni zamanda Rusiyaya xidmət göstərənlərə paylanacaq kəndlərin siyahısı tərtib edilirdi.[612] Ehtimal ki, belə göstərişlər başqa xanlıqlarda da olmuşdur, çünki əqidəyə görə mülkiyyətdən məhrum etmə bütün xanlıqlarda kütləvi səciyyə daşıyırdı.

---

[607] QAKA, IV cild, sənəd 697.
[608] Yenə orada. IV cild, sənəd 696.
[609] Yenə orada. VI cild, sənəd 240.
[610] Gülmalıyev M.M. XVIII əsrin son rübü – XIX əsrin birinci yarısında Azərbaycan kəndinin sosial-iqtisadi strukturu, Bakı, 1989, s.123-125.
[611] Azərb. MDTA, ə.75, siy.1, sax. vah. 6, vər.1-2.
[612] Yenə orada, sax.vah.8, vər.11.

Bu istiqamətdə daha bir addım Yermolovun Qarabağda «satqınlıq» etmiş bütün müsəlman bəylərindən erməni kəndlərinin alınıb dövlət xəzinəsinə keçirilməsi haqda göstərişi oldu.[613]

Bütün bu özbaşınalıqlar bəylərdə inamsızlıq ruhunun yaranmasına, ümumiyyətlə isə Azərbaycanda mülkiyyət hüququnun tam pozulmasına səbəb oldu. Bununla barışmaq istəməyən bir çox bəylər başqa çıxış yolu tapa bilmədiklərindən öz doğma yurdlarını tərk etmək məcburiyyətində qalırdılar. Bunun kütləviliyini təsdiq edən yeni baş komandan Paskeviçə görə işin əsas müqəssiri Yermolov idi.[614]

Rusiyanın xidmətində olan bəylərin də işinin rəvan getmədiyi bəzi sənədlərdən məlum olur. Aşağıdakı misal onların bir çoxu üçün xarakterik idi. Polkovnik rütbəsi ilə yanaşı Quba əyalətində 8 kənd alan Ağabəy Sadıqovun şikayətində Həsənqala kəndinin əhalisinin əvvəllərdə olduğu kimi yenə də ona xidmət etmək istəmədiyi bildirilirdi.

Xanlıqlar sisteminin ləğvi iqtisadi cəhətdən də Rusiya üçün böyük əhəmiyyət kəsb etdi. Hərbi tarixçi Dubrovinin etirafına görə yalnız Şirvanda xanlıq sisteminin ləğvi «Rusiya xəzinəsinə xeyli gəlir gətirdi».[615] Məlumdur ki, bura xanın və başqalarının (onların sayı isə xeyli çox idi) müsadirə olunmuş əmlakı və birbaşa Rusiya xəzinəsinə daxil olacaq gəlirlər daxil idi. Bu gəlirlər haqda isə artıq I fəsildə məlumat verilib.

Şəkidə ələ keçirilən var-dövlət daha çox idi. Bura əsasən Cəfərqulu xan və onun tərəfdarlarına mənsub əmlak daxildir. Yeri gəlmişkən Cəfərqulu xan və onun nəsli haqda danışarkən deməliyik ki, həmin xan Xoy uğrunda mübarizədə məğlub olaraq Bəyazidə gəlmiş və Osmanlı dövlətindən sığınacaq istəmişdi. Lakin bu müraciəti qəbul edilmədiyindən[616] Cəfərqulu xan 20 min xoylu ilə (azərb. və ermənilər) Üç kilsəyə köçərək ruslara qoşulmuşdu. Öz xidmətlərinə görə Şəki xanlığını alan Cəfərqulu xan 10 min nəfər xoylunu bura köçürərək, Şəki ilə yanaşı özlərinin təşkil etdikləri Cəfərabad-Xoy və Cəfərabad-Şəki kəndlərində məskən salmışdılar.[617] Xanlıq sisteminin ləğvindən sonra demək olar ki, köçürülən bütün xoyluların (ermənilər istisna olmaqla) müsadirə edilmiş əmlakının miqdarını təsəvvür etmək çətin deyil.

Qarabağda rusların ələ keçirdiyi var-dövlətdən iki misalın tisalında danışmağı lazım bilirik. Birincisi, sürgün olunan Cəfərqulu ağanın müsadirə olunmuş əmlakı (Velyaminovun hesablamasına görə) haqda. Ona 463 oturaq və 584 köçəri ailə vergi verirdi, bu isə ildə (1824 il üçün) 4484 rubl demək idi. Bundan başqa Cəfərqulu ağanın xeyli buğdası, arpası, çəltiyi, inəyi, atı (qədərini göstərməyi artıq bilirik) və 1500 r. dəyərində evi qalmışdı.[618] Yalnız Mehdiqulu xan, Eyvaz bəy və Fərzəli bəyin o vaxt üçün çox qiymətli olan böyük at ilxısı (246 baş) qalmışdı ki, ruslar ondan seçib Voronej at zavoduna göndərməyi planlaşdırırdılar.[619]

Rus hərbi məmurları arasında vəzifədən sui-istifadə, xüsusilə, rüşvətxolrluq yolu ilə xeyli gəlir əldə etmək geniş yayılmışdı. Paskeviçə görə Mədətov Mehdiqulu xanın «səxavəti» nəticəsində

---

[613] Potto V. Pervıe dobrovalğüı..., s.62.
[614] Pokrovskiy M.N. Göst. əsəri, s.187.
[615] Dubrovin N.F. Göst. əsəri, V cild, s.689.
[616] Başbakanlıq Osmanlı Arşivi (BOA), numara (nr) 6686. – Bax: Osmanlı devleti ile Azerbaycan türk hanlıqları arasındakı münasibetlerə dair arşiv belgeleri, I kitab, Ankara, 1992, s.176.
[617] «Kavkaz» qəzeti, 1898 il, №167, s.2.
[618] QAKA, VI cild, sənəd 1324.
[619] Azərb MDTA, f.130, siy.1, sax.vah.6, vər.1-1 arx.

«Qarabağın əsas bəylərindən birinə çevrilmişdi».[620] Xanın bu hərəkəti hətta Yermolovun diqqətindən yayınmamış və istehza ilə bildirilmişdi: «Siz ilk hakimsiniz ki, rus məmuruna xeyir vermək istəyirsiniz».[621] Vilayətlə tanış olarkən bir çox xanlar Yermolova at, silah, şal və başqa şeylər bağışlamışdılar.[622] Yenə həmin mənbənin məlumatına görə, o müxtəlif xanlardan 7000 baş qoyun qəbul etmişdi.[623] Tiflisdə oturan məmurların xanlardan qiymətli əşyalar qəbul etməsi isə adi hal idi. Xanlıq sistemi ləğv edilərkən müsadirə edilmiş əmlakı hesablayan məmurlar xeyli var-dövlət mənimsəmişdilər.

Bakı xanlığını işğal edən rus dövləti həmin xanlıqdakı quyulardan çıxarılan nefti öz malı kimi ixrac edərək ildə 100 min rubl gəlir əldə edirdilər.[624] Salyan balıq vətəgələrindən (yalnız kürü istehsalından) əldə edilən gəlir heç də ondan geri qalmırdı.[625] Tarixçi Əziz Qubaydulinin tərtib etdiyi cədvəl isə Azərbaycandan aparılan xam ipəyin ildən-ilə necə sürətlə artdığını izləməyə imkan verir. 1822-ci ildə Həştərxan limanı vasitəsilə Azərbaycandan Rusiyaya 1760 pud ipək daşınmışdısa, 1825-ci ildə bu rəqəm 6030 puda, başqa sözlə 96 tona çatmışdı.[626] Xüsusi şəxslər və ya şəxslər qrupu tərəfindən həyata keçirilən qarətlərdən xeyli bəhs edildiyindən yalnız biri ilə kifayətlənirik. Petruşevskinin yazdığına görə, İran qoşunlarının Qarabağa hücumu zamanı xeyli dövlət əmlakını mənimsəyən rus hərbçiləri bildirmişdilər ki, bu «iranlılar tərəfindən edilib».[627]

İctimai mükəlləfiyyətlər, xidmətlər və hərbçilərin kütləvi tədbirləri haqda danışarkən deməliyik ki, bunlar da yerli əhalinin və xanlığın hesabına başa gəlirdi.

Xalq arasında böyük narazılıq yaradan ictimai mükəlləfiyyətlər elə işğalın ilk illərindəcə artmağa başladı. 1806-cı ildə xanlıqlararası yolların qorunması üçün keşikçi məntəqələri qoyuldu. Tək Şəki və Şirvan arasındakı 7 belə məntəqəyə 180 yerli atlı cəlb edildi.[628] 1807-ci ilin əvvəlində Dərbənd və Qubada poçt stansiyaları təşkil edildi ki, bunu da yerli əhali ictimai mükəlləfiyyət kimi həyata keçirməli idi.[629] Qeyd edək ki, əhalinin çox pis qarşıladığı bu işi həyata keçirmək müşkül bir hala çevrildi. Göstərilən tarixdə Bakıda gömrükxana, Dərbənddə isə Bakı görmükxanasına tabe olan gömrük məntəqəsi açıldı.[630] Bunların da əsas vəzifəsi Azərbaycan xammalını Rusiyaya daşımaq idi. Sonralar bir çox şəhərlərdə məhkəmələr fəaliyyət göstərməyə başladı. Xan divanını əvəz edən bu məhkəmələrə deyildiyi kimi xalqın dilini və adət-ənənəsini bilməyən rus hərbçiləri – qala komendantları rəhbərlik edirdilər. Bu xidmətlərin təşkilini Rusiyanın mənafeyi tələb edirdi və bunsuz keçinmək mümkün deyildi.

Kütləvi tədbirlərə gəldikdə bircə onu qeyd edək ki, Lənkəranda imperatorun ad gününün bayram edilməsi Talış xanlığına 500 rubla başa gəlmişdi.[631]

Talış xanlığı ilə bir məsələni də açıqlayaq. Məlum olduğu kimi xanlıqlar ləğv edilərkən yalnız bu xanlığa toxunulmamışdır. Buna səbəb isə Pottonun yazdığına görə Mir Həsən xanın ta qədimdən

---

[620] Pokrovskiy M.N. Göst. əsəri, s.187.
[621] QAKA, VI cild, sənəd 1270.
[622] Umaneü O.M. Prokonsul Kavkaza, SPb., 1912, s.75.
[623] Umaneü O.M. Prokonsul Kavkaza, SPb., 1912, s.75.
[624] Sısoev V.M. Göst. əsəri, s.49
[625] Berezin İ.N. Puteşestvie po Daqestanu i Zakavkazğö, Kazan, 1950, s.98.
[626] Qubaydulin A. Feodalğnıe klassı i krestğənstvo v Azerbaydjane v XIX veke, Baku, 1928, s.14.
[627] Kolonialğnaə politika Rossiyskoqo üarizma v Azerbaydjane v 20-60 qq. XIX v., I hissə, M.-L..., 1926, s.14.
[628] QAKA, III cild, sənəd 56.
[629] Yenə orada, sənəd 58.
[630] Yenə orada, sənəd 70.
[631] Yenə orada, VI cild, sənəd 1343.

iranlılarla düşmən olması idi.[632] İkinci bir tərəfdən də elə bir nüfuzu olmayan həmin xan Lənkəranda olan podpolkovnik Bulqakovun gösərişlərini sözsüz yerinə yetirməyə məcbur idi.[633] Eyni zamanda Lənkəran sularında hərbi eskadraların keşik çəkməsi də bu xanlığın mövcudluğundan irəli gələn hər hansı təhlükəni xeyli azaldırdı.

Məlumdur ki, çarizmə qarşı yönələn mübarizənin əsas aparıcı qüvvələrindən biri olan müsəlman din xadimləri, ruhanilər də müxtəlif təqiblərə, dini ayrı-seçkiliyə məruz qalırdılar. Onların düçar olduğu bu bəla Qafqaz müsəlmanlarına qarşı hazırlanan məqsədyönlü siyasətin gerçəkləşməsinə doğru atılan addımların nəticəsi idi. Əlbəttə Gürcüstana «xristianları qonşu müsəlmanlardan qorumaq» pərdəsi altında girən və ermənilərə xüsusi nəvaziş göstərən rus dövlətindən bundan başqa bir şey gözləmək də əbəs idi. Çünki bu, dövlətin müəyyən etdiyi siyasətindən yayınması demək olardı.

Bu siyasəti öz fəaliyyət proqramında əsas müddəaya çevirən Sisyanov, Yermolov kimi baş komandanlar onu daha amansızcasına həyata keçirirdilər. Elə Sisyanovun Kür və Araz çayları arasındakı əaziləri xristianlarla məskunlaşdırmağı, Yermolovun isə Qafqazdakı bütün qeyri-rusları məhv etməyi qarşıya məqsəd qoymaları bu siyasətin mahiyyətini bir daha açıqlayır. Qafqaz dağlılarına xristianlığı qəbul etdirmək üçün komissiyaların təşkili isə dövlətin heç bir etik normalara məhəl qoymadığını, onun bu sahədə bütün sədləri aşdığını göstərirdi.

Ümumiyyətlə baş komandanların fəaliyyətində din xadimlərinin, ruhanilərin Araz çayının o tərəfinə keçirilməsi xüsusi olaraq nəzərə çarpır. Ən yaxşı halda Azərbaycanda Rusiyaya sədaqətli dindarların yaşaması arzu olunurdu. Amma dinin güclü olduğu, xalqın demək olar ki, şəriət hökmlərindən kənara çıxmadığı bir dövrdə bu siyasətin həyta keçirilməsi müşkül məsələ idi. Belə ki, «kafirlərin» hakimiyyətinin qəbul edilməzliyini təbliğ edən ruhanilər, din xadimləri müstəmləkəçilik əleyhinə mübarizəyə kütləvilik gətirir, bir çox hallarda isə mübarizədə lider rolunu oynayırdılar. Rusiya isə öz növbəsində xalqın narazılığına və ciddi təzyiqlərə baxmayaraq ruhanilərin sıxışdırılmasını, əhalinin dindən uzaqlaşdırılması prosesini zor gücünə davam etdirirdi. İşğalçılara yaxşı məlum idi ki, bununla onlar Rusiyanın ağalığını asanlaşdırır və onun ömrünü uzatmağa nail olurdular.

Bu proseslərlə daha yaxından tanış olmaq üçün bəzi faktlara müraciət edək.

Rusların Gürcüstana gəlişilə vəzifələrini və səsvermə hüquqlarını itirən Tiflis azərbaycanlıları dəfələrlə şikayət etmələrinə baxmayaraq öz hüquqlarını bərpa etdirə bilməmişdilər. Əsas səbəb isə onların müsləman olmaları idi. Beləki, onların Gürcüstandan gəlmə hesab edən baş komandan Rtişşev bu hüquqların bərpası üçün dini birliyin əsas götürüldüyünü bildirirdi.[634] Deməli Gürcüstanda, eynilə də başqa vilayətlərdə yaşayan azərbaycanlılar özlərinə rəhbərlik etmək və səsvermədə iştirak etmək üçün ya dinlərini dəyişərək xristian olmalı, ya da birdəfəlik bu hüquqlarla vidalaşmalı idilər.

Təsadüfi deyil ki, zorla Gürcüstana birləşdirilmiş Qazax və Şəmşəddil sultanlıqlarında etiraz hərəkatının baş verməsində məhz bu amillər mühüm rol oynamışdır.

Dini və milli ayrı-seçkilik Qarabağ xanlığında daha qabarıq nəzərə çarpırdı. Elə vilayətdəki millətlərin sayında mövcud tarazlığın pozulması, müsəlman bəylərindən erməni kəndlərinin alınması, bütün yardımçı işlərdə ermənilərdən istifadə olunması və hər vəchlə ermənilərin nüfuzunun

[632] Potto V. Kavkazskaə voyna…, II cild, s.690.
[633] QAKA, VI cild, sənəd 1341.
[634] QAKA, V cild, sənəd 303.

yüksəldilməsi bu siyasətin məntiqi nəticəsi idi. Bu yönümdə baş komandan Yermolov, onun ən yaxın silahdaşı Mədətov və erməni keşişləri əlbir olaraq geniş fəaliyyət göstərirdilər. Məsələn, 1822-ci ildə Yermolovun məktubu ilə Tiflisdən Qarabağa gələn keşiş-arxierey Nerses buradakı erməniləri hesaba almaq arzusunda olduğunu bildirir. Lakin ona bu işi həyata keçirməyə imkan verməyən Mehdiqulu xan hiddətini gizlətməyərək yazırdı: «Əgər həqiqətən hökumət Qarabağ əhalisinin sayını bilmək istəyirsə, onda erməniləri tatarlardan ayırmaq nəyə gərəkdir, onlar hamısı bir ərazinin sakinləridir... Əgər hər il biri başqa yerdən gəlib Qarabağ ermənilərini saysa bu Qarabağın qayda-qanunlarına zidd olar».[635] Xanın hələ də hakimiyyətdə olduğu bir yerdə bu işin görülməsinin çətinliyini arxierey Nersesə anladan Velyaminov erməniləri rahat saymaq üçün bu işi qışa qədər təxirə salmağı məsləhət gördü.[636]

Əvvəla onu qeyd edək ki, Qarabağın qayda-qanunları çoxdan pozulmuşdu və bu Mehdiqulu xana da yaxşı bəlli idi. İkinci bir tərəfən görünür bu cür ayrı-seçkiliklər xanı o qədər təngə gətirmişdi ki, baş komandanın razılığı olmasına baxmayaraq, o bu işə icazə verməmişdi. Xanın bu hərəkəti rəğbətə layiqdir və çox təəssüf ki, davamlı deyil. Məsələnin başqa cəhəti isə ondan ibarətdir ki, artıq rus məmurlarında Mehdiqulu xanın tezliklə hakimiyyətdən uzaqlaşdırılacağına əminlik yaranmışdı.

Başqa bir misal isə xınzirəkli Məlik Zurabın yenidən islamı qəbul etməsi ilə bağlıdır. Müsəlmanları zorla xristanlaşdırmaq üçün müxtəlif vasitələrə əl atan çar məmurları əksinə xristanın islama dönməsini qəzəblə qarşılayır və belə adamlara ağır cəza verirdilər. Məlik Zurbın da islam dinini qəbul etməsindən bərk hiddətlənən Yermolov yazırdı: «Onu (Məlik Zurbı – V.U.) nəinki döymək, həm də malını almaq lazımdır. Üç uşağını isə qohumu Rostom bəy vasitəsilə anasına vermək və ondan iltizam almaq lazımdır ki, onları islama döndərməsin».[637]

Hüquqları xeyli məhdudlaşdırılan və özləri müxtəlif vasitələrlə sıxışdırılan müsəlman din xadimləri, ruhanilər xarici səfərlərdə də (əsasən ziyarətlər zamanı) təqiblərə məruz qaldılar. Şəkili Hacı Mir Niyaz əfəndinin Məkkə ziyarəti zamanı islam dinini təbliğ etməkdə ittiham edən Veliyaminov Mədətova göstərişində yazırdı: «Məkkəyə yola düşən ...Mir Niyaz əfəndi Ərzurumda Səlim xan və İrəvan sərdarı ilə görüşüb. O islam dininin şöhrətini yayır və ... rus qoşunlarına nifrət təbliğ edir. Əgər oralara gəlsə onu tutun».[638]

İslama və müsəlmanlara nifrəti tükənməyən Yermolov 1822-ci ildə Məkkəyə getməyi, yəni Həcc ziyarətini Qafqaz müsəlmanlarına qadağan etdi. Sonrakı illərdə isə Məkkəyə getmək üçün Tiflisə gedib baş komandandan icazə almaq lazım idi.[639] Yermolovun bu təklifinə razılıq verən, eyni zamanda bu qərarın ağır nəticələrlə səbəb olacağından qorxan çar I Aleksandr bu işə siyasi don geyindirməyi tapşırdı.[640]

Əlbəttə hər hansı səbəb və bəhanə ibadətin qarşısını almaq üçün kifayətsizdir. Min ildən çox maneəsiz Həcc ziyarəti yerinə yetirən müsəlmanlara islam dininin əsas şərtlərindən birinin qadağan edilməsi bütün Qafqazda nifrətə qarşılandı və əhalini son nəticədə cihada sövq etdi.

---

[635] QAKA, VI cild, sənəd 1288.
[636] Yenə orada, sənəd 1289.
[637] QAKA, VI cild, sənəd 1290.
[638] Yenə orada, sənəd 1056.
[639] Yenə orada, sənəd 1058.
[640] Yenə orada, sənəd 1060.

Öz hərbi qüvvələrinə arxayın olan və çar tərəfindən dəstəklənən Yermolov bu istiqamətdə daha «irəliyə» doğru getməyi qərara aldı. Belə ki, 1823-cü ildə onun göstərişi ilə Dərbənddəki mahal məscidi müqəddəs Georgi Pravoslav kilsəsinə çevrildi.[641] Elə həmin ildə Yermolov Qubada ruhani başçılarını yığaraq mollaların həddindən artıq artmasına mane olmağı tapşırdı.[642] Hətta mollaların dua etməsi üçün baş komandan tərəfindən mətnlər hazırlandı.

Dərbənd şəhərin tarixindən bəhs edən İ.Kozubskinin yazdığıqa görə guya Dərbənd məscidinin kilsəyə çevrilməsində 9 mahalın razılığı olmuşdur.[643] İnanmaq çox çətindir ki, müsəlman əhalisi ibadət etdikləri məscidin kilsəyə çevrilməsinə razılıq versin.

Artıq çarizmə qarşı müqəddəs müharibənin törənəcəyi qaçılmaz bir həqiqət idi. Bunun üçün kifayət qədər səbəblər var idi və geniş təbliğat öz işini görürdü. M.Pokrovski yazır ki, bu dövrdə «müsəlman ruhaniləri sərhəddin hər iki tərəfindən açıq-açığına kafirlərə qarşı müqəddəs müşaribə təbliğatı aparırdılar».[644] Bu işdə İran dindarları, eləcədə şahın özü görkəmli rol oynayırdı. Beləki, Fətəli şahın göstərişi ilə Qafqaz müsəlmanlarına «müsəlman dünyasının şərəfini qorumaq» şüarı ilə müraciət edən Şeyxülislam onları islam bayrağı altında birləşməyə çağırmışdı.[645] Nəhayət, 1824-cü ildə Dağıstanda Qazı molla «kafirlərə» qarşı müqəddəs müharibə-qəzavat elan etdi. Tezliklə qonşu ərazilərin də qoşulduğu bu müharibə bütün Qafqazı əhatə etdi. Yaşıl bayraq altında toplanan müsəlmanlar müridizm ideyasından istifadə edirdilər. Mənbələr isə bu ideyanın məhz Azərbaycandan yayıldığını təsdiq edir.

Yenə tarixi mənbələrə əsaslanan A.Fadeyev yazır ki, müridizm ideyasını Dağıstan və Çeçenistana Şirvandan Kürdəmir şeyxi Hacı İsmayıl vasitəsilə daxil olmuşdu. Onun əsaslandığı mənbədə bu hadisə belə açıqlanır: «Şirvanda yaşayan və rus rəhbərliyinin ciddi nəzarətində olan Hacı İsmayıl bəzilərində xristian hökumətinə qarşı dözülməzlik təbliğ edərək dağlılar arasında həyacan törətmək üçün vasitə axtarırdı. Kür xanlığındakı Yaraq kəndində yaşayan və Dağıstan üləmalarından biri olan molla Məhəmmədə diqqət yetirən Hacı İsmayıl onunla yaxınlaşır. Öz məqsədlərini 10 nəfərdən çox molla ilə Kürdəmirə gələn Molla Məhəmmədə çatdıran Hacı İsmayıl onu Dağıstana müridi elan edir».[646] Elə ruslara qarşı ilk silahlı çıxış da Dağıstan və Çeçenistanda üsyana başçılıq edən Məhəmməd Yaraqski və Beybulat Taymazovun adı ilə bağlıdır.

Göründüyü kimi ciddi nəzarətdə olmasına baxmayaraq Kürdəmir şeyxi Hacı İsmayıl təbliğatı dayandırmamış, onu qonşu vilayətlərə yaymış və bu məramın reallaşması yolunda görkəmli rol oynamışdır.

Çarizmin Azərbaycanda həyata keçirdiyi inzibati amirlik, iqtisadi zülm və mənəvi terror siyasəti nəhayət xalqın səbr kasasını daşdıraraq 1826-cı ildə Rusiyaya qarşı ümumi, kütləvi üsyanlara və ikinci rus-İran müharibəsinin başlanmasına səbəb oldu.

---

[641] Kozubskiy E.İ. Göst. əsəri. s. 169.
[642] Aleksey Petroviç Ermolov. Materialı dlə eqo bioqrafii sobrannıe M.Poqodinım, Moskva,1864, s.251.
[643] Kozubskiy E.İ. Göst. əsəri. s. 169.
[644] Pokrovskiy M.N. Göst. əsəri, s.188.
[645] QAKA, V cild, sənəd 368.
[646] MDHTA, F.HTA, sənəd 6550, var.2-21,–Bax: Fadeev A.V. Rossiə i vostoçnıy krizis 20-x qodov XIX veka, M., 1958,s.120

## IV. FƏSİL. 1826-1828-Cİ İLLƏRDƏ AZƏRBAYCAN XALQININ MÜSTƏMLƏKƏÇİLİK ƏLEYHİNƏ MÜBARİZƏSİ

### § 1. 1826-cı il üsyanları

Şəki, Şirvan və Qarabağda xanlıq sistemini ləğv edən ruslar Lənkəran xanlığı istisna olmaqla işğal etdikləri bütün ərazilərdə axırıncı dövlət qurumlarını ləğv edərək milli dövlətçiliyə son qoydular. Xanlıqlar sistemini komendant üsul-idarəsi əvəz etdi. Bəri başdan onu da qeyd edək ki, xanlıqların ləğv edilməsində Yermolovla yanaşı Mədətovun da «misilsiz» xidmətləri olmuşdur. Bunun üçün hətta tarixçi Potto Rusiyanı Mədətov qarşısında boclu hesab edir.[647]

Komendantlıq geriyə doğru bir addım olub müstəmləkəçilik siyasətinin dərininə inkişaf etdirilməsi zərurətindən irəli gəlirdi. Buşuyevin yazdığı kimi komendant idarəçiliyi hərbi işğal rejimindən az fərqlənirdi.[648] Ümumiyyətlə bu üsul-idarənin keçmiş xanlıqlar sistemi ilə müqayisəsindən və onun törətdiyi ağır nəticələrdən xeyli bəhs edildiyindən, xüsusilə görkəmli alimlər Hüseyn Minasazovun, İlya Petruşevskinin, Mixail Pokrovskinin, Mahmud İsmayılovun əsərlərində geniş şərh edildiyindən onun üzərində artıq dayanmağı lazım bilmir və bircə onu bildirir ki, bundan az sonra Azərbaycanda misli görünməmiş bir üsyan baş verdi. Üsyan ümumi xarakter daşıyırdı. Yəni Azərbaycanın bütün vilayətlərini əhatə edən bu üsyana əhalinin bütün təbəqələri qoşulmuşdu.

1826-cı ildə Azərbaycanda başlayan üsyan konkret olaraq rus dövlətinə qarşı çevrilmişdi. Rus ağalığı dövründə xalqın güzəranının xeyli pisləşməsinə baxmayaraq bu üsyan məhz siyasi-milli xarakter daşımışdır.

Xan və bəylərin bu mübarizədə avanqard rol oynaması bunu bir daha təsdiq edir. Bununla yanaşı iqtisadi sahədəki özbaşınalıqların getdikcə geniş miqyas alması da üsyanın baş qalxmasına təsir edən mühüm amillərdən olmuşdur.

İndi də üsyan ərəfəsində Azərbaycanla bağlı bəzi siyasi gəlişmələri nəzərdən keçirək.

Nəzərdə tutulan ərazilərin 80faizə qədərini ələ keçirən Rusiya başlıca diqqəti İranla yaxınlıq etməyə yönəltmişdi.

Bu yöndə İrana müxtəlif güzəştlər edilməsi də istisna edilmirdi. Bu əsasən İrəvan və Naxçıvan xanlıqlarının ələ keçirilməsi üçün bir hazırlıq idi. Abbas Mirzəni qanuni varis kimi tanımaq üçün rus missiyasının Tehran səfəri Tiflis bağlaşması ilə nəticələndi. 1825-ci il fevralın 18-də bağlanan həmin müqaviləyə görə Göyçə gölü Rusiyaya, Kəpənəkçayın sağ sahili, habelə Zod, Başkənd, Muğanın bir hissəsi İrana kçdi. Bunu inkişaf etdirməyə çalışan I Nikolay 1826-cı ilin yanvarında knyaz Menşikovu İrana göndərdi. Lakin İran tarixçisinin yazdığına görə Menşikov soyuq qarşılandı, çünki artıq hamı cahaddan danışırdı.[649] Doğurdan da bundan bir neçə ay sonra İran müctehidi Seyid Məhəmməd ruslara qarşı müqəddəs müharibə elan etdi.

---

[647] Potto V. Kavkazkaə voyna… II cild,s. 691.
[648] Buşuev S.K. İz istorii vneşnepolitiçeskix otnoşeniy v period prisodineniə Kavkaza v Rosii.Moskva,1955,s.216
[649] Tarixe montazeme nasiri, Tehran, 1241 – Bax: İqamberdıev M.A. Göst. əsəri, s.213.

Hələ 1825-ci ilin axırlarında «tatar» vilayətlərində sakitliyi qorumaq və qarşıdakı hərbi kompaniyaya başlamaq üçün Qafqaza Yermolovun tələbi ilə yeni piyada dviziyası göndərildi.[650] Ümumiyyətlə üsyandan qabaq çarizmin yalnız Azərbaycanda 35 minlik qoşunu, 90 artilleriya qurğusu var idi.[651] Demək olar oki, Azərbaycanın bütün məntəqələrində yerləşdirilən bu qoşunların növü, dəqiq yeri Pottonun tərtib etdiyi cədvəldə öz əksini tapmışdır. Bundan əlavə rus qoşunlarının tərkibində yerlilərdən təşkil olunmuş dəstələr, gürcü milisi də fəaliyyət göstərirdi. Göründüyü kimi rus qoşunlarının sayı ayrılıqda götürülmüş bəzi xanlıqların əhalisinin sayından çox idi. Rusiya ilə müharibə etmək üçün Azərbaycana hücuma hazırlaşan İran qoşunlarına gəldikdə isə onu deməliyik ki, dəqiq məlumata malik olmayan rus tarixçiləri onun sayını qəsdən artırmış və 1826-cı il üsyanı zamanı rusların bir çox məğlubiyyətlərini İran qoşunlarının adı ilə bağlamağa çalışmışlar (Şerbatov bu sayı 40, Esadze 50, Potto isə 60 minə çatdırır).[652] Əslində isə, İran qoşununda yüksək rütbə və vəzifə daşıyan Uğurlu xanın şəhadətinə görə, Qarabağa hücum edərkən Abbas Mirzənin sərəncamında cəmi 19500 nəfərlik qoşun və 24 top olmuşdur.[653] Həmin qoşunların da xeyli hissəsinin işğaldan sonra Azərbaycanı tərk edən şəxslərdən ibarət olduğu bizə məlumdur. Abbas Mirzənin hücümu ilə əlaqədar onu da deməliyik ki, o, Dağıstandan, Car vilayətlərindən və başqa əyalətlərdən çoxlu dəvət məktubları almış və Qarabağda olarkən hər əyalətin nümayəndəsini qəbul etmişdi.[654] Bütün bunlar Rusiyaya qarşı gündən-günə artan nifrətin təzahürü idi.

Burada bir məsələni də aydınlaşdırmaq yerinə düşər. Bəzən belə hesab edirlər ki, 1826-cı ildə Azərbaycanda baş verən üsyanlar İran qoşunun hücumu ilə bağlıdır. Düzdür, İran müctəhidinin qəzavat elan etməsi və şahzadə Abbas Mirzənin Azərbaycana hücumu əhali arasında döyüş əhval ruhiyyəsini xeyli yüsəltmiş və üsyanın kütləviləşməsinə səbəb olmuşdur. Amma xalqın narazılığının son həddə çatmasının nəticəsi olan üsyanlar həmin hücumdan xeyli qabaq başlamışdı. Dinin təsirinə gəldikdə bu bir həqiqətdir. Bu haqda araşdırma aparan Buşuyev yazırdı: «Çar hərbçilərinin Azərbaycandakı amansız hərbi-feodal idarə üsulu müsəlman dininin böyük təsiri altında olan xalqın haqlı narazılığına səbəb oldu».[655] Yermolov isə belə qənaətə gəlmişdi ki, müəlmanların ümumi üsyanı din xadimləri tərəfindən törədilib.[656] Həmin amillər, yeni İran, din və üsyan məsələsi vəhdət təşkil etdiyindən onları biri-birindən ayırmaq və qarşı-qarşıya qoymaq düzgün deyil.

Bu üsyanlarda bir təşkilatçı kimi keçmiş xanların rolu xüsusi qeyd olunmalıdır. Kənrda da olsalar onlar öz yaxın adamları ilə əlaqə saxlayır, vəziyyəti öyrənirdilər. Yerli əhali də xanın onlara çatan göstərişlərini həvəslə yerinə yetirirdi. Hətta Dubrovin qeyd edirdi ki, «xanlar bütün müsəlman əyalətlərini Rusiyaya qarşı qaldırmağa müvəffəq oldular».[657]

Hərbi tarixçilərin göstərdiyi kimi artıq iyunun axırı – iyulun əvvəllərində müsəlman əhali arasında həyəcanlar qeyd olunmağa başladı. Xalq bütün işləri dayandırıb silahlanma ilə məşğul idi.[658] Burada

---

[650] Umaneü S.M. Göst. əsəri, s.93.
[651] Potto V. Kavkazkaə voyna… II cild,s. 691.
[652] Knəz Şerbatov. Qeneral-Feldmarşal knəzğ Paskeviç. II cild SPb., 1890, s.64; Potto V. Kavkazskoy voynı..., s.70; Gsadze B.S. Göst əsəri, s.213.
[653] Əsir düşmüş Uğurlu xanın izahatı – Bax: Knəzğ Hebatov. Göst. əsəri, s.62.
[654] Yenə orada.
[655] Buşuev S.K. Göst. əsəri, s.175.
[656] Bax: Buşuev S.K. Göst. əsəri, s.175.
[657] Dubrovin N.F. Göst. əsəri, VI cild, s.626.
[658] Yenə orada, s.614.

tarixi ardıcıllığı pozub, birbaşa üsyanlara keçməyi lazım bilirik. Çünki İrəvan – Rusiya münasibətlərindən ayrıca paraqrafda danışılacaqdır.

Bəri başdan onu da qeyd edək ki, müsəlman əyalətləri ilə yanaşı Gürcüstanda da üsyana hazırlıq işləri gedirdi. Çar tarixçilərindən biri belə yazırdı: «Tiflis sakinləri iranlıları gözləyirdilər. Ruslara qarşı üsyanda iştirak edən gürcü mayor Çelokaev öz həmfikirlərinin tapşırığı ilə vəziyyəti öyrənmək üçün Tiflisə gəlmiş və hər yerdə üsyan əlamətləri ya da ona səbəb olan sakitlik hökm sürdüyünü görmüşdür». Potto da Tiflis daxil olmaqla Gürcüstanın özündə vəziyyətin çox gərin olduğunu qeyd edirdi.

İlk öncə üsyana Talış xanlığında başlanıldı. Gec-tez xanlıqdan uzaqlaşdırılacağını dərk edən və başda mayor İlyinski olmaqla rus qoşunlarının özbaşınalığı ilə barışa bilməyən Mir Həsən xan İrana çəkilməyə məcbur olur. Vaxt itirməyən İlyinski xanlığı təkbaşına idarə etməyə başalyır. Xoşbəxtlikdən öz amansızlığı ilə Sisyanov, Lisaneviç, Kimbut kimi qatı işğalçılarla müqayisə edilən bu mayorun hakimiyyəti uzun sürmədi. İyulun 3-də xanlığı tərk edən Mir Həsən xan iyulun 5-də çoxlu tərəfdarı ilə rus qoşunları üzərinə hücum edir. İlk hücumla Ərkivan, Qızılağac, Astara keşikçi məntəqələri ələ keçirilir. Xanlığın bütün əhalisi üsyan edərək xana qoşulur.[659] Şirvandan mayor Aşeberq ruslara kömək göndərir və Salyanda olan 300-ə yaxın rus balıqçısını silahlandırmağı Yermolovdan xahiş edir.[660] Lakin tezliklə Salyan də ələ keçirilir və orada olan ruslar Sara adasına üzməklə calarını qurtarırlar. Üç tərəfdən əlaqəsi, kəsilən komendant əsgər ailələrini və qiymətli əmlakı Sara adasına göndərir. Mühasirə halqasının getdikcə daralmasını görən ruslar ətraf meşələri qırıb, kazarmaları yandırıb Lənkəran qalasına çəkilərək, onu mühasirə vəziyyətinə gətirirlər.[661]

Lənkəranı mühasirə edənləri dağıtmaq üçün edilən cəhd boşa çıxır və ora göndərilmiş dəstənin başçısı öldürülür. Üsyanın getdikcə gücləndiyini görən İlyinski öz raportunda yazırdı: «Əsgərlər bir saat da sakitlik nə olduğunu bilmirlər. Çoxsaylı dəstələr hər tərəfdən hücum edirlər».[662]

Nəhayət, başda Mir Həsən xan olmaqla üsyan etmiş əhalinin hücumuna tab gətirməyən qala qarnizonu 6 günlük mühasirədən sonra Sara adasına qaçmağa məcbur oldu. Bütün xanlıq tamamilə işğalçılardan təmizləndi. Bu döyüşlərdə ruslardan 12 nəfər öldürüldü, 172 nəfər isə əsir düşdü.[663]

Lənkəranda da tarix səhifəsinə yeni bir vəhşilik həkk olunur: «Axıra qalan 20 nəfər bütün əmlaka neft töküb ətrafına barıt çəlləyi düzür və ona birləşdirilən fitilə od vuaraq gəmiyə minib qaladan uzaqlaşırlar. Çox keçmədən Lənkəran qalası havaya sovrulub».[664]

Lənkəran xanlığında üsyanın uğurlu gedişi digər xanlıqlara da öz müsbət siyasi təsirini göstərir.

Qarabağda bütün bəylər Mehdiqulu xanın məktubunu almışdılar. Burada da üsyan əhval-ruhiyyəsi hələ rus – İran müharibəsi başlamamış hökm sürürdü. Pottonun yazdığına görə artıq «tatarların» xəyanətinə heç bir şübhə yox idi. Belə ki, Şuşa divarları yanında bir neçə erməni, dəyirmanda isə yenidən 2 rus əsgərinin «tatarlar» tərəfindən öldürüldüyü aşkar edilmişdi.[665] Bu hadisələr baş verərkən İran qoşunları Şuşadan hələ aralıda idilər. Abbas Mirzə hücum edərkən isə üsyan hər yeri bürüdüyündən rus qoşunları heç yerdə dayana bilməyib Şuşaya çəkilməyə məcbur oldu. Qarabağdakı rus qoşunlarının

---

[659] Pokrovskiy M.N. Göst. əsəri, s.120.
[660] Dubrovin N.F. Göst. əsəri, s.615.
[661] Voennaə gnsiklopediə, XIV cild, s.578.
[662] Dubrovin N.F. Göst. əsəri, s.617.
[663] Voennaə ensiklopediə, XIV cild, s.578.
[664] Voennaə ensiklopediə, XIV cild.
[665] Potto V. Kavkazkaə voyna… II cild, s.70.

komandiri general Reut Yermolova raportunda yazırdı: «İranlıların qəfil hücumu nəticəsində biz Şuşa qalasına çəkildik. Ehtiyat ərzağımız isə yox idi, çünki əhali üsyan etdiyindən buna imkan tapa bilmədik».[666]

Reut xanlığındakı digər hərbi hissələrə də öz mövqeyini buraxıb Şuşada çəkilməyi əmr etdi. Amma artıq gec idi. Çünki üsyan etmiş əhali bütün yolları bağlamışdı. İyulun 20-də Gorusu tərk edən podpolkvnik Nazimkinin başçılıq etdiyi dəstə səhəri gün üsyançılar tərəfindən mühasirəyə alındı və 3 saat davam edən döyüşdən sonra tamamilə darmadağın edildi. Bu döyüşdə Qarabağ atlıları xüsusi fəallıq göstərirdilər.[667] Onlara kapitan Hacı Ağalar bəy başçılıq edirdi.[668] Gizettinin məlumatına görə həmin döyüşdə ruslardan 306 nəfər öldürülür 18-i zabit olmaqla 700 nəfər əsir düşür.[669] Yalnız 2 zabit və 6 əsgər Qaladərəsi kəndindəki ermənilərin yanında gizlənməyə macal tapır.[670] Xanlıqda Rusiyaya sadiq yeganə kənd, 42-ci yeger polku mənzil-qərargahının yerləşdiyi Mədətova məxsus Çanaxçının ələ keçirilməsindən sonra rusların Gorus yaxınlığında darmadağın edilməsi qarabağlıların ikinci böyük qələbəsi idi. Potto bu münasibətlə yazırdı: «1000 nəfərdən ibarət bir batalyonun məhv edilməsi Qafqazda görünməmiş bir hadisə idi».[671] Hətta bu məğlubiyyət imperatolrun özünü də həddən artıq kədərləndirmişdi.[672]

Qısa müddətdə əldə edilən bu qələbələr xalqın əhval-ruhiyyəsini xeyli yüksəltdi. Şuşa qalası istisna olmaqla bütün ərazi əlbir hərəkət edən xan tərəfdarlarının və İran qoşunlarının əlinə keçdi.

Artıq belə hesab olunurdu ki, rusların Şuşada çox davam gətirəcəyi mümkün olmayacaq. Birincisi ona görə ki, onların yerli müsəlmanlar arasında güvənəcəyi heç kəs yox idi. Əgər əvvəllər ruslara qarşı hər hansı narazılıq xan atlıları tərəfindən yatırılırdısa, indi artıq o qüvvələr yox idi və ya onlar çoxdan ruslardan üz döndərmişdilər. İkincisi, ərzaq problemi ilə əlaqədar idi. Pokrovskinin yazdığına görə, qaladakı rus qoşunlarının acından təslim olması labüd idi.[673] Rusların vəziyyətinin ağırlığını Reutin Yermolova raportu da aydın göstərir. O yazırdı: «...Artıq 12 gündür ki, hücuma məruz qalmışam, sizdən heç bir məlumat yoxdur. Xalq bizə qarşı öz mollaları ilə çox amansızdır, onlar hücum tələb edirlər, hər şey hazırdır, nərdivanlar da düzəldilib. Əgər mümkünsə kömək edin».[674] Yermolov isə Şuşanın müdafiə olunmasını tələb edirdi: «Yalnız Şuşanı müdafiə etməklə səhvinizi düzəldə bilərsiniz... bəylərin bütün taxılını əllərindən alın, qoy satqınlar acından ölsünlər. Yaxşı xidmətləri müqabilində ermənilərlə yaxşı davranın».[675]

Yermolovun əmrindən sonra qalanın təslimindən söhbət gedə bilməzdi. Çağırılan hərbi şura qalaya gedən bütün yolları dağıtmağı, nüfuzlu bəyləri həbs etməyi, bütün müsəlmanları tərksilah etməyi, eyni zamanda bütün erməniləri silahlandırmağı qərar alır.[676] Vuruşmaqla yanaşı qoşunların ərzaqla təmin edilməsini, bələdçiliyi, casusluğu öz üzərlərinə götürən ermənilərin Şuşanın

---

[666] Dubrovin N.F. Göst. əsəri, V cild, s.623.
[667] Potto V. Kavkazkaə voyna…, s.73.
[668] HTA, gizli iş №5850 a) vərəq.146-152 – Bax: Şerbatov. Göst. əsəri, II cild, əlavələr, s.45.
[669] Qizetti A.P. Göst. əsəri, s.74.
[670] Potto V. Kavkazkaə voyna…, s.74.
[671] Yenə orada, s.75.
[672] Dubrovin N.F. İstoriə voynı..., VI cild, s.624.
[673] Pokrovskiy M.N. Göst. əsəri, s.190.
[674] Şerbatov. Göst. əsəri, II cild, s.94-96.
[675] Potto V. Kavkazkaə voyna…, III cild, s.86.
[676] Dubrovin N.F. İstoriə voynı..., VI cild, s.634-635.

qorunmasında xidməti əvəzsizdir. Məsələn: Mühasirədəkilərlə danışıq aparmaq üçün Qalaya gələn Abbas Mirzənin şəxsi nümayəndəsi erməni Sergey Aleksandrovun sayəsində Reut xeyli un çəkdirməyə nail olmuşdu.[677] Altunyan adlı birisi isə uzun zaman mühasirədə olan Şuşadan Yermolova xəbər çatdırmağa nail olmuşdu. O bildirmişdi ki, Şuşada nəinki yerli, eləcə də Pəmbək və Loridən olan könüllü ermənilər də vuruşurdular.[678] Ümumiyyətlə Şuşa qarnizonu 6 rota, 4 səhra topundan və onlara birləşmiş 1500 silahlı ermənidən ibarət idi.[679]

Pottonun yazdığına görə şahzadənin 48 gün Şuşa ətrafında gözləməsi onun tərəfindən böyük səhv olmuşdur. Belə ki, o əlverişli məqamda qoşunları Gürcüstana yeridib bütün Cənubi Qafqaza ağır zərbə vura bilərdi.[680] Doğrudan da yalnız sentyabrın 5-də mühasirədən əl çəkib Gəncəyə hərəkət etməklə Abas Mirzə üsyançıların zərbəsilə Gürcüstana çəkilən ruslara özlərinə gəlməyə xeyli vaxt qazandırmışdı.

İyulda başlayan üsyan getdikcə Şirvan, Şəki, Gəncə xanlıqlarını və başqa yerləri bürüdü. Mustafa xan Şirvana, Səlim xanın oğlu Hüseyn xan Nuxaya, Uğurla xan Gəncəyə, Hüseynqulu xan Bakıya, Şeyxəli xanın oğlu Şahəli xan Qubaya daxil oldu. Ruslar elə bir müqavimət göstərə bilmədilər.

Öz qoşunlarını Şirvana yeridən Mustafa xan bütün ətrafları nəzarəti altına aldı. Xanlıqdakı bütün keşikçi məntəqələri məhv edildi və ya Şamaxı qarnizonuna biləşdirildi.[681] Bütün əhali xana qoşuldu. Ağır vəziyyətə düşən rusların kömək üçün müraciətinə cavab olaraq general-mayor Krabbe 3 rota ilə Qubadan Şirvana hərəkət etdi. 23 iyulda köhnə Şamaxıya gələn Krabbe bütün əhalini üsyan etmiş gördü və onları sakitləşdirmək üçün göstərdiyi bütün cəhdlər boşa çıxdı.[682]

25 iyulda Axsu Mustafa xan tərəfindən tutuldu. Bu vaxt şahzadənin qardaşı öz qoşunu ilə Şirvana gəldi.[683] Bütün əhalinin Mustafa xana qoşulması bir faktdır və bu haqda yazan bütün tarixçilər bunu təsdiq edirlər. Elə bunu Krabbenin aşağıdakı raportu da təsdiq edir: «Nə mühüm mükafatların, nə pulun, ümumiyyətlə heç nəyin xeyri yoxdur. Aydın idi ki, əyalət üsyana qabaqcadan hazırlaşıb. Hətta kmandant bir adam təqdim edə bilmədi ki, ona etibar edəsən».[684] Lakin Krabbenin özü də Şirvanda çox tab gətirə bilmədi. Mühasirəyə düşmək qorxusu, Qubada başlanan üsyanlar, eləcə də ərzaq qıtlığı onu Şirvanı tərk etməyə məcbur etdi. Yeri gəlmişkən, əhalinin müqaviməti nəticəsində rusların ərzaq təminatı xeyli pisləşmiş və onlar çoxdan idi ki, yarım payla kifayətlənirdilər. Üsyan zamanı isə ruslara un verməkdən və onu bazara çıxarmaqdan imtina edən əhali Şirvandakı bütün dəyirmanları xarab etmişdi.[685] Krabbenin bildirdiyinə görə Quba və Dərbənddə də belə böhranlı vəziyyət yarandığından çoxdan idi ki, unu Həştərxandan gəmi ilə gətirirdilər.[686]

Krabbe ilə yanaşı mayor Aşeberq də yollar «təhlükəli» olduğundan demək olar ki, btün əmlakı ataraq öz dəstəsi ilə Şirvanı tərk etdi. Beləliklə Şirvan xanlığı da tamamilə işğalçılardan təmizləndi.

Şəkidə üsyan başlayan kmi orada olan 2 rus rotası heç bir atəş açadan Tiflis istiqamətində geri çəkilməyə başladı. Hüseyn xan öz tərəfdarları ilə Şəkiyə daxil olub xan oldu. Yeni xanın İlisuya

---

[677] Şerbatov. Göst. əsəri, II cild, s.112.
[678] Fadeev A.V. Göst. əsəri, s.151.
[679] Kn.Herbatov. Göst. əsəri, II cild, s.111.
[680] Potto V. Kavkazkaə voyna…, III cild, s.92.
[681] Valiev P.N. Prisoedinenie Azerbaydjana k Rossii – TİEA, fond 1227, s.73.
[682] Dubrovin N.F. İstoriə voynı..., s.626.
[683] Potto V. Kavkazkaə voyna…, III cild, s.109.
[684] Dubrovin N.F. İstoriə voynı..., IV cild, s.627.
[685] Dubrovin N.F. İstoriə voynı..., s.628.
[686] Yenə orada, s.658.

hərəkəti orada üsyana səbəb oldu və əhali Rusiyanın xidmətçisi Əhməd xanı sultan ailəsndən olan Balaağa bəylə əvəz etdi.[687] Hərəkat Carı, Muxaxı, Talı, Cinixi əhatə etdi. Deputat qrupu Hüseyn xanı Cara dəvət etdi.[688]

Avqustun 21-də əvvəlki mövqelərinə qayıdan Krabba əhalinin xeyli hissəsini üsyana qaldıran Şahəli xanın təzyiqi ilə Qubaya sıxışdırıldı. İran qoşunlarının gəlməsilə rus qoşunları Quba şəhərini tutmaq cəhdləri bir nəticə vermədi. Bununla belə rus qoşunlarının ətraf aləmlə bütün əlaqəsi kəsildi. Cənubi Dağıstan da rus qoşunlarından təmizləndi.[689] Surxay xan öz oğulları və tərəfdarları ilə Dağıstana daxil oldu.

26 iyulda Quba istiqamətindən Bakıya hücum edən Hüseynqulu xanın qoşunları (bəzi mənbələrdə 3 min nəfər, bəzilərində 5 min nəfər) rusları qalaya çəkilməyə məcbur etdi. Şəhərə gedən bütün quru yollar nəzarətə götürüldü. Bakı şəhərinin komendatı baron Rozen (qocalar və Kazım bəyin ailəsi istisna olmaqla) bütün «tatar» əhalisini qaladan köçürtdü.[690] Oradan olan ermənilər silahlandırıldı. 500 nəfər yaşlı təcrübəli əsgərdən və 40 topdan ibarət qala qarnizonu vəziyyətin ağırlığı ilə əlaqədar şəhərə yeridilən 2 dəniz rotası ilə gücləndirildi. Bütün xanlığı ələ keçirən Hüseynqulu xanın şəhər üzərinə ilk ciddi həmləsi bir nəticə vermədi. 4 saat çəkən atışmadan sonra xan əvvəlki mövqeyinə çəkildi. Mühasirənin bir aydan artıq davam etdirilməsinə baxmayaraq möhkəm qala divarlarına və xeyli topa malik olan Bakı qalasını almaq Hüseynqulu xanın qoşunlarına nəsib olmadı. Onu da qeyd edək ki, ruslar Sara adası və Həştərxanla daim əlaqə saxlayırdılar.

Rus qoşunlarının şəhəri tərk edəcəyini eşidən gəncəlilər iyulun 27-də üsyan etdilər. M.Pokrovskiyə görə elə «inqilabın həqiqi teatrı» da burada oldu.[691] Bu üsyanlarla, xüsusilə də Gəncə üsyanı ilə bağlı Hüseyn Minasazovun 1930-cu ildə çap etdirdiyi «Bir inqilabın yüz illiyi» adlı tədqiqat əsəri də xüsusi əhəmiyyətə malikdir.[692] O, Gəncə üsyanını dərindən təhlil edərək onu hərtərəfli şərh etmiş və obyektiv qiymət vermişdir. O Gəncə üsyanı, onun öz dili ilə desək «Gəncə inqilabı» haqqında xalqda doğru-düzgün təsəvvür yaranmasında böyük rolu olan bu əsər bizim də işimizi xeyli yüngülləşdirir.

Üsyan etmiş əhali ilk növbədə məhbusları azad etməyə başladı. Mane olmağa çalışan nəzarətçilərlə əlbəyaxa döyüşlərdə 7 rus əsgəri öldürüldü, qalanları əsir götürüldü. Üsyan bütün Gəncəni bürüdüyündən qaladakı rus qoşunlarının başçısı Simonov Yermolovun göstərişilə Şəmşəddildə dayanan 2 rotanı da geri çağırdı. Yermolova görə artıq «Şəmşəddil distansiyasının əhalisi də iranlılara satılmışdı».[693]

Üsyanın qızğın vaxtı şəhərə yaxınlaşan Şitinkovun başçılıq etdiyi həmin dəstə üsyan xəbərini eşidib poruçik Qabayevi 12 kazakla şəhərə göndərdi. Ermənilərin geri qayıtmaq haqda məsləhətlərini qulaq ardına vuran Qabayev şəhərə girən kimi öz dəstəsilə həbs edildi. Qabayevdən bir xəbər çıxmadığını görən rus qoşunu şəhərə irəliləməyi qərara aldılar. Lakin gəncəlilər bunun qarşısını aldılar. Üsyan rəhbərləri onlardan silahları təhvil verməli şəhəri tərk etməyi tələb etdikdə ruslar güclü atəşlə

---

687 Petruşevskiy İ. Göst. əsəri, s.97.
688 Yenə orada.
689 Dubrovin N.F. İstoriə voynı..., VI cild, s.659.
690 Potto V. Kavkazkaə voyna…, III cild, s.109.
691 Pokrovskiy M.N. Göst. əsəri.
692 Minasazov Q. Sto let odnoy revalöüii. Bakı, 1930.
693 Poqodin M. A.P.Ermolov, s.344.

özlərinə yol açmağa başladılar. Lakin onların özü daha güclü atəşə məruz qaldılar. Burada da 30 nəfərə yaxın itki verən rus qoşun hissələri şəhərin küçələrində dolanmağa başladılar. Lakin ermənilər tərəfindən azad edilən və şəhərə yaxşı bələd olan Qabayev (o, Gəncə ermənisi idi – V.U.) onları Tiflis yoluna çıxara bildi. Onu da qeyd edək ki, şəhərin erməni sakinləri üsyan zamanı ruslara sadiq qaldılar.[694] Bu da rus qoşunlarının şəhəri tərk etməsinə kömək etdi və gələcəkdə şəhəri ruslardan qorumaq üçün görülən tədbirlərə ciddi əngəl törətdi. Amma üsyandan qabaq erməni əsilzadələri də öz nümayəndələrini Abbas Mirzənin yanına göndərərək onu Gəncəyə dəvət etmişdilər.[695]

Beləliklə Gəncə işğalçılardan təmizləndi cana doymuş əhali demək olar ki, bir an içərisində rus hakimiyyətini devirdi. Yermolova görə «qəfil qiyam hətta oradakı sənədləri çıxarmağa imkan vermədi».[696] Bu da üsyanın kütləviliyini və mütəşəkkilliyini sübut edir. Qafqazda rus hərbiçilərinin itkilərini qeydə alan Gizettinin məlumatına görə Gəncə üsyanı zamanı ruslar 15-i zabit olmaqla 300-dən artıq itki verdilər.[697]

İyulun 28-də Abbas Mirzənin oğlu Mirzə Məhəmməd xan və yeznəsi Əmir xanı Gəncəyə daxil olan Uğurlu xan yrli xan hakimiyyətini bərpa etdi. Müasirlərin yazdığına görə hər yerdə təmtəraqla qarşılanan Uğurlu xana qanunı hakim kimi baxırdılar.[698]

Gəncədə üsyan xəbərini eşidən şəmşəddillilər üsyan etdilər. Üsyançılar müşayiətçi dəstəni məhv edib pristavı əsir aldılar.[699] Gəncəyə qarnizon qoyan Uğurlu xan öz qoşunlarını Şəmşəddilə yeritdi. Dubrovinin yazdığına görə «düşmənin» 2000 silahlı sakini onlarla birləşdi.[700] Sonra üsyan Gürcüstana ilhaq edilmiş Borçalını əhatə etdi. Şəmşəddil kimi Borçalı da özünü açıqcasına Rusiyadan ayrılmış hesab etdi.[701] Yalnız Akstavaçayda çoxlu rus qoşunlarının yerləşdirilməsi qazaxlıları ümumi üsyandan təcrid etdi. Buna baxmayaraq onlar da müqavimət göstərir, tətil edirdilər. Hətta Qazax pristavı Sijevski bəzi ermənilərin köməyilə güclə xilas ola bildi.[702] Akstafaçayda dayanan qoşunlara gəldikdə onu deyək ki, Mədətovun başçılıq etdiyi 9 batalyon, 14 top və kazak alaylarından ibarət bu dəstənin əsas məqsədi elə qonşu distansiyaların əhalisini üsyandan yayındırmaq və üsyan etmiş «Yelizavetpol tatarlarının Gürcüstana soxulmasının qarşısını almaq idi».[703]

Beləliklə Gürcüstanla müsəlman əyalətləri arasındakı bütün əlaqə kəsildi.[704] Üç qala–şəhər (Şuşa, Quba və Bakı) istisna olmaqla bütün Azərbaycan işğalçı qoşunlardan təmizləndi. Xanlıqlarda bərpa işləri həyata keçirilməyə başlandı.

### § 2. Yenidən işğal və onun nəticələri

[694] Bax: Fadeev A.V. Göst. əsəri, s.154.
[695] Potto V. Kavkazskaə voyna..., s.97.
[696] QAKA, VII cild, sənəd 1360.
[697] Qizetti A.P. Göst. əsəri, s.143.
[698] Potto V. Kavkazskaə voyna..., s.98.
[699] Potto V. Kavkazskaə voyna..., s.129.
[700] Dubrovin N.F. İstoriə voynı..., VI cild, s.656.
[701] Minasazov Q. Göst. əsəri, s.9
[702] Potto V. Kavkazskaə voyna..., III cild, s.52.
[703] Dubrovin N.F. Göst. əsəri, s.656-657; İstoriə voynı..., VI cild, s.656-657.
[704] Poqodin M. Göst. əsəri, s.374.

Rusların Azərbaycanı belə asanlıqla əldən verəcəyini düşünmək düzgün olmazdı. Bunu çar I Nikolayın sözləri də bir daha təsdiq edir: «Vacib işlərin ən vacibi şərq məsələsidir. Mən bu məsələyə son qoymalıyam».[705]

Revanş götürməyə hazırlaşan rus qoşunları Tiflisdə kiçik qarnizon qoyaraq demək olar bütün hərbi hissələri Azərbaycanla sərhəddə cəmləşdirdi. Kazak alayları ilə yanaşı gürcü milisi, osetin atıcıları, erməni könüllüləri rus qoşunlrını müşaiyət edirdi. Əsas zərbənin Gəncə-Qarabağ, Şirvan-Şəki, İrəvan-Naxçıvan istiqamətindən endirilməsi planlaşdırılırdı. Həmçinin Qubadan Krabbenin Şirvana hərəkəti, xüsusi dəstələrin Çar-Balakənə yeridilməsi, habelə dənizdən Lənkərana həmlə edilməsi nəzərdə tutulurdu. Yermolovun hazırladığı və çar tərəfindən bəyənilən plana əsasən ilk növbədə üsyan etmiş xanlıqlar susdurulmalı, sonra isə İrəvna yürüş təşkil edilməli idi. Nəticədə həm Qarabağ, həm də İrəvan istiqamətindən Arazı keçib Təbriz və Tehrana endirilən zərbə İranı sülh bağlamaqğa məcbur etməli idi.

1826-cı ilin avqust ayında xanların gördüyü işlər haqda ətraflı məlumat yoxdur. Görünür asan əldə edilən qələbə və İran qoşunlarının Azərbaycanda olması onları xeyli arxayınlaşdırmışdı. Əgər belə olmasaydı bütün qüvvələr birləşdirilərək düşməni əzməyə, yaxud gözlənilən hücumdan müdafiə olunmağa yönəldilərdi. Bunun üçün hər cəhətdən ən əlverişli imkan var idi. Bundan əlavə həm xan və həm də İran qoşunlarında, eləcə də üsyan etmiş əhalidə (ümumən birləşmiş qoşunlar) rus qoşunları haqqında kifayət qədər məlumat olmadığından onlar lazımınca qiymətləndirilmir, hələ də imperiyanın niyyəti dəqiqliklə anlaşılmırdı. Bütün bunların və digər məlum olmayan səhvlərin nəticəsidir ki, birləşmiş qoşunlar sentyabr ayında bir-birinin ardınca ağır məğlubiyyətlərə düçar oldu. Ruslar isə bütün vilayətlərdə yaşayan ermənilər vasitəsilə xeyli məlumat toplamış və hətta birləşmiş qoşunların qüvvəsinə daha yaxından bələd olmaq üçün avqustun ortaları Tovuz istiqamətində kəşfiyyat xarakterli yürüş də təşkil etmişdilər.[706] Ciddi müqavimətin olmaması rusların ümumi hücumunun sürətləndirilməsinə səbəb olmuşdu.

Sentyabrın 3-də yenə də Mədətovun başçılıq etdiyi 3-dən çox batalyon, 12 top, 12 kazak alayı və 500 gürcü milisindən ibarət dəstə[707] Gəncə istiqamətində hərəkətə başladı. Bəlkə də həmin gün birləşmiş qoşunlar üçün ən ağır gün oldu. Şamxor yaxınlığında baş verən döyüş qoşunlarımızın ağır məğlubiyyəti ilə bitdi. İtkilərin sayı 1500-dən çox idi. Rus qoşunlarının birləşməsinin qarşısını almaq və onların hücumuna mane olmaq üçün İrəvan sərdarının Şəmşəddil və Gümrü istiqamətindəki yürüşü də döyüşlərin gedişinə elə ciddi təsir etmədi. Dubrovinə görə, «bu qələbə həm iranlılara, həm də üsyan etmiş müsəlman əhalisinə öz təsirini göstərməli idi».[708] Doğrudan da bu məğlubiyyətdən sonra birləşmiş qoşunlar bir daha özlərinə gələ bilmədilər. Sentyabrın 4-də Gəncə yenidən işğal edildi.

Birləşmiş qoşunların ikinci ağır məğlubiyyəti sentyabrın 13-də baş verdi. Sentyabrın 10-da Gəncəyə gələn Paskeviç bütün qoşunlara komandanlığı qəbul etdi. Onun sərəncamında 10391 nəfər (7 batalyon, 1 draqun və 2 kazak alayı, 300 gürcü atlısı) və 24 top var idi.[709] Gəncə yaxınlığında baş verən həmin döyüş haqda Mirzə Adıgözəl bəy belə yazır: «Səhər vaxtı Şeyx Nizami türbəsi yaxıqlığında

[705] Bax: Fadeev A.. Göst. əsəri, s.199.
[706] Azərb. MDTA, fond 130, siyahı 1, sax. vah. 10, vər.4-5.
[707] Dubrovin N.F. İstoriə voynı..., VI cild, s.666.
[708] Yenə orada.
[709] Yenə orada, s.668.

Paskeviçin qoşunu ilə qızılbaşlar üz-üzə gəldi. Sultani bir müharibə oldu. Bir saatdan sonra qızılbaşlar məğlub oldular».[710] Birləşmiş qoşunlar xeyli ləvazimatla yanaşı 2000 nəfərdən çox itki verdilər. Adıgözəl bəyin qeyd etdiyi sultani müharibədən danışmağa dəyməz. Çünki rusların itkisi çox az idi. Bu döyüşə görə Mədətov general – leytenant rütbəsi aldı. Burada da erməni xisləti özünü göstərdi. Döyüşdən qabaq Paskeviçin düşərgəsinə gələn 2 erməni İran qoşunlarının hücuma hazırlığı barədə məlumat verdi. Beləliklə, lazımi göstərişlər verən Paskeviç, onları qabaqladı.[711] Bu da döyüşün taleyini həll etdi. Pottonun yazdığına görə döyüşdən qabaq «tatar atlıları qoşunlar qarşısında igidliklər göstərir, ətraf kəndlərin silahlı sakinləri isə yüksəkliklərdə mövqe tuturdular.[712] Döyüşdən az sonra Uğurlu xan Kürəkçay sahilində ermənilər tərəfindən soyularaq əsir alındı. Yenə həmin müəllifin yazdığına görə «Yelizavetpol qələbəsi Peterburqda təntənəli şəkildə bayram edildi».[713] Bu da Rusiyanın yeni işğala münasibətini açıqlayır.

«Yelizavetpol» qələbəsindən sonra sentyabrın 16-da Rusiya İrana müharibə elan etdi. Əslində isə müharibə Azərbaycan elan edilmişdi. Çünki, rusların dediyi kimi hələ Arazı keçmək planları yox idi və zərbələr Azərbaycan xanlıqlarına endirilməli idi. Bunu çar I Nikolayın Yermolova göndərdiyi reskript də təsdiq edir. Orada deyilirdi: «Arazı keçməzdən qabaq öz vilayətlərimizi təmizləyin... İrəvanı tutmaq şansını da qaçırmayın».[714]

Rusiya bu müharibəyə hərtərəfli hazırlaşmışdı. Hökumətin yeni ərazi işğalı üçün ayırdığı vəsait çoxaldılmış, ordu hissələri yeni gətirilən alaylar və hərbi sursat hesabına xeyli gücləndirilmişdi. Hər biri 10 min nəfərdən çox olan 3 qoşun hissəsi komplektləşdirilmişdi. Qərb istiqamətində hərəkət edəcək general-mayor Davıdovun əsas hədəfi İrəvan xanlığı, cənuba doğru yürüş edəcək Paskeviçin nişangahı Qarabağ xanlığı, Şərqə tərəf yollanacaq Yermolovun ümdə hədəf nöqtəsi isə Şəki və Şirvan xanlıqları idi.

Çoxsaylı rus qoşunlarının silahlarının üstünlüyünü nümayiş etdirən Şamxor və Gəncə döyüşləri birləşmiş qoşunların, eləcə də bütün azadlıqsevər xalqın mübariz əhval-ruhiyyəsinə sarsıdıcı zərbə endirdi. Öz xilasları barədə düşünən qoşunlar sürətlə cənuba doğru çəkilməkdə idilər. Həmin məğlubiyyətlərdən dəhşətə gələn əhali də rusların gəlişini gözləmədən Arazın o tayına keçməyə tələsirdi.

Cənub istiqamətində irəliləyən rus hərbi qüvvələri sentyabrın 18-də Qarabağa soxularaq Şuşanın mühasirəsinə son qoydular. Şuşanın İranla əlaqəsini kəsən Paskeviç qoşunların bir hissəsi sərhəd məntəqələrinə, digər hissəsini isə Şuşa qalasına göndərdi. Yenidən Şuşada ağalığı ələ keçirən Mədətov əlverişli məqamdan istifadə edib sərhəddə yaşayan erməniləri Ağoğlana köçürtdü.[715] Qısa müddətdə xanlığı əsasən elə keçirən Paskeviç Şirvana hücum etmək haqda göstəriş aldı. Lakin tezliklə Mustafa xanın Şirvanı tərk edərək Muğan düzünə çəkildiyi məlum oldu. Qubada təşkil edilən xüsusi dəstə (1881

---

[710] Mirzə Aıgözəl bəy. Göst. əsəri, s.83.
[711] Şerbatov. Göst. əsəri, s.67.
[712] Potto V. Kavkazskaə voyna..., III cild, s.159.
[713] Poqodin M. Göst. əsəri, s.365.
[714] Potto V. Kavkazskaə voyna..., III cild, s.173.
[715] Potto V. Kavkazskaə voyna..., III cild, s.221.

nəfər) oktyabrın 7-də Köhnə Şamaxını tutdu və xanı təqib etmək üçün Cavada yollandı. Həmin dəstənin başçısı Mişenko Şirvanda əhalinin tamam dağıldığını bildirirdi.[716]

Sentyabrın 12-də Qazax-Şəmşəddil istiqamətində hərəkət edən Yermolov orada «sakitliyi» bərpa edib Tiflisə qayıtdı və oktyabrın ortalarında Şəkiyə yollandı. Alazan çayını keçən Yermolov oktyabrın 19-da Nuxanı tutdu. Dubrovinin qeyd etdiyinə görə bu vaxt xan və bəylər artıq Nuxanı tərk etmişdilər.[717] Qeyd edək ki, rusların hərəkəti ilə əlaqədar üsyançılar Quba xanlığını da tərk etmişdilər. Şəki, Şirvan və Quba xanlıqlarında qoşun qoyan Yermolov noyabrın əvvəllərində Bakıya yollandı. Yolların kəsiləcəyindən qorxan Hüseynqulu xan hələ oktyabrda Bakı xanlığını tərk edib Muğan düzünə gəlmişdi. Noyabrın ortalarında Yemolov Bakıya daxil oldu. Əhalinin köçməsinin qarşısını almağa çalışan Paskeviç oktyabrın 24-də Xudafərin körpüsünü tutdu. Ciddi müqavimətlə rastlaşmayan Paskeviç əlverişli məqamdan istifadə edib Araz çayını keçdi və Abbas Mirzəni Ərdəbilə çəkilməyə məcbur etdi. Lakin Yermolovun göstərişi ilə geri qayıtmalı oldu.

Yermolovla Paskeviç arasında əvvəldən başlanan ixtilaflar Arazı keçmək məsələsində daha da ciddiləşirdi. Hər ikisi imperatorun reskriptini əsas tuturdu. İmperatorun sevimlisi general-adyutant Paskeviç birbaşa Təbrizə zərbə endirməklə İranı sülh bağlamağa məcbur etməyi tələb edir, baş komandan isə Arazı keçməkdə tələsməməyi, xanlıqları susdurmağı vacib hesab edirdi. Yermolovla arasında olan ixtilaflara birdəfəlik son qoymaq üçün Paskeviç Qarabağdakı qoşunları Mədətova tapşırıb Tiflisə yollandı. Lakin bu vaxt Yermolov hərəkətdə idi.

Üsyanın əvvəlində əsasən gözləmə mövqeyi tutan Car-Balakən icması xeyli qoşun toplayıb Kaxetiydakı rus düşərgəsinə hücum etməyi qərara aldı. Aleksandr Mirzə də öz adamları ilə onların arasında idi. Lakin mənbənin məlumatına görə Şəki xanlığının göndərdiyi iki nəfərin məsləhəti ilə dağılışdılar.[718] Bundan istifadə edən Yermolov Kaxetiyadakı qoşunlaın başçısı Eristova Cara girməyi əmr etdi.[719]

Noyabrın 29-da kn Eristov 5 alayla Cara soxuldu. Zaqatalaya toplanan carlılar müdafiə olunmağı qərara aldılar. Vəziyyətin ciddiliyini nəzərə alan və dekabrın əvvəlində Bakıdan Şəkiyə gələn Yermolov Cara hərəkət edərək dekabrın 12-də Car yaxınlığında Eristovı birləşdi. Hər yerdən əlaqəsi kəsilən dağlılar təslim olmağa məcbur oldu. Onu da qeyd edək ki, Eristovun dəstəsini də qəbul edən Yermolovun sərəncamında bu yürüşdə 10 min nəfərlik qoşun var idi.[720] 20-ci diviziyanın əsas hissələrini Carda yerləşdirmək üçün Yermolov Gürcüstandan gələn 1000 baltaçıya Car ətrafındakı meşə və bağları qırmağı əmr etdi.[721] Pottonun yazdığına görə ruslar meyvə bağları ilə yanaşı evləri də məhv edirdilər.[722] Təəssüf ki, çox gec başlayan bu hərəkat lazımi nəticəni vermədi.

Yalnız Talış xanlığında hakimiyyət xan qoşunlarının əlində idi. Lənkəranın güclü şəkildə top atəşinə tutulması və xanın öz ailəsini buradan çıxarmasına baxmayaraq xanlığın tərk edilməsi əhval-

---

[716] Dubrovin N. İstoriə voynı..., VI cild, s.689.
[717] Potto V. Kavkazskaə voyna..., III cild, s.221.
[718] QAKA VI cild, sənəd 1183.
[719] Yenə orada, sənəd 1184.
[720] Şerbatov. Göst. əsəri, s.153.
[721] QAKA, VI cild, sənəd 1186.
[722] Potto V. Kavkazskaə voyna..., s.239.

ruhiyyəsi yox idi. Əksinə Mirhəsən xan dağ və meşəlik yerdə istehkam tikib Kür sahilinə hücum etməyi planlaşdırırdı.[723]

1826-cı ilin sonuna yaxın Azərbaycanın şimal xanlıqları yenidən işğal olundu. Düzdür, bəzi yerlərdə müqavimət hələ davam etməkdə idi. Məsələn, Pottonun yazdığına görə Samurdan Dərbəndə kimi iğtişaşlar davam edirdi. Quba vilayətində fəaliyyət göstərən xırda dəstələr tez-tez rus qoşun hissələrinə basqınlar edildilər.[724] Qarabağda da qoşunlar yalnız zahiri sakitliyi təmin edirdilər. Xanın bəyanatı isə bəylərdə qiyam ruhunu saxlayırdı.[725] Lakin bunların təsir qüvəsi çox az idi. Daha da azğınlaşan rus hərbçiləri xanlıqlarda əvvəlkindən də çox qoşun hissələri yerləşdirmişdilər.

20-ci diviziyanın yarısını Carda, yarısını da Şəkidə yerləşdirən Yemolov dekabrın 29-da Tiflisə qayıtdı. Lakin qayıtmazdan qabaq Mədətova Arazı keçmək haqda gizli göstəriş verdi.[726] Nəticədə 1827-ci ilin əvvəli rusların dinc əhaliyə qarşı yeni bir vəhşiliyi ilə «əlamətdar» oldu. Həmin göstərişə əsasən Mədətov Cavadda Mişenko ilə birləşib Muğandakı köçərilərə qəfil hücum etdi. Özünü itirən əhali müxtəlif istiqamətlərdə qaçmağa başladı. Yanvarın 1-də hücum təkrar edildi. Knyaz Paskeviç haqda ən iri həcmli kitabın tərtibçisi Şerbatov bu haqda belə yazır: «Yermolov general-leytenant Mədətova gizli göstəriş verdi ki, Muğan düzündəki köçərilərə hücum edib «onlar arasında dəhşət törətsin və onları itkiyə məruz qoyub qaçmağa vadar etsin». Bir ay müddətində o, cəzasız olaraq çoxlu kəndi, minlərlə ailəni talan etdi və yerli ərzaq ehtiyatını məhv etdi».[727] Bu yürüşlər zamanı ruslar iki minə yaxın dəvə, 10 min iri buynuzlu mal-qara, 80 min qoyun ələ keçirdilər.[728]

Xanlıqlarda hakimiyyəti ələ keçirən rus hərbçiləri əhaliyə, xüsusilə bəylərə divan tutmağa başladılar. Təkrar yürüşlər əhalinin kütləvi şəkildə azalmasına səbəb oldu. Yeni ərazilər və var-dövlət ələ keçirən ruslar xeyli adam həbs etdilər. Həmin adamlr Yermolovun, Krabbenin və başqalarının göstərişi ilə ölümə məhkum edildi, Sibirə sürgün edildi, mədənlərdə işləməyə göndərildi. Ən yüngül cəza hesab edilən cismani cəzadan sonra xeyli adam tab gətirməyib öldü və şikəst oldu. Bu faktlarla bağlı Azərbaycan Mərkəzi Dövlət Tarix arxivində xeyli materiallar var 47, 75. 130 №-li fondlar bu baxımdan daha qiymətlidirlər. Bunlardan bəzilərinə nəzər salaq.

75 №-li fondda üsyan zamanı tutulan Bakı, Şirvan vəQuba sakinlərinin siyahısı dərc edilib. Siyahıda adı çəkilən 50 nəfərdən 4 nəfəri asılmış, 3 nəfəri cəzaya tab gətirməyib ölmüş, 3 nəfəri Sibirə, 1 nəfəri Həştərxana, 1 nəfəri Türkmən sahillərinə sürgün edilmiş, 3 nəfəri Sibir mədənlərində işləməyə göndərilmişdi. Onların oğlanları Həştərxana əsgərliyə verilmiş, əmlakları isə müsadirə edilmişdi.[729]

Digər bir cədvəldə Quba xanı Şahəli xanla qaçan 253 nəfərin siyahısı və onların qalmış əmlakı dərc edilmişdir.[730] Ümumiyyətlə Quba xanlığından qaçanların sayı həmin siyahılara əsasən 324 nəfər olmuşdur.[731] Quba xanlığını tərk edənlərdə Barmaq mahalı üstünlük təşkil edir.

---

[723] Potto V. Kavkazskaə voyna..., III cild, s.249.
[724] Yenə orada, s.240.
[725] Yenə orada, s.245.
[726] Poqodin M. Göst. əsəri, s.376.
[727] Kn. Şerbatov. Göst. əsəri, s.142.
[728] Potto V. Kavkazskaə voyna..., III cild, s.142.
[729] Azərb. MDTA, f.75, siy.1, sax. vah. 11, vər.1-2 arx.
[730] Yenə orada, sax. vah. 12, vər.79-80.
[731] Yenə orada, sax. vah. 13, vər.85-94.

Bakı xanlığında qaçanların ümumi sayı dərc edilən siyahı üzrə 186 nəfər olmuşdur. Konkret olaraq Maştağa kəndini tərk edən 38 nəfərdən 14 nəfəri ailəli, 4 nəfəri bəy olmuşdur.[732] Onu da qeyd edək ki, göstərilən məlumatlar 1826 il dekabrın 3-nə aiddir və bu proseslər hələ davam etməkdə idi.

Qarabağ xanlığında vəziyyət daha acınacaqlı olmuşdur. Demək olar ki, ələ keçən bütün bəylər Şuşa qalasına salınmış və ya ciddi polis nəzarətinə götürülmüşdü. Qohumları «satqınlıq» etmiş bəylərin belə Yermolovun göstərişinə qədər həbsdə saxlanması tövsiyyə olunmuşdu.[733] Məsələn Mirzə Adıgözəl bəy yalnız ona görə həbs olunmuşdu ki, güya qardaşı İmamqulu bəy Mehdiqulu xanın yanında olmuşdu.[734] Hətta xanın arvadları belə nəzarət altına alınmışdı. Qarabağ xanlığında bu işlərlə Mədətov məşğul olduğundan vəziyyət daha qərəzli hal almışdı. Onun Yermolova raportu bunu bir daha təsdiq edir. O yazırdı: «Tezliklə mahal bəylərinin seçkisi ilə məşğul olmalıyam. Bunların çoxu ermənilərdən olmalıdır. Çünki müsəlman bəylər tamamilə satqındılar... əsas işləri görəndən sonra mən əsasən üsyançıların ümumi siyahısını tutub, rusların və ermənilərin qanını axıtmaqda iştirak edən, kəndimi dağıdanları birdəfəlik məh edəcəyəm».[735]

Xanlığı tərk edənlərin sayında da Qarabağ üstülük təşkil edir. Kütləvi terror da əhalini buna vadar edirdi. Bütöv kəndlərini, mahalların xilas edilməsində Mehdiqulu xan, Hacı Ağalar bəy fəallıq göstərmişdilər.

Əhalinin kütləvi azalması nəticəsində ruslar yenidən bütün xanlıqlarda xeyli var-dövlət ələ keçirdilər. Elə Qarabağ xanlığının özündə müsəlman bəylərinə məxsus, demək olar ki, bütün kəndlər əsassız olaraq onlardan alınıb xəzinəyə götürüldü və ya ermənilərə verildi. Xanın arvadı Xan xanım ağaya məxsus Qaladərəsi kəndi yalnız ona görə alınmışdı ki, kəndin əhalisi müharibə zamanı «satqınlıq» etmişdi.[736]

Başqa xanlıqlar üzrə də belə faktlar yüzlərlədir və onlar həmin siyahılarda dərc edilib. Onların bəzisini sadalamaq yerinə düşər. Məsələn, Şirvanı tərk edən Qasım bəyin 15 kəndi (bütün gəliri ilə) 33 meyvə və üzüm bağı, 63 tut bağı, bir neçə dəyirmanı, mal-qarası və başqa şeyləri qalmışdı.[737] Qaçanların Şəkidə 78,[738] Şirvanda isə 37 daş evi qalmışdı.[739] Qalan əmlak əsasən xəzinəyə götürülmüş, hərraclarda satılmış və bunlar vasitəsilə ruslara sadiq olanlar mükafatlandırılmışdılar. Qalan əmlakın dəyərinə gəldikdə, onların hesablanması qeyri-mümkündür. Məsələn, hərracda satılmaq üçün dəyəri hesablanan Şirvandakı 37 daş evin qiyməti 3605 rubl[740] olmuşdur ki, bu da xanlığın Rusiyaya verdiyi illik bacın yarısına bərabərdir. Həmçinin xeyli gəlir gətirən karvansaralar və su axarları da xəzinəyə götürüldü. Arxivdə saxlanılan başqa bir fondda rusların müharibə vaxtı əvəzsiz olaraq Qarabağ əhalisindən topladığı mal-qara və başqa ərzağın cədvəli verilib.[741] Bu hal digər xanlıqlar üçün də səciyyəvidir.

---

[732] Yenə orada, f. 47, siy.1, sax. vah.3, vər.19-180.
[733] QAKA, VI cild, sənəd 1328.
[734] Yenə orada, sənəd 1326.
[735] Buşuev S.K. Göst. əsəri, s.172.
[736] QAKA, VI cild, sənəd 1830.
[737] Azərb. MDTA, fond 130, siyahı 1, sax. vah. 9, vər.16 – 16 arx..
[738] Yenə orada, siy.1, sax.20, vər.13-14 arx.
[739] Yenə orada, sax. vah.9, vər.16-16 arx.
[740] Azərb. MDTA, f.130, siy.1, sax. vah.9, vər.16-16 arx.
[741] Yenə oada, f.73, siy.1, sax. vah.3, vər.15-15 arx.

Əhalinin sakit qalması üçün Yermolov girovların tezliklə Tiflisə göndərilməsini Borçalı, Qazax, Şəmşəddil ağalarıdan tələb etdi.[742]

### 3. Naxçıvan və İrəvan xanlıqlarının işğalı. Azərbaycanın parçalanmasının başa çatması

İrəvanın işğalı məlum olduğu kimi rusların Qafqaza gəlişinin ilk günlərindən gündəlikdə idi. Lakin İrəvan yürüşləri ya məğlubiyyətlə nəticələnir, ya da təxirə salınırdı. Öz xələfi kimi İrəvanın tutulmasını səbirsizliklə gözləyən I Nikolay bu işin vacibliyini tez-tez Yermolova xatırladırdı. İrəvan xanı isə əsrin əvvəlində itirilmiş torpaqları geri qaytarmaq və hətta Tiflisə hücum etmək üçün əlverişli məqam gözləyirdi. Beləliklə hər iki tərəf müharibəyə hazırlaşdığından qarşı-qarşıya duran qüvvələrin sayı artır və münasibətlər getdikcə kəskinləşirdi.

Əvvəlcə ruslar xanlığın şərq tərəfindəki bəzi ərazilərin Rusiyaya məxsusluğunu iddia etmək üçün Gelli, Zod və Göyçəyə mühəndislər göndərdilər. Lakin İrəvan xanın tutarlı cavabı onları bu işdən vaz keçməyə məcbur etdi.[743] Nəhayət 1826-cı ilin yazında ruslar Miraka hücum etməyi qərara aldılar.[744] Bununla da yeni hərbi kompaniya başladı.

Rus qoşunlarının getdikcə xanlığın mərkəzinə yaxınlaşmasından narahat olan xan artıq gözləməyin yersiz olduğunu yəqin edib qoşunları sərhəddə cəmləşdirdi. Bundan vahiməyə düşən Dilican erməniləri qaçmağa başladılar. Bununla bağlı sərhəddəki rus qoşunlarının başçısı Seversamidze yazırdı: «Əsgər dayanmayan bu sərhəd yerdə ermənilər tatarsız qala bilməz. Ermənilər sülh vaxtı daha çox yararlı və sadiqdirlər».[745] İyulun 16-da xan qoşunları əks – hücuma keçərək. Miraka, qardaşı Həsən xan isə Şoragilə daxil oldu. Xeyli itki verən rus qoşunları geri çəkilməyə məcbur edildi. «Rəvan sərdarı və qardaşının rusları yendikləri» başlığı altında Türkiyə arxivində saxlanan sənəddə bu haqda belə deyilir: «Rəvan sərdarı və qardaşı Həsən xan Abadan qalasını azad edib, oradan qaçıb Qarakilsəyə sığınan rusları qılıncdan keçirdilər. Bölgədən köçərilər Rəvan tərəflərinə, Gümrü qəzasının bəzi kəndləri isə əcəm tərəfinə köçürülür. Şahzadələr Tiflisə hücum düşüncəsində bulunurlar».[746] Balıqçay, Sadağaçay, Qarakilsə və başqa keşikçi məntəqələri darmadağın edilir. Həsən xanın qoşunları Gümrü yolunu nəzarətə götürür. Beləliklə qısa müddətə Pəmbək və Şoragil işğalçılardan tamizlənir. Mirzə Adıgözəl bəy bu haqda belə yazır: «Knyaz Səvirzə Mirzə Pəmbək və Şogildən çıxdıqdan sonra Hüseyn xanın qoşunları gəlib rus hökumətinə aid dam-daşı yıxıb od vurdular və oralara yiyələndilər».[747] Əslində isə Seversamidze oadan çıxarılmışdı, ikincisi isə irəvanlılar öz torpaqlarını geri almışdılar.

Pəmbək və Şoragili azad edən xan qoşunları düşmənin 158 əsgər və zabitini sıradan çıxardır.[748]

Əvvəlki mövqelərin itirilməsi və xan qoşunlarının Gürcüstan sərhədlərinə yaxınlaşması ilə barışmaq istəməyən Yermolov Balıqçay məntəqəsinə yeni dəstə göndərdi. Lakin 166 nəfərdən ibarət olan bu dəstə iyulun 27-də xan süvariləri tərəfindən mühasirəyə alınaraq demək olar ki, məhv edildi. Belə ki, onlardan 113 nəfəri öldürüldü, başda dəstə komandiri olmaqla 18 nəfər əsir götürüldü, qalanları

[742] QAKA, VI cild, sənəd 1073.
[743] QAKA, VI cild, sənəd 1370.
[744] QAKA, VI cild, sənəd 1374.
[745] Yenə oada, sənəd 1372.
[746] Boa Cevdet Hariciye, nz 5594 – Bax: Osmanlı devleti ilə..., I kitab, s.111-112.
[747] Mirzə Adıgözəl bəy. Göst. əsəri, s.81.
[748] Qizetti A.P. Göst. əsəri, s.143.

isə qaçmağa müvəffəq oldu.[749] Ruslar bu məğlubiyyəti dəstədəki qazaxlılarla bağlayaraq bildirirlər ki, onlar dəstəni bir-başqa düşmən üzərinə aparmış və ilk atəşdən sonra özləri qaçmışdılar.[750]

Xan qoşunlarının müvəffəqiyyətli hücumları yerli əhalinin və qonşu vilayətlərin əhalisinin döyüş ruhunu daha da yüksəltdi. Artik sultanı Budağ Sultan xanın tərəfinə keçdi.[751] Pottonun yazdığına görə Pəmbək və Şoragilin tutulmasından sonra «Borçalı, Şəmşəddil və Yelezavetpol Rusiyaya açıqcasına xəyanət etdi».[752] Qazax ağalarına məktubunda isə xan yazırdı: «Ruslarla bizim aramızda sülh olanda siz xahiş edirdiniz ki, sizi və ailənizi rusların əlindən qurtaraq... Artıq bu vaxt gəlmişdir».[753] Elə Qazax pristavı Sijevskinin bəzi ermənilərin köməkliyi ilə güclə xilas olması da bu vaxta təsadüf edir.

Tədqiqat obyektimizdən kənar olmasına baxmayaraq obyektivlik naminə bəzi məqamları da qeyd edək. Məlumdur ki, atlı dəstələr iyulun 14-də Tiflis yaxınlığındakı alman kaloniyasını, sentyabrın 2-də isə Loridəki yunan kaloniyasını ələ keçirərək təlafat və dağıntılara yol verdilər.[754] Əlbəttə bu hadisələrə heç cür haqq qazandırmaq olmaz. Lakin onu da deyək ki, bu birbaşa çarizmin köçürmə siyasətinin nəticəsi idi.

Xanlıqlarda başlanan müharibə və rusların həmin ərazilərdən qovulması haqqda hələ məlumat almayan çar I Nikolay İrəvana yürüşə çıxmaq barədə fərman verdi. Həmin fərmanda İrəvan yürüşündə iştirak edəcək qoşunların sayı da dəqiq göstərilmişdi: «Tezliklə sizdən belə cavab gözləyirəm, sərdar yoxdur və Erivan vilayəti tutulub. Siz və 15 min rus müvəffəqiyyət üçün kifayətdir».[755] Lakin avqustun 1-də verilmiş bu göstərişi yerinə yetirmək Yermolova nəsib olmadı. Çünki, bütün xanlıqlar əldən getdiyindən İrəvana hərəkət etmək mümkün deyildi. Yürüş təxirə salındı. Sentyabrın 2-də Həsən xanın 3 min atlı ilə Loriyə yürüşü rus qoşunlarının Gəncə istiqamətində nəzərdə tutulan hücumu üçün ciddi təhlükə törətdi. Ona görə Yermolov Tiflisə yeni gələn piyada alayından 2 batalyon, 12 top və 400 kazakla ona qarşı hərəkət etdi. Həsən xanı geri oturtmağa nail olan Yermolov qoşun rəhbərliyini Davıdova tapşırıb geri qayıtdı.

Rusların Şamxor və Gəncə döyüşlərindəki qələbələri İrəvan xanlığına da öz təsirini göstərdi. Ruh düşgünlüyü keçirən xan qoşunları geri çəkilməyə başladı. Demək olar ki, Pəmbək və Şoragil yenidən boşaldıldı. Cüzi müqavimətdən sonra rus qoşunu sentyabrın 21-də Cəlaloğluda düşərgə saldı. Sonrakı gün Davıdovun başçılıq etdiyi həmin dəstə İrəvan xanlığının içərilərinə doğru yürüşə başladı, lakin Yermolovun əmrilə sentyabrın 29-da əvvəlki mövqeyinə qayıtdı.[756] Əsas qüvvələrin xanlıqların yenidən işğalına yönəldiyindən İrəvana yaxın vaxtlarda hücum gözlənilmirdi. Az qüvvə ilə isə İrəvana yürüş təhlükəli idi. Beləki, İrəvan sərdarı əks hücumla ruslara arxadan zərbə endirib onların Gürcüstanla əlaqəsini kəsə bilərdi.

1826-cı ilin sonunda baş qərargah Yermolov və Paskeviçin rəyi əsasında növbəti hərbi kampaniya haqda iki layihə işləyib hazırladı. Paskeviçin bəyəndiyi ikinci layihəyə əsasən düşmənə gözlənilməyən yerdən zərbə endirilir, İrəvan və Naxçıvan vilayətləri gözlənilmədən və tamamilə başqa vilaytələrdən

---

[749] Potto V. Kavkazskaə voyna..., III cild, s.50.
[750] Yenə orada.
[751] Dubrovin N. İstoriə voynı..., VI cild, s.618.
[752] Potto V. Kavkazskaə voyna..., III cild, s.52.
[753] Dubrovin N. İstoriə voynı..., VI cild, s.618-619.
[754] Potto V. Kavkazskaə voyna..., III cild, s.63.
[755] Göst. əsəri, s.359.
[756] Dubrovin N. İstoriə voynı..., VI cild, s.637.

ayrı salınırdı. Əsas zərbə isə Təbrizə endirilirdi.[757] Yermolov isə mövcud qüvvələrlə İrəvan xanlığını tutmaqla kifayətlənməyəi, qalalarda ermənilərdən istifadə etməyi, ümumiyyətlə bütün erməniləri silahlandırmağı tələb edirdi. Sonra isə Meşkin vilayətindən keçməklə Ərdəbil, Xalxal və başqaları ələ keçirilməli, bununla da Talış xanlığı itaətə gəlməli idi.[758] I Nikolay Yermolov tərəfindən bəyənilən layihəni təsdiq etdi. Beləliklə əsas zərbənin İrəvan xanlığına endirilməsi qərarlaşdırıldı.

Layihənin reallaşmasına hazırlıq görmək üçün baş qərargahın rəisi baron Dibiç 1827-ci ilin fevralında Tiflisə gəldi. Bütün məqamlar nəzərdən keçirildi. Çar öz sərəncamı ilə bu planın həyata keçməsi üçün 400 min çervon və 500 min rubl vəsait ayırdı. Həmçinin Bakı və Redutqalaya xeyli buğda və un göndərildi.[759] Martın 26-da baron Dibiç hərbi əməliyyatların başlandığını elan etdi.

Yermolovla arasındakı ixtilaflar və çarın Yermolovun layihəsini təsdiq etməsi Paskeviçi Qafqazı tərk etməyə sövq etdi. Lakin vəzifədən azad olunmaq üçün müraciət etməyə hazırlaşan Paskeviç martın 28-də baş komandan təyin edildi. Bir az sonra isə Velyaminov və Mədətovu gen. Sipyaqin və Pankratyev əvəz etdi.

Qoşunların İrəvan xanlığına hərəkəti başlandı. Aprelin əvvəllərində Benkendorfun qoşun hissələri İran erməniləri arasında nüfuza malik arxiyepiskop Nerses Aşterekatsinin müşayiəti ilə Borçalıdan hərəkətə başladı.[760] Aprelin 13-də Eçmiadzin monastırını tutan Benkendorf Sərdərabada yola düşdü. Burada Həsən xanın süvariləri ilə döyüş baş verdi. Qalanı ala bilməyən ruslar yenidən Eçmiadzinə qayıtdılar. Aprelin 27-də ruslar İrəvan qalasının mühasirəyə almağa müvəffəq oldular. Benkendorfun qalanı təslim etmək tələbi Həsən xan tərəfindən rədd olundu.

Mayın 12-də Paskeviç öz qoşun hissələri, habelə erməni və gürcülərin müşayiəti ilə hərpəkətə başladı. Çarın razılığı ilə təşkil edilən ilk erməni atlı alayı mayın 17-də Paskeviçin ardınca İrəvana hərəkət etdi. Erməni tarixçisinin yazdığına görə İrəvan sərhədlərində onların sayı 1000 nəfərə çatırdı.[761] Sonra isə Krassovski 20-ci piyada diviziyası ilə İrəvan yaxınlığına gəldi.

İrəvan qalasını nəzərdən keçirən Paskeviçin İrəvan komendantı ilə görüşmək istəyinə cavab olaraq sərdar özü yazırdı: «Əgər söhbət qalanın təslim edilməsindən getmirsə icazə verirəm, əks halda bu mənasızdır. Mən qalanı heç vaxt təslim etmərəm».[762] Qalanı ala bilməyəcəyinə əmin olan Paskeviç bu işdən vaz keçir. Şerbatova görə hətta qalanın mühasirəsi qoşunların qüvvəsi xaricində idi.[763]

Naxçıvana yürüş etməyi qərarlaşdıran Paskeviç qoşunları Gərniçaydakı düşərgəyə topladı. İyunun 19-da hərəkətə başlayan qoşunlar əvvəlcə Dəvəli kəndinə girdi. Kənd bom-boş idi.[764] Deyildiyi kimi sərdar əvvəlcədən əhalini İrəvana köçürmüş, bəzi qalalarda isə mühafizə dəstəsi qoymuşdu. Şerbatova görə qalaya 18 min sakin köçürülmüşdü.[765] Naxçıvanda ruslara qarşı hər hansı müqavimət göstərilməsi haqda məlumat yoxdur. Görünür Kərim xan müqavimət göstərə bilməyəcəyini görüb xanlığı tərk etmişdi. İyunun 26-da Naxçıvan ələ keçirildi. Naxçıvanı tuan Paskeviç iyulun 1-də bütün qüvvə ilə Abbas-Abadın mühasirəsinə başladı. İyunun 5-də mühasirəni yarmaq istəyən Abbas Mirzə Həsən xanla

---

[757] Dubrovin N. İstoriə voynı..., VI cild, s.687.
[758] Yenə orada, s.184.
[759] Yenə orada, s.187.
[760] Allaxverdi M.Ə. Göst. əsəri, s.12.
[761] Yenə orada.
[762] Kn. Şerbatov. Göst. əsəri, s.265.
[763] Yenə orada.
[764] Yenə orada, s.273.
[765] Yenə orada, s.322.

birgə Xoy tərəfdən hücum etdi. Lakin Cavanbulaqda baş verən döyüş müttəfiqlərin məğlubiyyəti ilə bildi. Qala şiddətli atəşə tutuldu. Nəhayət iyulun 7-də qala qarnizonu, təslim oldu. 1500 nəfər əsirlə birgə ruslar xeyli qənimət ələ keçirdilər. Gen.-m. baron Saken qalanın komendantı və Naxçıvan vilayətinin rəisi təyin edildi.

Avqustun 7-də məşhur Uşağa vuruşması baş verdi. Nəhayət xan qoşunları qüvvələri cəmləşdirib ruslara ağır zərbə endirib gözəl qələbə qazana bildi. Gizettinin məlumatına görə Krasovskinin dəstəsi həmin döyüşdə 1166 əsgər və zabit itirdi (685 nəfər öldürülür, 347 nəfər yaralanır, 134 nəfər əsir düşür).[766] Paskeviçdən bəhs edən digər kitabda bu döyüş haqda belə deyilir: «İrəvanın mühasirəsindən əl çəkən Krassovski Eçmiadzinə yürüş etdi. Bundan istifadə edən sərdar 4000 atlı, 2 briqada sərbazla oraya hərəkət etdi. Avqustun 4-də Abbas Mirzə özü qoşunu ilə burada göründü. Onlar birləşərək rusları mühasirəyə alıb qırmağa başladılar. 200 əsiri çıxmaqla həmin gün 24 zabit, 1130 əsgər öldürüldü». Bu qələbə rusların yürüşünü xeyli ləngidir. Avqustun 29-da Eçmiadzində toplaşan ruslar bu dəfə Sərbarabadı hədəf seçgilər. Sentyabrın 14-də Sərdarabadın mühasirəsi başlandı. Lakin Həsən xan qalaya girməyə müvəffəq oldu. Nerses şəhərin erməni əhalisinə təslim olmaq üçün müraciət etdi.[767] Şəhər 24 topdan şiddətli ataşə tutuldu. 2 gün fasiləsiz davam edən atəşdən sonra qala qarnizonu şəhəri tərk etməyə müvəffəq oldu. Məcburi atılan bu addım Həsən xanın yüksək hərbi ustalığını nümayiş etdirirdi. Lakin qaladakı xeyli ləvazimat rusların əlinə keçdi. Sərdarabadda bir briqada və erməni alayı qoyan Paskeviç sentyabrın 24-də Nerseslə birgə İrəvana hücum etdi.

Abbas-Abad və Sərdarabadda ələ keçirilən ərzaq və hərbi sursat rusları yarım il təmin etməyə imkan verirdi. Hətta Paskeviç bunsuz İrəvanın mühasirəsinin necə olacağını təsəvvür edə bilmədiyini bildirirdi.[768] Hər iki qalada bu qədər ehtiyatın toplanması xan qoşunlarının uzun müddətli və ciddi hazırlığından xəbər verirdi. Lakin çoxlu sayda top və batareyaların fasiləsiz olaraq şəhəri atəşə tutması bu kampaniyada xan və onun qoşunları üçün ən gözlənilməz hadisə oldu. Atəş və bomba yağışı onlara həmin ehtiyatı məhv etməyə belə imkan vermirdi.

Bəzi məlümatlara görə Sərdarabadın fəthindən sonra şahın İrəvan və Naxçıvan xanlığını güzəştə getməklə Rusiya ilə sülh bağlamaq əmrini Abbas Mirzə yerinə yetirmirdi...

Məğlubiyyətlərə baxmayaraq xan qoşunları müqavimət göstərməkdə davam edirdi. Əsas məsələ İrəvanın mühasirəsi idi. Sərdarabadı tərk edən Həsən xan İrəvan qalasını möhkəmləndirməkdə idi. İki hündür qüllədən ibarət olan İrəvan qalası iri xəndəklə əhatə olunmuş divarların görünməyən hissəsində toplar qurulmuşdu. Qala qarnizonu 2 min əsgərdən və 2 min süvaridən ibarət idi.

Sentyabrın 24-də İrəvanın mühasirəsi başlandı. 2 batareya 3 gün ara vermədən şəhəri bombalamağa başladı. Müvəqqəti sakitlikdən istifadə edən qala qarnizonu ruslara güclü atəşlə cavab verməyə nail oldu. Lakin bütün istiqamətlərdə yerləşən mühasirə korpusu topları şəhərə yaxınlışdırdı. Təslim tələbinə cavab olaraq qala rəisi sərdardan və yaxud İrandan kömək almaq ümidi ilə möhlət istədi. Lakin Paskeviçin qəti cavab tələbi cavabsız qaldı. İrəvan toplarını susdurmaq üçün güclü artilleriya işə salınıraq 40 top şəhərə 1000-dən çox mərmi yağdırdı. Şəhərdə od, alov, toz tumanı, uçuqlar bir-birinə qarışdığından əhali atəşdən qaçmağa yer tapmırdı. Bir tərəfdən də ermənilər qalanı

[766] Qizetti A.P. Göst. əsəri, s.145.
[767] Alaverdiənü M.Ə. Göst. əsəri, s.21.
[768] Kn.Herbatov. Göst. əsəri, s.1.

təslim etməyi tələb edirdilər. Oktyabrın 1-də darvazalar sındırıldı və ruslar şəhərə soxuldu. İrəvandakı dağıntılarla bağlı bir müşahidəçi yazırdı: «Mənə elə gəlir ki, mühasirə artilleriyasının dörd gündə elədiyini 4 əsrdə eləmək mümkün deyil».[769]

İrəvanın alınması ilə bağlı Paskeviç I Nikolaya raportunda yazırdı: «...Mühasirə zamanı divarın altı qazılmış və artilleriya əla işləmişdir. Qurtuluş yolu tamayanlar silahı atmış, digərləri müdafiə olunmaq istəmişlər. Lakin darvaza sındırıldıqdan sonra qala tam təslim olmuşdur».[770] Həsən xan başda olmaqla bütün qala qarnizonu əsir düşür. Digər bir mənbənin məlumatına görə, İrəvan sərdarı Hüseyn xan da Maku xanı tərəfindən generala təslim edilir.[771] Amma bunu təsdiq edən digər sənəd yoxdur.

Bu qələbəyə görə 1 mln. rubl mükafat və qraf titulu alan Paskeviç İrəvanda Krassovskinin rəhbərliyi ilə müvəqqəti hökuməti təşkil edir. Herses həmin hökumətin üzvü seçilir. Qlinkanın qeyd etdiyi kimi «Krassovski və Nerses birgə hərəkət edirdilər».[772]

İrəvanın alınması ilə rusların müxtəlif istiqamətlərdən cənuba yürüşü başladı. Tezliklə Mərənd, Təbriz, Xoy, Səlmas, Marağa zəbt olunur. Deh-Qarağandakı danışıqlarda Paskeviçin ultimatumu yerinə yetirilmədiyindən hərbi əməliyyatlar yenidən başladı. Urmiya və Ərdəbil də rusların əlinə keçdi (Ərdəbildə ruslar nadir əlyazmalar kitabxanasını qarət etdilər). Tehran üçün yaranan birbaşa təhlükə şahı sülhə sürükləyir.

1828-ci il fevralın 9-dan 10-a keçən gecə Türkmənçay kəndində Rusiya ilə İran arasında 16 maddədən ibarət müqavilə imzalandı. Müqavilənin üçüncü maddəsi İrəvan və Naxçıvan xanlıqlarının da Rusiyaya keçdiyini təsbit edim. Dördüncü maddə isə iki dövlət arasındakı sərhəd xəttini müəyyən edir. Müqavilənin səkkizinci maddəsi Xəzər dənizində ancaq Rusiya hərbi gəmilərinin üzməsinə icazə verirdi və sairə.[773]

Beləliklə Türkmənçay müqaviləsi Azərbaycanın parçalanmasını başa çatdırdı. Şimali Azərbaycan çar Rusiyasının əsarəti altına düşdü.

---

[769] Bax. Potto V. Kavkazskaə voyna..., III cild, s.516.
[770] Azərb. MLTA, 288, siya.sax.7, v.2-2 arx. Osmanlı Devleri ilə…, II kitab, s.208-211.
[771] VOA, Hatti Humayun, N2, 34805-Bax:…
[772] Qlinka S. Göst. əsəri, s.35.
[773] Azərb. MDTA, f.202, siy.1, sax. vah.7, vər.317-321.

# NƏTİCƏ

Rusiyanın Azərbaycan torpaqlarını ələ keçirmək iddiasına düşməsinin tarixi əvvəlki yüziliklərə gedib çıxır. Hələ I Pyotrun dövründə bu məqsədlə geniş miqyaslı plan hazırlanmış və həmin plana uyğun olaraq Xəzər dənizinin təqribən bütün qərb sahili zəbt edilmişdi. Lakin yerli hakimlərin, eləcə də Türkiyə və İranın təzyiqlərinə davam gətirməyən Rusiya 1735-ci ildə bağlanmış Gəncə müqaviləsinə əsasən Azərbaycan torpaqlarını tərk etmək məcburiyyətində qalmış, Xəzər dənizində isə ağalığı öz əlində saxlamışdı. II Yekaterinanın göstərişi ilə cənuba yürüşə başlamış rus qoşunları yenidən bir çox Azərbaycan vilayətlərini zəbt etməyə nail olmuşdu. Yalnız II Yekaterinanın ölümü Azərbaycanı müstələkə əsarətindən xilas etmişdi.

XIX yüzilliyin başlanğıcında Azərbaycan torpaqları yenidən öz sərhədlərini genişləndirməyə çaışan Rusiya imperiyasının hədəfinə çevrildi. Sələflərinin – I Pyotrun və II Yekaterinanın yolunu davam etdirən I Aleksandr Rusiyanın cənub sərhədlərini Kür və Araz çaylarınadək çatdırmağı qərarlaşdırmışdı. İranın Cənubi Qafqazda öz mövqeyini itirməsi, Türkiyənin getdikcə zəifləməsi, Azərbaycanın ayrı-ayrılıqda çox zəif olan xanlıqlara parçalanması Rusiyanı bu işə sövq edən əsas amillərdən idi. Qısa müddət ərzində Qafqaz idarəsi təşkil etmiş Rusiya aparılacaq hərbi əməliyyatlar üçün xeyli vəsait, çoxsaylı nizami qoşun və hərbi texnikanı bu idarənin sərəncamına verdi. Gürcüstanın Rusiyaya birləşdirilməsi aktı, sonra isə Gürcüstana qonşu hakimlərin Rusiya təəbəsinə cəlb edilməsi haqqında I Aleksandrın reskripti Azərbaycan torpaqlarının işğalının əsasını qoydu. Beləliklə, öz işğalçılıq məqsədlərini həyata keçirməyə başlayan Rusiya Azərbaycan xanlıqlarını məcburi mühaibəyə sürüklədi.

Rusiyanın işğalçı niyyətini ört-basdır etməyə çalışan bir çox tarixçilər işğal ərəfəsində Rusiyaya qarşı formalaşan meyldən bəhs edərək iğalı məhz bu meylin bəhrəsi kimi qələmə verməyə çalışmışlar. Əgər hər hansı hakim digəri ilə müqavalə bağlayırsa, bunu meyl adlandırmaq nə dərəcədə düzgündür. Digər tərəfdən, əgər belə meyl var idisə və Azərbaycan könüllü olaraq Rusiyanın tərkibinə daxil olurdusa, bu müqavimət, döyüşlər, üsyanlar nə üçün idi? Məlumdur ki, imperiya tərkibinə ilk qatılan Pəmbək, Şoragil, Şəmşəddil, Qazax, Borçalı sultanlıqları olmuşdur. İşğal haqda ilk xəbər onlar arasında kütləvi etirazlara səbəb olmuş və onlar müxtəlif formalarda buna müqavimət göstərməyə başlamışdılar. Bu vilayətlərdən hansı birininsə Rusiyanın tərkibində könüllü daxil olmaq istəməsini yəqin ki, heç bir tədqiqatçı iddia edə bilməz.

Növbəti hədəf olan Car-Balakən ərazisinin və Gəncə xanlığının işğalı isə xüsusi tədqiqat mövzusudur. Beləki, car-balakənlilər yarım əsrdən çox bir müddət ərzində müstəmləkəçilik əleyhinə mübarizə aparmış və ruslara bu diyarda möhkəmlənməyə imkan verməmişdilər. İşğalın ilk üç ilində, yəni 1803-cü ildən 1806-cı ilə kimi edilən yürüşlər nəticəsində ruslar burada biri general olmaqla 600 nəfər əsgər və zabit itirmişdilər. Gəncənin işğalına gəldikdə isə biz bunu hətta Rusiya-Gəncə müharibəsi kimi də qələmə verə bilərik. Bütün hədə-qorxulara, təzyiqlərə baxmayaraq Cavad xanın başçılığı ilə gəncəlilər bir aydan çox şəhəri müdafiə etmiş, məhv olmuş, lakin təslim olmamışdılar. Sual olunur: Rus qoşunlarını Car-Balakənə və Gəncəyə kim çağırmışdı və onlar niyə həmin əraziləri tutmalı idilər? Burada rusların tərəfinə kim keçmiş, yaxud onlara meyl göstərmişdi? Əgər belə könüllülük var idisə Car-Balakən və Gəncə niyə kütləvi qırğınlara məruz qalmışdı. İşğalın ilk illərində

Pəmbək, Şoragil, Şəmşəddil, Qazax, Borçalı sultanlıqlarında, Car-Balakən və Gəncədə baş vermiş hadisələr Azərbaycan xalqının işğalçılara qarşı münasibətini tam açıqlayır. Car-Balakən və Gəncədə yerli əhalinin kütləvi şəkildə, ən zorakı üsullarla qırılması Rusiyanın yerli əhaliyə qarşı «xeyirxahlığını» nümayiş etdirir.

Tarixçilərin digər qismi Kürəkçay müqavilələrini əsas götürərək Qarabağ, Şəki və Şirvan xanlıqlarının Rusiya tərkibinə heç bir döyüş olmadan, yəni könüllü daxil olduğunu bəyan edirlər. Unutmaq olmaz ki, Kürəkçay müqavilələrinə kimi Car-Balakən və Gəncə hadisələri baş vermiş və bu zaman ruslar öz silahlarının gücündən maksimum dərəcədə istifadə etmişdilər. Bu isə digər Azərbaycan xanlarını ehtiyatlı olmağa məcbur etmişdi. Məsələn, şahla düşmənçilik edən Qarabağ hakimi İbrahim xanın təslim şərtini qəbul etməməsi üçün yeganə yolu rus qoşunlarına müqavimət göstərməsi idi. Bunun isə nəticəsini təsəvvür etmək çox çətindir. Digər tərəfdən məlumdur ki, İbrahim xan bu müqaviləni heç kimə məhəl qoymadan imzalamışdı. Səlim xan bu müqaviləni imzalamaqda yeganə məqsədi Şəkidə öz hakimiyyətini qorumaq idi. Şirvan hakimi Mustafa xan isə 7 ay sonra (rus qoşunları artıq bu vaxt Şuşa və Nuxada yerləşdirilmişdi) yaranmış birbaşa təhlükə nəticəsində həmin müqaviləni imzalamağa məcbur olmuşdu. Rusların özünün etiraf etdiyi kimi Şirvanın heç bir himayəyə ehtiyacı yox idi.

1804 və 1808-ci illərdə Rusiyanın İrəvan qalasını almaq üçün həyata keçirdiyi hər iki cəhd uğursuzluqla nəticələndi. İrəvan qalasının qəhrəmancasına müdafiə olunması Azərbaycanın hərb tarixində şanlı səhifələrdən birini təşkil edir. İrəvan hakimi Hüseyn xanın və qardaşı İrəvan qalasının komendantı Həsən xanın hərəkəti Cavad xanın qəhrəmanlığı ilə müqayisə oluna bilər.

20 ildən çox yadelli işğalçılara qarşı uğurla mübarizə aparmış Şeyxəli xan ruslara Quba və Dərbənd xanlığında möhkəmlənməyə imkan verməmiş, dəfələrlə onları ağır məğlubiyyətə uğratmışdı. Quba xanın apardığı mütəşəkkil və qətiyyətli mübarizə nəticəsində rusların ümumiyyətlə Cənubi Qafqazda mövqeyi xeyli sarsılmışdı.

Elmi ədəbiyyatda, xüsusilə 50-70-ci illərdə çap olunmuş əsərlərdə Dərbənd, Şəki, Qazax-Şəmşəddil və lənkəranda ruslara qarşı baş verən hərəkatın demək olar ki, heç adı çəkilmir. Halbuki, rus ağalığına, özbaşınalığa qarşı çevrilən bu hərəkatın hər biri öz mütəşəkkiliyinə və kütləviliyinə görə tarixşünaslığımızda xüsusilə qiymətləndirilməlidir.

Kürəkçay müqavilələri iştirakçılarının, ümumiyyətlə ruslarla nisbətən mülayim və qarşılıqlı anlaşma yolunu tutmuş xan və bəyərin taleyi çox acınacaqlı olmuşdur. Qarabağ xanlığının tutulmasından bir il keçməmiş İbrahim xan öz yaxınları ilə birlikdə qətlə yetirildi. Bacısı qətlə yetirilmiş Səlim xan və həmişə satqınlıqda ittiham olunan Mustafa xan müxtəlif vasitələrlə xanlıqdan qovularaq hakimiyyətdən məhrum edildilər. Azərbaycanda ruslara qarşı ən sadiq şəxs hesab olunan Cəfərqulu xanın oğlu İsmayıl xan zəhərləndi, qızı isə başqa xoylular kimi bütün əmlakından məhrum edilərək Şəkidən çıxarıldı. Göstərdiyi qulluq müqabilində Dərbənd naibi seçilən Əlipənah bəy çox keçməmiş həbs edildi. Rusların göstərişi ilə əmisi Mehdiqulu xana qarşı çaxan Cəfərqulu ağa Simbirskə sürgün edildi və s.

XIX əsrin 20-ci illərində Rusiya Kürəkçay müqavilələrində götürdüyü öhdəliyə göz yumaraq Qarabağ, Şəki və Şirvanda xanlıqlar sistemini ləğv etdi. Xanlar və bir çox bəylər İrana qovuldu. Bu bir

daha Rusiyanın zorakı üsullara üstünlük verməsini sübut edir. Kürəkçay müqavilələri Rusiyaya müvəqqəti lazım idi.

İkinci rus-İran müharibəsindən sonra Naxçıvan və İrəvan xanlıqları da daxil olmaqla bütün Şimali Azərbaycan ərazisi Rusiya tərəfindən istila olundu. Azərbaycan ərazisində aparılan müharibələr hər iki ölkəyə külli miqdarda maddi və mənəvi zərər vurdu. Tarixin XIX yüzilliyin ilk onilliklərindəki kimi təkrar olunmaması üçün həmin dövrün hadisələrini unutmamaq, onları düzgün obyektiv qiymətləndirmək zəruridir.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT SİYAHISI

**I. Arxiv.**

Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivi (Azərb. MDTA).

Fond 47. «Upravlenie Bakinskoqo komendanta».

Fond 63. «Upravlenie Elizavetpolğskoqo komendanta».

Fond 73. «Upravlenie Karabaxskoqo komendanta».

Fond 75. «Upravlenie Kubinskoqo komendanta».

Fond 130. «Kanüeləriə voenno-okrujnoqo naçalğnika musulğmanskix provinüii».

Fond 202. «Bakinskaə tamojnə».

Fond 288. «Kanüeləriə şeyx-ulğ-islama Zakavkazğə».

**II Rəsmi sənədlər.**

Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları (QAKA), I-VII cildlər, Tiflis, 1867-1878.

«Obozrenie Rossiyskix vladeniy za Kavkazom v statiçeskom, gtnoqrafiçeskom, topoqrafiçeskom i finansovom otnoşeniəx», SPb., 1836.

«Opisanie Şirvanskoy provinüii, sostavlennoe v 1820 qodu po rasporəjeniö qlavnoupravləöheqo v Qruzii Ermolova», Tiflis, 1867.

Statistiçeskoe opisanie Naxiçevanskoy provinüiy. SPb., 1833.

Perednəə Aziə v dokumentax Naxiçevanskie rukopisnıe dokumenta XVI-XIX vv., Tbilisi, 1936.

Polnoe sobranie zakonov Rossiyskoy imperii (PSZ), SPb., 1830.

Voennaə gnüiklopediə, XI, XIV, XVI cildlər, Peterburq, 1913.

Voennıy sbornik, XX, LIV-LVI SPb., cildlər, 1861-1867.

Spiski naselennıx mest Rossiyskix imperii po Kavkazskomu kraö, XV cildlər, Tiflis, 1870.

Qlinka S. Opisanie pereseleniə armən Adderbidjanskix v predelı Rossii, Moskva, 1831.

Materialı po istorii Daqestana i Çeçni, III cild, I hissə (1801-1839), Maxaçkala, 1940.

Prisoedinenie vostoçnoy Armenii v Rossii (sb. dok.), II cilddə, Erevan, 1972.

Russko-Daqestanskie otnoşeniə v XVIII-naç. XIX v., Moskva, 1988.

Osmanlı devleti ilə Azerbaycan türk hanlıkları arasındakı münasibetlere dair arxiv beigeleri, I-II kitab, Ankara, 1992-1993.

**III. Qeydlər, xatirələr, gündəliklər.**

Zapiski Alekseə Petroviça Ermolova, II hissə, (1816-1827), M., 1869.

Zapiski Serqeə Alekseeviça Puçkova (1766-1808), Sankt-Peterburq, 1908.

Dnevnıe zapiski o puteşestvii Rossiysko-İmperatorskoqo posolğstva v Persii v 1816 i 1817 qodax. Vedennıe sovetnikom gtoqo posolğstva A.E.Sokolovım, M., 1910.

Mirzə Adıgözəl Bəy. Qarabağnamə, Bakı, 1989.

Mirzə Camal Cavanşir. Qarabağ tarixi, Bakı, 1989.

Kərim Ağa Fateh. Şəki xanlarının müxtəsər tarixi, Bakı, 1958.

Aleksey Petroviç Ermolov. Materialı dlə eqo bioqrafii, sobrannıe M.Poqodinım, M., 1864.

Ermolov A. Aleksey Petroviç Ermolov v Persii, SPb., 1909.

Butkov P.Q. Materialı dlə novoy istorii Kavkaza 1722-1803 qq., SPb., 1869.

Berezin İ. Puteşestvie po Daqestanu i Zakavkazğö, Sb., 1830.

Herbatov M. Qeneral-felğdmarşal knəzğ Paskeviç. Eqo jiznğ i deətelğnostğ, II-III cild, SPb., 1890-1891.

Hacı Seyid Əbdülhəmid. Şəki xanları və onların nəsilləri, Bakı, 1958.

**IV. Dövrü mətbuat.**

«Kavkaz», 1846-1847, 1898.

«Kavkazskiy kalendarğ» na 1847, 1848 qod.

«Kavkazskiy sbornik».

«Russkaə starina», 1880, 1885.

**V. Ədəbiyyat.**

Abdullaev Q.B. İz istorii Severo-Vostoçnoqo Azerbaydjana v 60-80-x qodax XVIII v., Baku, 1958.

Abdullaev Q.B. Azerbaydjan v XVIII v. İ vzaimootnoşeniə eqo s Rossiey, Baku, 1965.

Aqaən Ü.P. A.Bakixanov, Baku, 1948.

Azərbaycan tarixi, II cild, Bakı, 1961.

Azərbaycan tarixi, Bakı, 1965.

Aleskerov Ö. K istorii Zakatalğskoqo okruqa pervoy polovinı XIX veka i vosstanie 1863 qö, Avtoreferat... kand. diss., Baku, 1950.

Aliev M.M. Naxiçevanskoe xanstvo i eqo prisoedinenie k Rossii, Avtoreferat... kand. diss., Baku, 1986.

Alkadari Qasan. Asari-Daqestan, Maxaçkala, 1929.

Aşurbeyli SB. Oçerk istorii srednevekovoqo Baku, Baku, 1964.

Baqirova M.M. İstoriə Şekinskoqo xanstva i prisoedinenie eqo k Rossii, Avtoreferat... kand. diss., Baku, 1980.

Bakixanov A.K. Qölistan-İran, Baku, 1926.

Baharlı. «Əhvalati-Qarabağ», II kitab,Bakı, 1981.

Balaən B.P. Mejdunarodnıe otnoşeniə İrana v 1813-1828 qq., Erevan, 1967.

Babaev A. Vıbor puti, Baku, 1984.

Babaev A. Rusiyaya qovuşmaq ərəfəsində, Bakı, 1988.

Baqirova M.M. İz istorii prisoedineniə Şekinskoqo xanstva v sostav Rossii, - İzvestiə AN Azerb. SSR «Seriə istorii, filosofii i prava», 1975, №7.

Baku i eqo okrestnosti, Tiflis, 1891.

Berje A.P. Prisoedinenie Qruzii k Rossii (1799-1831), «Russkaə starina», 1880, may.

Bronevskiy S. Noveyşie qeoqrafiçeskie i istoriçeskie izvestiə o Kavkaze, I-II hissə, M., 1823.

Buşuev S.K. İz istorii vneşnepolitiçeskix otnoşenie v period prisoedineniə Kavkaza k Rossii (20-70-e qodu), M., 1955.

Velikaə drujba azerbaydjanskoqo i russkoqo narodov, I kitab. Baku, 1964.

Qakstqauzen A. Zakavkazskiy kray, I hissə, SPb., 1857.

Qizetti A.A. Sbornik svedeniy o poterəx kavkazskix voysk vo vremə voyn (1801-1885), Tiflis, 1901.

Qriqorğən Z.T. Prisoedinenie Vostoçnoy Armenii k Rossii v naç. XIX veka, M., 1959.

Qubaydullin Q.S. Feodalğnıe klassı i krestğənstvo v Azerbaydjane v XIX v., Baku, 1928.

Qulia D.Q. K istorii vostoçnoqo voprosa (russko-tureükaə voyna 1806-1812 qq. i Anqliə), Suxumi, 1978.

Qraf İvan Fedoroviç Paskeviç-Grivanskiy i eqo deətelğnostğ na Kavkaze v oçerkax armənskoqo istorika, M.Ə.Alaverdənüğ, SPb., 1912.

Djafarli N.Q. İstoriə qoroda Lenkorani v XIX-naç. XX veka. Avtoreferat... kand. diss., Baku, 1985.

Dubrovin N.F. Zakavkazğe ot 1803 do 1806 q., SPb., 1866.

Dubrovin N.F. İstoriə voynı i vladıçestva russkix na Kavkaze, I-IV cild, SPb., 1871-1888.

Əliyev F. XVIII əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərləri, Bakı, 1960.

Əsədov F., Kərimova S. Çarizmi Azərbaycana gətirənlər, Bakı, 1993.

Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair, Bakı, 1989.

Zubov P. Podviqi russkix voinov v stranax kavkazskix s 1800 po 1834 q., SPb., 1835.

İbraqimbeyli X.M. Rossiə i Azerbaydjan v pervoy treti XIX veka, M., 1969.

İvanenko V.N. Qrajdanskie upravlenie Zakavkazğem, - «Utverjdenie russkoqo vladıçestva na Kavkaze», XII cild, Tiflis, 1901.

İqamberdıev M.A. İran v mejdunarodnıx otnoşeniəx pervoy treti XIX v., Samarkand, 1961.

İoannisən A.R. Prisoedinenie Zakavkazğə k Rossii i mejdunarodnıe otnoşeniə v naçale XIX stoletiə, Erevan, 1958.

İskenderova M.S. Azerbaydjano-russkie otnoşeniə konüa XVIII-XIX v. v trudax azerbaydjanskix istorikov xronistov XIX veka. İzvestiə AN Azerb. SSR «Seriə istoriə, filosofiə, pravo», 1988, №2.

İskenderova M.S. Bakinskoe xanstvo i eqo prisoedinenie k Rossii, Avtoreferat... kand. diss., Baku, 1983.

İsmailova Q.N. İstoriə qoroda Şuşi v XIX – naçale XX veka, Avtoreferat... kand. diss., Baku, 1987.

İsmayılov M. Şəki, Bakı, 1982.

İsayev Ə. Gəncə və gəncəlilər, Bakı, 1991.

Kinəpina N.S. Vneşnəə politika Rossii pervoy polovinı XIX v., M., 1963.

Kozubskiy E.İ. İstoriə qoroda Derbenda, Temir xan Şura, 1906.

Kolonialğnaə politika Rossiyskoqo üarizma v Azerbaydjane v 20-60-x qq. XIX v., I hissə, M.-L., 1936.

Leviatov V.N. Oçerki po istorii Azerbaydjane v XVIII veke, Baku, 1948.

Mamedov N.R. İstoriə qoroda Kubı v XIX – naçale XX veka, Avtoreferat... kand. diss., Baku, 1985.

Mamedov F.N. Qorod Qəndja v XIX veke, Avtoreferat..., kand. diss., Baku, 1978.

Markova O.P. Rossiə, Zakavkazğe i medjunarodnıe otnoşeniə v XVIII v., M., 1966.

Mahmud İsmayıl. Azərbaycan tarixi. Bakı, 1993.

Milğman A.Ş. Politiçeski stroy Azerbaydjana v XIX-naç. XX v., Baku, 1966.

Mehdiyev Q. Azərbaycanın Rusiya ilə birləşməsi və bunun tarixi əhəmiyyəti, Bakı, 1952.

Meç S. Kavkaz, M., 1905.

Minasazov Q. Sto let odnoy revolöüii, Baku, 1930.

Mirzə Yusif Qarabaği. «Tarixi safi», Bakı, 1991.

Mirzə Rəhim Fəna. «Tarixi-Cədidi Qarabağ», bakı, 1991.

Mir Mehdi Xəzani. Kitabi Tarixi Qarabağ, Bakı, 1991.

Mustafa Dj.M. Severnıe xanstva Azerbaydjana i Rossiə (koneü XVIII-naç.XIX v.), Baku, 1989.

Nasir Nəcmi. Abbas Mirzə (XIX əsr Rusiya-İran-Azərbaycan münasibətləri), Bakı, 1993.

Nəcəfov T. Azərbaycanın Rusiyaya birləşdirilməsi gedişində xanlıqların ləğvi məsələsinə dair – «Tarix, ictimaiyyət, coğrafiya tədrisi», 1986, №6.

Opisanie Kavkaza, SPb., 1805.

Petruşevskiy İ.P. Djaro-Belakanskie volğnıe obhestva v pervoy treti XIX stoletiə, Tbilisi, 1934.

Petruşevskiy İ.P. Azerbaydjan vo vtoroy polovine XVIII veka – TİEA, inv.747.

Pokrovskiy M.N. Diplomatiə i voynı üarskoy Rossii v XIX stoletii, M., 1964.

Potto V.A. Kavkazskaə voyna v otdelğnıx oçerkax, gpizodax, leqendax i bioqrafiəx, I-III cild, SPb., 1886.

Potto V.A. Pervıe dobrovolğüı Karabaqa v gpoxu vodvoreniə russkoqo vladıçestva, Tiflis, 1902.

Prisoedinenie Azerbaydjana k Rossii i eqo proqressivnıe povledstviəv oblasti gkonomiki i kulğturı, Baku, 1955.

Prisoedineni vostoçnoy Armenii k Rossii i eqo istoriçeskoe znaçenie (sbornik statey), Erevan, 1978.

Rəşid Bəy İsmayılov. Azərbaycan tarixi, Baku, 1993.

Rzaqulu Bəy Mirzə Camal oğlu. Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri, Bakı, 1991.

Römin V.A. Kratkie istoriçeskiy i gtnoqrafiçeskiy oçerki Azerbaydjana – Azerbaydjanovedenie, Baku, 1924.

Sadıqov H. Rusiya-Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi (1787-1829), Bakı, 1991.

Sısoev V. Kratkiy oçerk istorii Azerbaydjana (sev.), Baku, 1925.

Sısoev V. Baku prejde i teperğ, Baku, 1928.

Smirnov N.A. Politika Rossii na Kavkaze v XVI-XIX vv., M., 1958

Trudı obcedinennıy nauçnoy sessii AN SSSR i AN Zakavkazskix respublik po obhestvennım naukam, Baku, 1957.

Fadeev A.V. Rossiə i Kavkaz pervoy treti XIX v., M., 1960.

Xaçapuridze Q.V. K istorii Qruzii pervoy polovinı XIX v., Tbilisi, 1950.

Umaneü S.M. Prokonsul Kavkaza, SPb., 1912.

Cahangir Zeynal oğlu. Müxtəsər Azərbaycan tarixi.

Həsən İxfa Əlizadə. «Şuşa şəhərinin tarixi», Bakı, 1991.

Həsənəli Qaradaği. «Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları», Bakı, 1991.

Şopen İ. İstoriçeskiy pamətnik sostoəniə Armənskoy oblasti v gpoxi eə prisoedineniə k Rossiyskoy imperii, SPb., 1852.

Gülmalıyev M.M. XVIII əsrin son rübü – XIX əsrin birinci yarısında Azərbaycan kəndinin sosial-iqtisadi strüktürü, Bakı, 1989.

Gsadze B.S. İstoriçeskaə zapiska ob upravlenii Kavkazom, Tiflis, 1907.

Gsadze B.S. Letopisğ Qruzii, Tiflis, 1913.

Gfendiev M.M. Prisoedinenie Azerbaydjana k Rossii (1801-1828 qq.), Tarix İnstitutunun Elmi Arxivi (TİEA), inv.№2154.